**SURXAY SUBU**

# NADANLAR DÜNYASI

**"Elm və təhsil"**
**Bakı - 2018**

**Surxay Subu. Nadanlığın dünyası.**
**Bakı, "Elm və təhsil", 2018, 298 səh.**

Əziz oxucu! Oxu ki, kamilləşəsən! Oxu ki, "insan" olub haqqı nahaqdan seçə biləsən,insanlara qarşı münasibətdə həssas olasan! Oxu ki, həyat sənə zor edəndə, yaşamağı və yaşatmağı bacarasan!

Müəllifdən.

Müəllif: Surxay Subu-Surxay Rafiq oğlu Babayev.

**ISBN 978-9952-8176-4-5**

© **Surxay Subu , 2018**

Sübhdən, dağın yüksəkliyindən boylanan günəş şüaları gözlərimizi qamaşdıraraq, biz - uşaqları sanki, “bəsdir yatdığınız” demək istəyirmiş kimi gülümsəyərək,bizi salamlayan günəşə baxmağa vadar edirdi. Başımızı yorğandan çıxarıb, yuvasından boylanan körpə quşlar kimi, günəşə boylanmaq istəyəndə, ılıq və xəfif meh yanaqlarımızı oxşayardı. Yenidən yorğanı başımıza çəkib, mışıl-mışıl yatmaq, gözümüzün acısını almaq istəsək də, örüşə gedən heyvanların mələrtisi bizi yuxulamağa imkan verməzdi. Tez yerimizdən qalxar,maşın təkərinin hava doldurulan rezinindən (yəni kameradan) tikilmiş çarıqlarımızı ayağımıza geyər, təzəcə tövlədən çıxarılmış heyvanları örüşə gedəcək sürüyə qoşmağa çalışardıq. Biz- uşaqlardan qabaq oyanan babalar, tövləni təmizlər, nənələr səhər yeməyini hazırlar, həyətdə qoyduqları samovarı pakqa-pak qaynadardılar. Səhərin gözü açılmamış gəlin-qızlar bulaqlardan səhənglə su gətirər, cavanlar atlarını suvarmağa aparar, kimlərsə gün çıxmamış bostanına qulluq etməyə gedərdi.Körpəlikdən alışdığımız qoyun-keçi mələrtisindən qulaq tutulardı. Heyvanları örüşə aparacaq çoban tez-tez qışqırardı :- ay Yunus kişi, ay Fərzulla, Gülcahan bacı heyvanları köçə qoşun, vaxtımızdan- vədəmizdən gedir. Sonra yalvarmış səslə, sən Allah, ay Mürsəl kişi balaca keçiləri köçə qoşma

bu qaraquşların (yəni qartalın) əlindən lap bezmişəm. Qaraquş demişkən, bir də görərdim kiminsə həyətindən balaca heyvanı caynağına alar, lap yüksəkliyə qalxardı. Kəndə hay-küy düşərdi. Kənd camaatı səs salardılar ki, qaraquşun apardığı balaca heyvan görəsən kimindir?! Handan-hana cıqqılı Fərəc qışqırardı ki, ay dədə keçimizi qaraquş aparer, o dee qaraquşun caynağında keçimiz qıllaner. Fərzulla kişi qəzəblənərək, oğluna çımxırardı ki, ay vələdüznə, bəs sən hara baxerdin, sən ki artıq yekə kişisən?! Çoban da çox hövsələsiz adam idi, heyvanlar köçdən yayınanda,bağırardı, ay dil bilməz heyvan, hara gedersən və əlindəki çomaqla heyvana ilişdirərdi. Gülənbər nənə çox zarafatçıl, bəyzadə xanım idi. Üzünü tutaraq, çobana gülə-gülə deyərdi: - ay Salman niyə səsini camış böyürtüsündən də yekə çıxardersan? Çomaqla vurduğun heyvan dil bilsəydi elə sənin kimi Salman olardı da, day heyvan olmazdı ki... Çoban, Gülənbər nənənin zarafatından inciməzdi, daha da xoşlanardı. Elə ki, heyvanlar kəndi tərk edərdi mələrti, böyürtü kəsilər, tək-tək it ulaşmasını nəzərə almasaq, sakitlik hökm sürərdi. Biz uşaqlar, yumurta, pendir, yağdan əsil çoban dürməyi tutub, isti südü başımıza çəkib, tələsik xırmana vəl sürməyə gedərdik. Əslində biz uşaqların da vəzifəsi var idi. Taxıl biçilər, atların yedəyində olan arabaya yüklənər, xırmana gətirilərdi. Biçilmiş taxılı xırmana səpələyər, öküzlərin yedəyinə alınmış vəllər taxılı, sünbülü əzərdi. Bizim vəzifəmiz isə vəllərin üstündə oturaraq, vəllərin aşmasına, yaxud kənara çıxmasına imkan verməmək idi. Biz əlimizdə

çubuq inəkləri "ho-ho" deyərək tələsdirər, bizdən böyüklər isə bayatı – holavarlar deyərdilər:

Dağların enişi var,
Diki var, enişi var,
Vələ gedən öküzün
Özünün yerişi var.

Vəllərin altında qalan sünbüllərdən, buğdalar öz qabıqlarından ayrılaraq yerə tökülərdi. Vəl işləri qurtarandan sonra, sovurma başlayardı və biz uşaqlar da buğdanın çuvallara yığılmasına kömək edərdik.

Xırmanın aşağısından çox da böyük olmayan çay axardı və çayın kənarında düzəldilmiş novlardan buz kimi axan bulaq suları da var idi. Qızlar –gəlinlər səhəng çiyinlərində bulağa gedər, qayıdan başı xırmanda susamış xırmançıları buz kimi suya qonaq edərdilər. Gəlinlər üzü yaşmaqlı olardılar, qızlar isə öz kişmişi gülümsəmələri ilə,cavanların qəlbinə oxşayar,biz- uşaqlara sataşaraq, zarafatlarından qalmazdılar. Biz- uşaqlar su istəyəndə, qızlar zarafatla, bizə -uşaqlara deyərdilər:-deyin görək hansımızı bəyənirsiniz, hansımızı alacaqsınız? Biz-uşaqlar isə qıpqırmızı qızarar, utanardıq. Xırman işlərimizi qurtarar –qurtarmaz qaçardıq meşəyə, körpə palıd ağaclarını at kimi çapmağa gedərdik. Günorta naharı nədir, bilməzdik. Meşədə əzgil, qara gilə, zoğal, alma, armud, yabanı üzüm istədiyin qədər var idi. Əlimizə nə düşürdüsə aclığımızı öldürürdük. Hələ bağlardakı pamidoru, xiyarı demirəm, əlimizlə iki yerə bölüb iştahla yeyərdik, dadı da, duzu da içində. Bulaqdan bir, az aralıda yerləşən gölməçəyə gedər,

özümüzü gölməçəyə atıb çimər, günə verər, gizlənqaç oynayardıq. Bu gölməçəni də biz yox, yaşlılar düzəltmişdilər,çimərdilər,xanımlar paltarları yuyar, tikanlı çəpərə sərərdilər. Axşam hava qaralana qədər gəzər, sonra evə gələrdik. Bizim evə qayıtmağımız o vaxta düşərdi ki, heyvanlar örüşdən kəndə qayıdardılar. Yenə mələrti-böyürtüdən qulaq tutulardı. Əslində biz uşaqlar, heyvanların örüşdən qayıtmasından ləzzət alardıq. Biz bütün günü meşədə ora-bura qaçar, yorulardıq, aclıq da bir tərəfdən bizi üzərdi. Nənələrin heyvanları sağdığı zaman, çox süd əldə etmək üçün oxuduqları sayaçı bayatılar biz yorğun uşaqları yuxuladardı:

Nənəm ol şişək qoyun,
Yunu bir döşək qoyun,
Bulamanı tez yetir,
Qırıldı uşaq qoyun.

Çalxalanan nehrənin səsi bizi şirin yuxudan oyadardı. Şam yeməyini şad- xürrəm yeyərdik, sonra babaların və nənələrin nağıllarına qulaq asardıq. Tez mürgüləyən uşaqları həyətdə çardağa qaldırardılar və səhərə kimi uşaqlar mışıl-mışıl yatardılar. Mən isə yatmazdım, nağıllardan doymazdım. Tez –tez babama suallar verərdim. Babam da, bildiklərindən məni hali edərdi.Nağıl danışmaqdan yorulan babam, gecdir bala get yat, sabah sübh duracağıq deyərdi. Mən isə çardağa öz yerimə qalxar, yatanlara paxıllıq hissi ilə tamaşa edər, yuxum gəlməzdi. Sayrışan ulduzlar öz sirrli aləmi ilə məni özünə cəlb edər və

mən bu möcüzəli ulduzları seyr edərdim. Birdən ulduzun biri yoxa çıxardı, bu isə məndə yeni bir suala çevrilərdi.

Kəndimizi çox sevirdim. Gözəl təbiəti məni valeh edirdi. Bir dəfə babama sual verəndə ki, niyə qonşu kəndin dağlarında meşə yoxdur, gün vurub otları yandıraraq sap-sarı edib? Babam isə buğaltı gülümsəyərək, kəndimizin tarixçəsini mənə danışardı, nağıl kimi...

Bizim babalarımızın əsli-kökü Şam tayfalarındandır. Onlar bir ucu İraqın Hələb və Şam şəhərindən tutmuş, İrana kimi gəlmişlər. Şahlar zamanı, yəni Şah İsmayıl, Şah Abbas və Şah Təhmasib vaxtında Şam tayfaları böyük hörmət-izzət sahibi olmuşlar. Teymurləng vaxtında Şam tayfaları, demək olar ki, Araz çayının kənarınadək yurd salmışlar. Həmin yurdlardan biri də, Aşıxlı kəndi olmuşdur. Şamlılar əsasən maldarlıq, sonradan əkinçiliklə məşğul olmuşlar. O zaman bizim babalarımız yaşamaq üçün, çayı- suyu olan otlaq yerlər axtararmışlar. Belə yerlədən ən yaxşısı bizim kəndimiz olmuşdur. Hər tərəfdən meşə və qayalarla əhatə olunan, üç tərəfində buz kimi bulaq, aşağı hissəsində axar çayı olan bu kəndin bünövrəsini şamlı babalarımız qoymuşlar. Kəndin adı, elə təbiətin kəndə bəxş etdiyi şəfaverici bulaq sularından götürülmüşdür. Bu torpağa ayaq qoyan ağsaqqal Şamlı, buz kimi bulaq suyunu içərək, bax övladlarım əsil yaşamalı yer buradır,əlindəki əsanı yerə qoyaraq, göstərmiş və demişdir. Kəndin adını qoydum: "Su bu". Və mən, ağsaqqal Şamlı babamı böyük qürur hissi ilə göz önünə gətirər və əsasını qoyduğu bu gözəl kənddə, şirin yuxuya gedərdim.

Səhərləri yenə sübhdən oyanar, heyvanlarımızı örüşə ötürər, səhər yeməklərimizi yeyib, yenə xırmana gedərdik. Xırmanda sovrulmuş buğdanı toplayar, bir neçə müddət günün altında qurudar, sonra isə çuvallara yığılmasina köməklik edərdik. Böyüklərimiz çuvalları atlara yükləyərək, qonşu kənddəki dəyirmana aparardılar. Həmin müddətdə bizlik iş olmazdı, biz uşaqlar yığışaraq, gündüzlər meşəyə gedər, körpə palıd ağaclarında yellən-küflan edərdik. Uşaq dünyası olduqca macəralı, düşündürücü olardı. Mərcləşərdik ki, meşənin yüksəkliyinə qalxaq və əlimizi göyə toxunduraq. Qan-tər içində yüksəkliyə qalxardıq, ancaq əlimiz göyə çatmazdı.Kor-peşman bir-birimizə baxaraq,təccüblə fikirləşərdik, göy nə qədər uzaqdadır ilahi! Bədbinləşərdik, axı niyə əlimiz göyə çatmır,görəsən?! Digər vaxtlarımızda,böyüklərə köməyimiz lazım olmayanda, xırmanın aşağısındakı böyük palıd ağaclarına dırmaşar və kəndə gələn yola baxardıq. Yol demişkən, yeddi–səkkiz dağ dolaylarından ibarət idi. Kənd əhli bu yol dolaylarına – yolaşan deyərdilər. Mən uşaq olanda atamın kəndə gəlişini səbirsizliklə gözləyərdim. Atam boy-buxunlu və iri cüssəsi ilə kənddə hamıdan seçilərdi. Əlində,qamışdan düzəldilmiş sarı səbət zənbili olardı, bilərdim ki, kəndə gələn atamdır. Qaçardım atamı qarşılamağa. Yeddi-səkkiz dağ dolaylarını, iti addımlarla gələn atam, məni kəndin girəcəyindəki künbəzdə haqlayar, iki qüvvətli qollarını açaraq, gəl "qucuma"- deyərdi! Dünya mənim olardı! Sevincimin həddi-hüdudu olmazdı! İndi,

atam xəstə idi. Biz babamızın evində qalırdıq. Öz evimiz, artıq dağılmışdı...

Meşədə oynadığımız yerlərdən biri də Gülləli, Qəhrəman dərələri idi. Bu adların özü belə, məndə suallar yaradardı. Babam, nağıl axşamlarının birində, qabarlı əlləri ilə başıma sığal çəkərək,deyərdi:- sən ağıllı nəvəsən, hər şey səni düşündürür, maraqlandırır, tez-tez sual verirsən. Bax mənim ağıllı nəvəm, sənə danışmışam ki, biz Şamlı tayfalarıyıq. Şamlılar çox məğrur, yadlara baş əyməyən, qeyrətli adamlardılar. O zamanlar, Şura hökuməti öz yaraqlılarını bizim kəndə göndərmişdilər ki, kənddə Şura hökuməti yaratsınlar. Şura hökuməti haqqında məlumatı olmayan kəndin igid oğlanları, yaraqlılara qarşı çıxmışdırlar. O vaxt atışma olmuş, çoxlu adam qırılmış, yaraqlılar çəkilib getmişlər. Vuruşma olan dərəyə, kənd əhli- “Gülləli” adı vermişlər. Bir müddət sonra, yaraqlılar daha böyük gücnən kəndə hucum etmiş bu səfər də, çoxlu yaralanan və ölənlər olmuşdu. Şamlılardan da ölən və xəsarət alanlar az olmamışdı. Sonralar vuruşma gedən həmin dərəyə də,- “Qəhrəman” dərəsi adı vermişlər. Kənd camaatı Şurəvinin “kolxozunu” da heç vaxt qəbul etməmişdilər. Heç kim istəmirdi ki, öz heyvanlarını və torpağını “kolxoza” versin. Sonralar, müharibə başlayanda kəndin bütün kişilərini yığıb, müharibəyə apardılar. Kəndimizə isə, əksəri qadın və uşaqlardan ibarət olan Rusları yerləşdirdilər. Bəli, mən belə bir qəhrəman, gözəl təbiəti olan kənddə- müharibənin qurtarmasının, on illiyində dünyaya göz açmışam. Anam deyərdi ki, sən

ağappaq, kök, qəşəng bir uşaq idin. Göbəyini isə rus qadın Yelən Simən (yəqinki, Yelena Semyonovna) kəsmişdi. İki yaşım olanda, anamın dediyinə görə, ayaq üstə yeriyə bilməmiş, iməkləməyə başlamışam. Ayaq üstə gəzmək istəsəm də, ağrılar imkan verməmiş və iməkləməyə meylli olmuşam. Çünki iməkləyəndə ağrıları hiss etmir və ağlamırmışam. O vaxt kənddə həkim olmadığından, ancaq ara həkimi olan- yaşlı nənə var imiş, həm də ağır seyid imiş. Yaşlı nənə məsləhət görüb ki, məni rayona, xəstəxanaya aparsınlar. Rayon xəstəxanasının həkimləri, bel fəqərəsinin zədələnməsi diaqnozunu qoymuş və Bakıya aparılmasını məsləhət görmüşlər. Anam məndən balaca qardaşıma baxdığından, atam xəstə olduğu üçün, Bakıya xəstəxanaya dayım aparmışdır. Xəstəxanada yatdığım müddətdə məni yoluxan olmadığından, yiyəsiz bilərək "morqa" yerləşdirmişlər. Mən tez-tez ağlayarkən, indiyə kimi sifətini yadımdan çıxarmadığım və dilini başa düşmədiyim bir qadın başımı sığallayaraq, ağzıma yemək qoymuş,su vermişdir. Anam tez-tez ağlayarmış ki, uşağı gətirin və dayımdan məni gətirməyimi tələb edərmiş. Nəhayət dayım Bakıya xəstəxanaya gəlib ki, məni aparsın. Mənim "morqa" verildiyimi öyrənəndən sonra, bərk qəzəblənmişdi. Mənə yemək və su verən qadın, mənim ölmədiyimi dayıma bildirmişdi. Dayım xəstəxanada haqsızlığa qarşı çıxmış və mənim xəstəxanadan evə yazılmağımı tələb etmişdi. Həkimlər təzədən belimi gipsə qoyub, məni dayıma təhvil vermişlər. Anam deyərdi ki, gipsdə olanda ağlayardın, ona görə dözməyib gipsi bıçaqla kəsərək, tulladım. Ancaq sən

yenə də düz yerimirdin, önə əyilərək gəzirdin. Sonralar əsasən, yaz-payız vaxtı "qanqaynıyan" dövrü məni ara həkimi- Tamam nənənin yanına aparmışlar. Tamam nənə ülgüclə belimi çərtər, sonra banka qoyarmış. Yadımdan heç vaxt çıxmaz, belimi ülgüclə çərtən zaman, mən dözməyib ağlayardım. Tamam nənə isə, mənə de görüm nənəyə nə alacaqsan? Mən isə ağrıdan, ağlamaqdan özümü güclə saxlayar "qiybişim"(qirbişim parça) deyərdim. Nənə isə, ay sağ ol, mənim balam, indi bankanı da qoyum, "uf" olmasın –deyib,könlümü alardı. İllər keçməsinə baxmayaraq, hələ də ülgüclə çərtilmiş yerlər, belimdə qalmaqdadır. Hər yaz – payız vaxtları, çərtmələr təkrar olunardı. Anam deyərdi ki, sonralar belin "cəviz" boyda yumurlandı və sən bir daha ağrılardan xilas ola bilmədin! Həmin vaxtlardan etibarən, eşitmə qabiliyyətim də çox zəif olmuşdu. Çox zamanlar məni "səhlənkar" adlandırırdılar. Nənəm isə deyərdi ki, sən özünü bil-bilə karlığa qoyursan, sərf olunanı eşidirsən, sərf olunmayanı yox. Mən isə, nənəmə gülümsəməklə "nə bilim"-deyərdim.

Kənddə 4 illik məktəb var idı. Cəmi 10-12 şagird təhsil alırdı. Birinci sinifdən 4-cü sinfə qədər, bu 10-12 şagird Bir darısqal otaqda dərs alırdılar. Kənd məktəbində oxumaq istəsəm də, xəstəlikdən sağalıb qayıdan atam, bizi qəsəbəyə köçürüb, mənim qəsəbədə məktəbə getməyimə səbəb oldu. Qəsəbədə, bibimgilin yüksək dağ ətəyində evləri var idi. Həmin evlə qabaq-qabağa kiçik dağ döşündə atam yer götürüb bir otaqlı şəraiti olmayan ev tikdi. Mən isə birinci sinifə getməli oldum. Qəsəbə səliqəli, axşamları

çox işıqlı olardı. Bütün bunlara baxmayaraq, kəndimizi-onun meşələrini, tərnəvidini, almalısını, Vənni bulağını, Mis gölünü, mənzərəli şəlaləsini unuda bilmirdim. Ən çox mənə təsir edən isə, Balış armudunun kölgəsində oturaraq,hinduşqaları çəyirtkə ilə yemləməyimi, xəyalımda canlandırardım. Müəlliməmiz tez-tez a bala, dərsinə bax, fikrin hardadır, sənin- deyərdi. Elə bilərdim bütün uşaqlıq dünyamı əlimdən alıblar, üstəlik babamın söylədikləri nağılları unutmaq mümkün deyildi. Axşamlar bibimgildə oturardıq, atam paravozdan həvəslə danışar və bu dəm, gözləri yaşla dolardı. Atam paravozda işləyərkən,onun olduğu parovoz, qarşıdan gələn paravozla toqquşmuş, oturduğu yerdən başı üstə relsə yıxılmış və huşunu itirmişdi. Həkimlərin verdiyi rəyə görə, atamda beyin silkələnməsi baş vermişdi. Atama əlillik dərəcəsi verilmiş və həmişəlik paravoz işindən azad olunmuşdu. Atama digər, məsul işlər verilsə də, xəstəliyi işləməyə imkan verməmişdi. Atam tez-tez əsəbləşirdi. Bu əsəbləşməkdən anam çox əziyyət çəkər və qorxu hissi keçirərdi. Beləcə atamın xəstəliyinin şiddətləndiyi bir dövrdə, anam məndən kiçik iki balaca qardaşımı götürüb, kəndə- atası evinə getmişdi. Mən isə, xəstə atamla tək qalmışdım. Mən artıq müəyyən qədər yekə idim. Atamla dil tapıb, yola gedə bilirdim. Əslində, atam məni çox istəyirdi, məni heç vaxt incitməzdi. Tez –tez anamdan danışardı və deyərdi ki, Allah qoysa pensiyamı alım, səni aparacam ananın yanına, sonra hamımız gələcəyik Qəsəbəyə - evimizə. Bir gün atam gəldi ki, pensiyamı almışam, biraz meyvə, bir də qardaşına

köynək götürdüm, hazırlaş, gedək kəndə. Atamla, mən tərki-piyada olub yola düşdük. Kənd dolaylarına çatmamış, meşədə atamın ürəyi getdi. Su lazım idi, ancaq su heç yerdə yox idi. Su ilə atamın alnını , dodaqlarını yaş dəsmalla silmək istəyirdim. Atamın ürəyi gedəndə, qocamın belə etdiyini görmüşdüm.Birdən, atamın aldığı meyvələrdən- üzüm, gözümə dəydi. Üzümü əzib, suyunu atamın alnına, üzünə vurdum, ağzındakı köpüyü, dəsmalla sildim. Atamın tez oyanması lazım idi,çünki hava qaralırdı! Qəflətən, fısıltı eşidib, kənara baxanda, böyük bir qara ilan gördüm. Zənbil əlimdə,qorxumdan qalxdım atamın üstünə, səsimi çıxartmadım. İlan haça dilini tez-tez çıxardaraq, ətrafımıza fırlandı və sürüşüb getdi. Qupquru qurumuşdum, qorxudan özümü tamam itirmişdim. Handan-hana atam gözünü açıb, mən niyə yerdə uzanmışam- deyə, məndən soruşdu?Özümü bir təhər ələ alıb, hə:- ata yorulmuşduq, elə ikimiz də dincəlmək üçün uzandıq,yuxu da bizi aparıb. Mənə elə gəldi ki, atam özünün ürək getməsini bilir, çünki qayğılı nəzərlərlə mənə baxıb, başımı sığalladı və sonra yaxşı ki, sən varsan,- dedi. Artıq hava qaralırdı, kəndə çatmağa az qalmışdı. Atam kəndin girəcəyindəki künbəzə daxil olub, nəzir qoydu və biz kəndə qalxmağa başladıq. Xırmanın yaxınlığında atam zənbili mənə verib, sən anan gilə get, mən də gələcəm,məndən narahat olma,-dedi. Mən,təsadüfən xırmanda məndən iki yaş balaca olan qardaşımı gördüm, ancaq o yoxa çıxmışdı. Babamın həmişə nağıl danışdığı evə yaxınlaşdım. Tikanlı çəpərdən olan darvazanı açmaq

istəyirdim ki, babam məni qabaqladı,əlində də tüfəng. Babam məni qucaqlayıb üzümdən öpdü və tələsik soruºdu, atan hanı? Babama dedim ki, atam məni xırmandan yola saldı, özü isə kəndə getdi. Evdə anamı və qardaşlarımı görmədim. Anamı soruşdum, babam dedi ki, indi gələr?! Mən başa düşdüm ki, qardaşım atamı görən kimi, qaçıb evə xəbər verib, anam və qardaşlarımı qonşuda gizlədiblər, onun üçün də, babam tüfənglə darvazanı kəsdirib. Birazdan anam və qardaşlarım gəldilər. Mən hönkür-hönkür ağlayaraq, anama, niyə məni atıb getmisən, bəs mən sənin oğlun deyiləm?- deyərək, iradımı bildirdim. Mən göz yaşları içərisində, paxıllıq hissi ilə kiçik qardaşlarıma baxıb, ürəyimdən keçəni, dodaqaltı pıçıldadım – analılar! Əslində mənim dünyamda qardaşlarım da atasız idilər!

Evdə bərk gərginlik hökm sürürdü. Anam atamın qəfil gəlişindən ehtiyatlanırdı. Mən isə səbirsizliklə atamın gələcəyi anı gözləyirdim, ac- susuz olsam da, heç kimdən yemək istəmədim. Babam darvazanı bərk bağlayıb, itin zəncirini açmış və həyətə buraxmışdı. Xeyli vaxtdan sonra, it bərkdən hürməyə başladı, kimsə babamı çağırırdı:-ay Yunus kişi,bir bayıra çıx?!Babam bizi sakit edib,tüfəngini götürərək,qapını kilidlə bağlayıb bayıra çıxdı. Mən "səhlənkar" olsam da, babamın dediyi- mənim "dəliyə" verəcək qızım yoxdur, kəlməsini eşitdim. Həmin gecəni o qədər ağladım ki, göz yaşlarım yastığımı islatmışdı. Mənim analı-atalı dünyam, puç olmuşdu. Səhərisi babam bildirdi ki, qorxmayın "dəli" maşına oturub, Qəsəbəyə getdi. Bütün gecəni ağladığımdan,elə bil məndə toxluq yaranmışdı,

çünki atasız olacağıma şübhəm qalmamışdı. Anam soruşdu ki, bəs məktəbin nə olacaq, kitab dəftərini də gətirməmisən?!

Kənddə hamı bir-biri ilə qohum idi. Məktəb müdiri də atamın yaxın qohumlarından olduğundan, mənim məktəbdə dərs almağıma şərait yaratdı. Üzü qışa doğru gedirdi. Havalar bərk soyumuşdu. Kəndin yüksəkliyindəki, şiş qayalar qarla örtülmüşdü. Torpaq isti olduğundan kəndə aram-sıram yağan qar əriyir, yolları palçığa çevirirdi. Atamın anası, yəni qocamdan anama məktub gəlmişdi ki, ərinin xəstəliyi həddindən artıq pisləşdiyi üçün, Bakıya-xəstəxanaya aparıblar. Anam və qardaşlarım Qəsəbəyə getmədilər. Məni isə,məktəbimi davam etdirmək üçün Qəsəbəyə yola salıb kəndin paçtalyonuna qoşdular. Kəndin paçtalyonu məni yekə xurcuna qoydu. Çünki at belində mən sükunətimi saxlaya bilmirdim. Xurcunda mən ağrılarla, əzilmiş-büzülmüş şəkildə Qəsəbəyə gəldim. Qocam məni gözü yaşlı qarşıladı, mən isə demək olardı ki, özümdə deyildim. Qocam paçtalyonla sağollaşanda, paçtalyonun qocama dediklərini eşitdim:- “Ay bacı, şikəstin yiyəsi olmaz, o uşağa yaxşı bax!” Mən bu sözdən qəhərləndim. Qocam hiss etdi ki, mənim “səhlənkar” qulağım, paçtalyonun dediyin çalıb. Məni azdırmaq üçün başladı ki, sən məktəbi yarımçıq qoymusan, o da deyir ki, yaxşı bax ki, məktəbini oxusun. Mən qocama baxıb, heç nə demədim. Qocamın da, atamın da, məni çox istədiklərini bilirdim. Axı, mən atamın atasının, qocamın rəhmətə getmiş ərinin adını daşıyırdım, həm də vaxtı ilə NKVD-də

işləmiş rəhmətlik babama çox oxşayırdım. Qocamla evə gəldik, məni yaxşıca yedirtdi və mən yorğun, ağrılı olduğumdan bərk yuxuladım. Sabahısı qocam məni məktəbə apardı. Müəllimə başıma sığal çəkərək, qabaq cərgədə oturtdu. Dərs qurtarandan sonra məni məktəb müdirinin yanına apardılar, təmin olunmayan ailə övladı kimi, məktəbli paltar dəsti verdilər.Dərslər qurtaranda, qocam gəlib məni öpərək dedi ki:- bax məktəb sənin qayğına qalır, hətta sənə məktəbli forması da verdilər. Məktəbli dəsti xoşuma gəlmişdi. Boz şalvar, köynək və dimdikli papaqdan ibarət idi. Səhərisi məktəbli formasını geyinib, məktəbə getdim. Sinifdə məndən başqa, heç kimdə elə məktəbli dəsti yox idi. Tənəffüs vaxtı uşaqlar bir yerə yığışıb, mənə baxaraq pıçıldaşırdılar. Yetimdi, ona görə paltar veriblər, digəri isə hə- düz deyirsən, bu məktəbli dəstini yetimlərə verirlər-deyə, təsdiqləyirdi. Bir başqa qız isə, qızlar nə danışırsınız, atası xəstədi, Bakıda xəstəxanada yatır?!Bildiyim qədər anası iki uşaqla kəndlərindədir,bunu qocası saxlayır! Dərslərin necə keçdiyini bilmədim. Bayıra çıxıb qocamla evə gəldik. Məktəbli dəstini əynimdən çıxarıb, kənara atdım. Bir daha, o paltarı geyməyəcəyimi, qocama dedim! Qocam heç nə demədi və harayasa getdi. Birazdan qayıdan qocam, əlindəki zənbildən təzə paltarları çıxardıb mənə verdi. Sevindiyimdən qocamı qucaqlayıb bərk öpdüm.

Qocam çox həssas və dünyagörmüş idi. O savadlı, həmişə vəzifədə olmuş, at belində gəzmiş köhnə kommunistlərdən idi. Mənim qürurumu hiss etmişdi və

sonra, sən eynən babansan ki varsan demişdi! Qəsəbədə orta məktəbin 4-cü sinfinə keçmişdim. Qocamla bərabər axşamlar yuxumuz gələnə qədər, bibimgilin evində dərslərimi hazırlar, bağda oynayar, bəzən tənha oturub, Qəsəbənin sayrışan işıqlarını seyr edərdim. Kəndimizdə ancaq, piltəli çıraq yandırardılar. Kənddə heç avtomobil də yox idi. Qəsəbədə çoxlu maşınlar, paravoz, teplovoz, hətta "əyriplanın"(aeroplan) uçduğunu da, ilk dəfə görmüşdüm.Əyriplanı ilk dəfə gördüyümdən qorxumdan qaçıb evdə gizlənmişdim,belə!

Bibimgilin həyətindən baxanda, şiş qayalı dağlar görsənirdi. Qocama deyirdim ki, niyə məni şiş qayalı dağlara aparmırsan? Qocamsa, ay mənim balam, gördüyün o dağlar, Azərbaycan adlı- böyük bir məmləkətin, bir hissəsi və mənim ayrı düşdüyüm Şamlı tayfalarının yaşadığı bir "ərazidir". Beləcə uşaq xəyallarımı gerçəkləşdirmək üçün beynimdə yüz cür macəralar düşünərdim. Qəsəbə də, öz gözəlliyi ilə məni ofsunlamışdı. Bütün bu xəyallar aləmi, məni ilk misralarımı yazmağa vadar etmişdi:

Bibim gildən baxsan əgər,
Al- işıqdır qəsəbəmiz.
Mən deyərəm, İrayona
Yaraşıqdır, Qəsəbəmiz.

Gecəni bibimgildə qalmağı arzulayırdım, ancaq qocam qoymurdu. Mənim daxmada qalmamağımın əsas səbəbi, evdə qırmızı ilanların sürünməsi idi. Çox qorxurdum. Qocam isə mənə:- ay balam- bu ilanlar, ev

ilanlarıdır, çalan deyil, qorxma, gözünü yum, yat! Bir müddətdən sonra, ilanlara ev heyvanı kimi baxır və fikir vermirdim.

Artıq payız idi. Yarpaqlar öz yaşıl donunu tökmüş, sarı libasını geyinmişdi. Axşamlar dərslərimi oxuyar, ata – anamı, qardaşlarımı xəyala gətirər və bədbinliyə qapılaraq, gözümdə gilələnən göz yaşlarımı, qocamın baş dəsmalı ilə silərdim. Axşamın qaranlığında, lampa işığında, itlərin qorxunc hürüşü altında, daxmamıza gələrdik. Qocam başını yastığa atan kimi, xəfif bir xorultu səsi ilə yuxuya gedərdi. Mən isə yatmazdım! Tavanda, millərin arasında sürünən, bəzən də bizə baxaraq haça dilini göstərən ilanlara baxardım. İlanların bir–birinə necə sarmaşdıqlarını görüb, onların bu xoşbəxtliklərinə qibtə edərdim. Hərdən düşünərdim, görəsən ilanlar hiss edirlərmi, bu daxmada yaşayan qoca və nəvə xoşbəxt deyillər?! Hiss edirlərmi görəsən, qocamın şah silahdaşı olan həyat yoldaşı çoxdan dünyasını dəyişib, qocamı dünyasız qoyub, oğlu sağalmaz xəstədir?! Görəsən hiss edirdilər ki, bu çəlimsiz, xəstə uşağın, xəstə atası uzaq bir şəhərdə, xəstəxanada hansı fikirlərlə yaşayır, anası və qardaşları necə ömür keçirirlər?! Yəqin ki, hiss edirdilər,ona görə də bizə mehribancasına baxır və toxunmurdular. Bu acılı-şirinli xəyallarla özüm də duymadan, yuxuya gedərdim.

Günlərin birində, səhər ala-toran, qapımız bərk döyüldü. Qocam tələsik durub qapını açdı. İnanılası deyildi, qapıda atam dayanmışdı, gülümsəyərək! Hündür boylu, iri cüssəli atam! Gecə-gündüz xəyalımdan çıxmayan

atam! Qocam:- oğlum deyərək, atamı bağrına basdı! Atam isə, ay nənə məndən narahat olma, daha sağalmışam və onu,özündən çox sevən anasını bərk-bərk qucaqlamışdı. Mən donub yerimdə qalmışdım. Elə bilirdim ki, yuxu görürəm. Atam məni qucağına alıb bağrına basdı və uzun müddət buraxmadı. Qocam sevincək idi, acsan bala? – deyə, dilləndi. Yox ana, çay olsa, içərəm!- dedi. Atam, bəs uşaqlar hanı?- deyə, soruşdu. Atam xəstə olsa da, anasına hörmət bəsləyərdi. Heç vaxt qocamın yanında arvad adını çəkməzdi. Uşaqlar deyəndə, anamın da adı hallanardı. Qocam susdu. Çay hazırlayım,- deyə samovarı həyətə apardı. Atam mənə baxıb, bəs sən niyə yekəlmirsən , elə balaca qalmısan? Mən çiynimi yuxarı qaldıraraq, nə bilim?- deyə, cavab verdim. Atamın bu sualı, məni bərk tutdu. Doğrudan da, mən niyə yekəlmirəm? Sinifdə, boyca hamıdan balaca mən idim. Ona görə də, ön partada otururdum. Çox istəyirdim ki, boyum hündür olsun, atam kimi.... Atamın gəlməsini, təngnəfəs bibimə çatdırdım. Bibimgildə toplaşıb, atamın gəlişini qeyd etdik. Atam anamla, qardaşlarımla yenidən maraqlandı. Kənddə qaldıqlarını bildi və kəskin bir şəkildə, ailəni kənddən Qəsəbəyə gətirmək lazımdır!-dedi. Atam danışanda baxdım ki, əlləri əsəbindən əsir. Qocam isə, sakitlik yaratmağa çalışırdı. Bir müddət belə yaşadıqdan sonra, atamın əsəblərinin gərginləşdiyini görən qocamın, daxmamızı tərk edib bibimgildə yaşaması, yenidən məni atamla tək yaşamağa məcbur etdi. Atam məktəbə gəlib məni evə aparmaq istəyəndə, müəllimlər məni atamdan gizlədər,

sonra qocama təhvil verərdilər. Günlərin birində qocam mənə, kitab dəftərini götür, səni mindirim maşına, get ananın yanına, atan özünü yaxşı hiss etmir!- dedi. Mən tərəddüd içərisində idim. Axı, atamla qucaqlaşıb mışıl-mışıl yatardım. Atam mənsiz özünü necə hiss edəcəydi, mən ki, onun sevimli balasıydım?! Bir tərəfdən də, anamı, qardaşlarımı heç vaxt unuda bilmirdim. Qocam mənim tərəddüdümü görüb:- mənim balam, başqa çarəmiz yoxdur, getməlisən ananın yanına! Axşama yaxın, qocam məni yük maşınında əyləşmiş bir qadına tapşırdı. Sonra məni bərk-bərk öpərək, gözdən itdi. Birdən, maşından aralı atamı gördüm, xalaya bildirdim ki, atam yəqin məni görüb, üzü maşına tərəf gəlir?! Xala deyəsən tədbirli idi, gəl gir çuvala-dedi, mən də üstündə oturum. Mən qorxudan razılaşdım. Çünki atam bilsəydi ki, mən ondan qaçıram, məndən qırılar, qocamı cəzalandırardı. Atam maşına yaxınlaşıb soruşdu ki, oğlumu görməmisiniz? Xala da bildirdi ki, yox-burada uşaq olmayıb! Mən çuvalın içində sakitcə çombəlib, ağrılarıma bir təhər dözərək, nə vaxt çuvaldan çıxıb rahat nəfəs ala biləcəyim anı gözləyirdim?! Nəhayət maşın tərpəndi. Biraz aralandıqdan sonra, məni çuvaldan çıxartdılar. Qadınlardan biri atamı tanımışdı, mən çuvaldan çıxanda, məni qucaqlayıb öpdü. Babam gilin qonşusu Mələk xala idi. İki əllərini dizinə vurub, hayıf səndən oğlan!- dedi. Ay bacı, atası (atamın atası) paqonlu, at belində,silah qoburası belində olan bir kişi idi! Bu ailənin başına gör nələr gəldi, heç adam inanmaq istəmir?! Çörək verən olublar, kimsəyə də pislikləri dəyməyib. Mələk xala

zənbilini açıb, qarğıdalıdan bişmiş şirin fətiri mənə uzatdı, al mənim balam, al ye, yəqin ki, acsan?!

Maşın kəndə çatanda, hava qaralmışdı. İtlərin hürüşündən başqa, heç bir səs- küy yox idi. Mələk xala əlimdən tutub, məni babamgilə apardı. Yol boyu düşünürdüm:- görəsən anam, qardaşlarım nə edirlər? Mələk xala babamgilin qapısını döyüb, anama hal-qaziyəni danışdı. Anam məni qucaqlayıb ağladı və talehindən şikayət etdi?! Kiçik qardaşım məni tanımadı. Ortancıl qardaşımla, qucaqlaşıb görüşdük. Babam evdə yox idi. Baramanı təhvil vermək üçün rayona getmişdi. Evlər təzəcə tut yarpağından və barama saplağından təmizlənmişdi. Bir-iki gün dincəldikdən sonra, kənd məktəbində dərslərimi davam etdirməyə başladım. İlk əvvəllər çətin idi, sonra alışdım.

Artıq, babam bizi meşədən odun yığmağa aparırdı. Ortancıl qardaşım əsl kənd adamı idi. Atı- odunla yükləmək, çatıyla bağlamaq,bütün bunlar mənə qəribə görsənirdi. Çay qırağında, babamın böyük bostanı var idi. Tez-tez bostana gedib, babam dediyi və bizim gücümüz çatdığı işləri görərdik. Qardaşım boyca məndən böyük olmuşdu və cüssəli idi. Bir iş görəndə, babam ağır işləri qardaşıma, yüngül işləri mənə verərdi. Bu məni qane etməzdi, axı yaşca mən böyük idim! Qardaşım mənim incikliyimi görüb, qaldırdığı yükü yerə atar və deyərdi ki, al qaldır görüm? Əlbəttə ki, mənim gücüm çatmazdı, üstəlik də ağrıyardım. Qardaşımın yanında mən yarasız bir adama çevrilirdim və özümü pis hiss edirdim. Günlər tez-

tez ötüşür, biz qardaşımla bulaqlara gedir, Mis gölündəki şəlaləyə tamaşa edirdik. Çox xoşlamadığım isə, qardaşımın ilanın koramal növünü tutaraq incitməsi olurdu. Mən onu qorxutsam da, o daha da sərtləşir, ilanlarla daha sərt rəftar edirdi. Babamın ov tüfəngini götürər, quş yuvalarına qalxan zəhərli ilanlara güllə atardı.

Bəli, qardaşım çox böyümüşdü. Babam daha əvvəlki vaxtlarda olduğu kimi, nağıl danışmazdı. Səhərdən gedərdi qonşu kəndə, axşamlar havalar qaralanda qayıdardı. Beləcə, 4-cü sinifi başa vurdum. Kənd məktəbi 4 illik məktəb olduğundan qonşu kəndə məktəbə getməli idim, ancaq bel ağrılarım imkan vermədiyindən, mütləq qəsəbəyə gedib dərslərimi davam etdirməliydim. Belə bir vaxtda qocamdan məktub gəlmişdi. Qocamın yazdığına görə, atamı daha həmişəlik Bakıya xəstəxanaya aparmışdılar. Atam hələ xəstəxanaya getməmişdən qabaq, qəsəbədə atama bir otaqlı ev vermişdilər. Babam bizim hamımızı köç edib, Qəsəbəyə gətirdi. Otaq darısqal olduğundan, anama kömək olsun deyə, ortancıl qardaşımı özü ilə kəndə qaytarmışdı, həm də qardaşım babamın çox işinə yarayırdı.

Məni beşinci sinifə qəbul etmədilər. Məsləhət oldu ki, 4-cü sinifi yenidən oxuyum. Mən başı bəlalı, yenidən 4-cü sinfə getməli oldum. Beləliklə, Qəsəbəli günlərim yenidən başladı. Qəsəbə uşaqları ilə birgə çilingağac oynayır, çiləmə vurur və yaxud göllərdə çimməyə gedirdik. Qəsəbədə böyük dəmiryolu stansiyası olduğundan, Azərbaycanın bütün bölgələrindən-bir ucu Qazax, digər ucu Naxçıvan,

qəsəbəyə işləməyə gəlirdilər. Bununla bərabər, ruslar daha çox idilər və paraxlarda əsasən, onlar yaşayırdılar. Uşaqlıq vaxtlarında ən çox münasibətdə olduğum, rus Lidanın oğlu Vova idi. Çərşənbə bayramlarında mən Vovanı evimizə dəvət edər, o isə öz bayramlarında məni evlərinə qonaq aparardı. Mənə maraqlı gələn isə,onların bayramlarında səməninin olmaması idi. Yumurta boyayardılar, müxtəlif şirniyyatlar olardı, ancaq səməni olmazdı. Mən Lida xaladan, bəs sizdə niyə səməni yoxdur?- soruşanda o susmağa üstünlük verərdi. Sonralar Vova, qəflətən dünyasını dəyişdi. Bir dost olaraq, onu itirməyim mənə çox pis təsir etdi. Çox vaxt rusların yaşadığı paraxın qarşısında qoyulmuş oturacaqda oturan, yaşlı rus qadınları məni kartda "duraka" oynamağa dəvət edirdilər. Mən rusca bilmədiyimdən, onlar Azərbaycan dilini sındıraraq mənimlə həm-söhbət olurdular. Kart mənim olduğuna görə, yaşlı rus qadınları Karib "kartı ket katır "duraka"- deyə, son sözü əlləri ilə başa salardılar, bu da məndə gülüş yaradardı. Qəsəbədə rus məktəbi də mövcud idi. Qəsəbədə istənilən dialekt və ləhcə danışığına rast gəlmək olardı. "Ciyim" dən tutmuş, "a bəəə nə oldu"- ya qədər, ləhcələrə rast gəlinirdi. Bütün bu ləhcələrin içində bizim kəndin ləhcəsi daha şirin idi. Bununla bərabər, qəsəbədə ədəbi dil formalaşmağa başlamışdı. Qəsəbə camaatı dar günlərində bir-birlərinə daha çox kömək olardılar. Rayonda yaşayanlar qəsəbəyə bir növ "bombey", yəni şuluq yer kimi baxardılar. Rayon mərkəz sayılsa da, Qəsəbənin daha müasir insanları ilə müqayisədə, fərqli dünyagörüşə malik idilər. Mentalitetə

gələndə isə, Qəsəbəlilər elə də sakit deyildilər. Məsələn, stansiyada şuluqluq edən sərnişinlərin cəzasını, daha sərt verərdilər. Çox vaxt qatar beş-on dəqiqə dayandığı zaman, Qəsəbənin adını eşidən sərnişinlər qorxularından vaqondan bayıra çıxmazdılar, ən çox ermənilərə dəhşət tutardılar. Guya, beynəlmiləl olan rayon mərkəzinin məmurları tədbir görmək istəsələr də alınmazdı. Qəsəbədə Növruz bayramı şənliyi elə keçirilərdi ki, sevincimizin həddi hüdudu olmazdı. Kəndirbazlar rus paraxlarının qarşısında oyunlarını nümayiş etdirər, kosalar baməzə hərəkətləri ilə, biz- uşaqların sevincinə səbəb olardılar. Cavanlar at belində gərdiş edərdilər,qızlar əllərində novruzun gəlişini göstərən səmənini gəzdirər, sonra da yallı gedər, müxtəlif novruz oyunlarını nümayiş etdirərdilər. Novruz bayramının təşkilatçısı ədəbiyyat müəllimənniz idi. Mən bu gün də ədəbiyyat müəlliməmizə rəhmət diləyirəm. Müəlliməmizin Novruz şənlikləri ona,cəzasız ötüşməmişdi.Çünki "beynəlmiləl" rayon məmurlarının fikrincə, Novruz bayramının qeyd edilməsi "yolverilməz" idi və bu yuxarıdan gələn göstəriş kimi icra olunurdu. Yəni bu "məmurlar" üçün milli adət-ənənə maraqlı deyildi. Əsas, vəzifə postunu qoruyub saxlamaq idi. Məhz bu milli fəallıqdan çəkindiklərinə görə qəsəbədən heç kimi rayona "məmur" vəzifəsinə dəvət etməzdilər. Əgər "qulluq" göstərən olsaydı, mümkün olardı?! Qəsəbədə belə adamlar çox çətin hallarda olardı, ancaq tapılardı!

Əvvəlcə dediyim kimi, qəsəbəmizdə müxtəlif bölgələrdən gəlmiş adamlar çoxluq təşkil edirdilər. Bu

nöqteyi-nəzərdən qəsəbədə mənfiliklər də, az deyildi.Belə ki.bəzi “gəlmələr” aciz,”ruhi” xəstə adamları daşa dolamaq, bir-birlərinə xoşagəlməz “ləqəblər” qoymaq,şikəstliyi olanları “istehza” hədəfinə çevirməyi adi bir hal kimi icra edirdilər. Yaxud da, iki qonşunun çəpər davası məni bərk hiddətləndirirdi. Bir metr torpaq üstündə, qonşular bir-birlərinə elə çirkin söyüşlər yağdırardılar ki,adam xəcalətindən utanırdı. Əlbəttə ki, bu çirkin söyüşləri bir-birinə yağdıranlar, öz şüursuz səviyyələrinə görə dediklərinin mənasını anlamırdılar, ancaq fakt faktlığında qalırdı. Bütün bunlarla bərabər, qəsəbə uşaqlarıyla münasibətlər, bəzən mənim tərbiyəmə də təsirsiz ötüşmürdü. Dəmir yolu boyu pulsuz, qəpiksiz uşaqlar, sərnişin qatarlarından atılan, filtirli “astaf” siqaretləri yığar, gizlincə çəkməyə gedərdik. Sonralar hətta, dayım məni tənbeh etsə də, mən siqareti uzun müddət tərgidə bilmədim. Ən pisi isə, dəmiryolu bağlarına meyvə oğurluğuna getməyimiz olardı. Beləcə, meyvə oğurluğu zamanı, gözətci-erməni qadın tərəfindən tutulmağımız və bu axmaq hərəkətimizin anama çatdırılması, qəzəblənmiş anamın mənə qarşı kəskin tənbehinə səbəb olmuş və mənim şişlə döyülməyimə səbəb olmuşdu.Döyülən ayaqlarımın ağrısı, məni bu axmaq hərəkətdən uzaqlaşdırmışdı.

Qəsəbədə dolanışığımız çox çətin idi. Anam xəstəxanada kiçik bir məvacibə işləyirdi. Yavan çörək belə bizi görmürdü. Tez-tez bibimgilə gedər, təndir lavaşı ilə, pendir və acıtərədən çoban dürməyi düzəldər və qarnımı

doyuzdurardım.Kasıblığın ucubatından, anamın üzünə belə baxa bilmirdim, çox utanırdım. Axı mən də işləyə bilərdim, lakin anam imkan vermirdi. Yeganə təsəllim o olurdu ki, pambıq yığımı zamanı anama verilmiş "plana" köməklik edirdim. Düzdür, məktəblilər də, pambıq yığımına gedirdi. Ancaq mən xəstə olduğuma görə, məktəbdən, pambıq yığımından azad idim. Gizlin şəkildə, anama pambıq yığımına kömək edirdim,çalışırdım ki anam ağrılarımı bilməsin.

Üç-dörd ailəni birləşdirən həyətimizdə, gövdəsi turnikə oxşayan üzüm ağacı var idi. Tez-tez üzüm ağacından sallaşardım. Bir gün qonşumuz anama xeyirxahlıqla dedi ki, üzümdən sallaşandan bəri, maşallah olsun, oğlunun boyu uzanıb! Gözümə inanmadım! Gəlib güzgünün önündə dayanıb, boyuma baxdım və çox sevindim ki, daha boyu balaca qalmayacam.

Artıq, ortancıl qardaşım dördillik məktəbi kənddə başa vurub, qəsəbəyə, məktəbdə oxumağa gəlmişdi. Qardaşım dəyər-düşməz olmuşdu. Kim xətrinə dəysəydi, qaçardı kəndə, babamın yanına. Babam, düşəndə bizə köməklik edərdi:- odun, ağartı, sac lavaşı və s. gətirərdi. Qardaşımı da danlayardı ki, dərslərini atıb kəndə gəlməsin? Babam tüfəngi də gizlətmişdi- deyə, qardaşım daha kəndə qaçası olmadı.

Yaşadığımız otaq çox darısqal olduğu üçün, yaşayışımızı çətinləşdirirdi. Yeddi nəfər bir otaqda yaşayırdıq. Dərsimiz az olanda, bibimgilə gedib həm dərsimizi oxuyardıq, həm də aclığımızı öldürərdik.

Dərslərimiz çox olanda, piltəli lampanı yandıraraq, qəzetlə lampanı üç tərəfdən örtər, bir tərəfdən- işıq gələn yerdən, dərslərimizi hazırlayardıq. Bakıda ali təhsil alan dayım, tətilə gəlmişdi. Evimiz dar olduğundan, böyük dayımgildə qalırdı.Bir gün mənə dedi ki, yəqin savadın yaxşıdır,bəlkə bir məktub yazasan Mərkəzi Komitəyə,düşünürəm sizə ev verərlər? Mən Mərkəzi Komitəyə darısqal ev, çətin yaşayışımız haqqında məktub ünvanlayıb, bizə kömək göstərilməsini xahiş etdim. Aradan bir müddət keçməmiş, evlər idarəsindən bizə gəlib, mərkəzdə tikilən üç mərtəbəli binada, üç otaqlı mənzil verəcəklərini bildirdilər. Ancaq,bizimlə qalan kiçik dayım evlənmək istəyirdi və tez-tez anamı tələsdirirdi ki, filan ev boşalıb, iki yüz manat şirinlik istəyir, kömək edərəm,köçsəniz hamımızın vəziyyəti yaxşılaşar!- deyərdi. Anam qürurlu xanım idi. Yüz əziyyətlərlə, qəpik-qəpik dar gün üçün yığdığı iki yüz manatı verib, bir otaqlı, ancaq iki otağa düzəldilmiş olan köhnə evə bizi köçürtdü. Əvvəlki bir otaqlı evimiz atamın adına idi. Dayım və qocam sonradan bizə yaşamağa gəlmişdilər. Əvvəllər, qocam böyük dayımın evində qalardı. Kiçik dayım əsgərlikdən gələndən sonra, bizdə yaşamağı qərar vermişdilər.

Anamın anası, yəni qocam bizi çox sevməzdi. Aç susuz olanda, bizə baxmaz və "dəli"-nin uşaqlarına borcum yoxdur?- deyərdi. Çörəyi, qəndi tumanının altında gizlədərdi. Böyük dayımın uşaqları bizə gələndə, onların başlarını tumarlayar, əzizləyər və gözümüz görə-görə,bizdən gizlətdiklərini "oğlunun balalarına"

yedirdərdi. Qocamın bu hərəkəti, kiçik dayımı əsəbləşdirərdi. Dayım yeməkxanada işləyirdi. Hər dəfə işdən gələndə kolbasa gətirər, qocamın xasiyyətini bildiyindən, başımızın üstünü kəsdirərdi ki, kolbasanı axıradək yeyib qurtaraq. Belə vaxtlarda, qocam bizə elə çəp-çəp baxardı ki, biz kolbasanın heç dadını da hiss etməzdik!Yaxud,dayımın "pambıq"planını bel ağrılarıma baxmayaraq,mənə yığdırar,əvəzində"it aparan olsun"-deyə quru çörək və daha cəld işləyim deyə, konfet verərdi.

Artıq yay gəlirdi. Mən 9-cu sinfi bitirmək üzrəydim. Evimizin yaxınlığında yeni məktəb tikilmişdi. Bölünməyə görə, mən 10-cu sinfi təzə məktəbdə oxumalıydım. Yay tətili ərzində qardaşım babam gilə getmişdi, mən isə günümü bibimgildə keçirir, anama ev işlərində köməklik edir, balaca qardaşımın qeydinə qalırdım. Balaca qardaşımın burnundan tez-tez qan açılardı, anam gözün üstündə olsun, qardaşından muğayat ol!-deyərdi. Mən anamın çətinliklərini başa düşürdüm,ona məndən başqa kömək edən yox idi. Qabları yuyur, yerləri yığışdırır, evə su daşıyır, anam işdən gələnə qədər, kömür peçini yandırırdım ki, gəlib bir az yatıb dincini alsın. Gecələr isə, balaca qardaşımın başını qolumun üstə qoyub yatardım ki, burnundan qan açılsa hiss edim.

İş yerindən məzuniyyətə çıxan anam, kəndə babam gilə getmişdi. Anam kənddə də sakit olmazdı, qışa hazırlıq edər, müxtəlif növ mürəbbələr bişirib gətirirdi. Anam və qardaşım kənddə olanda, mən əksər günümü bibimgildə keçirərdim. Əvvəlki illərdə oxuduğum kitabları

təkrarlayırdım. Ən böyük arzum hüquqşünas olmaq idi, ancaq heç kimə bildirməzdim. Tarixi yaxşı oxuduğuma görə, hamı mənə gələcəyin “tarixçisi” kimi baxardı. Bibimgildə olan vaxtı, qonşuların dava-dalaşı, hay-küyü qopardı. Bibim çəpər davası edənlərin hay-küyünü eşidər və bizə qulağınızı yumun, indi yüz qatlı söyüşlərə başlayacaqlar-deyərdi. Əlbəttə mən söyüşlərə fikir verməzdim. Məni xəyallara daldıran, onların torpaq davası idi. Belə vaxtlarda kəndimizi xatırlayardım. Kənd əhli mehriban, bir –birinə can deyib, can eşidən adamlardı. Kənddə yaşadığım müddətdə bir dəfə də olsun “çirkin” sözlər eşitməzdim. Əkinçilik və maldarlıqla məşğul olan kənd əhli bir-birlərinə çox qayğılı idilər. Hərdən fikirləşirdim ki, ulu şairimiz Nizami Gəncəvi, elə bil bizim kənddə olub. Azad cəmiyyət haqqında yazdıqlarını, bizim kəndə şamil edib. Qonşuların torpaq davası, məni rahat buraxmazdı, bu xəyalla da mən bir neçə vaxtdan sonra, “Torpağın möcüzəsi” adlı misralarımı yazmalı oldum:

Əzəldən belədir dünyanın işi,
Heç vaxt düz olmayıb onun gərdişi.
Xeyirxah olmayan əksər insanlar,
Mənən xəstə olub, bütün zamanlar.
Rəvayət eşitdim mən bir ahıldan,
Ahıl eşitmişdi, bir zaman nuhdan.
Şad yaşardılar qonşular əzəli,
Nifaq düşdü, şadlıq verdi bədəli.
Bağ becərib bəhrəsini görənlər,
Torpaq üstə etdilər ha... gör nələr?

Torpaq mənimdir deyib, hallandılar!
Haqlıq üçün, Axunda yollandılar.
Axund dinləyib dedi: - ay nadanlar!
Torpaq qədrin bilər, ətrin dadanlar.
Torpaq tamahkarı əsla ki sevməz,
Dünyadan bixəbər, bunu dərk etməz!
Torpaq üçün, davaya qalxanlar çox,
Torpaq daimi,  dava edənlər, yox!
İstərsiz ha... soraq haqqı, torpaqdan?
Torpaq da dinləyib, buyurdu haqdan:
-Mən sizin deyiləm, siz mənimsiniz,
Son anda torpağa gəlməlisiniz?!
Torpaq bətnimdəki, sizlər varsınız?
Hayıf ki, bəziniz yaramazsınız!
Bəli:- yaxşı və pis torpağa gəlir,
Möcüzə budur ki, sizlər ələnir.
Yaxşılar, torpaqda varlığa həyat,
Pislərsə, daşlığa gedir nəhayət.
Qonşular aldılar torpaq dərsini,
Ürəkdən sildilər, torpaq nəfsini.

Tətil vaxtımız bitmək üzrə idi. Anam və qardaşım kənddən gəlmişdilər. Biz üç qardaş, hamımız məktəbə hazırlaşırdıq. Anam bizə təzə paltarlar da almışdı. Evdə heç kim olmayanda paltarlarımızı geyər, güzgü qabağında var-gəl edər, paltarlarımızın bizə necə yaraşdığını seyr edərdik. Dərs ili başlayanda isə, bütün şagirdlər bir-birinin əyin-başına baxar, kimisi tozlanmış ayaqqabısını əliylə silər,

kimisi isə təzə kostyumunu "guya" çırparaq, diqqəti cəlb edərdi.

Əvvəllər və məktəb dövrü başlayanda, heç vaxt nəzər salmadığım, anamın rəfiqəsinin qızını gördükdə,özümdən asılı olmadan yerişimi tamam itirdim! Hər dəfə qızı görəndə dizlərim əsir, dilim topuq vurur, nitqim bağlanırdı. Özüm də hiss etmədən, sevgi bəlasına düşmüşdüm. Anama tez-tez deyərdim ki,- rəfiqəni, niyə bizə qonaq çağırmırsan? Rəfiqəsi tək gələrdi, mən isə kədərlənərdim. Anam mənim hansı hala düşdüyümü,deyəsən hiss etmişdi. Müxtəlif bəhanələrlə məni rəfiqəsigilə göndərərdi.Həmdə, anam mənim sevgi misralarımdan xəbərdar olmuşdu:

Bir nazənin görmüşəm qonşuluqda,
İsmi gözəl, dili rəvan ay ana!
Qara gözün süzdürüb, "yan"süzəndə,
Dərdə salır, məni hər an, ay ana!
Şüşəbənddə, qəmgin durub baxanda,
Gəlib keçir, sərvi canan, ay ana!
Anasıyla, sən bacılıq olanda,
Könlüm gülür, yalnız bu an, ay ana!

Bəzən, dərslərimi də hazırlaya bilməzdim. Fikrimdə, beynimdə, ürəyimdə hakimliyi ancaq sevgi oynayırdı. Deyəsən, anam rəfiqəsinə, mənim onun qızına olan sevgimi sezdirmişdi. Günlərin birində, anamla rəfiqəsi bir-birilə söhbət zamanı, mənim sevgi bəlamın, müzakirə etdiklərinin şahidi oldum. Məktəbdən gəlib evə sakitcə daxil olmuşdum, evdə olduğumu hiss etməmişdilər. Anamın

rəfiqəsi Süsən xalanın, anama dediyi:- vallah ay bacı, kaş onlar bir-birlərinin istəyərdilər, biz rəfiqədən çox, həm də qohum olardıq! Çox sevindim, yavaşca qapını örtüb, həyətə çıxdım. Bilmirdim göyün hansı qatındayam. Sonralar anam. yaman dəyişilmisən, xeyir ola? – deyərdi. Qərara aldım ki, necə olursa- olsun sevdiyimə öz qəlbimi açmalıyam. Ancaq, necə? Çox götür-qoy etdikdən sonra "Ey gül" adlı misralarımı, ona oxuyarsan?- deyə təqdim edib, gözdən itdim:

Dəmir kurəsi tək, yanır ürəyim,
Bilirsən nədəndir, yanmağım ey, gül?!
Yandıqca, ürəyim tez səni anır,
Demə ki, yalandı anmağım ey, gül?!

Bilsəm ki, qəlbini verərsən mənə,
Qartala bənzəyər, uçmağım ey gül!
Könlünü verməzsən, əgər bəndənə,
Dəyərmi, dünyada qalmağım, ey gül?!

Bir müddət utandığımdan sevdiyimin gözünə dəymədim. Məni uzaqdan görəndə gülümsəyib keçərdi, mən başı bəlalı isə, gülümsəməyi razılıq kimi qəbul edərdim. Bir gün dizlərim tir-tir, əsə-əsə yaxınlaşıb, sevdiyimdən sevgimə cavab istədim. O, yenə gülümsəyərək, ona həsr etdiyim şeiri mənə qaytarıb, sakit bir tərzlə, dedi: - bilirsən, sən yaxşı oğlansan, ancaq mən səni sevmirəm! Mən donub qalmışdım, bütöv tər içində idim,sanki yağış yağmışdı,islanmışdım! Bu yağış, sevgisi tapdalanmış, məhv olmuş bir qəlbin çırpıntılarından

yaranan sevgi yağışı idi. Mən məhv olmuş sevgimin son misralarını yazdım:

Kaş o günü, görüşə gəlməyəydim,
Nə bilim, ürəyim yaralanarmış?!
Sevgimi duymayan gözəl əlindən,
Qəlbim ağ kağız tək, qaralanarmış!
Necə dilin gəldi, sən dedin mənə,
Nişanlım vardır, əlini üzsənə!
Ah, bu söz qəlbimi, yaralar yenə,
Sevginin yarası qoralanarmış?!

Bəli, ilk sevgim daşa dəydi! Gözü kor oldu sevgimin! Beləcə uzun müddət özümü tapa bilmədim. Sinifimizdə Aliyə adlı bir qız, mənimlə dostluq edirdi. Tez –tez elmdən, mübadilə edərdik. Həm də o bilirdi ki, şeir yazmağa həvəsim var. Bir gün müraciətlə:- mənə bir şer yazarsanmı? - deyə soruşdu.

Mən dostluğumuz xatirinə ona bir şeir həsr etdim:

Bacım biz çox gəncik, ömürsə qısa,
Gərək gəncliyimiz saf olsun hər an.
Qısa ömrümüzün, gözəl gəncliyi,
Niyə, xalqımıza olmasın həyan?
Bir də ki, ay bacım gəncliyinizdə,
Vəfasız, ismətsiz olmamalısız?
Bəzi qızlar kimi, iylənilərək,
Əllərdə gül təki, solmamalısız!
Bacım, inanıram Nigar, Həcər tək,
Dar gündə, dostluğu unutmazsınız!

Bu sadə qardaşın, sadə sözlərin,
Heç zaman, heç zaman unutmazsınız!

Bu misraları sinif yoldaşım Aliyəyə ikilikdə oxudum. Bəyəndinmi? – soruşdum. Aliyə, qəfil çönərək, bəs sevgi şeiri yaza bilmirsən?! İlahi, mənə baxan o qara gözlər, necə də sevgi eşqilə parıldayırdı! Belə gözlərin qarşısında ancaq quruyub, heykələ dönmək olardı! Aliyəni, dost bildiyimə görə əlindən tutub, axı mənim sevgim daşa dəyib, yoxa çıxıb, mən necə sevgisi yox olan, bir ürəkdən, yeni şevgi şeiri yaza bilərəm?! Bu, mümkün deyil! Aliyə isə. əlini əlimdən çəkib, yavaş addımlarla başına örtdüyü kəlağayı ilə, göz yaşını silərək getdi. Düşündüm ki, bəlkə Aliyənin qəlbinə dəydim, bəlkə o məni sevirmiş və daxilimdə acı bir sevinc yaşadım. Demək, məni də sevən varmış?! Mən isə qeyri ixtiyarı, məni sevən bir insanın qəlbini sındırmışdım. Həyat çox qəribədir. Sevdiyin sənin qəlbini sındırır, sən isə səni sevənin qəlbini sındırırsan!

Havalar soyumuşdu, yağış hey yağırdı. Yəqin ki sevənlərin donmuş qəlbini əritmək üçün! Ağacların yarpaqları saralaraq yerə tökülür, hər tərəf qızılı rəngə çalırdı! Saralmış yarpaqlar töküldükcə, ağaclar çılpaqlanırdı, sevgisi olmayan çılpaq ürəklər kimi?!

Orta məktəbin sonuncu sinifində dərsləri daha mükəmməl öyrənir, özümü ali məktəbə qəbul üçün hazırlaşdırırdım. Hərdən sinif yoldaşlarımla oxuduqlarımızı təkrar edir, biri-birimizin bilik səviyyəsini yoxlayırdıq. Sinfimizdə boyca məndən hündür olan, səmimi bir qızla ədəbiyyat və tarixdən mübahisələr edir,

bəzən dərsdən sonra, evimizə qədər, yol boyu fikir mübadiləsi aparırdıq. Səidə adlı bu qız həm də gözəl şeir qiraətçisi idi. Bütün bu münasibətlər, sinifdə mənim heç də xoşlamadığım məhəbbət "fantaziyasını" formalaşdırırdı. Hətta bunu duyan, müəllimimiz bizim münasibətlərimizə xələl gətirmək üçün, bir əhvalat da uydurmuşdu. Müəllimin qurduğu əhvalat belə idi: Ali məktəbdə oxuyan bir qız, qəzetdə şəkili çıxan gözəl, gənc alimə vurulur. Qız gecə- gündüz sayaqlayır ki, mən bu alimi görsəydim, özümü xoşbəxt hiss edərdim? Alimin qıçası olmayan şəkilini qıza göstərirlər. Qız şəkilə baxıb, bu ki "çolaqdır"?- deyir. Eləə həmin vaxtdan alimi unudur. Mənim əlbəttə, sifət yaraşığım var idi, ancaq... Bu əhvalata mən fikir vermədim. Çünki qızla olan münasibətim, elmi mübadilə münasibətindən başqa bir şey deyildi.

Sonralar baş vermiş ikinci bir hadisə isə, məni bərk mütəəssir etdi. Beləcə, günlərin birində qıza aşiq olan sinif yoldaşlarımdan biri, mənə qızla münasibətləri kəsməyi və qızdan uzaqlaşmağımı tələb etdi! Sinif yoldaşım olan oğlan, elə boydan mən qədər olardı. Gülərək ona bildirdim ki, mənim qızla olan münasibətim dərs mübadiləsi münasibətidir,sənin düşündüyün sevgi macərası yoxdur!Əvvəlcədən dildirdiyim kimi,qız boyca məndən hündür olduğu üçün, mən bu barədə sinif yoldaşıma bildirib,narahat olmamağını xahiş etdim.Üstəlik qeyd etdim ki, mən heç vaxt istəmərəm ki, evlənəcəyim qıza altdan yuxarı baxım, heç olmasa göz-gözə baxmalıyam!Zaman gələr, şahidi olarsan?-dedim. Sinif yoldaşım susdu və sonra

sakitcə çıxıb getdi. Çox illərdən sonra mən ailə quran zaman, həmən sinif yoldaşım mənə teleqram vuraraq, toy günü münasibəti ilə təbrik etmişdi. Sonralar həmən qız, heç ona da qismət olmadı!

Dərslərimi oxumaqla bərabər, bekar vaxtlarımda rəssamlıq edir, hətta divarımızda Cəlil Məmmədquluzadənin rəsmini yağlı boya ilə çəkirdim. Cəlil Məmmədquluzadə bizim kəndin camaatından seçilmirdi. Onun buğu, kəndimizin kişilərinin buğu kimi burma və eşmə idi. Elə bilirdim ki, Şamlı tayfasının bir nümayəndəsidir. Divarda rəsm çəkməyimi anam sevməzdi. Ümumiyyətlə divarı yazmaq, pinti işlərlə məşğul olmaq anamın ürəyincə deyildi. Anamın mənim xətrimə dəyməməsi və rəssamlığımı təqdir etməsi, mənə möcüzə kimi görsənirdi. Demə, atamın həyata göz yummasından anam xəbərdar imiş! Səhəri məktəbə getmək istəyəndə, anam kədərli halda, bugün atanın cənazəsini Bakıdan gətirəcəklər, getməliyik bibingilə?-dedi. Mən anama inanmadım. Atamın haqsız ölümü ilə barışmaq istəmirdim. Ona görə də anama bildirdim ki, atam ölməyib və məktəbə getdim. Sinifə daxil olanda, bütün şagirdlər mənə baxırdı və çox qəmgin idilər. Müəllimimiz əlini çiynimə qoyub, sakitcə dedi:-üç qardaş atanızın yerində varsınız, Allah rəhmət eləsin! Bir anlıq dünya gözümdə qaraldı, atasızlıq ildırım kimi məni vurdu. Müəllimimin get atanla vidalaş deməsi, məni hönkür-hönkür ağlatdı və mən birbaşa bibimgilə getdim. Yuxarı, bibimgilə qalxanda qurulmuş çadırlar və çoxlu insanlar gördüm. Gözüm atamın tikdiyi

və sonradan sökülərək dağılmış daxmamıza sataşdı. Bu an məni hıçqırıq götürdü. Atasızlıq, xaraba qalan daxma! Soyuq yanvar ayında atamı torpağa tapşırdıq. Mən atamın gözünə torpaq tökəndə bayıldım. Daha hündür boylu, cüssəli atam yox idi,əbədiyyətə qovuşmuşdu?! Xatırlayıram ki, atamın cənazəsini dəfn etmək üçün qəbiristanlığa aparan zaman, cənazəni çiynimə qoyanda, heç vaxt ata görməmiş, ata haqqında təsəvvürü belə olmayan kiçik qardaşım, necə qəmgin mənə baxırdı! Görəsən kiçik qardaşım hiss edirdimi, ona həyatı bəxş edən ata mənim çiynimdə əbədiyyətə gedir?Hələ atamın cənazəsi otaqda, ortalıqda, hər tərəfdən ağlayan adamlarla əhatə olunduğu vaxt, bibimin ağlayaraq:- talehsiz gəlin!- deyib, qolunu anamın boynuna qoyması, digər qoluyla məni qucaqlayaraq:- dədəsini sevib, dədəsinə həsrət qalan balam!- deməsi, illər ötdükcə mənim hafizəmdə silinməz iz buraxmış oldu!

Orta məktəbin son imtahanlarını verirdik. Hamı bir-birindən hansı məktəbə gedəcəyini öyrənirdi. Mənim isə, tarixə olan meylimdən, tarixçi olacağımı düşünürdülər. Əlbəttə mən tarixçi yox, hüquqşünas olmaq istəyirdim. Həmişə yuxularımda, xəyallarımda, insanları xilas edən, onlara əl tutan birisi kimi özümü görürdüm!

Son buraxılışa valideynlər də gəlmişdilər. Hamının atası gəlmişdi, mənim isə, yox! Anamı heç vaxt məktəbə gətirtdirməzdim. Gündəliyimin valideynlər qol çəkən yerində anamın adından özüm qol çəkərdim. Şit hərəkətlərə yol verməzdim ki, anama mənə görə "söz" gəlsin. O biri qardaşlarımın sinfinə valideyn əvəzi mən

gedərdim. Müəllimlər ailə vəziyyətimizi bildiklərindən, çək-çevir etməzdilər. Bəli, son buraxılışda bütün atalar öz övladlarının bilik səviyyələrindən danışır, müəllimlərlə məsləhətləşirdilər. Mən isə kirimişcə oturub ata-balaları seyr edir və xəyala dalaraq,pıçıltılı səslə harayımı belə izhar edirdim:

Hərdən, gözucu atalılara baxıram,
Qəhəri kilid tək, boğazıma taxıram!

Çox yaxşı oxumayan şagirdlərdən birinin atası əlini oğlunun çiyninə qoyaraq dedi: - bax, oğlum mənim əlim sənin kürəyindədir, deməli sən güclüsən, mənə arxalan və istənilən məktəbə get! Bəli, bu ata, pullu-hallı atalardan idi,çox pis oldum. Gözümün qabağında atamın soyuq məzarı canlandı, və mənim ürəyim də,sanki soyuq məzara döndü! El arasında deyilən, "Canavarı gəzən ayaqları saxlar" məsəli, məndə bir toxluq yaratdı. Özümə güvənməliydim, başqa kimə güvənməliydim ki...

Mən orta məktəbi bitirən ili, dayım ali məktəbi bitirib qəsəbəyə gəlmişdi. Günlərin birində, dayım hansı məktəbə daxil olmaq istəyirsən:- deyə, soruşdu? Hüquqşünas olmaq istədiyimi bildirdim. Dayım isə, tarixi yaxşı oxuduğumdan, tarix fakültəsinə daxil olmağı məsləhət gördü. Bir müddətdən sonra, biz Bakıya gəlib kirayə ev tutduq. Mən və dayımın qohumunun oğlu bir otaqda qalır, imtahana hazırlaşırdıq. O riyaziyyata, mən isə tarixə sənədlərimi vermişdim. Adı, Daşdəmir idi. Boş vaxtlarımızda dayım bizi şəhərə aparıb, şəhərlə tanış edirdi. Metro isə bizi valeh etmişdi. İlk dəfə idi ki, yerin altında

qatar görürdük. İmtahanları verdikdən sonra, birinci olaraq Daşdəmirin müsabiqədən keçməyəcəyi aydınlaşdı. Sabahısı Daşdəmirin atası gəlib, dayıma iki min manat pul verdi. Bax say ha... düz iki min manatdır!-dedi. Dayım isə, ona əli ilə işarə edərək,biz eşitməyək deyə,sakit olmağı məsləhət gördü.Gördüklərim məni duruxdurdu, özümü görməməzliyə qoydum. Yüksək qiymət aldığımdan özümdə rahatçılıq hiss edirdim. Ancaq, müsabiqədən keçmədim. Daşdəmir isə aldığı üçlərlə tələbə oldu. Dayım başıma sığal vurub, kefini pozma, qocalmamısan ki, bu il olmaz, gələn il girərsən! Mən yeddi il ali məktəbə girə bilmədim,ancaq indi qurtarmışam. Mən dayımın üzünə şah baxaraq, Daşdəmirin atasının pulu var idi tələbə oldu, mənim isə atam yoxdur, pulum da haradan olmalıdır ki?! Dayım mənim dediklərimi uddu,çünki haqsızlığın ilk dəfə etdiyi təsiri, hiss etmişdim. Kor-peşman qəsəbəyə, evimizə qayıtdım. Anam mənim məktəbə girməməyimdən məyus olsa da, qardaşından məni işə düzəltməyi xahiş etdi.

Bir neçə vaxtdan sonra, məni qəsəbədəki pambıq məntəqəsinə fəhlə kimi işə qəbul etdilər. İşimiz çox ağır idi. Tez-tez ağrılarım baş qaldırırdı. Anam hər dəfə soruşanda necədir sağlamlığın, işin?-deyərdim ki, narahat olma hər iş öz qaydasındadır. Ağrılarım olsa da, mən evə pul gətirib, anama az da olsa kömək etməliydim. İşimiz pambıq tədarük etmək, pambığı bardanlara yığmaq, sonra isə maşınlara yükləyib, pambıq zavoduna təhvil vermək idi. Sərbəst həyata atıldığımdan bir çox hadisələr və hərəkətlər mənə qəribə görsənərdi. İlk dəfə məvacib alanda yüz əlli

manata qol çəkib,yetmiş manat nağd almağım məni hiddətləndirmişdi. Dayımla, anam məni sakitliyə çağırır və bildirirdilər ki, artıq-əskik danışarsan səni işdən qovarlar. Of, haqsızlıq!- deyə hirsləndim.Anama və dayıma bildirdim ki:- Bax elə ona görə də, mən hüquqşünas olacam, bu dələduzların hamısını zindana salacam! Dayım mənə baxıb, gülə-gülə:- yavaş get, yıxılarsan ha... Qış vaxtı məntəqədə elə də iş olmazdı, anama ev işlərində kömək edərdim.

Ali məktəbin qiyabi və axşam şöbələrinə imtahan başlamışdı. Bakıya az da olsa bələd idim. Kirayədə qalıb hüquq fakültəsinə hazırlaşırdım.İmtahanları verib, fakültədə ən yüksək qiymət aldığımdan, hamı məni təbrik edirdi. Hətta, mənim hörmət bəslədiyim, ədəbiyyat müəllimimiz təbrik edərək, haqqı-haqsızlıqdan seçməkdə, yaxşı hüquqşünas olacağımı bildirmişdi. Anam məzuniyyətini götürüb dayımla bərabər Bakıya gəlmişdi. Elan günü, adım qəbul olunanların sırasında yox idi! Anam dözmədi, şikayət edəcəyinin bildirdi. Dayımın bir müəllim dostunun köməyi ilə bizi- anamı və məni prorektor qəbul etdi. Prorektor orta boylu,lopa buğlu, uzun saçlı birisi idi. Anam mənim yüksək qiymət aldığım halda, niyə qəbul olunmadığımı prorektordan soruşdu? Məsul adam isə, araşdıraram!- deyə, bildirdi. Anam dözməyib, gözü yaşlı halda mənim köynəyimi dartıb çıxardaraq, fiziki qüsurumu göstərib, məni atasız, əziyyətlə böyütdüyünü ərz etdi. Məsul adam anamın bu hərəkətindən sonra, sənin bu qüsurlu oğlunun nə işi var hüquqda?-deməsini qüruruma sığıçdırmadım.Sonra sözünə davam edən prorektor:- getsin

başqa ixtisasa qəbul olunsun, ondan hüquqşünas olmaz! Məsul adamın ondan hüquqşünas olmaz, deməsi zindana vurulmuş çəkic kimi beynimdə səsləndi. Mən heç vaxt acizliyi qəbul etməmişdim. Yadıma gəlir ki, 16 yaşım olanda, məni "sobezə" çağırıb, sənə əlillik düşür, sənədlərini hazırla, gətir əlil pensiyası təyin edək? Mən isə onlara:- kim dedi ki, mən əliləm! Əlim, qolum, qıçım, başım yerindədi, mənə əlillik pensiyası lazım deyil! Daxili qürurum "əllilik"adını daşımağa imkan verməmişdi. İndi isə anamın bilmədən etdiyi hərəkət, məsul adamın qeyri həssaslıqla dedikləri, qürurumu eləbil sındırmışdı. Bu hadisənin təsirindən uzun müddət xilas ola bilmədim. Deməli, əsgərlikdən gəlib üçləri alaraq, tələbə adını qazananlar sağlam idilər! Mən isə yüksək qiymət almağıma baxmayaraq, prorektorun dediyi kimi, sağlam olmadığımdan hüquqşünas ola bilməzdim. Mən bir daha qəsəbəyə qayıtmayacağımı, iş tapıb işləyəcəyimi, hətta özümə inamlı bir adam kimi, məktəbə də daxil olacağımı anama və dayıma bildirdim. Anamla, dayımı qəsəbəyə yola saldım. Anam gözü yaşlı getdi və bildirdi ki, pulun qurtaranda mənə yaz?!

İsti yay günləri idi. Tezdən sübh oyanıb, axşam gün batana qədər iş axtarırdım. Olduğum zavod və fabriklərdə müxtəlif səbəblər yaranırdı və mən kor-peşman kirayə qaldığım daxmama qayıdardım. Bakı şəhərinə pasport qeydiyyatımın olmaması, hərbi xidmətə yararsızlığım işə qəbul olunmağıma əngəl yaradırdı. Pulum qurtarmasın deyə, yeməyə və içməyə az xərclik edirdim.

Axşamlar evdə olduğum vaxtlar,neft iyi verən marqarinlə kartof qızardar ya da kartof-soğan soyutması edərdim. Havalar isti olduğundan, gündüzlər iş axtararkən dodağım qupquru olurdu. Adicə çiy su ilə, susuzluğumu yatırdırdım. Çox gəzə bilmirdim. Belim ağrıyır, qıçalarım qıc olurdu. Biraz dincələr, yenidən iş axtarışına başlayardım. Gündəlik axtarışlar məni bezdirirdi, ağrılar, yorğunluq da bir tərəfdən.

Beləcə yorğunluğunmu çıxartmaq üçün, istirahət bağlarının birində oturmuşdum. Bərk yorğun olduğumdan özümdən belə xəbərim yox idi. Adətən mən öz oturuşuma, duruşuma fikir verərdim. Kiminsə, mənim kompleksli olduğumu hiss etməsinə belə, yol verməzdim. Yan tərəfdəki oturacaqda əyləşmiş yaşlı bir qadın nədənsə tez-tez mənə baxır, sonra da göz yaşlarını silirdi. Mən elə bildim ki, yaşlı qadının köməyə ehtiyacı var. Üç manat pulum var idi. Fikirləşdim ki, əgər yaşlı qadının pula ehtiyacı olsa, heç olmasa iki manatımı yaşlı nənəyə verə bilərdim. Yaşlı xanıma yaxınlaşıb:- ay nənə niyə ağlayırsan, bəlkə bir kömək lazımdır?-deyə soruşdum. Yaşlı qadın ayağa qalxıb məni qucaqlayaraq, sağ ol oğlum, köməyə ehtiyacım yoxdur!- dedi. Bəs niyə ağlayırsan, ay nənə? Heç oğlum, mənim də sənin kimi qüsurlu bir övladım var, səni gördüm çox pis oldum. Axı, sən qəşəng bir oğlansan, Allah niyə sənə qıyıb?! Mən yaşlı nənəyə təsəlli verərək, uzaqlaşdım. Yol boyu, yaşlı nənənin dərdi məni incitmişdi. Yorğun, suyu süzülmüş halda daxmama gəldim. Yaşlı

nənənin dərdi xəyalımdan çıxmırdı. Bu minvalla qələmi əlimə alıb, aşağıdakı misraları ərsəyə gətirdim:

Saçları ağarmış, nurani bir qoca qarı,
Süzdürüb gözlərini baxardı mənə sarı.
Düşünərdim bu- qoca, nə üçün mənə baxır?
Baxdıqca gözlərindən, damla-damla yaş axır!
Qoca süzdükcə məni, mən də süzdüm qocanı,
Hiss etdim ürəyimin ağrıyır hər bir yanı.
Cəsarəti toplayıb, qocaya mən yan aldım,
Əhvalını öyrənib, sonra tamam saraldım.
Yarəb, qocanın dərdi nə yaman böyük imiş?
Onun qüsurlu olan, bircə oğlu var imiş!
Fələk mənə göz dağı, veribdir:- deyir qarı,
Gülməmişəm ay oğlum:- balam olandan bəri.
Xoşbəxt etməzsə fələk, hərdəm yarananları,
Nəyə lazım yaradır, bu bədbəxt insanları?
Qocadan ayrılaraq, gəlib daxmama çıxdım,
Sonra su tək süzülüb, talehimə mən axdım.
Qaranlıq göründükcə, taleyimin hər vaxtı,
Ədalətsiz fələyə, ürəyim bir "ah" çaxdı!

Yenə də sübhdən durub, nağıllarda olduğu kimi, əlimə əsa, ayağıma çarıq geyib, iş aramaq üçün tərki piyada oldum. Zavodların birində kadr işinə rəhbərlik edən, yaşlı, nurani kişi:- nə iş istəyirsən, sənətin varmı?- deyə soruşdu. Üzgün halda yaşlı kişiyə baxaraq:- daha taqətim qalmayıb iş axtarmaqdan, yorulmuşam, heç kimim yoxdur, rayonda olan anam və kiçik qardaşlarıma kömək etməliyəm, məni işə qəbul edin?-dedim Sənədlərimi alan ağsaqqal,

dodaqaltı:- fəhlə olmusan, sənətin yoxdur, əsgərlikdə olmamısan, Bakıya da pasport qeydiyyatın yoxdur! Nə edək səninlə hə?- deyərək, buğaltı gülümsündü. Mən birdə rica etdim. Yaxşı:- ərizə yaz görək, səninlə nə edirik? Sevincimdən bütün yorğunluğum, ağrılarım yoxa çıxdı. Tez ərizə yazdım. Kadr rəisi məni həkim komissiyasına göndərdi. Həm sevinirdim, həm də məyus idim. Qorxurdum ki, həkim komissiyası məni işə yararsız kimi qeyd edər. Onda nə olacaqdı, bəs?!Komissiyada müayinə zamanı, cərrah həkim əlini belimə vurub, ağrımır ki?- deyə soruşdu. Mən isə, özümü az qala güclü, idmançı kimi göstərməyə çalışdım. Həkim gülüb, yaxşı qol çəkərəm, ancaq ağır iş olmaz və komissiya vərəqində qeydiyyat apardı. Komissiya vərəqəsini nəzərdən keçirən kadr rəisi, sabahı işə çıxmağımı və sex rəisi ilə tanış edəcəyini bildirdi. Ürəyimdə yüz dəfə alqış dediyim kadr rəisi, ürəyə oxşayan bir tonla:- qalmağa bir yerin varmı? Mən kirayədə qaldığımı bildirdim. Rəis,mənə bir vərəqdə uzadıb, həm pasport qeydiyyatına alınarsan, həm də yataqxanada yer alıb qalarsan,oldumu?Mən,rəisə olan sevincimi izhar etmək istərkən,rəis:- get cavan oğlan, sənə uğurlar!- deyib, gülümsəməklə hörmətini ifadə etmiş oldu. Bu mənim sərbəst həyatımda ilk uğurum və mənə edilən ilk hörmət idi. Yol boyu öz-özümə danışır, işimin olacağını, pul qazanacağımı, ailəmizə kömək edə biləcəyimi xəyalımda canlandırır və sevinirdim. Axşamı evə qayıdıb özümə marqarinlə yox, kərə yağı ilə yaxşı bir qayğanaq bişirdim və işə girmək şansımı, beləcə qeyd etdim. Səhərisi

yataqxanaya gedib, kadr rəisi tərəfindən verilmiş vərəqi komendanta təqdim etdim. Mənə yer verdilər.

Otaqda dörd nəfərlik çarpayı, masa, dörd kürəkli oturacaq və paltar dolabı var idi. Yəqin ki, başqa çarpayının sahibləri işdə idilər? Tək olduğumdan böyük bir xoşbəxtlik hissi ilə çarpayıya uzandım. Elə bil dünyanı mənə vermişdilər. Günün ikinci yarısı zavoda gedib, sex rəisinə təqdim olundum. Sex rəisi orta boylu, nazik buğlu, keçəl bir kişi idi. Məni diqqətlə nəzərdən keçirib, biraz keyfi pozulmuş şəkildə, bu qocanın (kadr rəisi nəzərdə tutulur) da başı lap xarablaşıb,bu qüsurlunu nəyə bura göndərib?! Planı bir yandan tökürlər, o biri yandan da, planı yerinə yetirə bilməyəcək, ana südündən təzə ayrılmış qüsurluları bizə göndərirlər. Mən özümü toplayıb:- nə plan olsa yerinə yetirəcəm, işdən qorxum yoxdur?- dedim. Sex rəisi rişxəndlə məni süzüb, usta köməkçisini çağırdı. Usta köməkçisi otuz,otuz beş yaşlarında cavanin birisi idi. Rəis məni usta köməkçisinə göstərib, bu Qərib Sınığa işini göstər?Sonra nə Sınıq, bu nə soyaddır?! Allahın işinə bax, soyadı Sınıq, özü də sınıq, görək haraları düzəldəcək?! Usta köməkçisi mənim sex rəisinə tərəddüdlə baxdığımı görüb, Qərib:- deyə dilləndi, sex rəisinə fikir vermə, plan dolmayanda əsəbiləşir və hamını öz bildiyi kimi danlayır. Düşündüm, nə etmək olar, həyatda hər cür sürpriz adamlarla qarşılaşmaq olur?! Əsas odur ki, istədiyimə nail olmuşam. Usta köməkçisi mənim gələcək iş yerimi göstərib, sabah saat 8-də işdə olmağımı bildirdi. Axşamı kirayə qaldığım daxmaya yox, yataqxanaya getdim. Hamı işdən

gəlmişdi. Yemək bişirən kim, paltar yuyan kim, gəzməyə gedənlər kim, hərə bir işlə məşğul idi. Gələcək otaq yoldaşlarım mənim kompleksli olduğumu görüb, bir-birinə məni göstərərək, gözlərini oynatmaqla zarafatlaşırdılar. Çalışırdım ki, onların bu hərəkətlərinə əhəmiyyət verməyim. Yaradanımın mənə verişi bu idi, nəyi dəyişə bilərdim ki...

Səhər saat 8-də usta köməkçisi ilə görüşdüm. O Cəfər:- deyə, bir cavan oğlanı çağırıb, məni onunla tanış edərək, bu gündən cavan oğlan sənin şagirdindir, dəzgahın sirlərini yaxşı öyrət?- deyib getdi. Mən usta Cəfərlə tanış olduqdan sonra, o mənə diqqətli olmağı və maraqlandıracaq nə varsa soruşmağı tələb etdi. Dəzgah tornaçı dəzgahı idi. Usta hərdən dəzgahda işləmək üçün şərait yaradır, bilmədiklərimi öyrədir və işinin mahiyyətinin başa salırdı. İş bitdikdən sonra kirayə qaldığım daxmama gedib,paltar,qab-qacaqlarımı yığışdırıb yataqxanaya qayitdım. Otaq yoldaşlarım evdə idilər. Qab-qacaqlarımın çoxluğunu görüb:- ay Qərib sənin bir yekə evin var imiş?- deyə, bir ağızdan bildirdilər.

Beləcə yataqxana həyatım başladı. İlk vaxtlar yataqxana həyatı mənə çox çətin gəlirdi, alışa bilmirdim. Gecələr xorultu, fısıltı, sayaqlamalar mənə rahatlıq vermirdi. Anam mənə həmişə deyərdi ki, elə sakit yatırsan, heç elə bil evdə insan yoxdur. Burası yataqxana idi , dözməliydim, alışmalıydım. Yaxşılı- pisli günlər gəlib keçirdi. Bakıdakı həyatım barədə anam və dayımı agah etmişdim. Anam deyərdi ki, sən elə uşaqlıqdan fərasətlisən.

Usta Cəfər çox dünya görüşlü və hər şeydən xəbərdar olan bir adam idi. Mən usta Cəfərə ali məktəbə girmək xatirinə Bakıya gəldiyimi danışdım. Ailəmizin çətin durumda olduğunu, işləyib pul qazanmaq, evdəkilərə kömək göstərmək məqsədimi ona bildirdim. Usta isə əlindən gələcək köməyi əsirgəməyəcəyini qeyd etdi. Usta Cəfər digər dəzgahlarda işləyən, bəzi üzdəniraq bədxahqların, mənə rişxənd etməsinə imkan vermirdi. Bu adamların çoxu əyalətdən gəlmiş, ata- ana qədri bilməyən naxələflərdilər!- deyərdi. Əsası odur ki, sən əyalətdən gəlsən də, düz yoldasan, tərbiyən var.

Usta əslən bakılı idi. Atası dülgər, anası evdar xanım idi. Həm də evin tək oğlu idi. Nahara kimi usta qoyulan planı yerinə yetirər, nahardan sonra məni işləməyə, dəzgahın sirlərini öyrənməyə məcbur edərdi. Bir dəfə mən ustaya niyə düzəltdiyin detalı, daha çox istehsal etmirsən, axı qazancın da çox olar?- deyə soruşdum. O isə, gülümsəyərək mənə sirrini açdı. Bax, gündə yüz detal düzəltməliyəm, nahara kimi yüz detalı düzəldirəm, nahardan sonra da əlavə yüz detal düzəltsəm, detalın bir ədədinin qiymət vahidini aşağı salıb, məndən iki yüz detal düzəltməyi tələb edəcəklər. Mən isə rahatca yüz detal düzəldib, qalan vaxtları asudə keçirirəm. Bu sirri sənə dedim:- "bir daş altdan, biri də üstdən"məsəlini sırğa et, qulağından as,eşitdinmi? Başımın hərəkəti ilə, onu başa düşdüyümü təsdiq etdim. Beləcə hər dəfə qarşılaşdığım bu cür yanlışlıqlar, məndə "tarixi" az -çox bilən adam kimi, yaşadığımız cəmiyyətin ictimai quruluşuna şübhələr

yaradırdı. Bir dəfə usta mənə ali məktəbə girmək üçün kitablarını mütaliə edə bilirsənmi:- deyə soruşdu? Mən ustaya hələ belə bir imkanın və şəraitin yataqxanada olmadığını bildirdim. Sağ olmuş usta məni başa saldı ki, yataqxananin özündə və şəhərin bir neçə yerində kitabxanalar var. İstədiyin vaxt,kitablarını mütaliə edə bilərsən? Yataqxanada kitabxananın mövcudluğu məni xətircəm etdi. Beləliklə, axşamlar kitabxanada ali məktəb qapısını yenidən döymək ümidilə kitabları mütaliə etməyə başladım.

Səhərlər işə gedir, axşamlar kitabları mütaliə edir, otaq yoldaşlarımla demək olar ki, çox az müddətdə ünsiyyətdə olurdum. İşdə çox yorulurdum, ayaqüstə bütün günü durmaq, bel ağrılarını daha da şiddətləndirirdi. Bir dəfə nahara gedən zaman, rels üstündə hərəkət edən körpülü kranı görüb xeyli tamaşa etdim. Uşaq vaxtı körpə palıd ağaclarını at kimi çapmağım yadıma düşdü və körpülü krana həvəs yaratdı. Zavodda altı aylıq kurs keçib krançı vəsiqəsini almaqla, körpülü kranda işləyə biləcəyimi öyrəndim və belə də etdim.

Yataqxana kitabxanasında, məndən başqa bir nəfər də, Həsrət adlı birisi mütaliə edir və ali məktəbə hazırlaşırdı. Jurnalist olmaq istəyən Həsrət, romantik və poetik insan idi. Anasının bircəsiydi. Mətbuatda ara-sıra şerlərini çap etdirirdi. Ali məktəbə qəbul zamanı müsabiqədən keçməmiş və zavodda tabelçi olaraq, əmək fəaliyyətinə başlamışdı.Bəzən, yataqxana kitabxanasında səs-küydən oxumaq olmurdu,elm aləmindən uzaq

olanlar,kart oynayır,xoşagəlməz zarafatlar edirdilər. Bir dəfə yekəpərin biri. bizə göz işarəsi ilə kitabxananı tərk etməyi tələb etdi. Biz kitabxanadan çıxan kimi, qonşu yataqxanada qalan "sürüşkən" qızlardan biri, kitabxanaya daxil odu və qapını bağladılar. Bu bizi bərk əsəbiləşdirdi. Demə, bütün bunları vaxtada oturan qadın, hətta komendant da bilirmiş. Bu cür hallar tez-tez təkrar olduğundan, komendanta şikayət edərək, baş verənləri ona danışdıq. Bir müddət sakitlik yarandı. Çox çəkmədən həmin yekəpər, kitabxanaya daxil olaraq, qəzəbli səslə:- kim artıq-əskik danışıb? Sizin var yoxunuzu... Əəə, topal sən bayquşlamısan hə?! Mən Həsrətə baxdım, nə topal, bu alçaq əlbət mənə sataşır! Bütün bədənim tir-tir əsirdi. Həsrət:- sənə nə var kim deyib, bura kitabxanadır, fahişə xana deyil ki? Biz kitab oxumaq istəyirik! Boynunu peysər basmış, yekəpər:- çıxın rədd olun!!! Bir də sizi burada görsəm, əzişdirəcəm və Həsrətə çönüb:- o biri ayağını da sındırıb, digər topal ayağına çevirəcəm! Əlbəttə ki, bizim ona gücümüz çatmazdı və ona görə də kitabxananı tərk etdik. Kitabxana otağına gələn "sırtıq" qadının istehzalı gülüşü, bizə çox pis təsir etdi. Həsrətin gözü yaşla dolmuşdu. Yekəpər onun qüruruna toxunmuşdu. Mən oğrun-oğrun Həsrətin ayaqlarına baxdım və heç nə hiss etmədim. O vaxtlar enli balaqlı şalvarlar, "trapeslər" modda idi və demək olar ki, bütün cavanlar, o cümlədən mən də "trapes" şalvardan geyərdim. Həsrət "trapes" şalvarının balağını yuxarı qaldırıb, şişgin ayağını mənə göstərdi. Mən özümü tamam itirdim, gözüm dolmuşdu, ləyaqəti

tapdalanmış Həsrətə baxıb, düşündüm:- biz hər ikimiz, yaradanın zülm çəkmək üçün, bu dünyaya bəxş etdiyi varlıqlardıq?! Mən Həsrətə təsəlli vermək üçün, biz oxuyarıq, böyük adam olarıq, bizə hörmətlə yanaşarlar!- deyə, xitab etdim. Əslində yataqxanada qiyabi və axşam məktəblərində oxuyanların sayı beş- on nəfərdən artıq olmazdı. Yataqxanada isə,dörd-beş yüzə kimi əyalətdən gəlmiş, papağını günə verənlər daha çox idi. Belələri işdən sonra əyləncə bağlarına, dəniz kənarı bulvara, vaxtlarını keçirməyə gedərdilər. Axı məqsədi olmayan insan, gününü avara keçirtməkdən başqa nə etməliydi?

Mən getdikcə, Həsrəti daha dərindən tanımağa başlayırdım. Yaradanımız, bütün gözəl xarakterləri ondan əsirgəməmişdi. Yeganə zəif cəhəti onun iradəsizliyi idi. Bir işin axırına çıxmaq istəməzdi, çox zaman bədbin olardı. Ünvanına ağır söz eşidən kimi, günlərlə kefsiz olardı. Hərdən bərk əsəbləşəndə:- ali məktəbə girməsəm, qayıqacam rayonumuza?- deyərdi. Mən isə ona:- bədbin yaşamaq olmaz, insan gərək öz əqidəsi, məqsədi uğrunda mübarizə aparsın, həyatda özünü təsdiq etsin?-deyərdim. Bu keyfiyyətlər ən çox sənə və mənə lazımdır, Həsrət, başa düşürsənmi? Bəzən dostluq, qardaşlıq haqqında fikir mübadiləsi edərdik. Həsrət üçün dost ikinci mən demək idi. Həsrətin dosta olan münasibəti onun yazdığı şeirlərində, aşağıdakı misralarda öz əksini tapmışdı:

"Dostum" yaman vurub-kəsərəm deyir,
Üzdə gülür, dalda nələr söyləyir,
Ara vurur, qeybətdən az deməyir,

Tülkü kimi, hiyləgərdir bu insan!

Əlbəttə, mən onunla razılaşardım.

Yataqxanadan əvvəl, kirayədə qaldığim evin sahibi milliyətcə erməni idi. Şərab zavodunda sürücü işləyirdi. Zavoddan mağazalara şərab daşıyırdı. Axşamlar işdən gələndə, xeyli şərab şüşələrini evə gətirirdi. Hava qaralanda dostları toplaşırdı evinə, yay vaxtı isə həyətlərinə yığışardılar. Bir gün ev sahibi olan erməni, mənə də təklif etdi ki, onlarla bərabər masa arxasında oturum. Mən razılaşmadıqda, bax görürsən nə qədər dostum var? Sən ancaq, tənhasan, dostun yoxdur?- dedi. Mən onun gözlərinin içinə baxaraq bildirdim ki, dediyin o dostlar sənin yox, şərabının dostlarıdır. Şərabın olmasa, onlar qətiyyən səninlə dostluq etməzlər! Erməni heç nə demədi. Deyəsən,haqlı sözüm onu yaman tutmuşdu. Mən iş axtarıb axşamlar yorğun evə gəldiyimdən, onun "infarkt" olub, yarım ay xəstəxanada yatmağından xəbərsiz idim. Günlərin biri erməni qapımı döyüb, sən çox ağıllı "musurmansan"- dedi. Sənin düzgün olaraq,dediyin"dostlarım"mən xəstəxanada olanda, heç biri məni yoluxmağa gəlməmişdilər. İndi bir müddət işləmirəm, qapımı döyən yoxdur. Bu ay, səndən ev kirayəsi almıyacam!- deyib, evinə yollandı. Mənim dost haqqında danışıqlarım, həsrətdə razılıq əlaməti olan xəfif bir təbəssüm yaratmışdı. İlk dəfə idi ki, Həsrətin simasında təbəssüm görürdüm. Heç vaxt deyib-gülməyən, alnını qırışdırıb bədbinliyə qapılan, həsrət talehindən çox şikayətçi idi. Bunu yazdığı misralar da təsdiqləyirdi:

Ey fələk, yaralı bağrımı qan eyləmisən,
Əzəldən ki, könlümü pərişan eyləmisən.
O qara günlərimi, hərdən ki yada salıb,
Deyirəm, sən ki, mənə çox ziyan eyləmisən.
Özündən razılar gülürlər, həm şənlənirlər,
Şənlənməyi də, mənə qadağan eyləmisən.
Bilmirəm qəsdin nədir, ey çarxı dönmüş fələk,
Yoxsa bəndəni, dərdə məhkum can eyləmisən?

Bəli, Həsrət çox duyğusal, həyatından şikayətçi pessimist bir insan idi. Çalışırdım ki ondakı bədbinliyi, özünə inamsızlığı aradan qaldırım, ona köməkçi olum. Artıq, aylar bir-birini əvəz edirdi. Yaz gəlişi idi. Ağaclar tumurcuqlayaraq, gələcək yaşıl libasını əyan etməyə hazırlaşırdı. Bir neçə vaxtdan sonra ali məktəbə tələbə qəbulu başlayacaqdı. Açığını desəm fəhləlik məni bezdirirdi. Ali məktəbə girmək, ziyalı olmaq arzusu bir dəqiqə də olsun məni rahat buraxmırdı.Fəhlə İşlədiyim müddətdə xeyli haqsızlıqla qarşılaşmışdım. Bu haqsızlıqlar yazdığım misralarda da öz əksini tapmışdı:

Səhər erkən gəlib, axşam gedərsən,
Sənə "türmə" olub, zavodlar fəhlə.
İstəsən haqqını açıq deyəsən,
İşdən də çıxarıb, qovarlar fəhlə.

Bu misralara görə, mənə tərif deyənlər və hətta üstümə gələn vicdansızlar da oldu. Mən döyüşkən adam idim, cavablarını yerindəcə verirdim. Bütün bu

hazırcavablığıma görə, hətta mənə güc də, tətbiq etmişdilər. Axır vaxtlar Həsrət işdən tez qayıdır və yataqxananın kitabxanasında kitablarını mütaliə edirdi.

Günlərin birində yataqxanaya gəlib, böyük izdihamla qarşılaşdım. İzdihamın içərisində milisin papağı da görsənirdi. Bir az irəli gedib, işdən hali olmaq istədim və gözlərimə belə inanmaq istəmədiyim halda, ortada Həsrəti üz-gözü qan içərisində, dizi üstə düşmüş halda gördüm. Digər tərəfdə isə, öz yaramaz təhqirləri ilə bizdən ona qarşı nifrət yaratmış yekəpər dayanmışdı. Milis, yekəpərin üstünə çımxıraraq, sakitliyi tələb edirdi. Yekəpər isə, qana susamış kimi, murdar ağzını yummaq istəmir, dayanmadan söyüşlərlə Həsrəti təhqir edirdi:- it oğlu, it sənə nə var mən kitabxanada hansı qadınla görüşürəm?! Sən kişi deyilsən? Heç başqaları qabağıma çıxıb, mənə bir söz deyə bilmir, sən isə öz topallığınla məni boğaza yığmısan! Milis nəfəri yekəpərə müraciətlə:- sən bu bədbəxti niyə vurmusan, bir nəfər şahid olsa, səni həbs edərdim?- deyirdi. Üzünü izdihama tutan milis:- kimsə görübmü hadisə necə baş verib? Elə bil izdihama su səpələnmişdi. Bir adam belə səsini çıxartmırdı. Yekəpər isə, hırıldaya-hırıldaya milis nəfərinə: -görürsənmi topal yalan deyir, mən onu vurmamışam. Böyründə duran bir "bambılı"dodqaaltı:- ə mən görmüşəm, ancaq dinc başımı ağrıtmaq istəmirəm! Şahid ol, sonra yekəpərə cavab ver! Özümdən asılı olmayaraq, milis nəfərinə yaxınlaşıb:- mən görmüşəm, barmağımla yekəpəri göstərib günahlandırdım?! Cavan olsam da, çox sərt baxışlarım var idi. Məni hələ uşaqlıqdan

şübhələndirəcək adama elə sərt baxardım ki, həmin adam daha ikinci dəfə mənə baxmazdı. Yekəpər yumruğunu üzümə qarşı tutub:- haçan görmüsən?- deyəndə, sərt baxışlarımla onu susmağa məcbur etdim. Yəqin ki. milis nəfərinin orada olmağı da təsirsiz deyildi. Yekəpər gizlincə mənə yumruq göstərərək, şahidlikdən vaz keçməyi tələb etsə də, mən öz sözümdən dönmədim. Yataqxanada bəzi "it" döyüşdürən gədələr, qızışdırıcı rol oynayırdılar. Nəhayət milis nəfəri, üçümüzü də milis sahəsinə dəvət etdi. Biz izahatlar yazdıq, sonra milis nəfəri tədbir görəcəyini deyib, bizə- Həsrətə və mənə gedə bilərsiniz?- deyə, otaqdan xaric etdi. Biz yol boyu, susqun halda yataqxanaya qayıtdıq. Axşamüstü yekəpər Həsrəti istehsa hədəfinə çevirərək, bax:- gördün, mənə heçnə etmədilər, puluna minnət!- deyib, hırıldayaraq getdi. Sonralar yekəpər tərəfindən bütün bu təhqirlərə dözməyən Həsrət milis rəisinə ərizə yazmış, həmin ərizə yataqxananın ümumi iclasında müzakirəyə qoyulmuşdu. İclasda çıxış edən milis sahə rəisi, öz alçaq çıxışı ilə Həsrəti pis vəziyyətə salmışdı. Həsrət hönkür-hönkür ağlayaraq milisin onu rişxəndlə:- ə, bəs bu ərizəni elə yazmısan ki, elə bil kişi yox, qadın yazıb. Bu nə sözdü, "namus və ləyaqətimə"- deyib iclasa yığılmışları Həsrətə qarşı güldürmüşdü. Həsrət bədbin olsa da, indiki vaxtda bərk qəzəblənərək,həyatindan şikayətçi olmuşdu. Bunu onun yazdığı misralardan da görmək mümkün idi:

Qisas alım, bədbəxt edim, öldürümmü düşmənimi,
Zindanlarda çürüyümmü, yoxsa geyim kəfənimi?!

Yaradanım şikəst edib, aldı əldən güvənimi,
Paklığımı, qeyrətimi, vüqarımı, arzulara gümanımı,
Cismani ləkə, mənəvi ləkə, bəs mən necə edim?
Bu dünyadan təmiz adla, de görüm, mən necə gedim?!

Bəli yataqxana həyatı belə idi. Kimin könlündən nə keçirdi, onu da edirdi. Bu hadisədən bir neçə gün keçmişdi. İşdən yataqxanaya qayıdırdım. Yolda qonşu otaqdan olan birisi mənimlə görüşüb, mənə bir məktub verdi. Məktubu oxudum, Həsrət mənə ünvanladığı məktubda ünvanıma xoş sözlər yazmış, rayona anasının yanına həmişəlik getdiyini və yataqxana həyatından bezdiyini bildirmişdi. Həyatdan şikayətini əks etdirən misraları isə, mənə çox pis təsir etmişdi:

Ey fələk! zülmünə yaman dözmüşəm,
Həyatdan əlimi tamam üzmüşəm.
Hərdən ki, oturub baxıb özümə,
Zülmünü gətirib yaşlı gözümə.

Deyirəm ey fələk, sən çox zalımsan,
Bəndəni əzəldən sən ağladıbsan,
Verdiyin xoşbəxtlik budursa, fələk!
Sənin tək fələyə, lənətlər gərək!

Bəli, Həsrət haqsızlığa dözə bilmədi, tək qalmış anasına həyan olmağa getdi!-deyə düşündüm. Daha yataqxana kitabxanasına getmirdim. Axı, kitabxana oxu zalı yox, “alçaqlar” və “fahişələr” məkanı idi?! Artıq şəhər kitabxanalarının birində kitabları mütaliə edirdim.

Bir gün zavodda, işdə olarkən, mənə yaxınlaşan partiya təşkilat katibi:- kommunist olmaq istəyirsənmi? -deyə soruşdu. Biraz tərəddüd etdim, katib mənim fəal komsomolçu olduğumu bildiyindən, mənim tərəddüdümə son qoyub:-bir ay vaxtın var, üç ədəd zəmanət gətir, səni partiya sıralarına qəbul edək? Bu elə bir vaxt idi ki, ali məktəbə qəbul imtahanlarına çox az vaxt qalmışdı. Fikirləşdim ki, əvvəlcə partiya sıralarına qəbul olum, sonra da ali məktəbə sənədlərimi verim. Çünki partiyaçı olmaq, ali məktəblərə qəbul olmağın bir üstünlüyü idi.

Xəyalım məni uzaqlara apardı. Həmişə məsul vəzifədə olan kommunist qocam, vaxtilə mən komsomola keçəndə, dediyi sözləri mənə xatırlatdı. "Komsomola keçmisən sağ ol, çalış kommunist ol!Sonra mənim kommunist qocam Kommunist partiyasına olan məhəbbətini aşağıdakı bayatı ilə vəsf etdi:

Partiyamız uludur,
Xalqın vuran qoludur,
Tutduğumuz şanlı yol,
Kommunizmin yoludur.

Rayon partiya komitəsində, partiya sıralarına qəbul olunanların içində, ən cavanı mən idim. Axıra iki nəfər qalmışdıq, mən və idarə müdiri. Müdir demişkən, üzü qıpqırmızı qızarmış, müftə yeməkdən harınlaşmış, yekə qarınlı, qırx yaşlı bir adam. Rayon partiya komitəsinin katibi ucaboylu, gülərüz, həm də çox ciddi olan xanım, üzünü müdirə tutub:- heç ayıb deyilmi, yanındakı cavan iki dəfə yaşda səndən balacadır, indiyə kimi niyə partiya

sıralarında deyilsən? Kim səni rəhbər vəzifəyə təyin edib? Katib-xanım idarə müdirini elə sıxmışdı ki, qıpqırmızı sifətini bürümüş tərin iyisi, üfunətli bir "zibilxananı" xatırladırdı. Buxağını sinəsinə əymiş bu rəhbərin, başı elə bil bir daha yuxarı qalxmayacaqdı. Mənimlə söhbət edən katib-xanım, əlini uzadaraq hərbiləşmiş bir zabit kimi, əlimi sıxıb uğurlar arzuladı. Mən bayıra çıxıb, sevinc dolu köksümü irəli verərək,təmiz hava ac gözü kimi, dərindən nəfəs alıb, təbiətimizin biz insanlara bəxş etdiyi havanı, ciyərimə çəkdim. Birazdan yekəqarın rəhbərin, katib-xanım qarşısında əyilmiş və mənə görə bir daha qalxmayacaq başını dik tutub, əda ilə qara volqa maşınına yaxınlaşdiğını gördüm. Sürücüsünün isə, bu ədalı müdiri qabaqlayaraq, iki qat əyilmiş şəkildə "rəhbərini" maşına yerləşdirməsi,məndə gülüşdən başqa heç nə doğurmadı. Rəhbərin sürücüsü qarşısında hırıldayan zaman, ağzında sarı rəng çalan qızıl dişlərini göstərməsi, məndən ona qarşı nifrətdən başqa heçnə yaratmadı!

Anamla, dayım yanıma gəlmişdilər. Ali məktəbə qəbul imtahanlarına az qalmışdı. Sənədlərimi tələsik hazırlayıb, qəbul imtahanlarına təqdim etməliydim. Dayım məndən, yenəmi hüquqa sənədlərimi verəcəyimi soruşdu? Mən isə susdum. Düzünü desək, Həsərti pis vəziyyətə salan milisin haqsız və milis adına yaraşmayan qeyri insani hərəkətləri, məndə hüquqşünas olmağa soyuqluq yaratmışdı. Həm də əsgərlik xidmətini başa vurub, yenə birtəhər üçləri alaraq hüquqa girənlərin, məni yenidən müsabiqədən keçməyəcəyimə əminlik yaratmışdı. Əsgər

paltarında imtahan verənlər, müəllimlərdə bir humanistlik yaradırdı. Gözünü yumub "üç" qiymət yazan müəllimlər az deyildi. Sonradan qanun keşikçisi olacaq bu adamlar yəqin ki, Həsrəti pis vəziyyətə salan milis nəfərindən heç nə ilə fərqlənməyəcəydilər!

Yadımdadır, qəsəbədə yaşayanda yaxınlığımızdakı həyat evlərində iki qonşu mübahisə etmiş və onlardan biri milis idarəsinə şikayət yazmışdı. Mübahisəni çözməyə gələn milis nəfərləri, hər iki qonşunu barışdırıb "şirinlik" olaraq, hərəsindən bir "hinduşqa" alaraq getmişdilər. Sonralar qonşular bir-birlərinə hörmətlə yanaşırdılar və zarafatla "hinduşkalarımız" əldən gedəcək!- deyə, gülüşərdilər. Şübhəsiz ki, alicənab, şəxsiyyətinə hörmət qoyan milislər də var idi. Sadəcə olaraq biz onları tanımırdıq və ümid edirdik ki,əsil qanun keşikçiləri nə qədər çox olsa,cəmiyyətimiz də bir o qədər sağlam olar.

Nəhayət ali məktəbə daxil oldum. Dayım fəxrlə:- kommunist tələbə, səninlə qürur duymaq olar?- deyərdi. Hələ anamı demirəm, sevincinin həddi-hüdudu yox idi. Anam ali məktəbə girdiyimə görə, o vaxtlar çox dəbdə olan "krimplen" kostyum almışdı. Anamın bu hədiyyəsi, orta məktəbi qurtararkən, mənə aldığı kostyumu yada saldı. O vaxt kostyumu geyib, qəsəbədə şax-şax gəzərdim. Səhərisi günü kostyumu geyəndə gözümə inanmadım, kostyumun şalvarı deşik-deşik idi. Utandığımdan anama nə deyəcəyimi bilmirdim. Əziyyətlə qazandığı pulu sərf edib, sevə-sevə mənə kostyuma vermişdi. O da belə... O zaman anam xatirimə dəymədi, indi kostyuma baxan anam, məni elə bil

başa düşmüşdü. Gülümsəyərək:- elə et ki bu kostyum da, o biri kostyumun gününə düşməsin! Mən işləsəm də, elə də yaxşı məvacib almırdım və anamın aldığı bu kostyum mənim üçün göydən düşmə olmuşdu.

Beləcə tələbəlik illəri də başladı. Həm oxuyacaqdım, həm də işləyəcəkdim. İş yerimdə məni təbrik edib, dərəcəmi də artırdılar. Bu isə məvacibimin artması demək idi. Yataqxanada Həsrətin həmkəndlisi, Nurlan adlı birisini görüb xoşhal oldum. Nurlandan Həsrəti soruşdum. O isə qəmgin halda, Həsrətin bir ay olar ki, intihar edərək əbədiyyətə qovuşduğunu bildirdi. Bərk sarsıldım. Ondan, Həsrətin nə üçün intihar etdiyini soruşdum? Məlum oldu ki, Həsrət kəndlərinə qayıtdıqdan sonra, bağ-bostanlarında anası ilə birgə çalışarmış. Qonşu kənddən gələn və Həsrətə hörmətlə yanaşmayan birisi, Həsrəti alçaltmağa çalışmış, sonralar onun haqqında "böhtan"lar uydurmuşdu. Qonşu kənddəki inandırıcı böhtançıya, uyan kəndin "üzdəniraq yaramaz"ları, Həsrəti istehza hədəfinə çevirmişdi. Bütün bunlara dözməyən Həsrət intihar yolunu seçmişdi. Həsrətin intiharına dözməyən ananın ürəyi partlamış və hər ikisini kəndin yaxşı adamları yan-yana dəfn etmişdilər. Mən ağlamağı, göz yaşı tökməyi çox vaxtlar qəbul etmirdim, bunu acizlik kimi qəbul edirdim. Ancaq boğazım qurumuşdu, nəfəs ala, udquna belə bilmirdim. Nə qədər haqsızlıq olar? Mən sizinləyəm:- Həsrəti təhqir edən yekəpərlər, onu istehza hədəfinə çevirən milis nəfəri? Sizlər bir gəncin, bir ananın ölümünə bais oldunuz!Ananız, övladınız, müxtəlif səbəbdən qüsurlu olanınız yoxdurmu?

Siz həmişə belə vicdansız olacaqsınızmı? Siz qorxmursunuz ki, ölümlərinə bais olduqlarınızın ruhları sizi, “”o biri dünyaya” qədər təqib edəcək! Siz, nə vaxtsa cavab verməli olacaqsınız!

Mən daha yataqxanada qalmaq istəmirdim. Yekəpər biqeyrəti, özünü “”qanun keşikçisi” kimi göstərən, vəzifəsindən sui-istifadə edərək, haqqı tapdalayan,alçaq milis nəfərini bir daha görmək istəmirdim! Beləliklə, mən kirayə qalmağı yataqxanadan üstün tutdum.

Ortancıl qardaşım hərbi xidmətə getmişdi. Mən tələbə olmağım haqqında ona teleqram vurmuşdum. Bölük komandiri hamını sıraya düzüb, ali məktəbə daxil olmağım haqqındakı teleqrammanı oxuyaraq, qardaşımı təbrik etmişdi. Komandir qardaşımın oxumaq , ali məktəbə girmək həvəsini nəzərə alaraq, qardaşıma mütaliə üçün şərait yaratmışdı. Mən qardaşıma dərslik vəsaitləri göndərmişdim. Sonralar tibb institutunda hazırlığa qəbul olmaq üçün,institutdan hazırlığa qəbul formaları alıb qardaşıma ünvanladım. Hərbi hissənin zəmanəti ilə , qardaşım əsgər paltarında tibb institutunun hazırlığına qəbul edilmiş, bir il hazırlıqdan sonra tələbə adını qazanmışdı. Qardaşımın tibb institutuna qəbul olunması hamımızı sevindirmişdi. Dayım həmişə fəxrlə deyərdi ki, məndən sonra daha iki ziyalımız yetişir! Bəli, dayım bizimlə çox fəxr edirdi, hamıya ağız dolusu bizdən danışırdı. Əfsuslar olsun ki, çox çəkmədi dayım xəstəlikdən dünyasını dəyişdi və bu yoxluq bizi uzun müddət qəmgin etdi.

Qardaşımla bərabər biz kirayədə qalmış olduq. Kirayədə qaldığımız evdə, qonşu qızı Elmira ürəyimə yatmışdı. Tez-tez görüşür, gələcək həyatdan danışır və xoşbəxtliyin şirin anlarını yaşayırdıq. Nədənsə bir neçə vaxt Elmira gözə görsənmədi. Özümü məzəmmət edərək fikirləşirdim ki, yəqin hər hansı bir hərəkətimlə onun qəlbinə dəymişəm, yaxud bəlkə də, mənim qüsurlu olmağım onun xoşuna gəlməyibdir?! Təsadüfən evdən çıxanda Elmiranı gördüm. Niyə görünmürsən?- deyə,soruşdım.Məhəbbət yanıqlısı olaraq bildirdim ki, sənsiz gecəm-gündüzüm yoxdur, əgər inanmırsansa al oxu?- deyə, duyğularımı köçürtdüyüm vərəqi ona verdim:

Niyə üzün döndü, dəyişdin belə,
Qəlbinə dəymişəm, bağışla məni?!
Bəlkə də sevmirsən, qaçırsan məndən,
Günahkar mənmişəm, bağışla məni?!
Bəli, belə olmuş həyatın işi,
Şirinli- acılı olur gedişi,
Nə edim? Bu olmuş mənə verişi,
Görkəmdən pismişəm, bağışla məni?!

Bəli mən yanılmamışdım, Elmira mənə nəzəri baxıb, kompleksli olduğumu üzümə vuraraq dedi: - Sən yaxşı oğlansan, çox xoşuma gəlirsən, mən sənə ərə gedərəm, ancaq bir şərtlə, əgər gələcəkdə xoşuma gələn olsa, mən səni tərk edib, xoşuma gələn adama ərə gedəcəm?! Doğru deyirlər ki, məhəbbətlə, nifrət arasındakı məsafə çox azdır. Elmiranın bu cavabı məni elə qəzəbləndirdi ki, özümdən

asılı olmayan bir tərzdə:- rədd ol gözümün qabağından, sən dünya gözəli olsan belə, mən sənin kimi "məfkurə" sahibi olan bir qızı, özümə həyat yoldaşı rəva bilmərəm! Elmiranı bir daha görməmək üçün, kirayə ev tapıb yaşayış yerimizi dəyişdim.

Artıq zavodda işim yaxşılaşmış, məvacibim də yüksəlmişdi. Anama kömək üçün qab-qacaq, paltarlar alıb qəsəbəyə göndərirdim. Anam qardaşımın vasitəsilə, Qəribə de pulunu dağıtmasın, evlənməli olacaq, qızıl üzük, saat alsın? Mən iki qızıl üzük aldım. Birini özüm barmağıma taxdım, digərini isə, gələcək adını, soyadını, kökünü bilmədiyim "nişanlıma" saxladım.

Tələbəlik illəri də öz axarı ilə gedirdi. Tələbə vaxtları gördüyüm əhvalatları danışmasam,cəmiyyətimizin,ictimai quruluşumuzun bəzi yaramazlıqlarini oxucularımızdan gizlətmiş olaram.Belə ki, hər dəfə dərsdən çıxandan sonra, bəzən "Tarqovı" adlanan küçə ilə gəzərək dincəlməyə vaxt ayırar, yada inşaatçılar prospekti ilə böyük şairimiz Müşfiqin heykəlinin arxasındakı, kitab satışı mağazasına yolumu salar və Sovetskinin köhnə kişilərinin "baməza" hərəkətləri ilə qarşılaşardım.

Bir dəfə Sovetski küçəsinin başlanğıcı olan, jurnal-qəzet satışı köşkündən qəzet alarkən, gördüyüm hadisə mənim üçün çox maraqlı olmuşdu. Belə ki, isti yayın cır-hacırında başında "andatra" papağı, əynində "layka" plaşı, boynunda "maxerovıy" şərfi olan, ayaqyalın "Sovetski qədeş"inin çəpik vuraraq meyxana deməsi, hərdən üzünü köşkdəki satıcı xanıma tutaraq, gülə-gülə nəsə danışması,

məni yoldan saxladı. Mən oğrun-oğrun kişinin hərəkətlərinin seyr edirdim. Birdən, Sovetskinin digər tərəfindən "aerodrom" papaqlı iki nəfərin, köşkün qarşısındakı kişini "ala, qədeş, gəl gedək"- deməsi, kişinin köşkü tərk etməsi ilə bitdi. "Qədeş" gedəndən sonra, məni az-çox tanıyan satıcı-xanıma yaxınlaşıb, "qədeş"lə maraqlandım. Bu yay vaxtı ayaqyalın, isti paltarda olan "qədeş"in kim olduğunu soruşdum? Satıcı mənim tələb olduğumu bildiyindən:- ay bala, get kitabını oxu, elənçi adamlarla maraqlanma!-deməsi məni sakit buraxmadı. Sonra satıcı, məni intizarda qoymayıb, "qədeş"in əynindəki paltarları, "Kubinka"dan çırpışdırdığını və satmaq üçün "yağlı" kliyent axtardığını bildirdi. Yol boyu öz –özümə, yaşadığımız cəmiyyətin əngəlləridir?- deyə düşündüm. Əslinə qalsa mən əmək fəaliyyəti ilə məşğul olduğumdan, fəhlənin qoltuğunda taxta çırpışdırmasını, rəisin fəhlə əlaltısına göz vuraraq, müxtəlif maddiyyatın maşına qoyulmasını görürdüm. Hələ rəhbərin hansı hərəkətlərə qol qoyduğunu bir özü bilirdi, bir sürücüsü, bir də Allahı! Bütün bunlar yaşadığımız cəmiyyətin eybəcərlikləri idi!

Digər dir əhvalat isə bu eybəcərliyin əsil bariz nümunəsiydi.Hələ qəsəbədə yaşadığım dövrlərdən tutmuş, Tarqovıda baş vermiş əhvalata qədər, siqaretə olan meylim məni rahat buraxmırdı. Beləcə tarqovı ilə gedərkən, mağaza önünə qoyulmuş piştaxtadakı müxtəlif siqaretləri, "TU-134", "Opal", "Styuardessa", "Malborro" kimi siqaretlərə tamah salardım. Bu siqaretlərin o vaxtki qiyməti otuz beş qəpik olduğu halda,əlli qəpiyə satılırdı. Mən bunu

bildiyimdən piştaxtaya yaxınlaşıb,otuz beş qəpiyi piştaxtaya qoyaraq, satıcıdan soruşmadan bir paçka "Opal" götürdüm. Biraz irəli gedib paçkaya baxanda, iki ədəd siqareti görüb tez qayıtdım. Satıcıya bildirdim ki,otuz beş qəpik verdim, ancaq paçkanın içində iki ədəd siqaret var? Məni diqqətlə süzən satıcı:- sən mənim istifadə etdiyim siqareti götürmüsən, mən ki o, paçkanı sənə verməmişəm? Mən başımın hərəkəti ilə, onun düzgün buyurduğunu təsdiq etdim. Mən satıcıya:- bəs siqaret satmırsınız? –deyə dilləndim. Satıcı:- satıram, paçkası əlli qəpikdir!- dedi. Mən otuz beş qəpiyimi götürüb getmək istərkən, satıcı qolumdan yapışıb, tələbəsən?-deyə soruşdu. Mən, bəli- dedim. O, siqaret paçkasını mənə uzadıb, sənə hədiyyə edirəm dedi və sonra bir də belə hərəkətə yol verməməyimi tövsiyə etdi. Satıcının mərdanə hərəkəti məni bərk utandırdı. Siqareti satıcıya qaytarıb, bir daha siqaret çəkməyəcəyimi ona bildirdim. Satıcı gülə-gülə:- bax bu hərəkətin çox xoşuma gəldi?! Tələbəsən dərsini oxu, böyüklərdən ol! Daha mənim kim savadsız olub, siqaret sataraq, camaatı aldatma dedi. Xudahafizləşib ayrıldım.

Axırıncı kursda idim. Dövlət imtahanlarına hazırlaşırdım, tez-tez mərkəzi kitabxanaya müraciət etməli olurdum. Mərkəzi kitabxanada diplom işimi yazmağa qərar vermişdim. Hər dəfə yanımda oturan suyu şirin bir qız diqqətimi cəlb edirdi, o da diplom işini yazırdı. Biz dostlaşdıq və bu dostluq sonralar məhəbbətə çevrildi. Bütün günlərimizi kitabxanada keçirirdik. Bir gün İlahə, məndən ona bir şəkil bağışlamağımı xahiş etdi. Romantik

şəkillərimdən birini, İlahəyə təqdim etdim. Şəkilə baxan İlahə:- nə yaxşı düşmüsən, elə bil hind kinolarındakı aktyorlara oxşayırsan? Mən ömrümdə tərif eşitməmişdim, özü də sevdiyin bir qızdan.Biz tez-tez görüşər,məhəbbətin sevincini baxışlarımızla bölüşərdik.Mən hətta ona olan sonsuz sevgimi bildirmiş və razıliq əlaməti olan "hə" cavabını da almışdım.Az qala bütün dünyaya car çəkib, məhəbbətimdən danışmaq,xoşbəxtliyimi insanlarla bölüşmək istəyirdim. Günlərin birində kitabxanadan çıxarkən, pilləkəndə, İlahə pul qabını yerə saldı, mən özümdən asılı olmayaraq əyilib pul qabını götürərək, ona təqdim etdim. İlahəyə baxanda,onun bütün sifəti qap-qara qaralmışdı, çırtma vursaydın qanı tökülərdi. Bir təhər mənimlə xudahafizləşib, getdi. İlahə bir neçə gün kitabxanaya gəlmədi və məni intizarda qoydu. Bir gün bir rəfiqəsi ilə mənə yaxınlaşıb, məndən aldığı və ürəyinin başına qoyduğu şəkili geri qaytardı. Məyus və hiddətli bir halda mənə baxıb dedi:- Şəkili çəkdirəndə elə çəkdir ki, "eybini" də görmək mümkün olsun! Mən özümdə deyildim, onların kitabxananı necə tərk etdiklərini də hiss etməmişdim. Bir müddət imtahana hazırlığım çox pis keçdi. Ona olan tapdalanmış məhəbbətim duyğulanaraq aşağıdakı misralara çevrildi:

Əksimə baxaraq, dedi:- gözəlsən?
Bilmədi ki qəlbim, yaralıdı o!
Dedi:- gülüşün də cəzbedicidir?
Duymadı gülməyim, yalandandı o!
Hərdən ki görüşüb cüt gəzərdik biz,

Duyardım yetişib səadətimiz,
Heyhat, çox sürmədi məhəbbətimiz,
Bir gün məhəbbəti, tapdaladı o!
Ürəyimi açıb, ona söylədim,
Ülvi məhəbbətə cavab istədim,
Əksində “eybini” mən ki, görmədim,
Deyərək, köksümə, oxu sancdı o!

Artıq 27 yaşım var idi. Əski kişilərin dediyi kimi, ailə qurmaq vaxtı idi. Sevgi, məhəbbət sarıdan mənim ümidim “kompleksli” olduğuma görə, sıfıra bərabər idi. Mənim fikrimə görə, məhəbbət bir tərəfli deyil, iki tərəfli olmalıdır. Mənim bəxtim qarşılıqlı sevgidə heç vaxt sevindirici olmamışdı. Beynimdə, ürəyimdə belə bir fikir formalaşırdı ki, özüm kimi “kompleksli” bir xanımla ailə qurmaq lazımdır. Dövlət imtahanı dövründə həmişə avtobusda yol yoldaşı olan bir əli “iflic” olmuş, çox məsum, ailə tərbiyəsi görmüş, dünyəvi baxışlara malik, savadlı bir gənc qız, diqqətimi cəlb etmişdi. Adı Leyla idi. Qıza qarşı heç bir məhəbbət hissim yox idi. Sadəcə rəğbətim, hörmətim Leylaya qarşı çox yüksək idi. Hesab edirdim ki, əgər ailə qurandan sonra biz bir-birimizi başa düşsək, qarşılıqlı hörməti qiymətləndirsək, yəqin ki bu münasibətlər “məhəbbət” yarada bilər?! Leyla ilə elmi mübadilə təmaslarımıza, Leylanın sevinc hissi ilə yanaşdığını görürdüm. Bəzən avtobusa mənsiz əyləşmir, mən gələndən sonra özümüzdən asılı olmayaraq, yan-yana oturub dialoqa girişirdik. Ürəyimdən keçirirdim ki, onunla ailə qurmaq haqqında söhbətlər edim. Ancaq, nədənsə

çəkinirdim. Çünki məndən ona qarşı sevgi hissi olmadığından, onun saf qəlbini, bakirə məhəbbətini yaralamaqdan çəkinirdim, onun mənə olan dost münasibətindən sui istifadə etməyi qüruruma sığışdırmırdım. Əsası da o idi ki, anamın razılığı olmadan, mən belə bir izdivaca yol verə bilməzdim. Beləcə dövlət imtahanlarını verib, iki aya diplom almalı idim. İsti yayın elə bil vaxtı idi ki, "qırlı" asfalt örtüyü adamın ayağını bişməcə edirdi. Daha kitab mütaliə etmir, boş vaxtlarımda oturacaqlarda sərinlənərək, gələcək həyatımın necə olacağı barədə xəyallara dalırdım? Leyla da yəqin ki, bu isti yayı kənd bağlarında keçirirdi. Daha avtobusla gedib-gəlmədiyimdən və məktəblərin tətil vaxtı olduğundan Leylanı görmürdüm.

İşdən azad olunmaq üçün, ərizəni kadrlara təqdim etmişdim. Kadr rəisi çox həlim və qayğıkeş bir rus xanım idi. Mənə həmişəlik qeydiyatda olduğum, pasport qeydiyyatından çıxmamağı məsləhət görürdü. Eyni zamanda mən ev növbəsində dayanmışdım və bir neçə ilə ev də ala bilərdim. O vaxtkı sovet qanunlarına görə, Bakıda 5 il müvəqqəti pasport qeydiyyatından sonra, həmişəlik qeydiyyata girib ev növbəsində dayanmaq lazım olurdu. Rus xanım- Nina məndən belə bir şansı buraxmamağı, öz hesabıma məzuniyyət götürməyi, rayonda iş əldə etdikdən sonra, qeydiyyatdan çıxmağın,ağılabatan olduğunu tövsiyə edirdi. Mən isə:- anama kömək lazımdır, iş mütləq düzələcək?- deyirdim və məni qeydiyyatdan çıxarmağı xahiş edirdim. Tibb institutunda təhsilini davam etdirən

qardaşım, rayonların birinə pambıq yığımına getmişdi. Qardaşım üçün otaq kirayələyib, çamadanıma əyin -başımı yığıb, Bakıya əlvida deyərək, qəsəbəmizə- anamın yanına yola düşdüm. Anamın sevincinin həddi-hüdudu yox idi. Kiçik qardaşım isə, Bakıda teplovoz maşinistliyi oxumaq üçün sənət məktəbinə daxil olmuşdu. Qardaşım rəhmətlik atamın sənətini davam etdirmək arzusundaydı. Sonralar anam danışardı ki, kiçik qardaşın da, rəhmətlik atan kimi, ağ köynəkdə teplovoza işə gedərdi. Qəsəbədə pasport və partiya qeydiyyatına daxil olub, nəvaxtsa işlə təmin olunacağımı gözləyirdim. Asudə vaxtlarımda mən anama ev işlərində kömək edir və özümlə xeyli pul gətirdiyimdən anamın yanında xəcalətli olmurdum. Bəzən qonşulardan kiminsə, anama dediyi "rişxəndli" sözləri həzm edə bilmirdim. Qonşumuz Mehriban xala anama deyərdi:- az, allah vurmuşdu "diplomu"! Oxu, ac- susuz qal, sonra da işin olmasın, olasan ev dustağı?! İşim olmasa da qəsəbəyə çıxıb, mənasız gəzməyi özümə rəva bilmirdim. Günlərimi bədii ədəbiyyata, anamla keçmiş-yaxın söhbətlərə sərf edirdim. Bir dəfə cənubi Azərbaycanın görkəmli şairi Şəhriyar Məmmədhüseynin masa üstü kitabım olan "Heydər Babaya salam" şerlərini anama oxuyurdum. Anam şerləri dinləyib dedi ki:- ay Qərib bu şair elə bil ki, bizim kəndimizin adamıdı? Anamın sözlərini, başımın hərəkəti ilə təsdiq edib, tələbəlik xəyallarıma daldım.

Görkəmli şairimiz Bəxtiyar Vahabzadə bizə sovet ədəbiyyatı fənnini tədris edirdi. Günlərin birində B.Vahabzadə bizə müraciət edərək, müasir şairlərdən

kimləri daha çox mütaliə etdiyimizi soruşdu? Tələbələr Ə.Kərim, C.Novruz, N.Xəzri və s. şairlərin adlarını sadaladılar. Mən isə Ş.Məmmədhüseyni böyük şair kimi təqdim edərək, "Azərbaycan" şerinin bir bəndini bir nəfəsə qiraət etdim:

Könlüm quşu qanad çalmaz, sənsiz bir an Azərbaycan!
Xoş günlərim getmir müdam, xəyalımdan Azərbaycan!
Səndən ayrı düşsəm də, eşqin ilə yaşayıram,
Yaralanmış qəlbim kimi, qəlbi viran Azərbaycan!

Müəllimimiz mənə yaxınlaşıb:- çox sağ ol, ancaq yadında saxla ki, Şəhriyar böyük Azərbaycan şairi olsa da, əsərlərini fars dilində yazır! Şair, gərək doğulduğu millətin oğlu olsun, onun dilində şerlərini yazsın! Sonra da bir misal çəkdi ki, sovet ədəbiyyatı simpoziumu keçirilirdi. Tribunadan çox da tanınmayan rus şairinin, Azərbaycan dilində aşıq şerini yazması və qiraət etməsi məni heyrətləndirmişdi. İndi mənim balalarım:- siz deyin görüm, aşıq şeri yazan rus şairi bizə daha yaxın görsənir, yoxsa dünyaca tanınmış, əsərlərini fars dilində yazan, Azərbaycan şairi Şəhriyar?! Biz susduq. Əlbəttə böyük şairimiz B.Vahabzadə Azərbaycanın odlu –alovlu, vətənpərvər və mənim zənnimcə filosof şairi idi. Bütün bunlara rəğmən, sonralar Şəhriyar Məmmədhüseynin Azərbaycan dilində yazdığı "Heydər Babaya salam" kitabı Azərbaycan dilində yazılmış, dünya şöhrəti qazanmış ədəbi əsəri idi. Elə ona görə də mənim anam, böyük şairi kəndimizin övladı hesab edirdi. Çünki əsər sadə, xalq dilində yazılmışdı.

Beləcə anamlı, bibimli, qohumlarımızla günləri yola salırdıq, iş məsələsi isə düzəlmirdi ki düzəlmirdi,elə bil düyünçəyə çevrilmişdi. Orta məktəbi mənimlə birgə başa vuranların, məndən başqa hamısı ailə qurmuş, övlad sahibi olmuşdular. Evli olmamağım anamı bərk incidirdi. Günlərin birində anam:- ay Qərib, bu yekəlikdə institutda oxumusan, niyə bir “halal” süd əmmişin tapmamısan? Mən anamın bu sualından, dərisinə bit düşmüş birisi kimi, bərk qaşındım. Nə bilim, ay ana? Görünür kimsənin xoşuna gəlməmişəm, bir də ki, kimin nəyinə lazımdır “kompleksli” oğlan! Anam qəzəblənib, mənə qarşı elə çöndü ki,- ay bala sənə nə olub, gül kimi oğlansan?! Neçə dəfə şüşəbənddən, sən sinif yoldaşınla var-gəl edəndə baxmışam, maşallah, göz dəyməsin boyun da var, buxunun da! Mən başıma gələn sevgi “macəralarımı” anama danışmaq fikrindəydim. Sonra anama müraciət edərək xahiş etdim ki məni məzəmmət etməsən başıma gələnləri söyləyə bilərəm,- dedim Anam məni məzəmmət etməyəcəyini bildirib,danışmağıma razılıq verdi. Mən anama məhəbbətə uğurlu olmadığımı danışıb, bildirdim ki, Bakıda tanış olduğum bir qız var, çox tərbiyəli, yerini bilən, ancaq bir qüsuru var, bir əli iflicdir. Belə baxanda, mən də göydən zənbillə düşməmişəm! Anam bir şişə baxdı, bir də mənə. Bir anlığa uşaqlaşdım, dik qalxıb şişi tapıb, gizlətmək istədim. Anam gülə-gülə mənə baxaraq:- gəl otur, daha sənin şişlə vurulan vaxtın deyil! Ancaq bir də bu mövzuda mənimlə danışma, axırıncı səfər olsun! Mənim susmaqdan başqa çarəm qalmadı. İşsiz olmağım məni çox narahat

edirdi. Hər dəfə yuxarılara müraciət edəndə, mənə səbirli olmağı məsləhət görürdülər. Çox vaxt zarafat edərək, deyirdilər:- bəli işsizlik var,ancaq gərək biri ölsün ki, biri də dirilsin! Belə hallarda dözməyib hazır-cavablıq edirdim. Qəsəbədən beş nəfər ölüb, hələ bir nəfərdə dirilməyib?! Müxtəlif kənddən olan işsizlər isə bu baməzə cavabı aforizmə çevirmişdilər.

Yaz yaxınlaşırdı, mənim dar günüm üçün yığdığım pullar isə, yavaş-yavaş tükənməyə başlayırdı. Çox ümidsizliyə qapılmışdım. İşlə təmin olunmağıma şübhə ilə yanaşırdım. Xəyalımda nədənsə, tez-tez Rusiya canlanırdı. Yadımdadır, zavodda işlədiyim vaxtlarda, həmkarlar komitəsi bizə məzuniyyəti müxtəlif sanatoriyalarda keçirmək üçün putyovkalar təşkil edirdilər. Belə bir putyovka mənə də verilmişdi, Şelkovo sanatoriyasında dincəlmək üçün. Mədəniyyət sahəsinin nümayəndələri üçün nəzərdə tutulmuş sanatoriya idi. Azərbaycanda mədəniyyət nümayəndələri əsasən Krım, Soçi, Batumini dincəlmək üçün seçərdilər. Şelkovo kimi, göbələkli meşəliyi əlbəttə ki, bəyənməzdilər?! Mənə verilən putyovka ilə 21 gün istirahət nəzərdə tutulurdu. Putyovkanı əldə edib, Şelkovaya böyük rus dramaturqu Ostrovskinin vətəninə yola düşdüm. Uzun yol boyu, takka-turuq, takka-turuq relslə şütüyən təkərlərin haray salan səslərini eşidir, yamyaşıl otlarla bəzənmiş düzənlikləri, gölməçələri, müxtəlif yolka, beryoza ağaclarını seyr edirdim. Bütün gördüklərim mənə tanımadığım bir aləmdən xəbər verirdi. Üç gün yol gedib, Moskvaya çatanda dumanlı, çiskinli

havanın soyuqluğu mənə əynimi isti etməyə vadar etdi. Kineşmaya gedəcək qatarın yola düşməsinə on saat qaldığından, düşünürdüm, Moskvanı yaxşıca gəzər, tanış olar, özümə də isti paltar alaram. Böyük Sovet ölkəsinin paytaxtı, Moskva! Əzəmətli, Qızıl meydan! O dövrdə çoxmillətli insanların dilindən, dinindən, irqindən asılı olmayaraq, ümidgahı idi Moskva! Moskva çayı, çaydakı sərnişin gəmiləri, şəhərdəki məbədlər, kilsələr göz oxşayırdı. Özümə isti paltarlar alıb, hava qaralana yaxın vağzala gələrək, qatara minib yola düşdüm. Rus dilini yaxşı bilmədiyimə görə, çox ünsiyyət qura bilmirdim. Nəhayət səhərisi qatardan düşəndə, əlindəki mikrafonla "Şelkova" deyərək, bütün vağzala səs salan xanıma yaxınlaşdım. O, "PAZ" avtobusuna minməyi təklif etdi. Avtobusda bir neçə sərnişin var idi. Hətta üz gözündən biz qafqazlıları özündə təcəssüm etdirən, iki nəfər də gözümə dəydi. Ermənilərlə çox ünsiyyətdə olduğumdan, birinin təmiz erməni olmağı diqqətimdən yayınmadı. Mən avtobusda yerimi rahatlayandan sonra, erməni zənn etdiyim bir nəfər üzünü mənə çevirib:- Azərbaycanlısan?- deyə soruşdu Mənim təsdiqimi bilən erməni, özünü Artur təqdim etdi. Mən isə:- Qərib, deyərək adımı bildirdim. Çox danışmağı sevmədiyimdən, ciddiləşib susmağa üstünlük verdim. Nahara yaxın, Şelkovaya çatdıq. Bizə xoş gəldin deyib, yer verdilər. Mənim qalacağım otaqda heç kim yox idi, ancaq çarpayının birində göbələklə dolu olan qəzet sərilmişdi. Çox yorğun olduğumdan özümü çarpayıya atıb dincəlmək istədim, ancaq yuxuladım. Qapının cırıltısı və yaşlı rus

kişisinin mənə tanış olmayan bir səslə salam verməsi, məni yuxudan oyatdı. Axşam saat 7-yə az qalmışdı. Şam yeməyi isə saat 7-də nəzərdə tutulurdu. Yaşlı kişi:- Vasili deyə, tanışlıq üçün əlini uzatdı, mən tez salamlaşıb Qərib,- deyə özümü təqdim etdim. Adımı deyəndə Vasili kişinin çətinliyini görüb, ona Karib dənizi eşitmisənmi? O, hə- deyə, başını silkələdi. Adımı Karib deyərsən- deyə, bildirdim. O, səbətli zənbilində xeyli yığdığı göbələkləri yerbəyer etdikdən sonra, birlikdə şam yeməyinə getdik. Şam yeməyi zamanı avtobusda gördüyüm erməni -Artur bizim masaya yaxınlaşıb, mənə bildirdi ki, səni qəlyanaltı yeməyi vaxtı görmədim, gəlməmişdin? Qəlyanaltını mən yedim, bərk ac idim. Bildirdim ki yorğun olduğumdan yuxu tutub, qəlyanaltı yeməyini unutmuşam. Mən ona:- yaxşı eləmisən qəlyanaltını yemisən, nuş olsun!- dedim. Vasili mənə bildirdi ki, bir saatdan sonra, burada dincələn mədəniyyət işçilərinin iştirakı ilə konsert olacaq. Konsert zamanı artistlərdən bəzisi mənə kinolardan tanış idi. Komik artist Parfenıyev, rejissor və aktyor Sergey Bandarçuk, Vyaçeslav Tixonov və adlarını çəkmədiyim digər aktyorlar məndə dərin iz buraxdılar. Balet artistləri V.Vasilyev və Yekaterina Maksimovna ailəsini ilk dəfə görürdüm. Onların soyuducusu olan, mini avtobusu məni heyrətə gətirmişdi. Deyilənə görə, İtaliya hökuməti mini avtobusu onlara hədiyyə etmişmiş.

Mənim üçün ən maraqlısı, şənbə və bazar günləri öz hesabımıza başqa şəhərlərə ekskursiyaya getməyimiz idi. Volqa çayının möhtəşəmliyi, sərnişin və yük

gəmilərinin sahil boyu düzlənməsi, günəş altında bərq vuran kilsələr, məbədlər, müxtəlif satış yarmarkaları məni ovsunlamışdı. Yerdə qalan həftənin beş günü demək olar ki, darıxdırıcı olardı. Hamı göbələk yığmağa gedərdi, otaq yoldaşım Vasili göbələk yığmağı sevən adam idi. Özünün dediyinə görə, ehtiyatda olan palkovnik rütbəli zabit idi. Vasili bir dəfə məni özünün hazırladığı göbələk qızartmasına dəvət etdi, çox ləzzətli idi.

Erməni Artur Azərbaycan dilində öz millətinə məxsus aksentlə danışsa da, bizim dili çox yaxşı bilirdi. Onun şit hərəkətləri mənim xoşuma gəlməzdi. Məhz buna görə də, mən ondan uzaq durardım. Bir dəfə yerli camaat, erməni Arturu yaxşıca kötəkləyəcəkdilər, sanatoriya rəhbərliyinin bu hadisəyə imkan verməməsi, onu kötəkləməkdən xilas etmişdi. Belə ki, sanatoriyanın girəcəyində, yol kənarında Ostrovskinin kürsüdə oturmuş və ayaqlarını bir birinin üstünə ataraq, bir əli dizində, digər əli irəli uzadılmış şəkildə olan heykəlinə qarşı ədəbsizlik etmişdi. Heykəlin aşağı hissəsinə qoyulmuş gülləri götürərək, irəli uzadılmış “ələ” qoymuşdu. Bunu görən yerli camaat hiddətlənmişdilər. Bir həftə keçməmiş, çamadanını yığışdırıb vaxtından əvvəl getmək üçün, mənimlə xudahafizləşməyə gələn Artur:- bura çox darıxdırıcıdır qala bilmirəm!- dedi. Mən başa düşürdüm, Artur niyə vaxtında əvvəl gedir. Ona görə də ona yaxşı yol deməmişdən qabaq iradımı bildirdim. Əgər bu ruslar Bakıya gedib, Şaumyanın eyni ilə Ostrovskiyə oxşayan heykəlinin “əlinə” gül versələr, özünü necə hiss edərsən?

Artur çox pərt oldu, cavab verməyə söz tapmayıb, əlini havada yellədərək sağollaşmış kimi getdi.

Beləcə boş-bekar vaxtlarımın birində dadı, ləzzəti yadımdan çıxmayan göbələyi yığmaq həvəsinə düşdüm. Meşəyə tək başına göbələk yığmağa getdim. Göbələyin ən gözə gəlimlərini yığıb, otağımda qızartmaq istəyirdim ki, hardansa Vasili peyda oldu. Vasili qızartmağa hazırladığım göbələkləri tava qarışıq əlimdən alıb, həyətdəki zibil yeşiyinə atdı, sonra isə:- sən meşənin bütün zəhərli göbələklərini yığmısan, özünü zəhərləmək istəyirsən? Bu mənim birinci və axırıncı göbələk yığmağım oldu. Sanatoriyada keçirdiyim 21 gün mənim hafizəmdə böyük iz buraxmışdı. Çox vaxt fikirləşirdim ki,görəsən nə vaxtsa mən, Rusiyaya qayıdacammı?

İndi, qəsəbədə işsiz olduğum zamanlarda Rusiyaya getmək fikrim məni rahat buraxmırdı. Artıq kiçik qardaşım, sənət məktəbini bitirib teplovoz maşinisti diplomu alaraq, qəsəbədə işləməyə gəlmişdi. Təcrübə qazansın deyə, ilk vaxtlar maşinist köməkçisi kimi fəaliyyətə başlamışdı. İşsizlikdən bezdiyim üçün, beynimdə "gizli" planlar qururdum. Anamdan icazə alıb, işləmək üçün Bakıya gedərəm. Əgər Bakıda iş baş tutmasa, mütləq Rusiyaya gedəcəm, ancaq necə? Məqam axtarırdım ki, anamla məsləhətləşim. Bir gün kiçik qardaşım evdə olarkən, anama işsiz olduğuma görə narahatçılığımı bildirdim. Anam da, Allah bu yuxarıda oturanların bəlasını versin!- dedi! Öz qırılmışlarına tez iş tapırlar, ancaq sənə yox! Mən anama:- tək mən işsiz deyiləm, qəbula gələn işsiz ordusunu görsən,

məəttəl qalarsan?! Mən belə baxıram ki, bu işsizlik hələ çox çəkəcək? Bəlkə icazə verəsən Bakıya qayıdım, qardaşıma da kömək olaram. Kiçik qardaşımı da evləndirərsən, işi var, əsgərliyi də başa vurub, daha nə lazımdır ki, gələcək gəlin, həm də sənə kömək olar?! Anam axırıncı sözümü bəyənmədi. Kiçik qardaşın gözləməlidir, növbə sənindir?- deyə qeyd etdi. Anam kiçik qardaşımı uşaqlıqdan daha çox istəyirdi. Zənbilində yeməli bir şey olsaydı, bizdən gizlin onun ağzına dürtərdi. Həm də balaca qardaşım uşaqlıdan ərköyün böyümüşdü. Bu səbəbdən qardaşım anama:- bəlkə bu böyüklər heç evlənməyəcək, mən oturub gözləməliyəm? Anam isə eyni zarafatla:- sən dilini saxla, hələ gözləyəcəksən?- deyirdi. Qaradaşım bayıra çıxan kimi, anam üzünü mənə tutub pıçıltıyla dedi:- istədiyi qız var, sizin kimi fərasətsiz deyil?

Bir neçə vaxtdan sonra, anam iş yoldaşının oğlunun da işsiz olduğunu bildirərək, mən görürəm bala işsizlikdən əzab çəkirsən, əgər istəyirsən get Bakıya, qardaşına da həyan ol! Bakıda işə düzəlməyəcəyimi və uzaq Rusiyaya, qəribliyə gedəcəyimi hiss etdiyimdən gözlərim ani olaraq yaşarmışdı. Bu ayrılığın göz yaşı idi. Ancaq mən göz yaşımı, elə anamın başındakı yaylıqla sildiyimdən, anam heç nə hiss etmədi. Anamın baş yaylığın qoxusunu burnuma çəkib, ciyərlərimə ötürdüm. Anamdan aldığım bu qoxu, mənim üçün elə bil, həmişəlik ayrılığa gedən oğulun, ana qoxusuna olan ehtiyacı idi! Yola düşəcəyim gün, anam məni qucaqlayıb, mənə yaxşı yol!- dedi. Arxamca yolum uğurlu olsun deyə, bir cam da su atdı.

Kiçik qardaşım məni vaqonda yerləşdirib, xüdahafizləşdi. Birazdan qatar tərpəndi. Mən pəncərəyə yaxınlaşıb, evimizə axırıncı səfər baxacaq adam kimi, baxdım. Anam şüşəbəndən baxırdı. Gözlərim yaşardı, qəhər boğazıma dolandı- ayrılıq! Qatar getdikcə təkərlərin səsi, ədalətsiz cəmiyyətin əngəllərindən doğan ayrılığın simfoniyasını çalırdı. Səhər Bakıya çatdım. Uzun yoldan sonra fısıldayaraqləngərləyən qatar, özünə yer tapmışlar kimi, bir fit də çaldı. Çox əzgin idim. Qardaşımın kirayə qaldığı evə gedib, qapını açdım, evdə yox idi. Yəqin dərsə gedib,- deyə düşündüm. Özümə yalançı bir səhər yeməyi düzəldib, toxlandım. İlk gedəcəyin yer, işlədiyim zavodun kadr şöbəsi idi. Kadr rəisi Nina xanımla məsləhətləşməliydim. Vaxtıilə, Nina xanımın məsləhətini nəzərə almadığıma görə, xəcalət çəkirdim. Nina xanımla görüşüb, yaranmış vəziyyəti söylədim. Nina xanım vaxtılə şansı əldən verdiyimə görə, təəssüfləndi və partiya təşkilat katibi İmanova müraciət etməyi məsləhət gördü. Əslində mən İmanovun da məsləhətinə önəm verməmişdim. Təcrübəli işçi olduğuma görə, İmanov yoldaş mənim qalıb işləməyimi xahiş etmişdi. Lakin sözümdə qətiyyətli olduğumu görən İmanov, daha israr etməmişdi. İmanovun yanına getmək isə, ikinci bir xəcalət idi. Nina xanım təkid etdi, zəng edib İmanovun yerində olduğunu dəqiqləşdirdi. Məni çox yaxşı qarşılayan İmanov başıma gələnləri dinləyərək, təəssüfləndi. Pasport qeydiyyatı, mənzil növbəsi, sual altında olduğu üçün, İmanov yoldaş məsələlərin həlli üçün Həmkarlar Təşkilatının sədri və pasport masa rəisi ilə əlaqə

saxlayıb, mənə müvəqqəti pasport qeydiyyatının mümkünlüyü və beş il müvəqqəti pasport qeydiyyatından sonra, mənzil növbəsində dayanmağın qanunauyğun olduğunu bildirdi. Bilirəm, Qərib Sınıq ürəyindən keçərdi ki həmişəlik pasport qeydiyyatına düşəsən, əvvəlki mənzil uçotuna bərpa olunasan, ancaq çox təəssüf ki, mən bunun üçün çalışsam da, hökumətin qanunun poza bilmədim. O, mənə telefon nömrəsini verib, dedi:- yaxşı-yaxşı fikirləş, son qərarını bildir və mənlik nə lazım olsa əsirgəməyəcəyəm.İmanovla xudahafizləşib,otaqdan çıxaraq dərindən nəfəs alıb, Bakıda işlərimin elə də yaxşı olmayacağını düşünərək şəhərə getdim.

Şəhərdə elə bil dəyişiklik yox idi. Yeganə dəyişiklik o idi ki, Bakıdan qəsəbəyə gedəndə saralmış payız yarpaqları məni yola salmışdı, gələndə isə yaşıl donunu geymiş ağac yarpaqları,mən başıbəlalıya xoş gəldin!- deyirdi. Yazın gəlişinin bu gözəl avazı ilə, həyat talehim çox ziddiyyətli idi. Yazın gəlişini bayram edib, cikkildəyən quşlar, sevinc nəğmələrini izhar edirdi! Mənim payız qəlbim, ayrılıq nəğməsinin ilk bəndlərini oxuyurdu. Axşamı qardaşımın kirayədə qaldığı evə gəlib xoş-əhval tutaraq, dərslərinin necə getdiyini soruşdum. O, işlərinin yaxşı olduğunu, tələbəliklə bərabər, axşamlar təcili yardımda çalışdığını bildirdi. Qardaşım, mənim işsizliyimdən halı idi, ona görə də soruşdu:- bəs, indi nə edəcəksən Bakıda? Mən qardaşıma bugünkü görüş nəticələrimi danışdım, və sabahısı Maarif Nazirliyinə də dəyəcəyimi qeyd etdim.

Məni qəbul edən Maarif Nazirliyinin şöbə rəisi:- iş üçün növbədə duranların çox olduğunu bildirdi! Üstəlik Bakıya pasport qeydiyyatım olmadığına görə, iş növbəsində dayanmağın mümkünsüzlüyünü qeyd etdi. Təklif üçün bildirdi ki, Rusiyaya işləmək üçün gedənlər bizə müraciət edirlər. Əgər istəsəniz bir həftəyə gəlin, komsomol putyovkası ilə Rusiyaya işləməyə göndərək. Maarif Nazirliyindən çıxıb dəniz kənarındakı istirahət parkında yorğunluğumu almaq üçün oturacaqların birində əyləşib, işlərimin düz getməməsindən daxilən şikayətçi olaraq, xəyala daldım. Dənizin təlatümlü olması, ləpələrini sahilə çırpması, sanki mənə aciz olmamağı, talehimi dəyişdirmək üçün, mübarizə aparmağı diktə edirdi Birdən gözüm ayağımın həndəvərində gəzişən qarışqa toplusuna sataşdı. Balaca bir qarışqa özündən iki dəfə böyük əşyanı aparırdı. Mən quru torpağı götürüb, qarışqanın üstünə tökdüm. Qarışqa nəinki torpağın altında çıxdı, üstəlik bərk yapışdığı əşyanı da özü ilə aparmağa başladı. Mən bir neçə dəfə özümdən asılı olmayan tərzdə, bu proseduranı təkrar etdim və hər dəfə qarışqanın əşya ilə bərabər qurtulması, mənə məqsədə çatmaq üçün mübarizə apararaq, qalib olmağın əyani sübutunu göstərdi. Bu kiçicik hadisə məndə ümidsizliyə qapılmaq hissini öldürərək, üzümdə bir qalibiyyət təbəssümü yaratdı!

Şəhərdə yaşayan və işləyən keçmiş tələbə yoldaşlarımla əlaqə saxladım, içərisində hələ də işsiz qalanları var idi. Bir çox idarələrin qapılarını döydüm, ancaq nəticəsiz oldu, Rusiyaya getmək fikrimi qətiləşirdi.

Ən əvvəlcə anama müxtəlif tarixlərdə bir neçə məktub yazmağı qərara aldım. Ayda iki dəfə qardaşım məktubları anama göndərməliydi. Əgər anam bilsəydi ki, Rusiyaya getmək fikrim var, gecəylə gəlib mənə getməyə imkan verməzdi. Bu müddət ərzində mən Rusiyada, özümü işlə təmin etməliydim. Əks halda işsiz, pulsuz nə etməli olardım ki... İki gündən sonra Maarif Nazirliyinə gedib komsomol putyovkasını əldə edərək, Moskvaya bilet alıb,qardaşımla xudahafizləşmək üçün, evə qayıtdım. Ayrılıq məqamına bir neçə saat qalmış, qardaşımla söhbətin şirin yerində, o bilmədiyi halda, məktubları ona verdim. Qardaşım təəccüblü halda mənə baxıb, bunlar nə üçündür- deyə soruşdu? Mən bütün planlarımı ona danışıb, xahiş etdim ki, özünü təmkinli aparıb, mənim hazırkı planlarımla razılaşsın. Məni diqqətlə dinləyən qardaşım əlbəttə, həm sənin üçün çətin olacaq, həm də bizim üçün, ancaq artıq biletin əlində, demək olar ki, yola düşməyə hazırsan. Məndən böyüksən, yolun, məqsədin uğurlu olsun! Nə deyə bilərəm? Biz qardaşımla vağzala getdik. Vaqonda yerimi rahatlayandan sonra, qardaşıma:- artıq gecdir, evinə qayıt və özündən müğayət ol!- dedim. Biz öpüşüb ayrıldıq.

Qatar yola düşdü, vaqonda ağız deyəni qulaq eşitmirdi. Əksəri əyalət adamları olan sərnişinlər şirin söhbətlər edir, müxtəlif macəralardan danışırdılar. Artıq iki gün idi ki yol gedirdik. Maarif Nazirliyindən aldığım putyovkanın, mənə nə qədər kömək edəcəyimi bilmirdim. Ancaq sanatoriyada olan zaman, Volqa çayının iki yerə böldüyü və öz gözəlliyi ilə məni valeh etdiyi K. şəhərinə gedəcəyimi

qətiləşdirmişdim. Nəhayət, Moskvaya çatdıq. Çamadanımı götürüb K. şəhərinə getmək üçün, digər vağzala yollandım. K. şəhərinə bilet alıb, qatarın getməsini gözləmək üçün, gözləmə zalına getdim. Oturacaqda yerləşib, dincəlməyə çalışdım. Birdən oturacaqların birindən mənə qayğılı nəzərlərlə baxan, 9-10 yaşlarında qara qaş, qara göz bir qız uşağının baxışları diqqətimi cəlb etdi. Ətrafıma baxdım, ona oxşar olacaq kimsəni görmədim. Ürəyimdən bir gizilti keçdi:- bəlkə valideynlərini itirib, məndən kömək umur? Nə qədər də çalışsam yenə qızın baxışlarından yayına bilmədim. Narahatçılığıma son qoymaq üçün qız uşağına yaxınlaşıb:- sənin valideynlərin varm?- deyə soruşdum.O isə gülərək, yanında əyləşmiş cavan, sap-sarı və elədə cəlbedici görünüşü olmayan rus xanımını göstərərək, anamdı?- deyə bildirdi. Beləcə söhbətimiz şirinləşdi və mən öyrəndim ki, rus qadın məni qızına göstərərək, atasına çox oxşadığımı demişmiş. Atasız olan qız uşağı marağını saxlaya bilməyib, yəqin ki görmədiyi atası haqqında təssəvür yaratmaq üçün, gözlərini mənə zilləmişdi. Anası İrina xanım vaxtılə mənə oxşar, əslən Qafqazlı olan bir əsgərlə eşq məcrası yaşamış və bu macəradan qızı dünyaya gəlmişdi. Onlar Moskvaya gəzməyə, alverə gəlmişdilər.Onların qatarının yola düşmək vaxtı, mənim qatarımın gedəcəyi vaxtdan bir saat qabaq idi. Yükləri çox olduğundan onlara kömək edib, yola salmağı xahiş etdilər. Əlbəttə mən qara gözlü baladan keçmədim və kömək etməyə razılıq verdim. Çamadanımı gözləmə zalındakı saxlama kamerasına qoyub, onlarla həmsöhbət olmağı və

sonradan yola salmağı qərara aldım. Qatarın getmə vaxtına az qalmış, onları vaqonda yerləşdirmək üçün yüklərdən yapışdım. İrina və qızını vaqonda yerləşdirib düşmək istəyərkən, xanım mənə öz ünvanı yazılmış vərəqəni təqdim edərək, gözləmədiyim halda məni qucaqlayıb öpdü. Bizə qonaq gəlsən, mən və qızım çox şad olarıq! – dedi. Qatar tərpənəndə ana- bala mənə əl yelləyirdilər. İlk dəfə idi ki, cavan bir xanımın qucaqlayaraq məni öpməsi, daxili duyğularımı hərəkətə gətirərək, məni haldan-hala salmışdı. Ələlxus balaca qızcığazın surəti gözümün önündən getmirdi. Elə ki, vaxt çatdı K. şəhərinə gedəcək qatarımın vaqonunda yerimi rahatlayıb, yuxuya getdim. Səhəri bələdçi hamını oyadıb yorğan- döşək üzlərini gətirməyi xahiş etdi.

Bir neçə dəqiqədən sonra mən artıq K. şəhərinin vağzalında idim. Çamadanımı özümə yük etməmək üçün saxlama kamerasına yerləşdirib, ucuz olacaq mehmanxana tapmaq üçün şəhərə getdim. Şəhərin mərkəzində, ancaq yatmaq üçün çarpayı kirayə verən, yataqxana tipli qonaq evində yer götürdüm. Qonaq evində bir –iki nəfərdən başqa heç kim yox idi. Qəzet-jurnal köşkünə dəyib, qəzetlərdəki çap olunmuş elanları nəzərdən keçirtdim. Fikrim-zikrim ancaq, ev almağa imkan verən tikinti idarələrini müəyyən etmək idi. Bütün günü şəhəri gəzib, şəhərdə şam yeməyini yedikdən sonra hava qaralmağa az qalmış, gecələmək üçün qonaq evinə qayıtdım. Çarpayılarda oturaraq, bir-birilə söhbət edənlər əyalətdən gəlmiş alverçilər idilər. İçkiyə icazə verilməsə də, əllərindəki zənbildən çıxarılmış çaxır və

araq butulkalarının ucluğunu necə ağızlarına aparıb, gizlincə içdiklərini görməmək mümkün deyildi. Mən onlara fikir verməyib yuxuladım, lakin gecə yarısı baş verən səs-küy məni yuxudan oyatdı. Milislər gəlib sakitlik yaradaraq, günahkarları özlərilə apardılar. Artıq yuxum qaçmışdı. Vurnuxaraq gah o tərəfə, gah bu tərəfə çevrilsəm də yuxu tapa bilmədim. Səhəri, şəhərə baş vurub, iki- üc müəssisəyə də müraciət etdim. Boş vakansiya olmadığından çox yorğun bir halda qonaq evinə qayıtdm. Qonaq evinin admisrtaroru gözəl təbiətli bir rus xanım idi. Söhbət zamanı bildirdi ki, şəhərdəki işə düzəltmə bürosuna müraciət etsəm iş taparam, sonra da əlavə etdi ki, yəqin ki qonaq evi sənin üçün çətinlik yaradır. Qarşıda elan lövhəsi var, orada ucuz kirayə ev tapmaq mümkündür. Gecəni birtəhər yola verib, sabahısı həm kirayə ev tapmağa, həm də  iş üçün işə düzəltmə bürosuna müraciət etməyi planlaşdırdım. Səhəri işədüzəltmə bürosuna gedib pasport və krançı vəsiqəmi büro işçisinə təqdim etdim. Bir neçə dəqiqədən sonra büro işçisi mənə iş tapdığını bildirdi. Xanım "JBK" adlı idarəyə krançı tələb olunduğunu bildirərək, kadr rəisi ilə danışdığını və nahardan sonra qəbulda olmağımı  qeyd etdi. Büro işçisi mənə işə düzəlmək üçün göndəriş yazıb, uğurlar dilədi. Mən xanıma təşəkkür edib, mənə verilmiş göndərişdəki "JBK"-nın ünvanını axtarmağa başladım. Soruşduqlarım nəzakətlə mənə düzgün istiqamət verdiklərindən vaxtında idarəni tapdım. Göndərişi vaxtaya göstərib, kadrlar şöbəsinə daxil oldum.

Yaşıl göz, şabalıdı saçlarını yanaqlarına tökmüş Tatyana İvanovna gülərüz məni qəbul etdi. Pasport və krançı vəsiqəmi nəzərdən keçirib, krançı tələb olunan sexin rəisini otağına dəvət etdi. Bir neçə dəqiqə keçməmiş saqqallı, başında kaskası olan sex rəisi özünü Vladimir İqnatoviç olaraq təqdim etdi. Mən isə Karip deyərək,adımı bildirdim. Sex rəisi əmək kitabçama və krançı vəsiqəmə baxıb, bir ay şagird kimi işləyəcəyimi bildirdi. Əlbəttə ki, mən razılıq verdim. Sex rəisi uğurlar arzulayıb, otaqdan çıxdı. Tatyana İvanovna işə düzəlmək üçün mənə həkim komossiyasından keçməyin məcburi olduğunu bildirərək, mənə göndəriş verdi və sonra da əlavə etdi ki, əgər tibbi komissiyadan keçsən, mən sənə pasport qeydiyyatına düşmək üçün, yeni göndəriş verəcəm. Qarşıdan şənbə, bazar -istirahət günləri gəldiyindən, Tatyana İvanovna bazar ertəsi tibbi komissiya yerləşdiyi poliklinikaya getməyi məsləhət görüb, poliklinikanın da ünvanını mənə verdi. Təşəkkürümü bildirərək otağı tərk etdim. Zavoddan həyətə çıxıb, heç olmasa poliklinikanın yerini öyrənməyi və bazar ertəsi günü vaxtı itirməməyi qərar aldım. Hava qaralmamış ev kirayə etməyin lazım olduğunu düşündüm.

Mərkəzdəki elan lövhəsinin nəzərdən keçirib, telefon nömrəsi qeyd olunmuş bir neçə ünvana zəng etdim. Ucuz kirayəsi olan ev, mənə maraqlı oldu. Kirayə verən şəxs adının Vitali olduğunu deyərək, bir saata elan olan yerə gələcəyini bildirdi. Heç bir saat keçməmiş qarşımda keçəl, orta boylu, üzü tüklü və nimdaş paltarlı bir adamın Vitali-deyə,peyda olması, məni az- çox məmnun etdi. Vitalinin

pintiliyi məni ehtiyatlandırsada, kirayə ev mənim cibimə uyğun olduğundan razılaşdım. Biz vağzala getdik, mən çamadanı götürüb taksi tutaraq, Vitali ilə birlikdə kirayə qalacağım evə yollandıq. Yol boyu hər tərəfə diqqətlə baxıb, marşrutların nömrəsini nəzərdən keçirirdim.Əslində, soruşmaqdan xoşum gəlmirdi və başqalarına əziyyət vermək istəmirdim.Həm də bilmək və dəqiqləşmək daha yaxşı olardı. Mən taksinin mənzil başına tez çatmağını arzulayaraq,tez-tez sayğaca baxırdım. Pul xərcləmək işlərində əsil iqtisasçı idim. Elə xərcləyirdim ki, hər şey öz qaydasında olardı. Pulun çox hissəsini gizlədər, çüzi bir hissəsini cibimdə saxlayardım. Nəhayət biz şəhərin kənarında, taxta evlərin birində dayandıq. Sayğacda yazılmış 2 rubl 80 qəpiyi ödədim, 20 qəpik qalığı şirinlik olsun- deyə, sürücüyə saxladım. Taksi sürücüsü gülümsəyərək:- siz Qafqazlılar hamınız beləsiniz, ürəyi açıq və varlı! Mənim 20 qəpiyi götürməməyim və təbəssümlü olmağım Vitalinin qırışığını açmışdı. Yol boyu susqunluğum, ciddiliyim və sonradan təbəssümlə danışmağım Vitalidə, məndən pul qoparmaq üçün stimul yaratmışdı. Vitali mənə iki rublu, ona verməyi xahiş etdi və bildirdi ki, qonağı gələcək.Sonra göstərici barmağını boğazına yaxınlaşdıraraq, çırtma ilə vurdu.Bu da onun nə fikridə olmasını mənə qandırdı. Araq dalınca gedən Vitali bir neçə dəqiqədən sonra, əlində butulka peyda oldu. Taxta darvazanı açıb evə daxil olduq. Qapıdan girəndə şüşəli qapısı olan birinci otaqda,məhim qalacağımı qeyd etdi. Otağa daxil olanda, kif və üfunət iyisi burnumu elə

qıcıqlandırdı ki, möhkəm bir öskürək beynimi yerindən oynatdı. Narahatçılıq məni götürdü:- mən buranı nə qədər təmizləməliyəm ki, bu “murdar” iylərdən xilas olum! Çamadanımı bir küncə qoyub, otağı səhmanlamaq fikrinə düşdüm. Mən Vitalidən bu yaxınlarda təsərrüfat dükanının olmasını soruşmaq istədim. O isə masaya qoyduğu iki stəkanı mənə göstərərək:_ mağazaya sonra gedərsən, gəl otur tanışılıq üçün boğazımızı yaşlayaq?- dedi. Mən ona içki aludəcisi olmadığımı bildirdim. Vitali həyətə çıxıb təsərrüfat mağazasını əlinin istiqaməti ilə mənə göstərdi. Bir təhər təsərrüfat mağazasını tapıb, kimyəvi təmizləyici aldıqdan sonra, yaxınlıqdakı ərzaq mağazasından şam yeməyi üçün azuqə də götürdüm. Geri qayıdıb qapını açanda Vitalinin özündən başqa, saçları dağınıq, əzik- üzük paltarlı, vulqar bir qadınla stəkanları toqquşdurduğunun şahidi oldum. Axşamınız xeyir!- deyərək, cəld otağıma keçdim. Əlimdəki zənbili bir tərəfə qoyub, birdən çamadanımı açıq, paltarlarımı isə qarışdırılmış gördüm. Fikir məni götürdü, yəqin pul axtarırmış?- deyə, düşündüm. Bu gecə vaxtı, içkili bir adamı sorğu- sual etməyi məğbul hesab etmədim. Üfunətli otaqda şam yeməyi mümkün olmadığından otağı təmizləməyə başladım. Çarpayı, masa və kətillərin cırhacırı sanki, zəlzələ nəticəsində əsən xaraba əşyalarına bənzəyirdi. Yorğan-döşək üzləri isə, aylarla yuyulmadığından qap-qara idi. Şam yeməyinə təzəcə oturmuşdum ki, qapım bərk döyüldü. Üz-gözü qıpqırmızı, səngərləyən Vitali məndən kirayə haqqını tələb etdi. Mən ona bildirdim ki, şam yeməyimi

qurtarandan sonra pulunu verəcəm. O isə sükunətini saxlamaq üçün, bir əli ilə qapıdan tutub:- kirayə pulunun bu dəqiqə verməsini tələb etdi? Əslində mən ona kirayə pulunu verəcəydim, sadəcə olaraq pulu haradan götürəcəyimi bildirmək istəmirdim. Eyni zamanda çamadanımın eşələnməsi məndə şübhə yaratmışdı. Əsəbi halda ayağa durub ona bir daha təkrar etdim ki:- şam yeməyini bitirməyincə, ona kirayə pulu verəcək deyiləm! Sonra Vitalinin tərsliyini görüb, qeyd etdim ki, bizim adətimizə görə, adamı yemək üstündə narahat etməzlər. Tör-töküntülü və biyabırçı halda qapıya yaxınlaşan qadın:- gəl gözləyək, bu "bazarçı qaramazlı"nın adətini pozma! Vitali yaxşı:- gözləyək deyib, qadınla getdi. Mən tez 20 rubl hazırlayıb, şam yeməyimi tamamlayandan sonra, Vitalini səsləyib 20 rublu verdim və bildirdim ki bir ay məni narahat etməsin. Onlar bir yerdə çöl darvazanı bağlayıb harasa getdilər. Mən otağımda yaşayışım üçün nə varsa siyahısını tutub sabahısı gün almağı planlaşdırdım. Yorğun olduğum üçün, elə paltarlı yuxu məni apardı.

Yuxuda, anam və qardaşlarımın şirin-şirin söhbətləri mənə xoşbəxt anlari yaşadırdı. Qapının bərk-bərk döyülməsi xoşbəxt anları mənə yaşadan yuxunu yarımçıq qoydu. Hələ harada olduğumu dərk etməyərək, yarı yuxulu hövlank oyandım. Birdən, Vitalinin qışqıraraq:- qapını aç, mənə pul ver?- deməsi, mənə harada olduğumu aydın etdi. Qapını açıb əsəbi halda:- niyə qapını sındırırsan, mən ki sənə bir aylıq kirayə pulunu vermişəm? O isə, bilmirəm ya mənə pul verirsən, ya da bu dəqiqə otağı tərk

edirsən! Artıq mən başa düşdüm ki, burada, bu cür məsuliyyətsiz insanla kirayəçi kimi yaşamaq mümkün olmayacaq. Mən ona:- 20 rublu qaytar, gedirəm?- dedim. Vitali səngərləyərək, iki barmağı arasından baş barmağını göstərərək "fik" sənə- dedi. Ya pulu verirsən, ya da çıxırsan! Vitali bu qaranlıqda, gecə yarısı heç yerə getməyəcəyimi, ona pul verəcəyimi özü üçün yəqinləşdirmişdi. Sükunətini saxlaya bilməyən, tez-tez yerə yıxılan, Vitali göstərici barmağını mənə silkələyərək, pul tələb edirdi. Arxada, çarpayıda tör-töküntülü halda yatan rus arvadının xorultusu eşidilirdi. Mən çamadanımı götürüb, Vitalinin qarnına təpik qoyaraq:- al bu da sənə 20 rubl əvəzi!- deyib, evi tərk etdim. Vitali yıxılmış halda, hələ də mənə barmağını silkələyirdi.

Bayıra çıxdım. Havada isti bir ılıqlıq hiss etdim. Saata baxdım 4- tamam idi. Yəqin ki, birazdan işıqlanar?- deyə düşündüm. Darvazanın qarşısındakı kiçik bir gölməçədə, qurbağaların qurultulu marşı, sanki məni yola salır, göydə isə sayrışan ulduzlar, qaranlıq zülmətdə yoluma işıq saçırdı. Bir az aralıda itlərin hürüşü, ılıq havanı udmaq istəyən canıma soyuq üşütmə gətirdi. Mən dar küçələrlə, yavaş-yavaş addımlayır və havanın işıqlanmasını səbirsizliklə gözləyirdim. Fikrimdə marşrut yoluna necə çıxacağımı götür- qoy edir, diqqətlə haradan və necə gəldiyimiz yollara baxaraq hərəkətimə davam edirdim. Bir xeyli yol getdikdən sonra marşrut yoluna çıxa bildim. Artıq havalar işıqlanır, sayrışan ulduzlar isə mənə yaxşı yol!- deyərək qeyb olurdular. Mərkəzə getmək üçün yolun hansı

səmtində dayanacağımı müəyyən edə bilmədiyimdən kənar bir yerdə çamadanı yerə qoyub üstündə oturdum. Bir neçə vaxtdan sonra uzaqdan, işıqları ilə gözümü qamaşdıran avtobusun gəldiyini gördüm. Əl edib saxlatdım, şəhərə, mərkəzə gedəcəyimi bildirdim. Sürücü isə mərkəzə gedirik, otur əyləş?- dedi. Avtobusda məndən başqa heç kəs yox idi. Bir neçə dayanacaqdan sonra, avtobusda müəyyən qədər sərnişin əyləşmişdi və böyük canlanma əmələ gəlmişdi. Mərkəzdə düşüb dəmir yol vağzalına getdim. Çamadanımı gözləmə zalındakı saxlama kamerasına qoyub, küncdəki kofexanada səhər yeməyini nuş etdim. Biraz dincəldikdən sonra, əvvəl qaldığım qonaq evinə getdim. Məni ilk görən rus xanımı kirayə ev tapmadın?- deyə soruşdu. Mən isə başıma gələnləri ona danışdım. Xanım, ilk baxışdan qarşına belə bir adamın çıxdığını görə təəssüfləndi və əksər insanların belə olmadığını qeyd edərək, sadəcə sənin bəxtin gətirməyib!- dedi. Mən isə xanıma, əksər vaxt bəxtimin, "zor" olduğunu söylədim! Üçgünlük kirayəni əvvəlcədən ödəyib şəhərə getməli oldum. Əlbəttə, işə düzəlib yataqxana əldə edəcəyimə böyük ümidim var idi. Boş vaxtlarımı daha faydalı keçirmək üçün, şəhər kitabxanasını tapmaq, yerli mətbuatla tanış olmaq mənə hava-su kimi lazım idı. Yaxınlıqda kitabxananın olduğunu öyrənib kitabxanaya getdim. Böyük oxu zalında qeydiyyatdan keçib, yerli və mərkəzi mətbuatları mütaliə etməyi başladım. Yaxınlıqda olan yeməkxanada nahar etdikdən sonra, yenidən kitabxanaya qayıdır və mütaliəni davam etdirirdim. Bazar

gününü də belə keçirdib, bazar ertəsi günü poliklinikaya getdim.

Poliklinika saat 8-də işə başlayırdı. Tibbi komissiyaya növbə tutub, çağrılacaq vədəmi gözləməyə başladım. Nəhayət qəbul komissiyası tibbi vərəqəmə baxıb, bəzi dərkənar etdilər. Tibbi komissiyada həkimlərin yoxlanışından yararlı olaraq keçib, qulaq-burun-boğaz həkimində ilişdim. Həkimin pıçıltıyla qulaqlarıma dediyi sözləri yaxşı ayırd etmədiyimdən, həkim mənə:- bəs sən bu kar qulağınla, necə krançı işləmisən?- deyə, soruşdu. Həkimə bildirdim ki, sadəcə olaraq rus dilini yaxşı bilmədiyimdən belə alınır. Həkim gülümsəyərək, indi səni mərkəzi xəstəxanaya göndərəcəm, orada aparatdan keçmək lazım gələcək, rus dilini bilməmək məsələsi aparatda keçməyəcək. Həkimdən işə yararlı olmağımı qeyd etməyi xahiş etsəm də, faydası olmadı. Həkim, krançıda eşitmə üzvü sağlam olmalıdır, əks təqdirdə hər hansı bir hadisə olsa biz cavabdehlik daşıyırıq. Get aparatdan keç, bəlkə hər şey yaxşı olacaq! Vaxtımı itirmədən göndərişi götürüb mərkəzi xəstəxanaya getdim. Yaşlı həkim, qulaqlarıma səs qəbul edən mikrafonu qoyub əlimə düyməcik verərək, eşitdiyim tərzdə düyməciyi basmağa xahiş etdi. Nəticədə müəyyən qədər siqnalları yaxşı təyin edə bilmədim. Vəziyyətimi yaşlı həkimə danışıb, ondan yararlı olmaq qeydiyyatını etməyi  xahiş etdim. Mənə diqqətlə süzən həkim, qulaqlarımı diqqətlə yoxlayıb, qulağımda uşaqlıqdan sinir pərdəsinin iltihabı xəstəliyi olduğunu qeyd etdi. Xeyli dərman yazıb, bildirdi:- Mən sənin vəziyyətini

başa düşürəm və sənə yararlı qeyd edirəm, bu şərtlə ki, yazdığım dərmanları vaxtı-vaxtında qəbul edəsən?! Əgər dediklərimə əməl etməsən, sən qulaq sağlamlığını itirəcəksən, əlavə də gələn il yenidən tibbi komissiyaya gələndə, əgər mən olsam, sənin kran işinə yararsız olduğunu qeyd edəcəm! Məni başa düşdün cavan oğlan! Özünə də hörmət qoy, mənə də! Həkimə, mənə hörmət etdiyinə görə təşəkkürümü bildirib bayıra çıxanda, gülərək məni saxlayıb, məndən əvvəl cərrah və travmatoloq öz hörmətlərini etmişlər,narahat olma! Düzünü desək, travmatoloq məni çox çək-çevir etmişdi, mən isə idman sahəsinə yaxşı bələd olan adam kimi, idman fokuslarımla onu tibbi vərəqəyə yararlı olmağı qeyd etməyə məcbur etmişdim. Artıq poliklinikaya getmək gec olduğundan, qonaq evinə getməyi qərarlaşdırdım. Axşamı qonaq evinə gələndə məni ilk qarşılayan administrator xanım soruşdu:- hə, necədir işlərin? Mən isə sevincimi onunla bölüşdürürmüş kimi, tibbi komissiyadan keçdim, yəqin ki sabah işə qəbul edərlər-dedim. Bax görürsənmi, işlərin yaxşılığa doğru gedir. Tezliklə hər şey qaydasına düşəcək. Gecəni qonaq evində keçirib, səhəri zavoda gedərək, Tatyana İvanovnayla görüşdüm. Tatyana İvanovna məni gözləyirmiş kimi:- nə etmisən, sənədləri ver görüm? Sənədləri diqqətlə nəzərdən keçirən Tatyana xanım, mənə işə qəbul olunmaq üçün ərizə yazdırdı. Həmin ərizə ilə mən sex rəisinin, təhlükəsizlik şöbəsinin və digərlərinin qəbulunda olub, sorğu- sualdan keçdim. Tatyaan İvanovna yataqxanada yer almaq, sonradan pasport və hərbi

qeydiyyatdan keçməyim üçün, yeni göndərişlər yazaraq mənə təqdim etdi. Məni işə girməyim münasibətilə təbrik edən Tatyana xanım, sabah saat səkkizdə işə gəlməyimi bildirdi. Tatyana xanıma təşəkkürümü bildirərək yataqxanaya yollandım.

Məni qəbul edən yataqxana komendantı, həddindən artıq kök, şabalıdı rəngli, qıvrım saçları olan bir xanım idi. Sənədlərimə baxıb 4-cü mərtəbədə boş yer olduğunu qeyd edərək, vaxtada olturan yaşlı qadını çağırıb, mənə açarı verməyi və otaqdakı çarpayını səliqə-səhmana salmağı xahiş etdi. Yaşlı xanım açarın lövhədə asılı olmadığını, otaq sakinlərinin açarı özləri ilə apardıqlarını söylədi. Komendant mənə gözləməyi xahiş edib, bildirdi ki, başqa yerimiz yoxdur, olsaydı səni gözlətdirməzdik. Mən qapıdan çıxanda komendantın:- bu "qaramazlılar" az idi, indi də biri gəldi?- deməsini eşitdim. Fikirləşdim ki, yəqin Qafqazdan çoxlu nümayəndələr burda yaşayır və işləyirlər. Çamadanım saxlama kamerasında olduğundan şəhərin görməli, gəzməli yerlərini dolanıb, axşam hava qaralmamış saxlama kamerasından çamadanımı götürüb, yataqxanaya yollandım. Məni görən yaşlı, gözətçi xanım:- otaq yoldaşların gəliblər, qalx 4-cü mərtəbəyə 73-cü otağın qapısını döy?- deyə bildirdi. 4-cü mərtəbəyə qalxıb 73-cü otağın qarşısında özümə biraz düzəliş verərək, qapını döydüm. İçəridən xorla:- qapı açıqdır keçin içəri?- dedilər. Yavaşca qapını açıb gördüklərimdən şoka düşdüm. Bir an fikir məni götürdü ki, yenə mən hara gəlmişəm, yəqin abrım gedər?! Yenidən xorla:- keç içəri, bu çarpayı sənindir,

keç rahatlan? Üstü qanla bulaşmış döşəyi, dağınıq çarpayını və bu üç nəfər otaq sakinlərinin qaralmış sifətlərini,bir anlıq seyr etdiyimdən,bərk təəccüblənmişdim. Gördüklərimdən, özümü təlaşa salmamaq üçün, çalışırdım özümü idarə edim. Ortada kart var idi. İki nəfərin gözlərinin altı qap-qara şişgin, ətrafı qanla örtülmüşdü. Onlar mənə qorxma, biz "poker" oynayırıq, uduzan göz altına "fara" qazanır!- deyə gülümsədi. Aha, vəhşiliyə bax!- deyə düşündüm. Özlərini təqdim etdilər: Toxa, Vaska, Vanka. Bəs sənin adın necədir? Mən kefsiz halda Karib- deyə bildirdim və çamadanımı çarpayının yanına qoyub, barmağımın ucu ilə, qanlı döşəyi kənara itələdim.Çarpayıya oturub otağı nəzərdən keçirdim. Mənim çarpayımdan əlavə, üç tör-töküntülü çarpayı, tumbanın və masanın üstündə yuyulmamış çirkli qab-qacaqlar diqqətimi cəlb etdi. Dostlar mənə fikir vermədən "poker" oynayırdılar, uduzan isə cəzasını çəkirdi. Mən ömrümdə belə bir cəfəng "göz şişirtmə" oyununu yatsam belə, yuxumda da görməzdim! Təsəvvür edin:- uduzan dizi üstə oturur, bir nəfər əli ilə uduzanın başını möhkəm saxlayır, udan isə uduzanın gözünü nişan alaraq, yumruqla necə vururdusa, uduzanın vurulan gözü əvvəlcə qızarır, sonra yavaş-yavaş bənövşəyi rəngə çevrilir və bir müddətdən sonra göz altı şişərək, qap-qara tuluğa çevrilirdi. Belə bir əcaib oyunu, o vaxtlar çox populyar olan hind kinolarında belə görməmişdim! Biz yeniyetmə vaxtı kart oynayardıq, uduzan adam yanağını nəfəslə şişirdər, udan adam isə barmaqlarını cütləyərək, havalı yanağa vurardı. Udardan, havalı yanaq tab gətirməz

və yanaqdakı ağız dolu havanı bayıra buraxardı, bu isə bizdə gülüş doğurardı. İndi "poker" oynayanların bir-birlərinə verdikləri cəzanı gördükdə, bizim "humanist" oyunumuza yüz dəfə şükür etdim. Artıq gec idi. Yatıb yuxu almaq və səhəri işə getmək lazım idi. Mənə fikir verməyən dostlar, bir-birlərinin qap-qara qaralmış gözlərinə istehza edərək, "poker" oyunlarını davam etdirirdilər. Məni oturduğum yerdə, yuxu basırdı. Fikirləşirdim ki, sabah necə olursa, olsun otağımı dəyişməliyəm. Əlbəttə ki, mən belə bir yerdə heç cürə yaşaya bilməzdim. Yuxu məni üstələsə də, mən çalışırdım ki yatmayım, nə bilim bəlkə yatdığım yerdə mənim də gözümə "fara" qoyacaqdılar?! Özümü yuxuluğa vurur, ancaq qıyğacı gözlərim ilə, onların hərəkətlərinə nəzər yetirirdim. Birdən hay-küyə gözlərimi açdım, səhər idi, saat altı olardı. "Poker" oynayan otaq yoldaşlarım gözləri qap-qara olduqları halda, masanın üstündə olan qazandakı bir qaşığı, bir-birlərinin ağızlarına apararaq, guya, səhər yeməyini yeyirdilər. Dostlardan biri mənə üz tutaraq:- ey dost, açarı al, ancaq aşağıdakı lövhədən asmağı yaddan çıxartma?- deyərək getdilər. Qapını arxadan bağlayıb, pəncərədən çölə, burum-burum tüstüləyən qazanxana turbasına baxıb,keyimiş sümüklərimi sındırmaq üçün, gərnəşdim. Sümüklərim elə bil, illərlə kütləşmişdi, sındırmaq istəyirmiş kimi qolumu yana atıb,bir balaca idman etdim. Otağı nəzərdən keçirib, dostların qazandakı səhər yeməklərinə baxdım. Qazanın içində düyüdən və sudan başqa heçnə yox idi. Yəqin düyü həlimi bişiriblər?- deyə düşündüm. Qərarım qətiləşmişdi.

Başqa otaq almağa, çalışacaqdım. Çamadanımı götürüb aşağı vaxtaya yaxınlaşdım. Vaxtada oturan yaşlı xanıma açarı verib, çamadanımı saxlamağa yer varmı? Gözətçi qadın sənə ki otaq veriblər, niyə çamadanını otaqda saxlamırsan? Mən xanıma:- otaqda heç vaxt qala bilmərəm, mənə başqa otaq vermək lazım gələcək,bu barədə mən kadr rəisi ilə danışacam!  Yaşlı xanım:- axşam komendantın yanına gəl, sənə yaxşı yer versin! Mən komendantın “qaramazlı Qafqazlılar” ifadəsini eşitdiyimdən, yaşlı xanımın sözlərinə əhəmiyyət vermədim və işə getdim.Zavoda gedib,Vladimir İqnatoviçlə görüşdüm. Sex rəisi kabinetinə çağırdığı usta köməkçisinə, məni göstərərək, tanış ol:- yeni krançıdır, bizdə işləyəcək, bir aya kimi şagird işləsin, sonra estekadakı körpülü krana əmrini verərik. Usta köməkçisi Mişa ilə sexə getdik. Kranda işləyən çox gənc və gözəl bir xanımı,Mişa barmaq işarəsi ilə aşağı düşməyə xahiş etdi. Qız bizə yaxınlaşıb salamlaşdı. Usta köməkçisi Mişa məni gənc qıza təqdim edib, sənin təzə şagirdin olacaq, kranın sirlərinin yaxşı öyrət, sonra estekadaya göndərəcəyik. Gənc qız, baş üstə deyib, özü ilə bərabər məni krana qalxmağa dəvət etdi. Kranda gənc qız tanışlıq üçün, özünü Olya- deyə, təqdim etdi. Mən isə Karib deyərək, adımı bildirdim.Onun yaşıl şəffaf gözləri, uzun rənglənmiş qara kiprikləri, arxaya yığılmış sarışın saçları, yumru sifəti və sifətə yaraşıq verən ağ mərcan dişləri, qabarıq qırmızı dodaqları, dik rus burnu çox cəlbedici idi. Gülümsəyəndə isə adamın ağlını, özü ilə aparırdı. İş zamanı ona baxmaqdan doymazdım. Mən hər dəfə işlə

maraqlanmaq əvəzinə, ona uyumuş kimi baxanda, gənc qız gülərək:- mənə yox, işə bax onda tez öyrənəcəksən?- deyərdi. İşdən çıxanda sex rəisi:- hə, necədir işlər Karib? Olya deyir ki, sən kran işini yaxşı bilirsən! Düzünü desəm iş zamanı mən yaxşı krançı olmağımı Olyaya göstərmişdim və ona deyirdim ki, mən əvvəllər kranda işləyəndə, kranıma "TU-134" adını qoymuşdum. O isə gülərək, zarafatla:- bax haa, birdən kranı göyə qaldırarsan? Sex rəisinə bütün gecəni rahat yatmadığımı və verdikləri otağın "yaramaz" sakinləri ilə, yaşamağın mümkün olmadığını bildirdim. O mənimlə bərabər, kadr rəisinin yanına gedib, narahatçılığımı ona bildirdi. Kadr rəisi döşümdəki Universitet ulduzumu görüb, sənin ali təhsilin vardır?- deyə soruşdu. Mən başımın işarəsi ilə, ali təhsilli olduğumu təsdiq etdim. Kadr rəisi isə, niyə ali təhsilli olduğunu bizə deməmisən?- deyə, iradını bildirdi. Mən krançı olaraq, zavodda işləməyi üstün tutduğumu qeyd etdim. Tatyana İvanovna bir qədər susub, sonra komendanta zəng edərək, mənə yaxşı otaq verilməsini xahiş etdi. İşdən birbaşa yataqxanaya yollandım. Komendant Zoya xanım, məni görcək əl-ayağa düşdü. İkinci mərtəbədə bir çarpayıcısı , televizoru, soyuducusu olan qonaq evinin açarını mənə təqdim etdi və qeyd etdi ki, müvəqqəti olaraq burada yaşa, sonra sənə başqa bir yaxşı otaq verəcəyik. Komendant rişxəndlə, sən axı ziyalısan, türmədə yatıb, çıxan fəhlə deyilsən?- deməyi də unutmadı.Komendatın eyhamı, dünən gecələdiyim otaqdakıların, vaxtılə türmədə yatmış olduqlarını təsdiq etmiş oldu. Komendanta "təşəkkür" edib,

otağa daxil olaraq ağappaq, tər təmiz çarpayının üstünə özümü atıb, dərindən bir oxayy- dedim! Elə bil ürəyimdə qalıb, yaraya səbəb olmuş tikanı çıxarmış oldum.

Qardaşıma məktub yazıb, işlərimin qaydasına düşməyi haqqında tez məlumat vermək istəyirdim. Vaxtaya düşüb, yataqxana ünvanımı dəqiqləşdirdikdən sonra, qardaşıma məktub yazıb, ünvanladım. Yaxınlıqdakı ərzaq mağazasından şam yeməyi azuqəsini alaraq, otağıma qayıtdım. Evi səliqə səhmana salıb, yatmaq istədim,ancaq elə bil yuxum ərşə çəkilmişdi. Atamı, anamı, qardaşlarımı və qocamı yadıma saldım. Keçmiş əzablarımı kino lenti kimi gözümün önündən keçirməyə başladım. Sonra hiss etmədən yuxu məni apardı. Səhəri yuxudan oyanıb işə yollandım.Zavodun vaxtasından keçəndə, gözlərimə inanmadım. Lövhədə məni 28 yaşımı təbrik edən elanı gördüm. Təbrik edənlər:- kadr idarəsi, həmkarlar təşkilatı, işlədiyim sexin rəhbərliyi idi. Sexə gedərkən, sex rəhbəri, usta köməkçisi və bir neçə tanımadığım adamlar məni təbrik etdilər və uğurlar arzuladılar. Krana qalxdım. Yaşılgöz Olya məni təbrik edərək, bəs hanı sənin ad günü tortun?- deyə soruşdu. Mən ona dedim ki, əgər lövhədəki təbriki görməsəydim, ad günüm təmiz yaddan çıxardı. Olya bufetimizdə tort olduğunu qeyd edərək, nahar vaxtı ad gününü qeyd edəkmi?-deyə soruşdu.Mən gülümsəyərək,raziliğimi bildirdim. Nahara az qalmış, Olya yüngül işləri mənə tapşırıb, əlinin işarəsi ilə tort almaq üçün 15 rubl tələb etdi. Nahara gedəndə şirniyyatlarla bəzədilmiş masada, iş yoldaşlarımızla birgə ad günümü

qeyd etməli olduq. Mən sex rəisinə, partiya uçotuna düşmək üçün, katibin yanına getməyimin lazım olduğunu qeyd edib, icazə istədim. İkinci mərtəbəyə qalxıb katibin qapısını döydüm. Buyur deyərək, qapını açan partiya təşkilat katibi, məni kabinetinə dəvət etdi. Saçı arxaya daranmış, qalstuklu, sarışın və çox ciddi katib partiya biletimi alıb qeydiyyatdan keçirtdi. Katib, gülümsünərək əlini irəli uzadıb, ad günün mübarək, yoldaş Karib!- dedi. Katib bir aylıq iş qaydası yazılmış vərəqəni mənə təqdim edərək, ciddi şəkildə nizam-intizama riayət etməyin lazım olduğunu nəzərimə çatdırdı. Katibin otağından çıxıb, sexə,işimin dalınca yollandım.

İşlərim qaydasına düşmüşdü. Yataqxanada Dağıstan əsilli uşaqlar daha çox idi. Onlardan əlavə, yataqxanada iki həmyerlim də var idi. Həmin həmyerlilərdən biri ali təhsil alır, həm də işləyirdi. Bir ay tamam olmamış məni estekadaya işləməyə göndərdilər.

Bir gün iş başında olarkən, sex rəisinin məni kabinetə çağırıb, partiya təşkilat katibinin mənimlə nə haqdasa söz-söhbət edəcəyini bildirdi. Nahardan sonra katibin qəbuluna getdim. Katib, Vasili Daniloviç məni diqqətlə süzüb, Karib Sınıqoviç sənin ali təhsilin varmış, niyə bu barədə bizə məlumat verməmisiniz?! Mən susmağa üstünlük verdim. Katib həyəcanlı olduğumu görüb, sən elə bir qəbahətli iş görməmisən, narahatçılığa əsas yoxdur, əksinə mənim sizə təklifim var. Təchizat üzrə müdir müavini ilə söhbət etmişəm, istəyirəm sən təchizat şöbəsində mühəndis işləyəsən. Zavoda məsuliyyətli təchizatçı lazımdır! Bu təklif

məni çox çaşdırdı. Mən katibə, çox sağ olun, təchizatda səriştəm yoxdur, həm də rus dilini qrammatik qaydada yaxşı bilmirəm, mənim üçün bu işə razılıq vermək, özümü və sizi aldatmaq demək olardı! Katib gülümsünərək, sən heç sirkdə olmusan?- deyə soruşdu? Əlbəttə olmuşam, dedim. Fikir vermisənmi, şüuru olmayan heyvanlar rəqs edir, müəyyən hərəkətləri icra edirlər. Başımın hərəkəti ilə,katibin dediklərini təsdiq etdim. İndi de, görüm bu şüursuz heyvanlardan bir o qədər acizsənmi?! Səni partiya hara göndərir, razılaşmalısan! Çünki sən və mən partiyanın əmr gözləyən əsgərləriyik. Bu müqayisə məni bərk silkələdi, özümdən asılı olmayaraq, partiyanın əsgəri kimi hazıram!- dedim. Bax, bu başqa məsələ:- deyərək, Vasili Danilovic gülümsədi. Telefonun dəstəyini qaldıraraq, müdir müavinini kabinetinə dəvət etdi. Birazdan otağa hündür boylu, qara qalın qaşlı, qırmızı sifətli, 45-50 yaşlarında bir kişi daxil olub, katibin göstərdiyi oturacaqda əyləşərək, əmrə müntəzir kimi, eşidirəm:- yoldaş Vasili Danilovic! Tanış ol, gənc kommunist, cənublu cavan oğlan, Karib Sınıqovici təchizat şöbəsinə mühəndis təklif edirəm, düzdür iş təcrübəsi yoxdur, rus dilində də biraz sıxıntısı var. Müdir müavini üzr istəyirmiş kimi, bu cavan oğlana bizim şöbədə işləmək çox çətin olacaq. Bildiyiniz kimi, yazı-pozu işləri bizim şöbədə, başqa şöbələrdən nisbətən heç də az deyildir?! Vasili Daniloviç ciddi bir görkəm alaraq, mən bu cavan oğlana inanıram, rəhbərliklə danışmışam, günü sabahdan əmrini verin, işə başlasın, daha müzakirəyə ehtiyac görmürəm! Biz otaqdan çıxdıqdan sonra, müdir

müavini mənə sabah saat 8-də işə gəlməyi təklif edib, vacib işi olduğunu qeyd edərək, uzaqlaşdı. Həm sevinirdim, həm də məsuliyyət hissindən yaxa qurtara bilmirdim. Sevinirdim ona görə ki, mənə qiymət verir, ali təhsilimi nəzərə alırdılar. Məsuliyyətim isə bundan ibarət idi ki, təchizat işinin mexanizmini bilmirdim, əgər bu işi bacarmasaydım, özümü yarasız bir adam kimi hesab edər, mənə əmin olub zəmanət verənləri pis vəziyyətə salmış olardım. Xarakterimə görə, aciz adam olmadığımdan, işin öhdəsindən gələcəyimə özümdə əminlik hiss edirdim. Səhəri məni qəbul edən Stepan Veneqditoviç, işin çətinliyindən – müqavilə bağlamaq, təkliflər yazmaq və.s. üçün rus dilində yaxşı bilməyin lazımlığından, tez-tez iş məzuniyyətinə getməyin vacibliyindən danışıb, məndə bir növ ruh düşgünlüyü yaratmaq istəsə də, mən ona katibin, mənə çəkdiyi müqayisəni deyərək, işləməkdən qorxmadığımı elan etdim. Mənim ciddiliyimi nəzərə alan müdir müavini, mənə ərizə yazdırıb, sex rəisindən işi dəyişmək üçün ərizəyə dərkənar qoymağı, krançı formasını anbara qaytarmağı, nahardan sonra təchizat şöbəsində olmağımı xahiş etdi. Ərizəmə dərkənar qoyan sex rəisi, mühəndis texniki işçi olmağım münasibəti ilə məni təbrik etdi. Nahardan sonra, məni təchizat işçilərinə təqdim edən müdir müavini, yaşlı bir xanım işçidən, təkliflər, müqavilələr yazmaq üçün, rus dilində çətinlik çəkəcəyi təqdirdə, mənə köməkçi olmağı xahiş etdi. Məni qəbul edən təchizat rəisi, yumşaq təbiətli, az danışmağa üstünlük verən, ancaq içkiyə meylli, gülərüz bir adam idi. Təchizat

rəisi, Danil Tarasoviç bütün günü kabinetdə oturub, dişləri ilə barmaq dırnaqlarını çeynəyirdi. İçkiyə meyllilik onun barmaqlarında qızartılar və yaralar əmələ gətirmişdi. Rəhbərlik işində çox yumşaq təbiətli olduğuna görə,bəzən təklifləri nəzərə alınmırdı.

Beləliklə mühəndis təchizatçı olaraq, mənə verilmiş maşınla, ilk vaxtlar zavoda lazım olacaq materialları təmin etməklə iş günlərimi başa vururdum. Az bir müddətdə, zavodun administrasiya işçilərinin hörmətinin qazandım. Demək olar ki, administrasiyada ən cavan mühəndis- texniki işçi idim. Bir insan olaraq, mənə edilən müsbət münasibət,mənim cəmiyyətə başqaları kimi, lazımlı olduğumu müəyyənləşdirirdi. Yataqxanada da, mühəndis işlədiyimi bilən həmvətənlərim və dağıstanlı cavanlar, mənə hörmətlə yanaşır, hətta köməkliklər üçün də müraciət edirdilər. Artıq yataqxanada tək qalmağı özümə lazım bilmədim. 4-cü mərtəbədə yaşayan, həm təhsil alan, həm də işləyən, yaxşıca tanımağa başladığım Mamedgilin otağına köçməli oldum. Cənublu həmyerlim Mamed özünü biş-düşdə qabiliyyətli, ən çox "ləvəngi" bişirməkdə usta olduğunu nümayiş etdirmişdi. Mamedin otağında rus və dargin uşaqları da yaşayırdılar. Dargin Rəsul sürücü, rus Tolik isə sıravi fəhlə idi. Mamed mənə üzünü qırxandan sonra, o vaxt çox adamın istifadə etdiyi "Şipr" ətrini gizlətməyi, əks təqdirdə otaq yoldaşımız Tolikin içkiyə meyli olduğundan, "Şipr"-i içəcəyinə ehtiyac duyulacaqdı. Tolik içkiyə meylli olsa da, özünü idarə etməyi, "şit" sözlər işlətməməyi bacarırdı. O, içər və yatardı.

Artıq qardaşımdan bir neçə dəfə məktub alıb, cavablar yazaraq, həyatımda baş verənləri anlatmışdım. Qardaşım isə anamın və qardaşımın sağ-salamat yaşadıqlarını və narahatçılığa əsas olmadığını qeyd edərdi. Son məktubunda qardaşım, anamın sənin haqqında "qəribə" yuxular gördüyünü qeyd edərək, zəng edib anamla danışmağı təklif edirdi. Əlbəttə anamı nigaran saxlamamaq üçün, mən belə bir cəhd etdim. Qəsəbədəki evimizin telefon nömrəsini sifariş edib, gözləmə zalında, anamla danışmaq üçün dəvət olunacaq dəqiqələri saymağa başladım. Telefonçu xanım məni çağıranda, özümü telefona atdım. Anamın səsi məni elə kövrəltmişdi ki, danışmaqda çətinlik çəkir, qəhərdən boğazım tutulurdu. Bir qədər özümü ələ alaraq, anama "yalanlar" danışmağa başladım. Bakıda işlədiyimi, işimin yaxşı olduğunu anama bildirirdim. Anam isə son sözündə bildirdi ki, sizə pendirdən, yumurtadan başqa, nə lazımdır? Tezliklə Bakıya gəlmək fikrindəyəm, sizin üçün çox darıxmışam və sizi görmək istiyirəm. Anamın Bakıya gəlmək fikri məni lap pis vəziyyətə salmışdı. Yollar axtarırdım ki, anam rusiyada olduğumu bilməsin. Sabahısı qardaşıma zəng edib, anamla telefon danışığını bildirərək, anamın Bakıya gəlmək fikrinin qeyd etdim. Qardaşımdan xahişim o oldu ki, anam Bakıya gəlsə də, mənim Rusiyada yaşadığımı yox, Bakıdan Rusiyaya məzuniyyətə gəldiyimi bildirsin.

Bir neçə gündən sonra Stepan Veneqditoviç məni xidməti məzuniyyətə göndərəcəyini bildirərək, qeyd etdi ki, subay adamsan, yataqxanada qalmış, ya da

mehmanxanada, sənə yəqin ki fərq etməz! Hazırlaş mühasibatlıqdan pulunu götür və Çelyabinsk Metallurgiya zavoduna yola düş, metalın vaxtı-vaxtında təchizini tələb və təşkil et! Bütün deyilənləri, kiminlə görüşəcəyimi dəqiqləşdirib, vağzala bilet almağa yollandım. Vağzalda öyrəndim ki, yaşadığımız şəhərdən, Urala getmək.məni qane etmir. Qonşu şəhərdən gedəcək qatar isə məğbul idi. Qonşu şəhər deyəndə, yadıma Moskvada vağzalda gördüyüm və anası ilə yola saldığım balaca qaragöz düşdü. Fikirləşdim ki, bileti qonşu şəhərdən alaram və üstəlik də qara gözü görərəm. Sabahısı avtobusa bilet alıb qonşu şəhərə yola düşdüm. Şəhərə çatıb, İrinanın verdiyi ünvanı axtarıb tapdım. Köhnə dörd mərtəbəli binanın, birinci mərtəbəsində yerləşən mənzilin qapısını döydüm. Qapını mənə qaragöz açdı. Sən məni tanıyırsan? - deyə qaragözə müraciət etdim. O isə, vağzalda bizi yola salan "dayı" deyilsənmi? – deyə gülümsədi. İrina haradadı?- deyə soruşdum. Qapıya gələn yaşlı nənə, qızının işdə olduğunu və gecə saat 12-də gələcəyini bildirdi. Yaşlı nənə İrinanın anası idi. Mən İrinanın verdiyi ünvanı nənəyə göstərib, sadəcə dostluq münasibəti olduğunu qeyd etdim. Qaragözə aldığım hədiyyəni verib, sükuta daldım. Nənə xeyli diqqətlə məni süzüb, özlüyündə nəyi isə aydınlaşdırımmış kimi, keç içəri müsafirimizsən?-dedi. Nənəyə təşəkkür edib, söhbət əsnasında qaragözün adının Oksana olduğunu öyrəndim. Darıxdırıcı olmasın deyə, Oksanaya öz dilimizdə salam, necəsən kimi sözlər öyrədir, ö isə tələffüz zamanı çəkdiyi çətinliyə gülürdü. Yaşlı nənə artıq gecdir!- deyib,

mənə yatacağım çarpayını göstərdi. Mən gecəniz xeyrə!- deyib, başqa bir otağa, çarpayıya keçdim. Çarpayıya uzanıb heçnədən başqalarına verdiyim narahatçılığa görə özümü məzəmmət etdim. Beləcə məni yuxu apardı. Yuxumun şirin yerində, yaş bədənin və əllərin məni qucaqlaması, məni hovlank oyanmağa məcbur etsə də, yaş əllərin ağzımı yumaraq, pıçıltılı səslə:- sakit ol, mənəm, İrinayam!- deməsi təəccübümə səbəb oldu. Mən ona ayıbdır, sən nə edirsən, yaşlı anan, uşaqlar var?- desəm də, faydasız oldu. İrina daha ehtirasla məni qucaqlayaraq, hisslərimi elə oynatdı ki, mənim tabe olmaqdan başqa çarəm qalmadı. Səhəri, yüz ilin yorğunu kimi, oyanıb İrinanın yanımda olmadığını görüb, özümü ələ aldım. Xəcalətli idim. Əgər yaşlı nənə, qaragöz-Oksana, duyublarsa mən onların üzünə necə baxacam! Birazdan, İrinanın səsini eşitdim. Səhər yeməyinə çağırırdı. Evdə yaşlı nənə və Oksana gözə dəymirdilər. Bərk sıxıldım, İrinanı tənqid etdim. O isə heç bir şey olmamış kimi, sən belə işlərə çox fikir vermə?! Mənim öz həyatım, ancaq mənə aiddir! Səhər yeməyini nuş edib, təzəcə söhbətə başlamaq istəyirdik ki, nənə və nəvə otağa daxil oldular. Yaşlı nənə İrinaya üzünü tutaraq:- sən atasız bir uşaq dünyaya gətirmisən, gecəki bu hərəkətinə nə ad verək, belə dostluq olar?! Sözün bir ucunun mənə çatdığını hiss etdim. Biraz sükutluq oldu, Oksana daha mənə baxmır, heç danışmaq da istəmirdi. Həddindən artıq sıxıntılı idim, axı mən qaragöz üçün buraya gəlmişdim?! Nəhayət oturacaqdan qalxıb, mən Urala məzuniyyətə getməliyəm və bunun üçün bilet almalıyam?- deyib, otaqdan çıxmaq

istədim. Məni yola salan İrina anamın danışığına fikir vermə, sən mənim qonağımsan desə də, xudahafizləşib yola düşdüm. Qaragöz Oksana mənimlə görüşmədi. Yəqin ki, anasının hərəkətlərindən xəbərdar idi. Kefi pozulmuş halda vağzala gedib, yaxınlarda yola düşəcək qatara bilet alaraq,üç günlük yoldan sonra Çelyabinskə çatdım.

Lövhəsinə "ÇMZ" yazılmış tramvaya minib, zavodda düşdüm. Uzun-uzadı danışıqdan sonra, təchizat və satış üzrə müdir müavininə müqavilənin şərtlərinin pozulduğunu, vaxtında metal göndərilmədiyini bildirdim. Müdir müavini bu yaxınlarda müəssisəmizə metal göndərəcəyini dəftərcəsinə qeyd etdi. Mən metal göndərilməyin vacibliyini qeyd edərək, onu rahat buraxmayacağımı, lazım gələrsə bir kommunist olaraq, partiya komitəsinə də müraciət edəcəyimi bildirdim. Müdir müavini metalı vaxtında göndərəcəyini bildirib, məzuniyyət vərəqəmə ümumi şöbədə möhür vurub evə getməyimi məsləhət gördü. Mən isə gülə-gülə, Çelyabinsk şəhəri çox xoşuma gəlib, əgər mümkünsə tələsdirməyin. Satış şöbəsinə zəng edən müdir müavini, yanına gələcək cənublu cavan oğlanın məzuniyyət tarixini bir həftə artırmağı xahiş etdi. Müdir müavini İqor Nikolayeviçə təşəkkürümü bildirdim.Satış şöbəsinə gedib, məzuniyyət vərəqəmə möhür vurdurduqdan sonra, şöbənin işçisi Natalya xanımla tanışlıq edib, göndəriləcək vaqonun nömrəsini mənə zəng edərək, bildirməsini xahiş etdim. Şəhərə çıxıb, qəzet köşkündən şəhərin xəritəsini alaraq, Miass çayı sahilindəki "Malaxit" mehmanxanasında

yerləşdim.Mehmanxana telefonunun nomrəsini dəqiqləşdirib,Natalyaya bildirdim.Mehmanxananın yaxınlığındakı poçt şöbəsindən Stepan Veneqtidoviçə teleqram vuraraq, yaxında metal göndərəcəyimi qısaca qeyd etdim. Bir neçə gün səyahət edib, Çelyabinsk şəhərini ürəyimcə gəzdim. Gündəlik satış şöbəsinə, Natalyaya zəng edib vaqonun göndərilməsi haqqında məlumat almağa çalışırdım. Belə bir zəngimin birində, Natalya xanım metalla yüklənmiş və yola salınmış vaqon nömrəsini mənə bildirdi. Tezliklə Stepan Veneqtidoviçə teleqram vurub, vaqonun nömrəsinin qeyd etdim. Bu münasibətlə Natalya xanıma yaxşı bir qonaqlıq verdim. Gələcəkdə birgə işlərimizdə bir-birimizə kömək etməyi qərara aldıq. Mən qarşıma qoyulmuş vəzifənin yerinə yetirdiyimdən qürur duyaraq, Rusiyada məskən saldığım şəhərə, vətənimə yola düşdüm.

Get-gedə daha fəal olmağa başlamışdım. İş yerində partiya təşkilat katibi məni görəndə, mən sənə inanırdım, təchizata təklif verdiyimə görə, bir kommunist olaraq qürur duyuram!-deyirdi.

Anamın Bakıya gəlmək fikri məni rahat buraxmırdı. Ağlıma yeni fikir gəlmişdi. Anama zəng edib, iki aylıq Rusiyaya məzuniyyətə gəldiyimi bildirmək istəyirdim.Məqsədim anamın Bakıya getməsinə mane olmaq idi. Səhərisi anama telefonla zəng edib, Rusiyaya məzuniyyətə gəldiyimi bildirdim. Anam isə qardaşın mənə demişdi, getməyini bilirəm. Oralar soyuqdur, geyimini isti et ki, xəstələnməyəsən! Anamla xudahafizləşəndən sonra

hiss etdim ki, narahatçılığım daha yoxdur, ən çox qardaşımın tədbirli hərəkəti məni çox məmnun etmişdi. Əslində hər ikimizin tədbiri, anamızı sıxıntıdan qorumaq məqsədini güdürdü. Bəli, mənim qəribliyə düşməyim, anadan, vətəndən uzaq qalmağım,anama bilərəkdən "yalan" danışmağım cəmiyyətdə yaranmış "durğunluqla" bağlı idi. Aşağıdakı misralar bu düşüncələrimin məhsulu idi:

Başına döndüyüm, ay ana Vətən,
Mən səndən uzaqda qalası oldum.
"Durğunluq" dövrünün didərgini tək,
Baş alıb, Vətəndən "uçası" oldum!

Beləliklə aylar, illərə qovuşmaq uçun bir-birini yola salır, biz insanlar isə, illəri yola salaraq, özümüzdən asılı olmadan, arzulamadan sonluğa doğru addımlayırıq. Rusiya elində adət-ənənələri öyrənir, müxtəlif muzeyləri gəzir, bayramları yeni həmvətənlərimlə birgə qeyd edirdim. Belə bayramlardan- "Milad bayramı", "Maslennisa", "İvan Kupala" və s. bayramlarını çox şən keçirərdik.Yadımdadır "İvan Kupala" bayramını qeyd etmək üçün, bufetimizdə şadyanalıq edirdik. Şənlik nahar vaxtından, işin qurtarmasına qədər davam edirdi. Bufetdə masaların üstünə içkilər də daxil olmaqla müxtəlif yeməklər yığılar, musiqilər çalınar, rəqslər olardı. Masanın birində bizim təchizat şöbəsinin işçiləri oturmuşdu. Tost zamanı mən içkini kənarlaşdırıb, spirtli içkiyə aludəçi olmadığımı bildirdim. Nədənsə hamı mənim içməyimi xahiş edirdi. Mən isə inadkarlıq edirdim. Birdən bizim direktor müavini

Stepan Veneqditoviçin:- Qafqazlılar araqdan qorxurlar elə bil araq onları yeyəcək!-deməsi məni özümdən şıxartdı. Mən bu sözlə razılaşmadım. Stəkanı birbaşa başıma çəkib, kim mənimlə mərc etmək istəyir mən hazır!- dedim. Onu da bildirim ki, şöbə rəisimiz xəstələndiyindən bayramda iştirak etmirdi. Stepan Veneqditoviç əlini mənə uzadıb, Rima kəs mərci?- dedi. Mən uşaqlardan kotlet, kefir, limon almağı xahiş etdim. Bütün şöbə və kənar masada oturanlar bizə azarkeşlik edirmiş kimi, masamızı əhatəyə almışdılar. Biz stəkanları bir-birinə toqquşduraraq, artıq 3-cü butulkanı içirdik. Stepan Veneqditobiç demək olar ki, hər stəkanı içəndən sonra, üstünə duz tökülmüş qara çörəyi iyləyir və xörəkləri nuş etmirdi. Mən isə masada nə varsa, nuş edirdim. Hərdən, içkinin təsirindən əlim sözümə baxmayanda, öz özümə danışırmış kimi:- yekə adamsan, Qafqazlı adına istehza yaraşmır!- deyə, özümü ağlımın gücü ilə idarə edirdim. Bir müddət keçməmiş Stepan Veneqditoviçin seyrək, uzun tüklü başı yemək dolu boşqaba düşdü və bir daha qalxmadı. Mən stəkanı qaldırıb, bu tostu "İvan Kupala" bayramına həsr edirəm!- deyib, stəkanı Stepan Veneqditoviçin keçəl başına toqquşdurdum. Axşama yaxın yataqxanaya çatanda, səngərləməyim deyə, özümü idarə edərək, otağıma daxil oldum. Məni görən Mamed çaş-baş qaldı. Əmi (yaşda hamıdan böyük olduğuma görə mənə "əmi" deyərdilər) bu nə sifətdi, ağappaq olmusan?! Mamedə bir təhər bildirdim ki, sonra başa salaram, indi mənə kömək et, başımın ağrısı keçsin. Mamed qadasın aldığım otaqdakı iki kefir butulkasını

ləyənə töküb, başımı yaxşıca yuyub, çarpayıya üzanmağıma kömək etdi. Dünyanın qədərini bilməyən içkili adamlar kimi, yuxuya getdim. Səhər tezdən budilnikin zəngi məni oyatdı. Başıma elə bil yekə daş bağlamışdılar. Birtəhər qalxıb Mamedin tumbanın üstünə qoyduğu və məsləhət bildiyi əlli qram arağı içməli oldum. Səhər yeməyimi yeyəsi olmayıb, işə getdim. İş yoldaşlarım məni görəcək, uraa!- deyərək, təbrik etdilər. Səbəbini soruşduqda isə, mənim qəhrəmanlığımdan danışıb Stepan Veneqditoviçin xəstə olduğunu və bir həftə işdə olmayacağını bildirdilər. Mən özümü təmkinli aparıb, bu heç yaxşı olmadı?- dedim. Şöbə işçiləri isə, bir həftə başımız sakit olar?-deyərək,gülüşürdülər.

Sentyabr ayının axırları idi. Qardaşımdan teleqram aldım ki, anamla iki gündən sonra yanına gəlirik,Moskvada bizi qarşıla! Həm sevindim, həm də gərginlik hissi məni bürüdü. Anamın Rusiyaya gəlməsi mənə möçüzə kimi görünürdü, verdiyim əziyyətlərə görə vicdanım mənə rahatlıq vermirdi. Bilet alıb Moskvaya, oradan da Kursk vağzalına getdim. Gözləmə zalında Bakı- Moskva qatarının gəlməsi elanını səbirsizliklə gözləyirdim. Xəyalımda anamın məni məzəmmət edəcəyini düşünürdüm. Diktorun qatarın gəlməsi elanı məni xəyalımdan ayırdı. Tez vaqonun qapısını kəsdirdim. Qardaşımın vaqonun pəncərəsindən məni anama göstərməsi gözümdən qaçmadı. Vaqondan düşən anam, təbəssüm dolu yaşlı gözləri ilə məni qucaqlayaraq:- sən nə yaman yalançıymışsan ay bala?- deməsi əlbəttə ki, məni də kövrəltdi. Mən anama nə edim,

işlərim düz gətirsəydi qəribliyə gəlməzdim, görünür qismətimin qədəri bu imiş?! Sonra anamın könlünü alıb, bax:- səni Qızıl Meydana,Lenin movzaleynə aparacam,bütün şəhəri  gəzdirəcəm? Gedəcəyimiz şəhərə bilet almaq üçün, digər vağzala getdik. Biletləri alıb, vaxtımızın çox olduğunu nəzərə alaraq, şəhəri gəzməyi qərarlaşdırdıq. Əl yüklərimizi saxlama kamerasına qoyub, səhər yeməyini nuş edərək, Moskvanı səyahətə yollandıq. Anam şəhərin gözəlliklərini- ən çox Qızıl Meydanı, Moskva çayını özünəməxsus seyr edərək, razılıq edirmiş kimi: -hə çox yaxşı yerdir?- deyib məni ilk dəfə görürmüş kimi gülümsəyirdi. Axşamı vağzala gəlib, vaqonda yerimizi rahatlayıb, yola düşdük. Anam tez yuxuya getmişdi, yorğunluq onu haldan salmışdı. Mən nə qədər yuxulamaq istəsəm də, alınmırdı. Sakitcə yatan anama baxır, onun bütün ömrünü həyat yoldaşı olmadan bizə həsr etməsini, ayrılıqdan doğan kədərin sifətində yaratdığı cizgilər, məni həm sıxır, həm də anaya olan övlad məhəbbətini gücləndirirdi. Səhəri, artıq mənim üçün doğmalaşmış şəhərimizə çatdıq. Oturub taksiyə yataqxanaya getdik. Mamed sağ olmuş, pəncərədən bizi görmüş otaq yoldaşlarımızı başqa otaqlarda yerbəyer etmişdi. Anam Mamedi qucaqlayıb:- başına dönüm ay oğul, yaxşı ki bir yerdəsiniz, bir-birinizdən həyan olarsınız!- dedi. Mamed tez isti çay gətirib:- ay xala təmiz Lənkəran çayıdır, anam göndəribdir! Mamed səhər sübhdən durub, bişirdiyi ləvənginin ətrini otağa doldurmuşdu. Biraz söhbətləşən Mamed mənə pıçıldadı ki, qonşu otaqdayam nə lazım olsa,

qulluğunda hazıram. Yorğan-döşək üzlərini isə təzələmişəm, narahat olmağa dəyməz! Mamedə ürək dolusu təşəkkürümü bildirib, xahiş etdim ki, bazar ertəsi günü işə çıxacam mümkün olsa, anamı və qardaşımı iş yerimə gətirərsən. Anam və qardaşımla şəhəri gəzməyə çıxdıq. Yaşıllıq qoynunda yerləşən şəhərimiz,Volqa çayının füsunkarlığı,sərnişin və yük gəmilərinin çay boyu hərəkəti,çayın şəhəri o taylı, bu taylı iki yerə bölməsi,bir kilometrdən artıq olan körpü üzərindən, hərəkət edən avtomobillərin günəş şüaları altında bərq vurması, qardaşımı və anamı valeh etmişdi. Qardaşım zarafatla:- mənə bir həkimlik işi tap, məktəbi qurtarandan sonra, mən də bu gözəl şəhərə gəlim?! Anamın gülə-gülə qardaşıma dediyi: -hə də, bir elə o qalıb, Qəribi də Bakıya qaytaracam?- deməsinə səbəb oldu. İmkan düşən kimi qardaşımdan, belə bir tezliklə anamla gəlməsinin səbəbini soruşdum. Qardaşım isə anamın Bakıya gəlişi zamanı, sənin Rusiyada yaşamağını dostumun dilindən eşitməsi olub. Həyəcanlanan anam qardaşımdan tezliklə bilet alıb, Rusiyaya mənim yanıma gəlməyi tələb edib. Mən anamı inandırsam da sənin vəziyyətin yaxşıdır, anam inadından dönməyib, gəlməyimizi qərarlaşdırmışdı.

Axşam yataqxanada Mamedlə bərabər, deyib-gülüb ordan- burdan danışırdıq. Bütün bunlar anamın eyninin açılmasına, şənlənməsinə səbəb olurdu. Səhəri mən işə yollandım. Mameddən etdiyim xahişi unutmamağı təvəqqə etdim. Nahara yaxın anamla –qardaşım, Mamedlə bərabər iş yerimə gəlmişdilər. Administrasiyanın bütün

şöbə işçiləri bizə baxır, məni tez-tez qucaqlayaraq, sanki Qərib bizimdir!-demək istəyirdilər. Anam dil bilmədiyindən mat-məətəl qalmışdı. Qardaşım məndən hündür və yaraşıqlı olduğundan rus xanımları nəzərlərini ondan çəkmirdilər. Naharı zavodun yeməkxanasında edib bir yerdə çıxdıq. Bayırda anam:- ay bala, səni yaman çox istəyirlər, əlbət vəzifən böyükdür, ona görə sənə qulluq edirlər? Mən anamı qucaqlayıb:- ay ana, burda hamı bir-birinə hörmətlə yanaşır, bir-birlərinin qəlblərinə dəyən hərəkətlər etmirlər, lap bizim kəndimizdəki kimi... Hörmət vəzifəyə görə deyil, hamımız şöbə işçiləriyik, sən dediyin "qulluq" mentaliteti burada yox, bizim doğma Azərbaycanımızdadır! Bir-birinin ayağını qazmaq, həlim xasiyyətli insanların arxasınca min cür şər- böhtan danışmaq, "böyüklər" qarşısında bir tikə çörək üçün quyruq bulamaq,bütün bunlar və sadalamadıqlarım digər mənfi keyfiyyətlər millətimizin ağıllı övladlarını pərən-pərən edib, dünyaya səpələyibdir!Minlərlə həmvətənlimiz,vətənsiz "qərib"olublar!İndi,ay ana dediyim nadanlıqlar olmasaydı, mənim Vətəndə işim də olardı, vəzifəm də, daha mənim qəriblikdə nə işim olard ki?! Hər-halda görürsən hər işim yolundadır. Anam isə mənim dediklərimi təsdiqləyərək, hə- ay bala, düz deyirsən, ancaq dünya belə qalmayacaq ki, bir gün qalxan, bir gün də enə bilər!Nədənsə bizimkilər öz vəzifələrindən, böyüklüklərindən elə yapışıblar ki, elə bil ki, o dünyaya gedəndə özləri ilə nə isə aparacaqlar?! Anamda razılıq hissi yaratmışdım ki, evə qayıdandan sonra özünü qəmlərlə

yükləməsin. Beləcə üç gün, bir anlıq oldu. Qardaşımı və anamı yola salmağa hazırlaşırdım. Qardaşımın onları Moskavadan yola salmağıma razılığı olmadı. Anamla, qardaşımı vaqona yerləşdirib vaqondan düşdüm. Anam pəncərədən mənə baxaraq, göz yaşlarını saxlaya bilmədi. Çünki əziyyətlə böyütdüyü övladını, qəriblikdə qoyub gedirdi. Qatar tərpənəndən sonra, anamın əlini yellədərək, özündən muğayat o!- deməsini dodaqlarının tərpənişindən hiss etdim. Mənim də gözümdə yaş gilələnmiş və yanağımı islatmışdı!

Qarşıdan qış gəlirdi. Burum-burum yağan qar məni soyuğa dözümlü olmağa dəvət edirdi. Bir gün “poker” oynayan köhnə dostlar, məndən içki pulu tələb etdilər? Mən pulumun olmadığını deyəndə, onlardan biri məni boğazlamaq üçün əl atdı. Arxadan çox hündür boylu, idmançı formalı olan tanımadığım bir nəfər, məni boğazlamaq istəyənin əlini qüvvətli əlləri ilə sıxdı. Köhnə dostlar bir anda aradan çıxdılar. Hündür boylu şəxs, tanış olaq:- mənim adım Məhəmməddir, əslən Dağıstandan-Dərbənddənəm. Milliyyətçə avar olsam da, uşaqlıq dostlarım Azərbaycanlılar olduğundan, az-çox Azərbaycan dilində başa düşürəm. Mən çox xoşhal oldum. Yadımdadır Mamed mənə bir Dağıstanlının həm idmançı, həm də ciddi bir işdə işlədiyini demişdi. Məhəmməd bildirdi ki, sənin Azərbaycanlı olduğunu bilirəm və istərdim ki, “əlbəyaxa döyüş” növlərindən özünü müdafiə xarakterli bir neçə döyüş növünü sənə öyrədim. Mən öz fiziki imkansızlığımı ona deyəndə, o öyrədəcəyi döyüş fənlərinin, fiziki imkana

ziyanlı olmadığını bildirdi. Mən Məhəmmədin təklifinə razılıq verib, idman zalına gedərək, əlbəyaxa döyüş növlərini əxz edirdim. Yataqxanaya qayıdandan sonra isə, öyrəndiklərimi ehtiyatla Mamedə tətbiq edirdim. Bir dəfə üzümə vurduğum "Şipr" ətrinin yerində olmadığını görüb, qat-qat məndən canlı olan Toliki,"fənd"lə vurdum. Tolikin məzlumcasına, içdiyi "Şipr"ətiri əvəzinə, qol saatını- al götür!- deməsi, məni çox pərişan etdi. Özümə söz verdim ki, üstümə biri gəlməyincə, döyüş "fəndi" işlətməyəcəm! Axı, Məhəmməd döyüş sirlərini mənə özünü müdafiə etmək üçün öyrətmişdi? Çox sonralar da, mən Məhəmmədə ağız dolusu minnətdarlıq etmişdim.

İşlədiyim zavodda axır vaxtlar sement vaxtlı-vaxtında alınmadığı üçün, dayanmalar əmələ gəlmişdi. Şöbə rəisimiz xidməti məzuniyyətə getsə də, əli boş qayıtmışdı. Məsələ burasındaydı ki, vaqonlarımız aylarla yoxa çıxır və nəinki biz, bütöv tikinti idarələrində dayanmalar yaranırdı. Birləşmiş mərkəzi idarədən iş məzuniyyətinə gedənlər heç biri irəlləyiş edə bilmir, bəziləri içkidən davaya düşür, gözlərinin altı "qaralmış" şəkildə geri qayıdırdılar. Bir gün zavodun müdiri, partiya təşkilat katibi ilə bərabər, məni müdirin kabinetinə çağırıb, vacib iş üçün xidməti məzuniyyətə göndərəcəklərini bildirdilər. Belə ki, Qornozadosk Sement zavodunda, balansımızda olan sement vaqonları tez-tez itirilir və sement almadığımızdan müəssisədə dayanmalar əmələ gəlirdi. Müdirimiz İvan Spiridanoviç bildirdi ki, səni xidməti məzuniyyətə göndərməyi partiya təşkilat katibi

Vasili Daniloviç məsləhət görüb. Məni müdirə təqdim edən Vasili Daniloviç işimdə məsuliyyətli olduğumu və işin nəticəsinə önəm verdiyimi qeyd etmişdi. Hesabata daxil olmayan əlavə maddiyyatı "iş" üçün mənə götürməyi xahiş edən müdir:- əgər bizim bu ağrılı işimizi həll etmiş olsan, işində irəliyə gedər, hətta mənzil də ala bilərsən? Mən tərəddüd etmədən razılaşdım. Karyera, ev mənim əsas məqsədim idi. Dəmir yolu vağzalından bir başa bilet alıb Perm vilayətinə, oradan da elektrik qatarı ilə Qornozavodsk şəhərinə getdim. Gecə yarısı idi. Əvvəlcədən bronlanmış mehmanxanada yerimi rahatlayıb, otaqda məndən başqa bir nəfərin də xorultuyla yatdığını gördüm. Sabahısı mehmanxanadakı otaq yoldaşımın da, sement üçün xidməti məzuniyyətə gəldiyini öyrəndim. Adı Volodya olan bu şəxs,Sement zavodunun satış şöbəsində növbələrin olduğunu, həftələrlə qəbula düşməyin çətinliyini mənə danışdı. Qış vaxtı,şaxta olduğundan daha isti geyinərək, zavoda getməmişdən qabaq iki ədəd "Ağdam" çaxır butulkasını alıb, məndən biraz yekə olan şubanın ciblərinə qoydum. Volodyanın dediyi kimi, satış şöbəsinə girməyin mənasız olduğunu anlayıb, vaqonun sementlə doldurulduğu sexə getməyi, heç olmasa vaqonların itməsi barədə informasiya almağı qərarlaşdırdım. Nəhayət, vaxtada dayanan gözətçini dilə tutub ona hədiyyə verəcəyimi bildirərək, sementin vaqona doldurulduğu sexə buraxmasını xahiş etdim. Gözətçi hədiyyəni görən kimi məni içəri buraxaraq, bir nəfərə, "göz vurub" məni sexə aparmasını tələb etdi. Mən tozla bürünmüş sexə girib

vaqon doldurulan yerə getdim. Orta yaşlı bir kişini barmaq işarəsi ilə çağırıb, cibimdəki "butulkanı" ona göstərərək, mənə köməklik etməsini xahiş etdim. Çaxır butulkasını görən kişi, vaqonların necə itməsi haqqında mənə məlumat verəcəyini bildirdi və qeyd etdi ki, sən "cənublu" olduğundan sənə inanıb həqiqəti söyləyəcəm. Vaqonların küncündəki lövhəni görürsənmi?- orada vaqonun mənsub olduğu dəmir yolu qeyd edilmişdir. Bizə sex rəisi deyəndə ki, "Severnıy" yazılmış dəmir lövhəni dəyişdirib, yerinə "Ural" dəmir yolu yazılmış lövhəni vurun və sementlə dolduraraq "Ural" dəmiryolu ərazisində yerləşən müəssisəyə vaqonu yola salın. Biz də əmrə tabe olan adamlarıq, deyilənləri olduğu kimi yerinə yetiririk. Sexin küncündə isə, müxtəlif dəmir yol idarələrinə mənsub olan lövhələri də bizə göstərdi. Bəli vaqonların necə itməsini dəqiqləşdirib mehmanxanaya gələrək, vaqonu necə tapmaq haqqında planlar qurmağa başladım. İlk olaraq dəmir yol stansiyasına gedib, vaqonların nömrələrinin qeyd olunduğu şöbəylə söhbət etdim. Onlar bu axtarışın mənasız olduğunu və zavodun balansında olan vaqon nömrələrinin onlarda olmadığını söylədilər. Daha sonra isə, söhbətim stansiya növbətçisi ilə mənasız oldu. Belə ki,stansiya növbətçisi vaqon axtarışına gələn nümayəndələrin, hələ bir dəfə də olsun vaqonları tapmadıqlarını bildirdi. Kor-peşman mehmanxanaya qayıdıb, otaq yoldaşım Volodyanın tək başına araq vurduğunu gördüm. Məni qonaq etmək istəsə də, mən ona içkiyə hörmət etmədiyimi bildirdim. Volodya xidməti məzuniyyətimin faydasız olacağını mənə əminliklə

bildirib, heç olmasa araq içməklə, "fikir" çəkməkdən uzaq olmağı mənə məsləhət etdi. Əlbəttə, bu məsləhət mənim üçün boş qazan tıqqıltısından başqa bir şey deyildi. Onun məsləhəti iradəsiz, səriştəsiz, aciz, qarşısına məqsəd qoyub, nəticəsini gözləməyən bir adamın məsləhəti idi. Mehmanxanadan çıxıb hər tərəfdən ağappaq qarla bürünmüş, bu böyük olmayan şəhəri biraz gəzmək, təmiz hava alaraq, sabahkı işimi qurmaq barədə düşünmək idi. Biraz aralıda, rəqs meydançasında müsiqi çalınır, rəqs edirdilər. Belə bir havada musiqi dinləmək, rəqsə baxmaq yəqin ki, pis olmazdı? Valinka geyinən oğlanlar və kapron corabla,tufli geyinən qızlar, soyuqdan əllərindəki qalın əlcəklərə nəfəs verərək, rəqs edirdilər. Rəqs edən oğlan və kişilər rus dilini sındıraraq danışırdılar. Qızların isə bu soyuq, qarlı havada bir kapron corab və tufli ilə rəqs etmələri məni təəccübləndirirdi. Nəfəsimin istiliyi buğumda sulanaraq, şaxtanın təsirindən "buzlu sırsıra" yaradırdı. Nəfəs almaq belə çətin idi. Böyrümdə dayanmış, həmsöhbətcim olacaq bir kişidən:- qızların rus olduqlarını başa düşdüm, bəs bu rus dilində çətinliklə danışan kişi və oğlanlar kimlərdir?- deyə soruşdum. Mənə diqqətlə baxan həmsöhbətlim, qafqazlı olduğumu bilərək, sözünə davam edib, rus dilində danışa bilməyən kişilərin Yuqoslaviyadan gəldiklərini və Urenqoy-Ujqorod qaz trubasının çəkilişində iştirak etdiklərini qeyd etdi. Sonra da şikayətləndi ki, pulları çoxdur əclafların qız- gəlin qalmayıb, hamısını yoldan çıxarırlar! Bunların qudurğanlıqları yerli camaatı boğaza yığıb. Mənim qızım da evdə olmadığından, onu

axtarmaq üçün buraya gəlmişəm, ancaq tapa bilmirəm! Mən ona bəs, yerli hökumət bütün bu dediklərinizə necə münasibət bəsləyirlər? Həmsöhbətlim yerli sakinlərin bu azğınlara qarşı çıxdığını, lakin tutulub cərimələndiklərini qeyd etdi. Bununla da, yerli camaat susmuş oldu. İndi bu "üzdəniraq" qonaqlara, gözün üstə qaşın var? -deyən yoxdur. Əlbəttə, bu "üzdəniraq" qonaqların yerli qızlarla kobud rəftarı məndə də, təəssüf hissi yaratdı. Rəqs meydançasından ayrılıb mehmanxanaya qayıtdım. Volodya adəti üzrə yenə xoruldayıb yatırdı. Otaqda isə arağın tünd qoxusu yayıldığından nəfəs almaq belə, çətin idi. Pəncərənin nəfəsliyini açıb, otağa təmiz hava axınını yönləndirdim. Yatmamışdan əvvəl xeyli fikirləşdikdən sonra, şəhər partiya komitəsinə kommunist olaraq müraciət edəcəyimi yəqinləşdirdim.

Səhərisi çox da uzaq olmayan şəhər partiya komitəsinə yollandım. Katibə-xanıma, Azərbaycanlı kommunistin katiblə görüşmək istədiyini bildirdim. Bir neçə dəqiqədən sonra, içəri otağa daxil olub, zahiri görkəmi ilə heç də rusa oxşamayan, hündürboylu katibin mənə yaxınlaşaraq salamlaşması və mülayim səslə buyurun, oturun!- deməsi, məni məmnun etdi. Mən özümü Karib Sınıqoviç deyə- təqdim edib, Qornozavodsk Sement zavoduna, K. Rus şəhərindən gəldiyimi və zavodda qarşılaşdığım "ağıla sığmayan" hadisələrin baş verdiyini, balansımızda olan vaqonların bilərəkdən itirildiyini, müəssisəmizin sement olmadığı halda dayanmalara səbəb olduğunu katibə danışdım. Mən, Azərbaycanlıyam,

Rusiyada yaşayıram, bizim ümumi Vətənimizin xoşbəxt gələcəyi naminə işləyib, çalışırıq, həm bir vətəndaş kimi, həm də, bir kommunist kimi. Sizdən təvəqqem budur ki, bu qeyri qanuni hərəkətlərə və bağlanmış müqavilənin şərtlərinin bilərəkdən pozulmasına bir əncam verəsiniz. Katib mənim çıxışımı sükutla dinləyib, telefon dəstəyinin əlinə alaraq, əsəbi bir halda zavodun müdirini yığıb, təcili şəhər partiya komitəsinə gəlməsini tələb etdi. Sonra üzünü mənə tutaraq:- bu çox ciddi məsələdir və belə yaramazlıqlara son qoymaq lazımdır! Bax, görürsənmi sənin kimi əqidəli, məqsədli kommunistlər belə yaramazlıqlara son qoya bilərlər. Bir neçə dəqiqədən sonra, yekə qarnını irəli verib, gözlüyünün altından, gözlərini katibə bərəltmiş və fısıltısından, nəfəsinin çətin alındığı hiss olunan zavod müdiri:- olarmı?- deyə katibə müraciət etdi. Katib müdirə diqqətlə baxıb,sakit səslə oturun- dedi. Vadim Oleqoviç:- siz bilirsinizmi zavodda işlər qaydasında deyil?! Vadim Oleqoviç dili tutulmuşlar kimi, təəccüblü halda, çiyinlərinin oynatdı. Bax indi bu cavan kommunist, sizə hər şeyi başa salacaq! Katib əl işarəsi ilə, danış gördüklərini, qoy hali olsun! - dedi. Mən zavodda vaqonların necə itməsini olduğu kimi danışdım. Cibindən yaylığını çıxarıb, tərlə bürünmüş sifətini, qalstuka oturan sallaq buxağını, dayanmadan silən müdir, söz tapıb özünü müdafiə edə bilmədi. Əks təqdirdə, mən onunla bərabər zavoda gedib, faktiki olaraq zavodda baş verənləri  göstərə bilərdim?! Müdir anlayırdı ki, özünü təmizə çıxarmaq istəsə belə, mümkün olmayacaq. Tərləmək, susmaq elə ondan irəli

gəlirdi. Katib də hər şeyi dərindən dərk etmişdi. Sükut hökm sürürdü. Katib nə qərar verəcəyini, müdir necə cavablandıracağını, mən isə nəticə gözləyirdim. Sükutu katib pozdu. Neçə vaqonunuz itmişdir?- deyə sual etdi. Mən nömrələri qeyd olunmuş vərəqi katibə göstərərək,on yeddi vaqon deyə, qeyd etdim. Bəs hansı marka sement alırsınız? Mən 500-550 marka- dedim. Zavodun müdiri mənə düzəliş vermək, 400-450 marka demək istəsə də, katib onun sözünü yarımçıq kəsdi. Vaqonları bir həftəyə tapıb, dediyi marka sementi yükləyib mənə məlumat verərsiniz! İndi gedin, işinizlə daha ciddi məşğul olun, qəbula gələnlərlə düzgün rəftar etməyi, incitməməyi bildirərək, məni müdirə göstərib, bu cavan oğlanı hər zaman qəbul etməyi unutma?! Müdir başı ilə katibin dediklərini təsdiq edib, dabanqırma yoxa çıxdı. Mən ayağa qalxıb, katibə təşəkkürümü bildirib, xudahafizləşərək kabineti tərk etdim. Pilləkənləri düşəndə, sevindiyimdən elə bil ayaqlarım uçurdu. Bəs necə, satış şöbəsinə həftələrlə girə bilməyənlər hara, müdiri ayağına gətirdən cavan kommunist hara?!

İşlədiyim zavodun müdirinə teleqram vurub, axtarışda olduğumu və tezliklə vaqonları tapıb sementlə yola salacağımı qeyd etdim. Yəqin ki, 3-4 günə vaqonlar tapılar?- deyə düşündüm. Mağazaların birində yaxşı bir ətir, o vaxt çox dəbdə olan "Bıt mojet" alıb, yüklə dolu vaqonlara naryad yazan qızların yanına, stansiyaya getdim. Bir az itmiş vaqonların tapılması mövzusundan söhbətləşib, nəzərimdə tutduğum qızlardan birin, bayıra çağıraraq, ətiri hədiyyə etdim. İtmiş vaqonların nömrələrini ona verib,

tapılanda mənə, mehmanxanaya zəng etməsini xahiş etdim. Bir neçə gündən sonra 8 vaqonun, həftə tamamında isə, digər vaqonların tapıldığını və 500 marka sementlə doldurularaq, yola salındığı mənə məlum oldu. Mən vaqonların yola salınmasını əyani olaraq müşayiət etdikdən sonra, zavodumuzun müdirinə teleqram vurub, qarşıya qoyulmuş vəzifələrin yerinə yetirildiyini bildirdim. Gecə yarısı mehmanxana administratorunun mənə müdiriyyətin zəng etməsini bildirilməsi, təəccübümə səbəb oldu. Zəng edən zavodumuzun müdiri İvan Spiridonoviç idi. Mənə təşəkkür edir və alqışlayırdı. İşimi başa vurduğuma görə, qalmağımın mənası yox idi. Bilet alıb doğmalaşmış şəhərimə yola düşdüm.

Qatardan düşüb alışdığım şəhərin,doğmalaşmasını bir daha hiss etdim. Zavoda işə çıxan kimi, məni təbrik etdilər, ən çoxu zavodun müdiri ilə, partiya təşkilat katibi iclasda çıxış edərək, təchizat üzrə müdir müavinimizi və şöbə rəisimizi tənqid atəşinə tutub, məni nümunə göstərək onlara işlərini düzgün qurmağa çağırdı. Partiya təşkilat katibi Vasili Daniloviçin çıxışı isə qeyri adi idi. Yoldaş Karib Sınıqoviç, rus dilini bir o qədər də yaxşı bilməsə də, qarşıda qoyulan vəzifəyə ciddi yanaşıb, düzgün nəticə çıxardır. Ancaq təchizat rəisi və digər işçilər bir rus olaraq, rus dilinin bilicisi olaraq, işə səriştəsiz yanaşırlar, məsuliyyətsizlik edirlər və nəticədə işləri alınmır. İclasdan sonra şöbəyə gələndə, şöbə rəisimiz məni təbrik edib, yerini mənə göstərərək, vəzifəmi sənə verəcəm?- dedi. Mən gülərək şöbə rəisimə bildirdim ki, sənin kürsün və vəzifən

mənə maraqlı deyil! Sonralar o mənim söz sahibi olduğumu bilib, mənə təşəkkür etdi. Əslinə qalsa, indiki dövrdə məni vəzifə yox, ev almaq maraqlandırırdı. Birdəki rəis olub, beşinin əvəzinə cavab verməkdənsə, özümü yaxşı tanıdığımdan, özümə cavab verməyi hələlik üstün tuturdum. Bundan başqa rəis olmaq üçün təcrübə qazanmaq lazım idi, təcrübəsiz hər hansı bir vəzifəni öhdəmə götürməyi özümə rəva bilməzdim. Sementlə dolu vaqonlar zavoda gəlib çıxandan sonra, mərkəzləşmiş idarənin rəhbərliyinin təkidi ilə tabeçilikdə olan digər tikinti idarələrinə texniki kömək olaraq sement verilmişdi. Bu nöqteyi-nəzərdən zavod rəhbərliyinə mərkəzi idarədən təşəkkürnamə gəlmişdi. Müdirimiz məni kabinetinə çağırıb, əməyimi mükafatlandırıldığını bildirdi. Xeyli sükutdan sonra,işçilərin öz aralarında"alkaş"adlandırdığı, içki aludəcisi olan müdirimiz, bir təhər mənə "Ağdam" çaxırını gətirməyi mümkünat daxilində xahiş etdi və sonra göstərici barmağını dodaqlarının üstünə qoyaraq, "bir daş altdan bir daş üstdən" heç kim bilməməlidir!- dedi. Sən qafqazlısan və sizlərin "ağzıbütöv" olduğunu hərbi xidmət vaxtından bilirəm? Mən ehtiyatı əldən buraxmayıb, bir neçə dəfə ona "Ağdam" çaxırını təşkil etdim. Və beləcə günlərin birində mən ona çaxır təqdim edərkən, otağında bir gənc qız gördüm. Müdirimiz, mənim qızımdır:- Vera, tanış ol!- dedi. O, vur- tut bir qızı olduğunu deyərək, mənimlə münasibət qurmasını önəmli hesab etdi. Mən düzü tutulmuşdum. Özümdən asılı olmadan, yaxşı- dedim. Kabinetdən çıxıb ayağı dolaşmışlar kimi, şöbəyə getdim. Şöbə rəisi mənə

müraciətlə:-hə Karib, de görüm necə oldu ki, sən vaqonları tapıb, üstəlik yüksək marka ilə göndərə bildin? Şöbə rəisinin dediklərinə fikir vermədim, çünki beynim tam qarışıq idi. Müdirimizin öz qızını mənimlə tanış etməsi yaman beynimi qarışdırmışdı. Fikirləşirdim ki, Azərbaycan mentalitetində belə bir hərəkətə yol verilə bilməz! Yəqin ki,heç bir ata öz qızını kiminləsə tanış etməz! İş vaxtı qurtardıqdan sonra evə gedərkən, zavoddan bir az aralı Veranı dayanan gördüm. Elə bil yuxu görürdüm. Fikir verməyib yoluma davam etmək istəyəndə, Veranın qolumdan yapışaraq, Karib- deyə müraciət etməsi, məni dayanmağa məcbur etdi. Çoxdankı tanışlar kimi, qoluma girib mənimlə birlikdə addımlamağa başladı. Mən bilmirdim nə deyim, nədən danışım! Vera isə, atam sənin haqqında mənə xeyli danışıb, səninlə dostluq etmək mənə xoş olardı,- deyirdi. Beləcə bağların birində, oturacaqda oturduq. Vera əl çantasından siqaret çıxarıb, mənə təklif etdi, mən isə siqaret çəkmədiyimi və ona da məsləhət görmədiyimi bildirdim. Vera gülümsəyərək çoxdan,hələ 5-ci sinifdən siqaret çəkdiyini və siqaretsiz özünü pis hiss etdiyini, eyni zamanda, siqaretin indi "dəbdə" olduğunu qeyd etdi. Əslində yataqxananın yanında orta məktəb şagirdlərinin, qız və oğlanların gizlin-gizlin siqaret çəkdiklərini az müşahidə etməmişdim. Biz biraz oturandan sonra, vacib işimin olduğunu bildirərək, getməyimi vacib bildim. Vera pis başa düşməsin deyə qeyd etdim ki, əvvəlcədən görüşməyimizi bilsəydim, belə tez getməzdim və üzrxahlıq edib yataqxanaya getdim. Bütün bunları

Mamedə təəccüblə söyləyəndə, sağ olmuş o qədər güldü ki... Sonra kaş mənim qabağıma eləsi çıxaydı,- dedi. Mən Mamedə eləsi qabağına çıxsaydı evlənərdinmi? O isə:- a qardaş ağlın olsun, əvvəlcə istifadə edərdim, yəqin ki, atasının evi, pulu var, sonra da ya şah ölərdi, ya da eşşək! Əlbəttə mən müdirimizin içki aludəçisi olduğunu Mamedə deyə bilməzdim. Zənnimcə elə işlər var ki, sirr kimi saxlamaq, susmaq lazım gəlir. Ancaq Mamedin də sandığı açıb, pambığı tökəcəyini əvvəlcədən bilirdim. Sirr saxlamazdı, kimlə tanış oldu, harada, nə etdiklərinin bir-bir söyləyərdi. Mən belə hərəkəti sevməzdim. Mənim sirr saxlamağımı Mamed qeyri səmimilik kimi başa düşərdi və hərdən bir zarafatla:- ay Karib sirrini qarnında az saxla, birdən "sirr yığnağı"üfunəti səni partladar!- deyərdi. Mən isə Mamedin bu zarafatlarına biganə yanaşardım. Biz Vera ilə bir neçə dəfə görüşüb, kinoya, teatra gedərdik. Beləcə günlərin birində, şaxtalı havada görüşümüzü vədləşməyə baxmayaraq, Veranın görüşə gəlməməsi və mənim onu xeyli gözləməyim əsəblərimin gərginliyinə səbəb oldu. Mən yataqxanaya qayıtdım və Vera ilə görüşməyi bir neçə vaxt təxirə saldım.. Bir gün Mamed bildirdi ki, gözün aydın, Vera dalınca gəlib vaxtada səni gözləyir. Könülsüz vaxtaya düşüb onunla görüşdüm. Mən Veradan vədləşməyimizə baxmayaraq, görüşə gəlməməyinin səbəbini soruşdum. Vera heçnə olmamış kimi, şagird vaxtı münasibətdə olduğu sinif yoldaşı ilə qarşılaşdığı və gecəni bir yerdə keçirdiklərinə görə, görüşə gələ bilmədiyini bildirdi. Mən indi başa düşdüm ki, atasının mənə münasib bildiyi Vera,

artıq yeniyetmə vaxtlarından müxtəlif münasibətlərdə olub və bu mənim üçün əlbəttə ki, qəbuledilməz idi. Veranın xətrinə dəyməyim deyə, onunla birgə şəhərə çıxdım. İndi Veranı özümdən uzaqlaşdırmaq üçün yollar axtarırdım. Əgər biz qeyri səmimi şəkildə ayrılsaydıq, bəlkə də atası məni işdən çıxarardı, onda nə edəcəkdim?!

Bu arada başıma gəlmiş bir utandırıcı hadisə isə məni gələcək həyatımda "hüşyar" olamağa məcbur etdi. Belə ki, zavodumuzun böyründə yerləşən Tikinti mexanizasiya idarəsində işləyən Faiq adlı həmyerlim, mənim Azərbaycanlı olduğumu bilərək, tanışlıq verib dostluq münasibətində olmağı təklif etdi. Faiq əslən Qaqauzlu olsa da, milliyyətcə Azərbaycanlı idi. Valideynləri hələ uşaqlıqdan Qaqauziyada yaşamış, sonradan hərbi xidmətə gəlmiş Faiq, burada yerli rus qızıyla ailə qurmuş və bu izdivacdan bir oğlu olmuşdu. Valideynləri bu izdivaca qarşı çlxsalar da, Faiq öz sözündən dönməmişdi. Sonradan atası rəhmətə getmiş, anası isə xəstəliyə dücar olmuşdu. Xəstə anasının yanına gedə bilməməyinin əsas səbəbi, həyat yoldaşı və onun çox sevdiyi 15 yaşlı oğlu idi. Özünün dediyinə görə, anasına maddi köməklik göstərirdi. Faiq demək olar ki, hər gün mənimlə yol yoldaşlığı edir, illərlə ürəyində saxladığı dərdlərini mənimlə bölüşürdü. Onun səmimi danışıqları, dostluğa olan ehtiyacı, ən çox tənhalıqdan və yerli həmyerliləri ilə münasibət yarada bilməməsindən irəli gəlirdi. Hər dəfə qeyd edirdi ki, bizim ziyalı həmyerlilərimiz çox azdır.Əksərləri alverçilik edir, onlarla

da səmimi münasibət qurmaq olmur. Bir neçə həftəlik münasibətlrimizdən sonra, bir gün Faiq məndən əl çəkməyib, evinə qonaq apardı. Bizi qarşılayanlar- oğlu və yoldaşı idi. Oğlu elə bil, bir alma parçası kimi özü idi. Yoldaşı isə adi bir rus xanımıydi. Biraz tanışlıqdan sonra masaya yemək və içki gətirildi. Oğlu üzrxahlıq edib, dostları ilə şəhərə getdi. Mən içkiyə razılıq verməsəm də Faiqin "dostluğumuz xatirinə"- deməsi, məni içkiyə əl atmağa məcbur etdi. Bir- iki rumkadan sonra, mən spirtli içkiyə son qoymalı oldum. Faiq və yoldaşı axıradək spirtli içkini içib, demək olar ki, ağızlarının açarlarını itirdilər. Gözümün qabağında baş verən ər-arvadın xoşagəlməz zarafatları məni karıxdırmışdı. Durub getmək istəsəm də, ər-arvadın razılığı olmadı. Birazdan özünü güclə ayaq üstə saxlayan Faiq dincəlmək üçün digər otağa keçdi və çox keçməmiş "xorultusu" otağı bürüdü. Meyxoş olan xanım isə, nəzərlərini məndən çəkmədən, sən çox cavansan:- deyib, gah başımı, gah da əllərimi sığallamağa başladı. Həyadan o qədər tərləmişdim ki, utandığımdan tez-tez Faiq yatan otağa baxaraq, oyanmasını arzulayırdım. Birdən məni qucaqlayan xanımın ehtirasdan parıldayan gözlərinə, gözüm sataşanda,vicdan əzabı məni yerimdən oynatdı. Mən ona ayıbdır, biz Faiqlə dostuq, bizdə dostluğa xəyanət olmaz!-desəmdə, xeyri olmadı! Bərk qəzəbləndiyimdən, qadını özümdən kənarlaşdırıb, qapını çırparaq mənzili tərk etdim. Vicdan əzabı məni elə sıxmışdı ki, hər dəfə Faiqi görəndə yolumu dəyişirdim, üz –üzə gəlmək istəmirdim. Özümün nifrət bəslədiyim "dostluğa xəyanət" məni daxilən

didib parçalayırdı. Bir gün özüm də bilmədən, Faiqin yolumu kəsib:- mən səni özümə dost bilmişəm, sən isə məndən uzaqlaşırsan?!Faiqə nə cavab verəcəyimi özüm də bilmirdim,elə bil nitqim qurumuşdu! Axı, necə deyəydim ki, mən yox, vicdanım səndən uzaqlaşır? Mənə diqqətlə baxan Faiq:- mən səni başa düşürəm, sən yaxşı insansan, günah mənim arvadım- Lidadadır! Bədənimi soyuq tər basdı. Faiqə müraciətlə:- sən nə danışırsan? Elə arvadla bir gün də yaşamaq olmaz, axı sən Azərbaycanlısan?! Gözü yaşarmış Faiq oğlumu gördünmü, necə mənə oxşayır?! Onu necə atım? Həyatda bir ümidgahım var, o da oğlumdur! Qaqauziyaya anamın yanına aparmaq istəsəm də, alınmadı. Bax beləcə arvadımın xoşa gəlməyən "hərəkətlərinin" qurbanı olmuşam! Qərib sən çox səmimi insan olduğundan, səni özümə dost bildim. Daxilən fikirləşdim ki, Faiqlə mənim dostluğum baş tutmaz. Mənim əzəldən iradəsiz adamlardan xoşum gəlməzdi. Hələ rəhmətlik Həsrətin sağlığında ona dəfələrlə deyərdim ki, insan mübarizə aparmağı, özünü təsdiq etməyi bacarmalıdır. Mənim zənnimcə ağıllı insanlar hansı mürəkkəb şəraitdə olursa, olsun bir çıxış yolunu mütləq tapmalıdır?! Bu hadisədən sonra mən müdirimizin qızı Veradan necə qurtulmağımı düşünməliydim.

Beləcə bir neçə görüşdən sonra Veraya bildirdim ki, əgər biz ailə qurmuş olsaq, yəqin ki, Azərbaycana-valideynlərimin yanına getməli olacağıq. Bizim adətimizə görə, sən anamın "ayağını" yumalısan! Vera gözləri böyümüş bir şəkildə:- sən dəlisən, mən hara, ayaq yumaq

hara?! Heç vaxt mümkün deyil! Birdən Vera oturacaqdan qalxaraq, get özünə "ayaq yuyan" tap, bizim sevdamız baş tutmaz!- dedi. Veranın kefi pozulmuş halda məni tərk etməyi, məni daxilən incitdi. Fikirləşdim ki, gedib atasına məni qaralasa, yəqin ki, işlərim əyri bitəcək. Sabahısı gün çəkinə-çəkinə, müdirin gözünə görsənməmək şərtilə işə yollandım. Şöbəyə daxil olanda, Rima xanım:- müdir səni çağırır,- deyə gülümsədi. Ürək-göbəyim elə bil yerindən çıxdı. Üzümü Rimaya turşudaraq, müdirin yanına getdim. Məni salamlayan müdir, Kadir mənə "Ağdam" təşkil edə bilərsənmi? Mən, bəli- dedim. Sonra müdir mənə yaxınlaşıb, sən həqiqətən yaxşı oğlansan, qızım gəlib mənə hər şeyi danışdı. Sən ona fikir vermə, Veradan yaxşı qızlar var, Rusiyada "evlənmək" problemi yoxdur. Daxili sevincimi büruzə elətdirmədən, kabinetdən çıxdım. Şöbəyə daxil olub, şubamı geyərkən, Rima mənə yaxınlaşıb deyəsən kefin əladır, elə bil təzə vəzifə veriblər sənə?! Mən Rimaya hə, sən deyəndir- deyib, "Ağdam" almaq üçün şəhərə getdim. Elə bil boynumdan böyük bir yük götürülmüşdü. Sərbəst olmaq, çox gözəl bir hiss imiş!

Zavodu sementlə təmin etdikdən sonra mərkəzi idarədə adım hallanır və hörmət sahibi olurdum. Təchizat şöbəsinə şamil edilmiş yük maşının sürücüsü Dmitri bir gün mənə balaca boylu, arıq, çəlimsiz,40-45 yaşlarında kişini göstərib, həmyerlim olduğunu bildirdi. Armatur sexində qaynaqçı işləyir. Nahar vaxtı Dmitrinin mənə göstərdiyi həmyerlim,elə Dmitrinin təhriki ilə,mənə yaxınlaşaraq, salamlaşdı. Əlbəttə ki, Azərbaycan

dilində.Az-çox vaxtımın olduğunu məndən öyrəndikdən sonra,keşməkeşli həyatını mənə danışmağa başladı.O, atasının müharibə vaxtı həlak olduğunu, anasının isə onu internata verib,harayasa getdiyini söylədi. Xeyli sükutdan sonra, o, mənim tərəfimdənköməkliyə ehtiyacı olduğunu qeyd etdi. Mən ona hansı köməyə ehtiyacı olduğunu soruşdum? O isə, arvadı tərəfindən hökumət yolu ilə əlindən məvacibinin alındığını, ona isə yoldaşı tərəfindən gündəlik yemək və marşrut pulunun verildiyini bildirdi. Mən ona, nə edə bilərəm?Mən hökumət deyiləm,axı! Həmyerlim:- sənin böyük hörmətin var, baş mühasiblə danış, heç olmasa məvacibimdən mənə müəyyən qədər pul ayrılsın. Həmyerlimin mövcud qanunlardan xəbərsiz olması, həm də savadsızlığı, ən əsası, acizanə danışığı məni məyus etdi. Yaxşı, çalışaram bir kömək edim, ancaq səni əmin etmək fikrim yoxdur! Baş mühasiblə söhbət zamanı, həmyerlimin məvacibini içkiyə verməsi, uşaqlara baxmaması əyan oldu. Baş mühasib, həmyerlimin 5 uşağı olduğunu deməsi, məni heyrətləndirdi. Mən həmyerlimin bu "qəhrəmanlığına" məəttəl qalmışdım. Rusiyada kimi dindirirsən bir və ya iki uşağı olduğunu deyir. Beş uşaq həmyerlimin nəyinə lazım idi?Baş mühasibdən öyrəndim ki, həmyerlimin adı Rövşəndir. Sexdə ona sadəcə, "Roşa" deyirdilər. Çox istəyirdim ki, Rövşəni çağıtdırıb onunla söhbət edim və elə də oldu. Mən ondan niyə içkiyə qurşandığını və beş uşağa baxmadığını soruşdum? Roşa indi içki içmədiyini, beş uşaqdan ancaq, üçünün onun doğması olduğunu bildirərək, öz evlilik hekayəsini mənə

danışdı. Mən ilk yoldaşımla beş il yaşadım, iki qız uşağım oldu. Biz qaynanamgildə yaşayırdıq. Yoldaşım qəflətən xəstələnərək vəfat etdi. Qaynanam məni uşaqlarla bərabər çölə atdı. İndiki həyat yoldaşımı çoxdan tanıyırdım. Əri Lyudanı, yəni indiki həyat yoldaşımı iki uşaqla tərk edərək, başqa bir şəhərə getmişdi. Mən Lyuda ilə razılığa gəlib, evində yaşamaqla birgə uşaqlarımızı böyütmək qərarına gəldik. Sonradan Lyudadan da bir qızım oldu. Qərib eldə çəlimsiz bir insanın anlaşılmayan həyatı məni vardan yox etmişdi. Mən ona cib xərcliyi verib,Vaxtımın darlığını bəhanə edərək,uzaqlaşdım.Əslində onun düşüncəsiz,aciz hərəkətləri xoşuma gəlməmişdi.

Bir neçə müddətdən sonra Dmitri mənə yaxınlaşıb:- Karib həmyerlin Roşanı arvadı döyür, o isə kömək istəyir!- dedi. Niyə kömək etmirsən ona, yazıqdı axı?! Əsəblərim tarımlaşdı, hadisə məvacib verilən kassanın qarşısında olduğundan, ora gedib Rövşəni hündür və kök bir arvadın hökmündən zarıdığını gördüm. Mən Rövşənə yaxınlaşanda, onun sən Allah mənə kömək et?- deməsi, özümdən asılı olmadan Rövşənə sillə vurmaqla nəticələndi. Sonra çönüb Rövşənin Lyudasına elə sərt baxdım ki, xanım bir göz qırpımında yoxa çıxdı. Əlbəttə bu andakı hərəkətim olar bilər ki, Dmitri və digərləri tərəfindən bəyənilməsin, ancaq mövcud şəraitdə mənim hərəkətim düşünülmüş və öz vicdan qanunuma uyğun idi. İşin qurtarmasına az qalmış armatur sexinə gedib, Rövşənə onunla evinə gedəcəyimi və işlərini qaydaya qoyacağımı bildirdim. Biz Rövşənin yaşadığı evə daxil olanda, tünd bir üfunət iyisi

məni vurdu. Lyuda xanım məni görən kimi, uşaqları çəkib başqa bir otağa apardı. Otaqlar dağınıq, çirkli bir halda idi. Rövşəndən xahiş etdim ki, Lyudanı söhbət etmək üçün çağırsın. Üz gözünü tez-bazar rəngləmiş, çirkli xalatı sinəsinə kimi açıq olan Lyuda:- eşidirəm sizi nə istəyirsiniz?- deyə müraciət etdi. Mənim hər ikisinə verdiyim tövsiyələri qəbul etməyən Lyuda, onu "guya" əsəbləşdirən Rövşənə əl qaldırmaq istədi. Mən cəld onun əlini havada tutub, sərt baxışlarımla ona sirayət edərək, möhkəmcə əlini sıxdım və ayağa qalxaraq ona səsini çıxarmamağı bildirdim. Lyuda mənim sərt baxışlarım və ciddi hərəkətlərim qarşısında təslim oldu. Mən ona ailə işinizə qarışmaq istəmirəm, ancaq kişinin zəhmət çəkib qazandığı məvacibin 20 %-ni hər ay özünə qaytarmağı tələb etdim. Sonra bildirdim ki, Azərbaycanda xanım yox, kişi ev sahibi, söz sahibidir! Məhz buna görə də, Rövşənin acizliyini qəbul etməyib, onu sillə ilə vurmuşdum. Sonra üzümü Lyudaya tutub bir növ rişxəndlə, bu nə ev saxlamaqdır?! Paltarlar çirkli, yatdığınız çarpayılar dağınıq, qab-qacaq bulaşıqlı, yuyulmamış!Utanmırsınız? Bəs, sən bu kişinin 300 rublunu hara xərcləyirsən? Əgər həmkarlar təşkilatı, mühasibatlıq, bütün bu həqiqətləri bilsə, kişinin məvacibini sənə verərlərmi? Vaxtımın darlığından, otaqdakı üfunətdən çox dayana bilməyəcəyimi duyduğumdan, Lyudaya kəskin şəkildə reaksiyamı bildirərək,mənzili tərk etdim. Bir müddətdən sonra Rövşən ailə vəziyyətinin düzəldiyini mənə bildirərək, bu münasibətlə mənə təşəkkürünü bildirdi.

İşimdə dürüst, adicə həyatımda isə sərbəst olduğumdan özümü daxilən yaxşı hiss edirdim. Anamdan və qardaşımdan tez-tez məktub aldığımdan nigarançılığım yox idi. Demək olar ki, hər həftə məktub alırdım. Anam iki-üç vərəq məktub yazardı. İlk iki səhifəsinin oxumazdım. Uzun salamlaşmaq, havalar haqqında yazı iki səhifəni aparardı. Mən isə konkret bir səhifə məktub yazardım. Anam tez-tez şikayətlənirdi ki, niyə məktubu az yazırsan, çox yaz mənimki kimi?! Mən anamı başa düşürdüm. Analar həmişə övladlarından sonu olmayan məktublar gözləyərdilər, mənim, anam kimi...

Artıq zavodumuzda struktur dəyişikliyi də baş vermişdi. İçki aludəçisi olan müdirimizi işdən azad edib, yerinə tikinti idarələrinin komplektləşdirmə sahəsindən, mənim texniki kömək üçün tez-tez müraciət etdiyim Aleksandr Vasilyeviçi təyin etmişdilər. Aleksandr Vasilyeviç sakit təbiətli, zarafatından qalmayan, gülərüz bir adam idi. Hər dəfə texniki iş üçün ona müraciət edəndə, zarafatla məndən bu vilayətə necə düşdüyümü soruşardı? Mən isə eyni zarafatla, "zənbillə", alma kimi düşdüyümü ona deyərdim! Zavodun baş mühəndisi başqa işə keçdiyindən, yerinə mənim keçmiş sex rəisim Vladimir İqnatoviçi təyin etmişdilər.

Bir dəfə müdir olmayan vaxtı texniki kömək üçün, qonşu idarədən gəlmiş birisinə Vladimir İqnatoviç 5 ton armatur vermək istəyəndə, mən təchizatçı olaraq razılıq dərkənarı qoymamışdım. Bu hərəkətim Vladimiri təəccübləndirmiş və məni kabinetinə təcili gəlməyimi xahiş

etmişdi. Baş mühəndisin mənə etdiyi irada qarşı çıxaraq bildirdim ki, anbarda armaturumuz azdır və bizim bir həftəlik tələbatımızı kənara paylayırsınız?! Armatur olmadığı təqdirdə işin dayanacaqsızlığı yaranacaq. Müdirimiz olsaydı, bu sövdələşməyə getməzdi. O məni diqqətlə süzüb, sən mənə minnətdar olmalısan,bugünkü yaxşı vəziyyətinə görə?!Əgər zavodda işə səni qəbul etməsəydim, sən nə yataqxanada yer alardın, nə də pasport qeydiyyatına düşərdin! Bu sənin mənə təşəkküründürmü? Mən onun dediklərini təsdiq etdim. Vaxtilə işə qəbul elədiyinə görə təşəkkürümü bildirdim və qeyd etdim ki, bu gün də mən sənə hörmətlə yanaşıram! Anacaq bu işdir, mən zavodu metalsız qoyub, idarələrə üz tutaraq, metal "dilənə" bilmərəm! Ağlım başımda ola-ola, niyə özümə qamçı vurdurmalıyam? Necə istəyirsinizsə, eləcə də hərəkət edin!- deyib otaqdan çıxdım. Sonralar Vladimir İqnatovic mənə qarşı "dişini yegələsə" də heç nəyə nail ola bilmədi.

Bəli, beləcə iş günlərimin birində yeni müdirimiz Aleksandr Vasilyeviç məni kabinetinə çağırıb, Qornozavodsk Sement zavodundakı uğurumu təkrarlayaraq, Birləşmiş Mərkəzi idarənin mənimlə maraqlandığını qeyd etdi. Sonra mərkəzi idarə üçün bəlaya çevrilmiş 37 vaqonun tez-tez itməsini mənim nəzərimə çatdıraraq, əmrə hazır olmağımı bildirdi. Bir həftə keçməmiş Aleksandr Vasilyeviç Mərkəzi idarədə rəisin qəbuluna gedəcəyimizi bildirdi. Rəis hündürboy, qarayanız və zahiri görkəmi ilə heç də qafqazlılardan fərqlənməyən, zəhmli bir kişi idi. Milliyyətcə Yahudi olan rəis

gülümsəyərək, məni və müdirimizi oturmağa təklif etdi. Rəisin yanında həmkarlar təşkilatının sədri, tikinti işləri üzrə müavin və təchizat üzrə müavin oturmuşdular. Rəis-Qolland məni Qornozavodsk və Nijni Taqil şəhərlərindəki sement zavodlarına xidməti məzuniyyətə gedib, yaranmış problemləri həll etməyi bildirərək, çox sakit tərzdə, öhdəsindən gələcəksənmi?- deyə soruşdu. Mən çalışacağımı və qarşıya qoyulan vəzifələri yerinə yetirəcəyimi qeyd etdim. Qolland müdirimizə müraciətlə:- sənin, bu cənublu işçin həmişə belə təvazökardırmı? Aleksandr Vasilyeviç isə məni yaxşı tanıdığını və öhdəsinə düşən işləri həll edə biləcəyimi qeyd etdi. Rəis:- cavan oğlan, sənə uğurlar!- deyib bizə yaxşı yol arzuladı.

Sabahısı xidməti məzuniyyət vərəqəmi götürüb bilet alaraq, Qornozavodsk şəhərinə, artıq mənə tanış olan şəhərə, yola düşdüm.Mehmanxanada yerimi rahatlayıb, birbaşa sement zavodunun müdirinin qəbuluna getdim. 37 vaqondan 25 vaqonun nömrələrini məni çox yaxşı qəbul edən və əvvəlki işlərimdən tanıyan müdirə göstərdim. Müdir satış şöbəsinin rəisini kabinetinə dəvət edib, vaqon nömrələrini ona göstərərək, vaqonların tezliklə tapılmasını və müqavilədə qeyd olunan marka sementlə, doldurub müəssisəmizə yola salınmasını tələb etdi. Müdir çay təklif etsə də, işimin çox olduğunun nəzərə alaraq, təşəkkürümü bildirib kabinetdən çıxdım. Müdirin kabinetindən çıxanda, dişləri siqaretdən qapqara qaralmış, satış şöbəsinin rəisi irişmiş halda:- sən kimsən belə, müdir əl-ayağa düşüb? Mən amiranə bir şəkildə, əgər işdən qovulmaq istəmirsənsə

müdirin tələbini yerinə yetir!- deyib uzaqlaşdım. Satış rəisinin arxadan təəccüblə mənə necə baxdığını hiss etdim. Mənə elə gəlirdi ki, rəis qonağa arxadan xeyli baxmaqla, canını ilandan qurtarmış qurbağa kimi hiss edib, rahat nəfəs almağa çalışdı. Dəmir yol stansiyasına gedib, bir konfet korobkası alaraq, keçmiş naryad yazan tanışım Olyaya xoşəhval etdikdən sonra, hədiyyəmi təqdim etdim. Vaqon nömrələrini Olyaya verib, ev telefonunu aldım. Zəng edəcəyim təqdirdə tapılan və sementlə doldurulan vaqonlar haqqında mənə məlumat verməsini xahiş etdim. Qornozavodsk şəhərində qalmağımın mənasızlığını bildiyimdən, digər vaqonların tapılmasını və sementlə doldurulmasını həll etmək üçün, Nijni Taqil şəhərinə yola düşdüm.

Nijni Taqil şəhərində və sement zavodunda ilk dəfə idim. Qarşıma qoyulmuş vəzifələrin tezliklə həll olunmayacağını düşünüb, elə vağzalın qarşısındakı “Ural” mehmanxanasında yerləşməyi qərara aldım. Axşam olduğuna görə, şəhəri gəzib sement zavoduna getməyin yolunu da müəyyənləşdirdim. Mehmanxananın qarşısından keçən tramvayla sement zavoduna getmək mümkün idi. Mehmanxanaya qayıdıb təzə bir sakinin də otaqda olduğunu gördüm. Qara saqqallı kişi:- Tengiz Maxaradze- deyib, özünü təqdim etdi. Masanın üstündə çoxlu meyvə və şərab qutuları var idi. Şam yeməyimizi gürcü çaxırı ilə qeyd edib, Tengiz ilə həmsöhbət olduq. Tengiz Gürcü və Azərbaycan xalqlarının dostluğundan xeyli danışdı. Əlbəttə, iki “qəribin” bir ölkədə, milli adət-

ənənə söhbətləri insanda yaxşı ovqat yaradırdı. Mən ona, nə üçün Urala gəldiyini soruşdum? Tengiz vur- tut bir oğlunun olduğunu və Nijni Taqildə hərbi xidmət çəkdiyini,- dedi. Sonra Tenqiz:- "bico" mənə bir məktub yazarsanmı? Axı, mən rus dilini yaxşı bilmirəm?! Mən əlbəttə razılıq verib, Tengizin dilindən SSRİ Müdafiə Nazirinə bir məktub yazdım. Çox təşəkkürlər edən Tengiz, Batumidə yaşadığını və mümkün olsa Batumiyə qonaq gəlməyimi xahiş etdi. Səhəri Tengizlə sağollaşaraq, sement zavoduna yola düşdüm.

Sement zavodunun satış şöbəsinin rəisi, xanım Valentina İvanovna məni çox yaxşı qəbul etdi. Gəlişimin məqsədini danışıb, vaqon nömrələrini Valentinaya verdim. Vaqon nömrələrinə diqqətlə baxan və öz jurnalında nömrələri araşdıran Valentina İvanovna 12 vaqondan 4-nün dünən axşam sementlə yola salındığını bildirərək, yerdə qalan vaqonların da tapılacağını və sementlə doldurularaq yola salınacağını qeyd etdi. Valentina mənimlə söhbət zamanı Nijni Taqildə Azərbaycanlıların çox olduğunu, hətta qonşularının belə, Azərbaycanlı olduğunu bildirdi. Mən Valentinaya "Ural" mehmanxanasında dayandığımı və israrla bizə qonaq gəlməsinin xahiş etdim. Bildirdim ki, otaq yoldaşım Gürcüstandandır. Çox yaxşı insandır, qonaq gəlsəniz, o da şad olar! Mehmanxanaya qayıdıb Tengizə qonağımız olacağını bildirdim. Sement zavodunda işin qurtarması 16.30-da qeyd olunduğundan, biz Tengizlə bərabər pəncərədən tramvay dayanacağına baxırdıq. Tengiz

qardaşım masanı çox yaxşı bəzəmişdi. Bir neçə dəqiqə keçməmiş tramvaydan Valentinanı düşərək, mehmanxanaya doğru addımladığını gördük. Tez mehmanxananın həyətinə çıxıb, Valentinanı qarşılayaraq, otağımıza dəvət etdim. Tengizin sındıra-sındıra rus dilində danışması Valentinanı valeh etmişdi. Tengiz bir ucdan stəkanlara çaxır töküb, keçmişdəki cavanlığından rus xanımları ilə olan münasibətlərindən danışaraq, öz şirin danışığı ilə bizi məftun etmişdi. Çaxır içdikcə Valentinanın də yanaqları qızarır və onu adicə vaxtından daha gözəl edirdi. Valentina nə qədər çox şərab qəbul etsə də, sağlam düşüncəsi və dürüst, dəqiq danışığı ilə bizi mat-məəttəl qoymuşdu. Gecəyə yaxın mən və Tengiz taksi tutaraq, Valentinanı evlərinə yola salıb, sonra mehmanxanaya-otağımıza qayıtdıq. Tengiz Valentinanın mərdanəliyinə vurulmuşdu. Bu qadın əsil kişi ürəyi gəzdirən qadınlara oxşayır!- deyirdi. Sabahısı Tengizi vətəninə yola salıb, mehmanxanaya qayıtdım.

Nömrənin açarı əlimdə olmağına baxmayaraq, qapı bağlı idi! Administratordan qapının nə üçün bağlı olduğunu soruşdum?Administrator, otağa yenicə sakin qəbul etdiklərini bildirərək, otaqda sakinin olduğunu qeyd etdi. Qapını döysəm də, açan olmadı! Xeyli müddətdən sonra qapını açan Orta Asiya nümayəndəsi olan bir nəfər, gözünü güc -bəla ilə açaraq, məni otağa dəvət etdi. Məndən üzr istəyən yeni otaq sakini, Murad- deyə adını bildirib, milliyyətcə Özbək olduğunu-dedi. Otağa daxil olub çarpayıların altına yığılmış çoxlu qarpız və qovun gördüm.

Məni qarpıza və qovuna qonaq edən Murad qazanxana üzrə imtahan vermək üçün Nijni Tagilə gəldiyini bildirdi. Rus dilinin demək olar ki, bilməyən Murad mənimlə yarı rus, yarı özbək dilində danışırdı. Bir xeyli söhbətdən sonra, Murad cibindən torba çıxardıb içində qurudulmuş və toz halına salınmış ota oxşar nəyisə burnuna qoyub, yavaşca burnuna çəkdi. Mənə də təklif edən Murada, mən belə işləri bilmərəm?- deyib, narahatçılığımı bildirdim. Murad isə, mənə heç olmasa bir dəfə istifadə etməyi məsləhət görsə də, mən razılaşmadım. Hər iki burnunu qurudulmuş ot tozu ilə dolduran Murad bir neçə dəqiqədən sonra, yuxuya gedib ağzından köpük buraxmağa başladı. Bu zaman o sayaqlayır və gözlərindən yaş axırdı. Mən Muradı otaqda tərk edib, şəhərə çıxdım. Şəhəri xeyli gəzdikdən sonra axşama yaxın yenə mehmanxanaya qayıtdım. Kefi kök olan Murad məni gülərüzlə qarşılayıb və sonra, qorxdunmu?- deyə soruşdu. Mən Özbək qardaşımın bu sözünə əhəmiyyət verməyib, daxilən ona yazığım gəldiyini duydum. Axşama yaxın Valentina mənə zəng edərək, qonaqlıq üçün təşəkkürünü bildirib, bir neçə vaqonun tapıldığını və yerdə qalan vaqonların iki gün ərzində tapılacağını, sementlə doldurularaq yola salınacağını bildirdi. Murad imtahana getdiyindən, mən boş vaxtımı daha maraqlı keçirmək üçün şəhərə çıxdım.

Təsadüfən məni mehmanxananın böyründəki ayaqqabı təmizləmə köşkü cəlb etdi. Köşkə yaxınlaşıb ayaqqabımı təmizləməyi xahiş etdim. Ayaqqabı təmizləyən "tösərək" bir erməni idi. Gözünün altından mənə baxaraq,

ayaqqabımı təmizləyir və dodaqaltı nə isə mızıldanırdı. Uzaqdan iki nəfər milis formasında, uzun, yığılmış, parıldayan çəkmələri və idmançı bədən quruluşu ilə diqqətimi cəlb etdi. Eyni addımlarla ayaqlarını irəli atan, qarayanız, nazik bığlı bu milislər mənə Mixaylonu xatırladırdı. Sanki, Mixaylo iki nəfərə çevrilərək, Nijni Tagil şəhərində qeyri adi gəzintiləri ilə, ətrafındakı insanları onlara baxmağa məcbur edərək, "Mixaylonun"ölməzlər cərgəsində olub,özünə oxşar "Vesili"ilə şəhərdə nizam-intizamı təmin etnəyə çıxdıqlarını nümayiş etdirirdilər. "Tösərək" erməni mənim boylu-buxunlu milislərə baxdığımı görüb:- "ara bızımkılardır da, yanı azerbiycanlıdırlar da... bizim faxrımızdılar, biz hamışa kardaş olmuşuq"!-dedi. Mən erməninin dediklərini eşidəndə gözümün qabağına "1905-ci il" pyesindəki Allahverdi və İmamverdi "dost"larını göz önünə gətirdım. Erməniyə rişxəndlə baxaraq "hə çox yaxşı qardaşıq"!-deyib, köşkdən çıxdım.

Poçt idarəsindən, Qornozavodsk şəhərindəki Olya xanımın ev telefonunu sifariş edib, danışıq zamanı 12 vaqonun tapıldığını və sementlə doldurularaq yola salındığını öyrəndim. Birləşmiş Mərkəzi idarənin rəhbərliyinə teleqram vurub, Qornozavodsk sement zavodunda 12 vaqonun tapılaraq, sementlə yola salındığını, Nijni Taqil sement zavodundan isə hələlik, dörd vaqonun yola salındığını qeyd etdim. Yerdə qalan vaqonların axtarıb tapılması və sementlə yola salınması üçün fəaliyyətimi davam etdirdiyimi qeyd etdim.

Şəhər elə də böyük deyildi və gəzməyə də həvəs yox idi. Tezliklə vaqonların tapılıb yola salınmasını səbirsizliklə gözləyirdim. Üç gündən sonra Valentinayla görüşüb yerdə qalan vaqonların tapıldığını və sementlə yüklənib yola salındığını müəyyən etdim. Nijni Taqil zavodunda, Qornozavodskda olduğu kimi vaqonlar itməmişdi, sadəcə olaraq yükləmə sexində işlər ləng getdiyindən, "sahibsiz" vaqonlar çox gözlənilir, "sahibli" vaqonlar isə, tez-tez yüklənilirdi. Sabahısı hədiyyəmlə bərabər Valentinanın yanında olaraq, vaqonların nömrələrini nəzərdən keçirib, ondan gələcəkdə də vaqonlarımıza nəzarət etməyi xahiş etdim. İş telefonumu verib, nə lazım olsa, hazır olacağımı bildirərək, şəhərə getdim. Axşam Qornozavodsk şəhərinə, Olya xanıma telefon sifariş edib vaqonların hamısının tapıldığını və sementlə yüklənərək, yola salındığını dəqiqləşdirdim. Yeni bir teleqramı, Birləşmiş Mərkəzi idarəyə göndərib bütün vaqonların, həm Qornozavodsk sement zavodundan həm də, Nijni Taqil sement zavodundan tapıldığını və sementlə yüklənərək yola salındığını qeyd etdim. Səhərisi mehmanxanaya mərkəzdən vurulan teleqramda tələsməməyi, vaqonların çatacağından sonra,qayıtmağı məsləhət gördülər. Əlbəttə, belə tezliklə bütün bu işləri yerinə yetirmək, mərkəz üçün başa düşüləsi deyildi. Mən bir həftə boş-boşuna vaxt itirəcəyimi anlayırdım. Ancaq, əmrə tabe olmaqdan başqa çarəm yox idi. Nəhayət ki, verilən vaxt tamam olmamış, mənim geri qayıtmağıma razılıq verildi.

Xidməti məzuniyyətdə olduğum müddətdə ilk dəfə idi ki, çərşənbə bayramını qeyd edə bilmirdim. Yataqxanaya qayıdandan sonra anamdan gəlmiş məktublar da bunu təsdiq edirdi. Zavoda işə çıxandan sonra, zavod müdirinin məni qucaqlayıb təbrik etməsi və digər işçilərin təbrikləri mənim üçün çox təsirli idi. Az qala şöbədə məni "sehrbaz" adlandırırdılar. Müdir müavini Stepan Veneqditoviç isə, Karib bizə "köynəkdə doğulmuş" kimi gəlib, hara gedir, işi düz gətirir!- deyirdi. Stepan Veneqditoviçin bu sözü, mənə xəyalımda keçmiş acınacaqlı həyatımı canlandırdı və mən ona:- bəli, mənim elə keçmişim də köynəkdə doğulmaq kimidir?- dedim. Əgər köynəkdə doğulsaydım, vətənimdə qalardım, ailəmə kömək edərdim, vətəndən ayrı düşməzdim?! Müdirimiz Malışev axşam yığıncaq olacaq, Birləşmiş Mərkəzi idarədə sənin iştirakın nəzərə alınıb. Biz gedəndə iclasın vaxtı dəyişdirilmişdi. Bizi Birləşmiş Mərkəzin İdarənin rəisi Qolland qəbul etdi. Əvvəlki kimi, sağ və sol böyründə müavinləri oturmuşdu. Qarşıma qoyulmuş vəzifəni tez bir zamanda yerinə yetirdiyimə görə, yoldaş Qolland müdirimiz Malışevə, mənə bir "oklad" mükafat yazılmasını xahiş etdi.Bir qədər sükutdan sonra mənə çönərək, neçə yaşın var?- deyə soruşdu. Mən 28 yaşım olduğunu bildirdim. Bəs niyə evlənməmisən? Mən susdum.Qolland isə, bir aya 5 mərtəbəli binamız təhvil veriləcək, ancaq kiçik ailəlilər üçün nəzərdə tutulub. Evli olsaydın, həmin binadan ev ala bilərdin?! Mən özümü saxlaya bilməyib, bir neçə günə istirahət məzuniyyətinə çıxmalıyam, gedib

“evlənib” tezliklə gələrəm!-dedim. Gülüşmə yarandı və tikinti üzrə müavin Pançenko:- bu böyüklükdə şəhərdə məgər qızlar azdır? İstəsən bir günə evlənib, Zaqs kağızını göstərərsən, səni növbəyə salarıq, hətta sənə komsomol toyu da edərik! Mən ciddi görkəm alıb, “nişanlım” vardır, xəyanət edə bilmərəm!-dedim. Yoldaş Qolland Malışevə üzünü tutub, məzuniyyət verin getsin vətəninə, evlənsin! Pançenkoya isə, sən cavan oğlanı növbəyə yaz, əgər bina təhvil verilənə qədər gəlməsə, qoy özü-özündən küssün! Şad-xürrəm yataqxanaya qayıdıb, olmuşları Mamedə danışdım. O isə, bəs niyə durmusan? Sənin yerinə mən olsaydım, qanadlanıb uçardım! Mənə pis təsir edən isə, yoldaş Qollanda “nişanlım” var, yalan deməyim olmuşdu. Ancaq, mən bunu vəziyyətdən çıxmaq üçün etmişdim. Hardaydı nişanlım, “görüm var idi ki, kəfənim də olsun”? - deyə acı bir təbəssüm keçirdim. Özümlə çoxlu yük aparmamaq üçün, babama bir xəz dərili palto, dayıma, qardaşıma isə gödəkcələr alıb poçt ilə göndərdim. Qalan kiçik, ağır olmayan hədiyyələri də alıb, vətənə- anamın yanına, taleyimdə dönüş yaratmaq üçün, yola düşdüm.

İlk dəfə təyyarəyə sərnişin olduğum üçün, həyəcan keçirirdim. Təyyarə limanında vətənə gedəcək bir nəfərlə həmsöhbət olmağım, mənim rahatca təyyarədə yerləşməyimə kömək oldu. Təyyarə səmaya qalxanda isə, baş gicəllənməsi və ürək sıxıntısı özünü göstərdi. Təyyarənin pəncərəsindən çölə baxmaq mənə çətin gəlirdi, vahimələnirdim, qara fikirlərdən uzaq düşə bilmirdim.Yarım saatlıq uçuşdan sonra, özümü yaxşı hiss

etməyə başladım. Hətta, Bakıya belə eniş edəndə, dənizi və Bakı bağlarını seyr etməyə başlamışdım. Stüardessanın Bakıda havaların isti olmasını elan etməsi, daha sevindirici idi. 25-30 dərəcə şaxtadan gəlib, isti havaya düşmək adamda xoş ovqat yaradırdı. Bakıya gəlməyimi qardaşıma və anama bildirməmişdim. Təyyarə limanından taksiyə minib, qardaşımın kirayə qaldığı evə yollandım. Xoş-beşdən sonra istirahət məzuniyyətinə gəldiyimi və məqsədimi anlatdım. Çox sevinən qardaşım vaxtı itirmədən qəsəbəyə getməyimi məsləhət gördü. Qəsəbəyə, evimizə çatanda anamla- kiçik qardaşım məni elə qarşıladırlar ki, hər üçümüzün gözləri yaşla dolmuşdu. Qonşular anama göz aydınlığı verdilər. Axşam anam və qardaşımla baş-başa qalandan sonra, mənə ev veriləcəyini qeyd edərək, bunun üçün evlənməyimin mütləq olduğunu qeyd etdim. Evlənmək fikrim anamın sevincinə səbəb oldu!

Beləliklə qəsəbəmizdə olan qızların müzakirəsi başlandı və bu müzakirəyə hətta, qonum-qonşular da qoşuldular. Çox utanırdım, axı bu yaşda kimə gedib, eşq elan etmək olardı?! Tay-tuşlarım çoxdan evli idilər. Qardaşım və dostu bütün qızları saf-çürük edir və hərəsinə bir "qulp" qoyurdular. Vaxtın tez keçdiyini anlayan anam, iş yoldaşının tibb bacısı işləyən qızını məsləhət görmüşdü. Xeyli müzakirədən sonra yeddinci sinifdə oxuyan dayımın qızı ilə xəstəxanaya, qızla görüşə getdik. Balaca, arıq,qarayanız bir qızın ağ xalatda bizə yaxınlaşdığını gördük. Üzünə vurduğu ağappaq pudra, qap-qara boğazı ilə müqayisədə bir səliqəsizlik və iyrənclik yaradırdı.

Əvvəlcədən anama, qız xoşuma gəlmədiyi təqdirdə “bacı”- deyib, qayıdacağımı bildirmişdim və elədə etdim. Dayım qızının əlindən tutub, geri evə qayıtdıq. İşdən hali olan bütün xəstəxana işçilərinin bizi “seyr etməsi” məni pis vəziyyətə salmışdı. Tezliklə evlənməyin çox çətin məsələ olduğunu bildiyimdən məndə bir ümidsizlik yaranmışdı.

Artıq istirahət məzuniyyətimdən on beş gün keçməsinə baxmayaraq, evlənmək məsələsi “acı bağırsaq” kimi uzanırdı. Qardaşımın dostunun bacısı da, mənə “qız” axtarırdı. Mən onu il yarım əvvəl, qardaşı əsgərlikdən gələn zaman görmüşdüm. Gülərüz,arıq və şıltaq bir qız idi. Anası tez-tez bizə gələrdi. Anamla bir kənddən idilər. Təsadüfən bizə qonaq gələn çox da uzaq olmayan qohumumuz, anam və həmkəndlisi ilə mənim evlənməyimdən bəhs edirdilər. Qohumumuz anama müraciətlə, böyründəki anamın həmkəndlisini göstərib, bəs bunun qızını niyə nəzərə almırsan?- dedi. Burnunun yanındakını buraxıb, ətrafdakıları axtarırsan?! Anam qızın mənimlə müqayisədə çox körpə olduğunu qeyd etdi. Birdən qadın qohumumuz , ay bacı, qızını verərsən?- deyə, anamın həmkəndlisinə müraciət edəndə, o zarafatla istəsin ki verim, armud deyil ki, qırım ağzına qoyum, bu evlilik sövdasıdır!

Bu söhbətdən sonra mən anama vaxtımın hədər getdiyini, əgər evlənmək baş tutmasa Rusiyaya qayıdıb, evlənəcəyimi bildirdim. Anam mənim bu sözümdən incimiş kimi oldu.Axşamı söhbət əsnasında, həmkəndlisinin 19 yaşında olan qızından danışdı. Mən yenidən israr edərək, yaşca qızın məndən xeyli balaca

olduğunu bildirdim. Anam isə gülərək, mən dədənə 14 yaşında ərə getmişdim?- deyə bildirdi. Anama razılıq verib, sabahısı qızın görüşünə getdik. Ayrıca bir otaqda, qızla söhbət zamanı rus dilində danışa bildiyini soruşdum? Hə, cavabı verən qıza, çətin vaxtlarımız olsa, dözəcəksənmi?- deyə soruşdum. Qız isə, sən nə yeyərsən-geyərsən mən də onu yeyərəm və geyərəm!- dedi. Bu cavab, qızın "ayıq"və"huşyar" olduğundan xəbər verirdi. Evə qayıdandan sonra, evlənməyə razılıq verdim. Beləliklə, toya hazırlıq başlandı.

Belə bir vaxtda kənddən, babamın bizə gəlişi bizim sevincimizə səbəb oldu. Ömründə heç kimdən hədiyyə almayan babam, xəz paltonu əyninə geyib, boynumu qucaqlayaraq, toyunu mən edəcəm!- dedi. Babamın toy ərəfəsi göstərdiyi xeyli köməkliklər, hətta toya hazır olmayan "infarkt" keçirmiş gələcək qayınatamın əksər toy xərclərinin ödəməsi, anamın sevincinə səbəb olmuşdu. Toya hazırlığın qızğın vaxtında, qızın əmisinin toyun tez həyata keçirilməsinə "əngəllik" etməsi, məni çox mütəəssir etdi. Anam nə qədər də israr etsə də, razılıq əldə olunmamışdı. Mən toyun bir həftəyə olunmasını və martın sonunda Rusiyaya gedib ev almağımı qərarlaşdırdığım halda, qızın əmisi tezliklə qızı ərə verməyin əleyhinə getmişdi. Əsəblərim tarım-tarım olmuşdu. Hazır evi əldən verməyi, heç ağlıma da sığışdıra bilmirdim. Evə görə, qıza "yox" demək, mənim tərəfimdən qəbuledilməz və ən əsası anama zərbə olardı. Susmağa üstünlük verdim, özümə inamım çox yüksək idi. Kirayə qalaraq, ev alacağımı

düşünürdüm. İstirahət məzuniyyətimin vaxtının qurtarmasına baxmayaraq, teleqram vurub gecikəcəyimi bildirdim.

Bəli, toyumuz oldu və biz bütün qohumlarla xudahafizləşib Rusiyaya, mənim doğma şəhərimə yola düşdük. Şəhərimizdə də, biraz havalar istiləşmişdi. Qatardan düşən kimi, yüklərimizi saxlama kamerasına qoyub, kirayə ev axtarmağa getdik. Çox axtardıqdan sonra, şəhərin mərkəzində balaca bir "daxma" tapdıq. Otaqdakı dəmir çarpayı bir nəfərlik idi. Çöldən taxta tapıb, çarpayının börünə bağlayaraq, çarpayını az da olsa genişləndirə bildik.

Müdirimiz Malışev ev üçün vaxtında gəlmədiyimə görə, təəssüfləndiyini bildirdi. Şöbə işçiləri və məni tanıyanlar hamısı təbriklərini əsirgəmədilər. Nahar vaxtı evə, yoldaşımın yanına qaçırdım. Kirayə verən yaşlı xanımın, içki alidəçisi olduğunu və yoldaşımdan tez-tez pul tələb etməsini öyrənib, ev sahibəsini tənqid etdim. Əslində mən məsuliyyətimi dərk etdiyimdəm və atasının "qızım körpədir,müğayat ol"!- deməsi, məsuliyyətimi iki qat artırmışdı.

Beləcə günlərin bir günü, partiya təşkilatının katibi Vasili Daniloviç mənimlə maraqlanaraq, yoldaşımın pasport qeydiyyatına düşməsi və işləməsi haqqında soruşması, bəzi qanunları mənə agah etdi. Vasili Daniloviç mənə Rusiya qanunlarına görə, üç aydan artıq pasport qeydiyyatında olmayanların, məsuliyyətə cəlb olunmasını-deməsi, mənim bütün planlarımı alt-üst etdi. Öz-özümə

fikirləşirdim ki, xalqın qızının nə günahı var ki, hələ bir məsuliyyətə də cəlb olunsun?! Vasili Daniloviçin köməyi ilə mən yaşadığım və işlədiyim Rayon partiya komitəsinə məktub ünvanlayıb, yaranmış vəziyyəti ərz etdikdən sonra, bütün məsuliyyətin əks təqdirdə, rayon partiya komitəsinin üzərində olacağını qeyd etdim. Rayon partiya komitəsinə gedərək, məktubu qeydiyyatdan keçirib, ikinci nüsxəsini hər ehtimala qarşı özümdə saxladım. Bir həftə keçməmiş, vilayət daxili işlər idarəsindən məktub alaraq, günü və saatı qeyd olunmuş bildirişə əsasən, kadr rəisinin qəbulunda oldum.

Kadr rəisi, polkovnik rütbəli şəxs, mənə iki iş yeri təklif etdi. İş yerinin biri şəhərdəki cəzaçəkmə koloniyasında idi. Yaşayış yeri isə "ailəli yataqxana" olduğundan və oradakı abu-hava mentalitetimizə uyğun olmadığından razılaşmadım. İkinci iş yeri isə, şəhərdən 18 km. aralı, Volqa çayının gölməçə yaratdığı, gözəl mənzərəsi və hər tərəfi meşə ilə əhatə olunmuş, taxta və kərpic binalardan ibarət olan, kənd tipli bir qəsəbə idi. Yerli camaatla söhbətləşib yaşamağa layiq olan qəsəbə olduğunu nəzərə alaraq, bu işə razılıq verdim. Kadr rəisi mənə bildiriş verib, yoldaşımla bərabər təzə işə qəbul olunmaq üçün – Kunikovaya, yeni yaşayacaq və işləyəcək kəndimizə getməyi məsləhət gördü. Səhəri bizi qəbul edən koloniya rəisi məni təhlükəsizlik üzrə mühəndis, yoldaşımı isə əmək haqqını hesablayan mühasib işinə qəbul edəcəyini bildirdi.

Koloniya rəisi 60 yaşlarında, polkovnik rütbəli xanım idi. Xanım- polkovnik bizə veriləcək evi komendanta

göstərməyi xahiş etdi. Bu bir otaqlı, mətbəxi olan, rus peçi ilə havalandırılan, taxtadan tikilən bir ev idi. Çox təəssüflə köhnə iş yerimdən azad olunub, təzə iş yerimizə gəlməli olduq.

Evə təmir lazım idi. Təmirçilər əsasən, cəzası yüngül olan məhbus qadınlarıydı. Koloniyada bir neçə məhkumluğu olanlar cəza çəkirdilər. Koloniya iki hissədən ibarət idi, yaşayış massivi və fabrik yəni, iş zonası. Cəza koloniyasını ilk dəfə gördüyümdən hər bir görüntü məndə təəccüb yaradırdı. İki dəfə açarlanmış dəmir qapılardan keçib, yaşayış zonasına, sonra isə hasarla ayrılmış tikiş fabriki zonasına daxil olurdun. Koloniya qapalı və ciddi rejimli olduğuna baxmayaraq, koloniyanın kitabxanası, klubu, idman vasitələri ilə təmin olunmuş meydançası fəaliyyət göstərirdi. Koloniyanın özü-özünü təmin edəcək, böyük təsərrüfatı var idi. Mənim işlədiyim mühəndis işi mayor rütbəli zabit üçün nəzərdə tutulduğu halda, işçi qüvvəsi çatışmadığından mülki adamları rütbə tələb edən vəzifəyə qəbul edirdilər. Koloniya rəisinin, yaxşı işləsən sənə zabit rütbəsi verə bilərik,- deməsi mənim ruhumu əzmişdi. Axı mən necə başa salaydım ki, qüsurlu olduğumdan hərbi xidmətdə olmamışam! Bu həyatın mənə bəxş etdiyi sürpriz idi və mən hər cür sürprizə hazır olmalı idim!

İşimin strukturu nöqteyi-nəzərindən mən bir başa, baş mühəndisə tabe olurdum. Baş mühəndis İrina Sergeyevna ixtisasca müəllim olsa da, demək olar ki, texniki işdə səriştəsi yox idi. O, mənə tikiş fabrikində təhlükəsizlik

texnikasına aid olan ədəbiyyatları verib:- oxu, öyrən və tətbiq et!- dedi. Qısa müddətdə kitabı nəzərdən keçirib mühəndis kimi üzərimə düşən vəzifəni dəqiqləşdirdim. İlk olaraq, üç nəfərdən ibarət komissiyanı yaratmağı baş mühəndisdən xahiş etdim. Mən, energetik və tibbi hissədən ibarət olan komissiya yaratdıq.Komissiya üçlüyünü təsdiq edən baş mühəndis, bizi yoxlamalara başlamağı məsləhət gördü. Əsasən iki nüsxədən ibarət əmr-bildiriş yazılsa da, mən 3 nüsxədən yazar, bir nüsxəsini təhlükəsizlik qaydasını pozana, birini işdə qovluğa tikər, digərini isə özümdə ehtiyat üçün saxlayırdım. Burası koloniya idi, özümü sığortalamalı idim!

Yadımdadır ki, əmr-bildirişin ikinci nüsxəsini alanların bəziləri, məsuliyyətsiz hərəkət edərək, zarafatla:- ay, Karib sənin bu əmr-bildirişin, heç olmasa qiqiyenik məqsəd üçün istifadə etməyə dəyər?! Mən öz işimə məsuliyyətlə yanaşdığımdan, bu danışıqların mənim üçün heç bir əhəmiyyət yox idi!

Əslinə qalsa, zonada ən dəhşətlisi "kriminal" adını almış məhkum qadınların, yenicə həbs olunmuş məhkum qadınlara olan zalım münasibəti, onlara "qul" vəziyyətində baxılması, təhqir edilməsi, cəzalandırılması və yaxud da "kişi" roluna girərək, eşq macarası yaşamaları idi. Mən bütün bunlara ona görə dəhşətli deyirəm ki, yuxarıda qeyd etdiyim bu və ya digər hərəkətlər mənim milli mentalitetimə heç cür sığışmırdı. Bu "kriminal"ların əmri ilə zonada yaylı tapançalar düzəldilir və bu tapançalar vasitəsi ilə "iynə" və "ülgüc" silah kimi istifadə olunardı.

Əlbəttə ki, rəhbərlik tərəfindən edilən axtarışlar heç bir nəticə verməzdi. Məhz buna görə idi ki, zonada çalışan mülki adamlara, məvacibdən əlavə 15 % təhlükəsizlik "məvacibi" də verilirdi. Yay vaxtları isə, mini yubka geyinib, öz bədən və digər orqanlarını nümayiş etdirən qadın məhkumlardan göz yayındırmaq belə, mümkün olmurdu. Mülki işçilərin məhkum qadınlarla olan hər hansı bir münasibəti ciddi nəzarət altında idi. Mən işə daxil olanda, xüsusi şöbə məni otağına çağırıb, zonaya qadağan olunmuş ərzaq, dərman və digər predmetlərin aparılmasının qadağan olunduğunu və məhkumlarla hər hansı bir "münasibətin" olacağını nəzarətdə saxlandığını bildirmişdi. Xüsusi şöbə rəisi mənə dediklərindən, düzgün nəticə çıxartmağı xahiş etmişdi. Tabeliyimdə məhkum işçilərə hörmətlə yanaşır, özümə hörmət də qoyulmasını tələb edirdim. Mən "kompleksli" olduğumdan hər hansı bir gülünc hadisə baş verməsin deyə, tabeçiliyimdəki məhkum qızlardan müxtəlif "sirlər" alıb, özümü hər ehtimaldan sığorta etməyi lazım bilirdim. Zonanın yaşayış massivi ilə, iş massivi arasındakı taxta darvazanın yanında ikinci mərtəbədə daxili qoşunların 4 əsgəri, kinoloqlar və zabitlər otururdular. Hər an, hər dəqiqə baş verəcək hadisələri dəf etməyə hazır idilər. Mənim otağımda da təhlükəsizlik düyməsi olduğunu bilirdim. Təhlükə yarandığı şəraitdə düyməni basmaq kifayət idi ki, köməyə gəlsinlər. Tabeliyimdə olan məhkum qadınların mənə verdiyi "donoslar," bəzən məni şoka salırdı.Mənim tabeliyimdə işləyən məhkum qadınların dediyinə görə. zonada

olan,"eşqibaz" qadınlar mənim və tibbi hissənin rəisi olan Şevçenkonun rəsmini çəkib, divara vuraraq bizim üstümüzdə mübahisə edirmişlər. Hər ikimiz qara buğlu və qara saçlı olduğumuzdan, bu "surətpərəst" məhkum qadınlarda simpatiya yaratmışdı. Səhərlər işə gələndə, kabinetimin qapısında bükülmüş vərəqələri görüb, tabeliyimdə olan məhkum qadınlara oxutduraraq mat-məəttəl qalırdım. Məktub yazanların kimisi, xoşuna gəldiyim üçün sevgi məcarasına çağırır, kimisi qadağan olunmuş predmetləri gətirməyi yalvarır, kimisi və dəhşətlisi, yeniyetmə koloniyasından gəlmiş məhkum qızların öz bakirəliyini pozmaq üçün, görüşə çağırması idi. Yadımdadır ki xüsusi şöbənin rəisi mənə ayıq- sayıq olmağa dəvət edərkən, zonada çalışan özbək mülki işçinin, yaşayış massivində "zora" qaldığını deməsi idi.Kommunist olduğuma görə koloniyada işləyən rəhbər işçilər mənə çox hörmətlə yanaşırdılar.

Artıq xeyli müddət idi koloniyada işləyirdim. Koloniya rəisi məndən razılıq edərək, yaxşı ki qəsəbəmiz çoxmillətlidir. ilk dəfədir ki, bizdə Azərbaycanlı ailə yaşayır və biz bundan qürur duyuruq!- deyirdi. Qəsəbə əhli ilə qaynayıb qarışmışdıq. Evimizin bir böyründə su kolonkası, digər böyründə isə böyük bağım və sarayım var idi. Bağda çiyələk, sarı kök, çuğundur və kələm əkmişdim. Göyərtilərdən isə soğan, cəfəri, kərəviz və ilk dəfə olaraq əkdiyim acıtərə də yerli camaatda maraq oyatmışdı. Fikirləşirdim ki, sağlıq olsun gələn ildə göy lobu, hətta qarpız da əkəcəm. Yoldaşım hamilə idi, tez-tez təmiz

havaya, meşəyə, Volqa çayının yaratdığı və xüsusi mənzərəsi olan, böyük gölməçəyə qonşularla bərabər gəzməyə çıxırdıq. Volqa çayı daşıb kəndi basmasın deyə böyük təpəlik, yəni "baraj" yaradıb, üst hissəsini avtomobil yolu etmişdilər. Həmin yolun axırında, Spasski qülləsi deyilən yerdə, xüsusi razılığı olanlar balıq tuturdular. Bir az qarşıda isə, ucu-bucağı görünməyən şəhər bağları başlayırdı. Yay vaxtı bağlara marşrut avtobusu işləyirdi. Yerli camaat meşəyə göbələk yığmağa getdikləri halda, biz zəhərlənmə ehtimalını nəzərə alaraq, göbələk yığmağa getmirdik. Kənd əhli yığdıqları göbələkdən ya şoraba düzəldərdilər, ya da qurudaraq yağda qızardardılar. Əlbəttə ki, bizə də hədiyyə edərdilər. Bir neçə gün sonra yağışlı, palçıqlı günlərimiz başladı. Koloniyada işləyib odun peçi yandıranlar odunla təmin olunurdular. Odunlar dəyirmi olduqlarından, mən balta(kolun) ilə ağacları bir neçə yerə bölər və saraya yığardım. Havalar palçıqlı olduğu qədər, həm də soyuq idi. Havanın soyuqluğu məhbus qadınlarının da, ürəyindən deyildi. Özlərinə uzun, bəzəkli corablar toxuyardılar, pambıqlı geyərdilər və isti şalla başlarını bərk-bərk bağlayardılar. Qadın məhbuslar fabrikdən gizli yolla parçalar əldə edərək, özlərinə cürbəcür paltarlar tikər və yaşayış massivində "hoqqabazlıq" edərdilər. İş zamanı saçlarını yanlarına tökən məhbus qadınlar məni görən kimi, bir-birlərinə vətəndaş-rəis gəlir?- deyərək, bir göz qırpımında başlarını şalla bağlayardılar. Təhlükəsizlik qaydalarını pozanları əmr yazıb cərimələtdirərdim. Cərimələr məvacibə, ya da siqaretə

şamil olunardı. Siqareti kəsmək isə məhkumların "canını almaq"!- demək idi. Nə edirsən et, ancaq siqareti kəsmə!

Artıq qış qapını döyməyə başlamışdı. Burum-burum yağan qar, yarım saata kəndi ağ örpəyə bürüyərdi. Kənd, hər tərəfdən meşə ilə əhatə olunduğundan, bacalardan qalxan tüstülər, bu meşəlik içərisində yaşayışın olduğuna, bir növ işarə idi. Koloniyaya əsasən, qış vaxtı daha çox məhkum gətirilirdi. Məhkumluğa gələnlərin əksəriyyəti oğurluq statyası ilə,həbs olunanlarıydı. Cavan qadınlar yaşamağa yerləri olmadıqlarından və məhbus olduqlarından işə götürülmədiklərindən, oğurluq edib məhkumluq həyatı keçirirdilər. Axı, koloniyada onlar işləyir və hər bir şəraitlə təmin olunurdular?! Qadın məhkumlar əsasən, yaşadığı cəmiyyətdən və qanunların düzgün işləməməsindən şikayətlənirdilər. Pasport qeydiyyatı yox, ev yox, iş yox, bəs necə dolanmaq lazım idi? Bütün bunlar qadınları cinayət törətməyə vadar edirdi. Onlar,yəni məhkumlar koloniyanı, əməklə islah etmə müəssisəsi yox, daha çox pozma,məhv etmə koloniyası adlandırırdılarr. Hətta daha irəli gedən ziyalı məhkumlar, yaşadıqları ictimai quruluşu ədalətsiz və qanunauyğunsuzluq cəmiyyəti kimi səciyyələndirirdilər. Koloniya müxtəlif millətlərin və müxtəlif peşə, ixtisas sahiblərinin toplandığı böyük bir zümrə idi. Təfəkkürün və idrakın səviyyəsindən asılı olaraq, məhkumların yaşayış tərzi həm fərdi, həm də ümumilikdə özünün büruzə verirdi. Koloniyada məhkumlar arasında "əmr edən" və "qulluq göstərənlər"zümrəsi formalaşmışdı.

Bir gün xüsusi şöbə rəisi məni otağına çağırıb, zonada hamının qorxulu saydığı, artıq beşinci dəfə məhkumluğa gələn "kriminal" qadının "karantində" olduğunu və bir həftəyə zonaya veriləcəyini bildirdi. Cənublu olmağım, məhkumlarla sərt rəftarım, xüsusi şöbəni narahat etmişdi. Açığını deyim ki, mənim sərtliyimi rəhbərlik də bəyənirdi və mənə rəvac da verirdi. Zonada,mülki işçilər arasında mənim qədər sərt, ikincisi yox idi. Hətta, zonada çalışan mülki adamların əksəriyyəti olan kənd əhli, mənə biraz yumşaq olmağı məsləhət görürdülər. Mən isə sərt rəftarımın bəhrə verdiyini görüb, inadımdan dönmürdüm. Sabahısı xüsusi şöbə rəisinin müşayiəti ilə "kriminal" məhkum qadını görəndə, mən şoka düşdüm. Halımı görən, xüsusi şöbə rəisi: qorxdunmu!- deyə soruşdu. Mən özümü sındırmayaraq, başımı sağa-sola əsdirməklə, qətiyyətimi bildirdim. Həmkarıma diqqətlə baxıb, məgər bu "kriminal" məhkumla bacarmaq mümkün deyilmi? Axı məhkum qadınlar qorxularından göz yaşı tökürlər?! Mənim təəccübümə baxmayaraq, xüsusi şöbə rəisi, zonada yaranacaq hər hansı qeyri münasibətləri yoluna qoymaq üçün,bəzən "kriminal" məhkumdan istifadə edildiyini də qeyd etdi. Biraz ciddiləşib, əgər mənə ixtiyar verilsəydi, mən bu "kriminal" məhkumu düzgün tərbiyə edə bilərdim?! Mənim qətiyyətli sözümü eşidən həmkarım, bu barədə koloniya rəisi ilə danışacağını bildirdi. Məhkumluğa gələn "kriminal" qadın qısa saçlı, sifət çənələri yana çıxmış, boynu, çiyin və bud əzələləri çox böyük görsənən, iki metr boyu olan, vaxtilə idmançı olmuş

yəni, yadro tullamaq üzrə SSRİ çempionu olmuş bir qadın idi. Əgər düzünü desəm, mənə onun bir yumruğu, bəlkə də kifayət edərdi! Ancaq o məhkum, mən isə vətəndaş-rəis idim?! O xüsusi rejim altında yaşayacaq, rejimi pozduğu təqdirdə, zülmə dözəcək bir məhkum, mən isə təhlükəsizliyi pozmuşa əmr yazacaq bir rəis.?!

Mənim tabeliyimdə işləyən məhkum xanımlar, "kriminal" məhkumun zonaya gəldiyini bildirir və özlərini çox da yaxşı hiss etmirdilər. Belə ki, "kriminal" məhkumun, qızıl dişləri olan məhkum qadınları qəbul etməsi, kəlbətinlə qızıl dişləri damaq qarışıq, ləzzət alaraq, çəkib çıxartması ilə məşğul olması idi. "Kriminalın" ən çox sevdiyi xobbi isə qadınları "eşşəkbeli" şəklində yığması və onların üstündən hoppanması idi. O hoppanan zaman, kimin üstünə düşsəydi, xəstəxanalıq edərdi. Beləcə, "kriminal" məhkum mənim haqqımda müəyyən informasiyalar toplamış və məhkumlara, yəni mənim cərimələrimdən əziyyət çəkib, ona "donos" verən məhkumlara bildirmişdi ki, cənublu-rəisin dərsini elə verəcəm ki, bazarda meyvə satan "qaramazlılar" kimi, bizə qulluq edəcək!

Adicə iş günlərimin birində kabinetimə icazə olmadan "kriminal" məhkumun daxil olması, məni özümdən çıxardı. Masaya yumruqla vuraraq, çıx bayıra və icazə alaraq gəl!- deməyim, onun yavaşca qapının örtməsi ilə nəticələndi. Bu mənim "kriminal" məhkumu islah etmək yolunda atdığım ilk addımım idi. Qapını döyərək, vətəndaş rəis gəlmək olarmı?- deməsi, mənim "kriminal"a bax:- bu başqa məsələ, buyur, otur!- deməyimllə bitdi. "Kriminal"

məhkum, ayaqüstə durmağın xoş olduğunu qeyd edərək, mənə müraciətlə:- vətəndaş rəis, siz bir ildir ki, bu zonada çalışırsınız, mən isə on yeddi ildir ki, bu zonanın "fəxri" sakiniyəm və məni bütün zona və rəhbərlik yaxşı tanıyırlar! Məsləhət görmürəm ki, mənimlə, məndən əvvəlki dövrdə, məhkumlarla olan sərt rəftarınızla davranasınız! Təklifim budur ki, siz mənə işləyəsiniz və əlini döş ciblərinə salıb, "qanlı qızıl qapaqları" masanın üstünə tökəndə, hövsələsizliyim özünü göstərdi. Təhlükəsizlik düyməsini özümdən asılı olmayaraq basmışdım. Heç iki dəqiqə keçməmiş zabit və kinoloq əsgərlər, silahla artıq otaqda idilər. Mən "kriminal" məhkum xanımın, məni "ələ" almaq üçün, masanın üstünə tökdüyü qızıl qapaq dişləri göstərərək, onu iki aylıq "cəriməyə" göndərmək üçün, əmr yazdım. Qapını örtəndə "kriminal" məhkum xanımın:- "əclaf" sənin dərsini sonra verəcəm!- deməsini eşitdim. Baş verən hadisəni eşidən xüsusi şöbə rəisi, məni ehtiyatlı olmağa çağırdı. Məhkum qadınlar isə mənə daha maraqla nəzər yetirirdilər, bəziləri kinayə, əksəriyyəti isə xoş təbəssümlə!

Koloniyada işlədiyim dövrdə, öyrəndim ki, yaşadığım ev koloniyanın "balansındadır" və mən evi nə sata, nə də dəyişə bilərdim. Bundan əlavə mən koloniyada işləməyi, artıq özümə rəva bilmirdim. Fikirləşirdim ki, kövrək palıd ağaclarını at kimi çapan, bütün başa düşülən həyatını yaxşı işlərə sərf edən Qərib hara, cinayətlər üstündə məhkumluğa gəlib, yüz "hoqqabaz"lıqdan çıxanlar hara? Bu talehimin mənə verdiyi qismət idi. Düşdüyüm

burulğandan çıxmaq üçün, yollar axtarıb tapmağı qarşıma məqsəd qoymuşdum.Bütün bunlarla bərabər,təhsil almaq,karyera qurmaq həvəsimi yaddan çıxarmayaraq,yaranacaq fürsətdən yararlanmağı da düşünürdüm. Elə bu nöqteyi-nəzərdən koloniya rəisinə müraciət edib, partiya təhsili almağıma zəmanət verməsini xahiş etdim. İlk olaraq, Rayon partiya komitəsinin məsləhəti ilə, Vilayət Partiya Komitəsinin nəzdindəki Marksizm-Leninizm Universitetinə daxil oldum. Həftədə iki dəfə gündüzlər dərsə gedib, az da olsa məhkumların "həyatını" başımdan çıxarırdım.

Universitetdə mən yeganə, Azərbaycanlıydım. Burada müxtəlif vəzifələrdə çalışan ziyalılar, partiya fəallıları təhsil alırdı. Gələcəkdə münasibətlər qurmaq üçün, bir-birimizin ünvan və iş yerlərimizi öyrənirdik. Mənim koloniyada işləməyim, onları narahat edir və qeyd edirdilər ki, bu heç sənin xarakterinə uyğun deyil! Hətta, zarafat edirdilər ki, biz elə bilirdik ki, səni "meyvə bazarından" bura oxumağa göndəriblər?! Mən əlbəttə, inciməzdim. Çünki o vaxtlar Azərbaycanlılar, meyvə alverçiləri kimi,daha çox populyar idilər. Ciddi işlərdə işləyənlər barmaqla göstəriləcək qədər idilər, əlbəttə ki, oxuyan tələbələrdən başqa.

Elə buna görə də müəllimlərimdən, iqtisadiyyatdan dərs deyən və sonralar Rusiya Dumasının deputatı olmuş, adını qeyd etmək istəmədiyimin birisi Qafqazlılara qarşı heç də yaxşı fikirdə deyildi! Onun fikrincə, Qafqazlılar Rusiyanın hesabına və ruslardan da,

daha yaxşı yaşayan bir "millətdirlər". Mən ona etiraz olaraq, Bakı neftinin müharibə dövründə əhəmiyyətindən danışıb, "Qafqaz milləti"anlayışının olmadığını ona sübut edirdim. Mənim bu fikirlərim, ondan mənə qarşı yaranmış qeyri simpatiyanı hərəkətlərində göstərirdi. O məni qırmızı diplomdan məhrum etmək üçün, dörd qiymət yazmaq fikrində olsa da, müdiriyyət, rayon partiya komitəsinin səlahiyyətli nümayəndəsi buna imkan verməmişdi.

Məktəb, ev və digər işlər məni məşğul etdiyindən "kriminal" məhkumun vəziyyətindən xəbərsiz idim. Tabeliyimdə olan məhkum qadınlar "kriminal" məhkumun məndən qisas almaq fikrində olduğunu bildirərək, ehtiyatlı olmağı məsləhət görürdülər. Beləcə, iş vaxtının başa çatmasından sonra, yaşayış massivi ilə gedərkən, kiminsə məni qucaqlayıb yerə yıxması, bəlkə də məni ağır cəzadan qurtarmış oldu. Bu tərbiyəçi zabitlərdən biri idi. Mənə yaylı tapança ilə atılan "lezvanın" necə fırlanaraq, vıyıltı səsi ilə başımın üstündən keçməsini, məndən başqa hamı görmüşdü. Fərziyəyə görə mənə atılan "lezva", "kriminal" məhkumun yaşadığı iki mərtəbəli yaşayış massivindən atılmışdı. Sonradan məlum oldu ki, "kriminal" məhkumun bu hərəkəti mənim "üzüyola" olmağım üçün bir xəbərdarlıq imiş. Əlbəttə ki, mən fikrimdə qəti idim.

Aradan bir müddət keçməmiş tabeliyimdə işləyən məhkum qadınlardan biri ağlayaraq, mənə müraciət etdi ki, "kriminal" məhkum qadının əmrinə əsasən, o, mənə "çarxda itilənmiş qalın məftillə" xəsarət yetirməlidir, guya

ki, mən ona təcavüz etmək istəyirmişəm?! Əgər mən bu əmri icra etməsəm, “kriminal” məhkum onu “eşşəkbeli” yerinə qoyub, xəsarət yetirəcəydi. Məndə işləyən məhkum qadın çox çəlimsiz idi. Yüz otuz kq çəkisi olan “kriminal” ona ağır xəsarət yetirə bilərdi?! Mən tabeşiliyimdə olan məhkuma müraciətlə:-sən məni vurmaq istəyirsənmi?-deyə soruşdum. O isə, əlbəttə ki yox!Əgər belə fikrə düşsəm belə, zonada sənə hörmətlə yanaşan məhkum qadınlar məni sağ buraxmazlar. Xeyli fikirləşdikdən sonra ona qorxmamağı, “eşşəkbeli”məsxərə oyununda arxada dayanmağı, “kriminal”məhkum höppanıb üstünə gələndə, cəld qaçmağı məsləhət gördüm. Mən onu inandırdım ki, yollar qalın buz bağlayıb, sən cəld tərpənib qaçsan və “kriminal” yerə düşsə mütləq xəsarət alacaq! Arxası ilə işin olmasın, imkan verməərəm ki, o istədiyinə nail olmadıqda, sənə qarşı hər hansı bir pis münasibəti həyata keçirsin! Bəli, mən pəncərədən “kriminalın” başqalarına əzab verəcək “eşşəkbeli” xobbisinə baxırdım. “Kriminal” məhkum öz qələbəsini qeyd edirmiş kimi, məndə işləyən, ancaq məhkumluğa layiq olmayan, çəlimsiz qadının belini əyərək, onu yerində dayanmağa məcbur edirdi. Xeyli keçəndən sonra “kriminal” məhkum “hop” deyərək, tullandı və məndə işləyən məhkum isə cəld yerindən çəkildi.Bu an yerə düşən “kriminal” bərk qışqırdı! Mən hiss etdim ki, o ayağa qalxa bilmir. Digər məhkumlar isə qorxularından “kriminala” yaxınlaşa bilmirdilər. Tez telefon dəstəyini götürüb, tibbi hissəsinin rəisinə zəng vurdum. “Kriminal” məhkum qadının xəsarət aldığını bildirib, rəisdən hadisənin

işdən çıxandan yarım saat sonra, baş verməsi haqqında "akt" tərtib etməyi xahiş etdim. Bu hadisənin mənim işimə bir başa aidiyyəti olduğunu bilirdim və xəsarət almışın tibbi hissəyə çatdırılmasından sonra, mənə məlumat veriləcəyini səbirsizliklə gözləyirdim. Məqsədimi tibbi sahənin rəisi Şevçenko yaxşı başa düşmüşdü. Əgər xəsarət alan, istehsalatdan yarım saat sonrakı vaxtda qeydə alınsaydı, onun maliyyə hesabı fabrikə şamil olunmurdu. "Kriminal" məhkum cərimələnməliydi! Qısa müddət ərzində, artıq ikinci dəfə baş verən hadisə, onu siqaretdən məhrum edir, yeməyini xeyli azaldırdı. Bud nahiyyəsinə "sümük sınığı" diaqnozu qoyulan "kriminal" məhkumun, sınan budunu gipsə qoyub xəstəxanaya yerləşdirdilər. Məndən qisas almaq istəyən "kriminal"ı tərk edib, kabinetimə getdim.

"Kriminal" məhkum cərimələndiyinə görə, daha da vəhşiləşmiş və digər məhkumlardan siqaretlərini və yeməyini ona verməyi əmr etmişdi. Tibbi hissənin rəisi Şevçenko sirr olaraq mənə bildirdi ki, "kriminal" məhkum, "əlaltısı" olan məhkum qadınlardan, şəxsən sənə xəsarət yetirmək üçün bıçaq düzəltməyi və ya əldə etməyi tələb etmişdi. Şevçenko "kriminalın" çox hiyləgər olduğunu, özünü "islah olunmuş" kimi göstərərək, sənə xəsarət yetirəcəyini bildirməsini və mənim tibbi sahədən "uzaq" durmağımı xahiş etməsini,müsbət hal kimi qiymətləndirib, məmnunluğumu ifadə etdim. Əlbəttə ki, mənim "kriminal" məhkumla elə bir qərəzliyim yox idi. Koloniyada özünü mülayim aparmaq, özü də mənim kimi "kompleksli" adam üçün qeyri mümkün idi. Mən onsuz da sərt olmağı, heç də

xoşlamırdım. Xatırlayırdım ki, hələ yeniyetmə vaxtlarımda imkansızlara, acizlərə kömək etmək üçün necə “gözəl xəyallar” qurardım. Koloniyadakı psixoloji durum məndən sərt olmağı tələb edirdi. Beləliklə “kriminal” məhkum qadın, sonralar onun kaprizini yerinə yetirməyən digər məhkuma bıçaqla xəsarət yetirməklə,yenidən məhkəməlik olaraq, əlavə cəza alıb, daha sərt koloniyalara göndərilmişdi. Koloniyada olan məhkum qadınlar mənə daha çox hörmətlə yanaşmağı başlamışdılar.

Bu arada koloniyaya bir Azərbaycanlı qadın məhkum olunmuşdu. Mənimlə qarşılaşmağa çətinlik çəkir və utanırdı. Yaşayış massivindəki tərbiyəçi zabitlə əlaqə saxlayıb, bu azərbaycanlı qızı “qorumağı” xahiş etmişdim. Leninqradda tibb məktəbində oxuyan bu azərbaycanlı qız, narkotik istifadəçisi statyası ilə həbs olunmuşdu.

Məhkum qadınların bayramları qeyd etməsi daha cəlbedici olurdu. Müxtəlif millətlərdən olan məhkumların milli geyimləri, rəqsləri, yumorları mülki işçilərin və məhkumların sevincinə səbəb olardı. Belə vaxtlarda “şair” məhkum qadınlar vətəndaş-rəislər haqqında “Dosluq jarşı” adlı divar qəzetində şerlər yazardılar. Belə şerlərdən biri də mənim haqqımda yazılmışıdı. O vaxt mən şeiri vərəqəyə köçürdüb, bu gündə yadigar olaraq saxlamışam:

İnjeneru yujnıx krovey,
Jelayem bıt, çut veseley,
Pust ne naruşaet nikto bezopastnosti,
Çtob ne vnosit “dvuxrublevoy” yastnosti,

Jelayem çtob, Vami qordilsya ves rod,
Jelayem çtob, partşkolu zakonçit v srok!

Tikiş fabrikinə yeni müdir təyin edilmişdi. Bir gün mənimlə görüşüb, təchizat işində işlədiyimi bilərəkdən, fabrikin təchizat və satışina rəhbərlik etməyi xahiş etdi. Mən razılıq verib yeni işimə başladım. Xidməti məzuniyyətə getməməyi ondan nəzərə almağı xahiş etmişdim. Şöbədə iki mülki xanım işləyirdi. Onlardan biri təchizatın, digəri isə satışın hesabatını aparırdı. Yük maşınının sürücüləri isə, "yük daşıyıcısı" kimi də fəaliyyət göstərirdilər. Demək olar ki, bütün işlər dalınca "qaçmaq", bir cavabdeh kimi mənə qalırdı. Sonralar baş vermiş hadisə, məni ayıq-sayıq olmağa məcbur etdi. Belə ki, qonşu şəhərdən "etibarnamə" ilə alıb gətirdiyim top parçalardan, dörd top yoxa çıxmışdı. Əslinə qalsa "etibarnaməni" yük daşıyıcıları götürərdilər, ancaq onlardan birinin xəstələnməsi, digərinin istirahət məzuniyyətində olması məni "etibarnamə" götürməyə məcbur etmişdi. Top parçalarını gətirdiyim avtomaşın isə, birləşmiş mərkəzi idarənin "avtokalonnasından" sifariş edilmişdi. Dörd top parça "əppək" olub yoxa çıxdığından, itmiş parçaların müəyyən qismi, fabrik müdirinin əsasnaməsinə və koloniya rəisinin əmrinə görə, aylıq məvacibindən müəyyən faiz ödəmələri kimi tutulurdu. Bu hadisə mənə çox pis təsir etmişdi. Koloniya rəisinə ərizə yazaraq, əvvəlki işimə qaytarılmasını xahiş etdim. Təchizat sahəsində işlədiyim vaxtlarda, təhlükəsizlik mühəndisi vakansiyası boş qalmış, baş mühəndis isə heç nəylə maraqlanmamışdı.

Mənim geri qayıtmağım baş mühəndisin sevincinə səbəb olmuşdu.

Artıq işlər də çoxalmışdı. Qəsəbədə sakinlər üçün iki mərtəbəli bina tikilirdi. Burada da təhlükəsizliyi təmin etmək üçün, dörd məsul işçidən ibarət yeni komissiya yaradıb yoxlamalara başladıq. Tikiş fabrikində əsas sahə olan, tikiş sexində tavanın müəyyən hissəsinin uçaraq, məhkumların üstünə tökülməsi,gələcək işlərimdə bir şox çətinliklərlə qarşılaşmağıma səbəb olmuşdu.Məcbur olub tikiş fabrikinin müdirinə və bir surəti koloniya rəisinə olmaqla ünvanladığım əmr-akt, koloniya rəisini hiddətləndirmişdi.Məni qəbuluna çağıran koloniya rəisi,akt-əmri qeydiyyatdan çıxarmağı tələb etdi. Mən isə əlbəttə ki, razılaşmadım. Koloniya rəisi mənə qarşı təhtidlərlə çıxış edərək:- sən kimsən ki, işi tezliklə dayandırmağı  və kapital təmir etməyi tələb edirsən? Hələ bu da azmış kimi, , bizi qorxudursan ki, aktın tələbləri yerinə yetirilməsə, baş idarəyə məlumat verəcəm?! Bütün bu təhdidlər tikiş fabriki müdirinin yanında baş veridyindən, o mənə yenidən təchizata rəhbərlik etməyi xahiş etdi və rəisin hərəkətinə bəraət qazandıraraq,yaltaqcasına iradını bildirərək:- bu nədir yasmısan, bəs planı kim verməlidir, baş idarə bizdən plan tələb edir, kapital təmiri yox?! Mən onlara bildirdim ki, əgər qəzalı vəziyyətdə olan tavan uçsa, bir və ya bir neçə nəfər xəsarət alsa, mən buna cavab verməli olacam! Rəis və müdir əllərinin havada yellədərək, indiyə kimi sex uçmayıb, indən belə də uçmaz!- deməklə, məni yumşaldıb

aktımı geri götürməyi istəyirdilər. Mən son sözümdə aktı götürməyəcəyimi deyəndə, koloniya rəisi katibəyə zəng edib, aktın gətirilməsini tələb etdi. Aktı alan koloniya rəisi nümayişkarəna aktı dörd yerə cırıb, get bir də belə iş görmə!- dedi.Sonra qəzəbli halda xəbərdarlıq etdi ki, özünü yaxşı aparmasan sənin "partiya məsələ"ni müzakirəyə qoyacam?! Mən otaqdan çıxıb dərindən bir nəfəs alaraq, dodaqaltı:- cəhənnəmə cır aktı, onsuzda bu aktın bir surəti məndədir, vaxt gələr başınla cavab verərsən!- deyə özümə təsəlli verdim. Tabeliyində olduğum baş mühəndis məndən çox dərinliyə getməməyi və hər şeyə səthi yanaşmağı və aktın məndə olan surətini ona verməyi xahiş etdi. Baş mühəndisin dar gündə məni ayağa verəcəyini, təqribi müəyyən etdim.

Bu arada müəyyən oldu ki, dörd top parçanı oğurlayanlar, guya tapılıb və mənim məvacibimdən çıxılan pullar geri qaytarılır! Əslində məndə işləyən məhkum qadınlar, dörd top parçanı cərimə yazdığım məhkumlar tərəfindən oğurlandığını və məndən "qisas" aldıqlarını deyirdilər. Rəhbərlik tərəfindən edilən bu "humanist" addım, məni ələ almaqdan başqa bir şey deyildi. Mən əlbəttə ki, öz işimi dəqiqliyi ilə yerinə yetirir, cavabdeh olan məsul işçilərə aktlarımı yazmağa davam edirdim. Koloniya rəisinin isə, baş mühəndisin aktın surətini məndən aldıqdan sonra, mənə münasibətdə yumşaldığını hiss etmişdim. Onlar mənim "inadkar" olmağımı cənubluluğumla əlaqələndirərək, bizim "çılğın qanlı" olduğumuzu qeyd edirdilər. Bəzən bayramlarda ət kəsmə

zamanı donuz əti yox, qoyun ətini bizə hədiyyə etmələri,bizim müsəlmançılığa bağlılığımızla əlaqədar olurdu. Yerli qəsəbə əhlindən, Azərbaycanın rayonlarında hərbi xidmətdə olanlar bizim cidd adamlar olduğumuzu, xoşa gəlməyən hər hansı bir hadisə üstündə "qəzəbli" olmağımızı danışardılar. Bunun nəticəsi idi ki, qapı bir qonşularımız bizdən ehtiyatlanaraq, ayıq münasibət göstərirdilər.

Artıq yoldaşım analıq məzuniyyətinə çıxmışdı. Mən isə bir müddət işlədikdən sonra, partiya təhsilimi başa vuraraq, istirahət məzuniyyətimi götürüb, Azərbaycana-qəsəbəmizə yola düşdük. Böyük sevinc keçirən anam nəvəsinin olacaq gününü, səbirsizliklə gözləyirdi. Beləliklə bir oğlan övladımız dünyaya gəldi və heç bir adqoyma mərasimi keçirmədik. Əslində əbədiyyətə qovuşmuş atamın adı, oğlumun adı oldu. Qohumlarımız atamı yenidən həyata gətirməyimə görə məni təbrik edirdilər. Bir müddətdən sonra mən Rusiyaya qayıtdım.

Tikiş fabrikinin müdiri mənimlə ünsiyyətləşərək, təchizata kömək etməyi xahiş etmişdi. Əlbəttə təchizat işi əlavə gəlir olduğundan mən razılaşmışdım. Bir neçə vaxtdan sonra anam və ailəm teleqramma vuraraq, gələcəkləri günü qeyd etmişdilər. Anamla, ailəmi Moskvada qatrşılayıb, Moskva şəhərini biraz gəzdinkdən sonra,kəndimizə qayıtdıq. Anam bu günə qədər kəndimizdə olmamışdı. Evimizi görüb:- ədə bala, bu kənddə nə işin var sənin? Cammaat kənddən şəhərə gedir, səndə kəndə gəlmisən? Deyirdim:- ay ana, kəndimiz

Moskvadan min dəfə yaxşıdı, səni kəndimizdə gəzdirəcəm özün də görəcəksən ki, necə gözəl mənzərəli kənddir! Bütün dediklərimə baxmayaraq, milyon dəfə bizim yaşadığımız kənddən gözəl olan, mənzərəli bir kənddə dünyaya gələn anam, nə kəndimizi, nə də evimizi bəyənmədi. Anam körpə uşaqla gəzməyə çıxanda, dil bilmədiyindən yerli camaatla əl-qol göstərişi ilə danışardı. İstirahət məzuniyyəti qurtardığına görə təyyarəyə bilet alıb,anamı Bakıya təyyarə ilə uçan bir xanıma tapşırdım. Bakıda isə anamı qardaşım qarşılamalıydı. Anam təyyarəyə minəndə bu kənddən çıx, qışda, qarda, çovğunda necə yaşayacaqsan?-dedi. Mən isə anama narahat olmamağı və işlərin qaydaya düşəcəyini bildirdim.

Qəsəbəmizdə adicə günlərimizi keçirirdik. Qonşular, yerli camaat oğluma baxaraq, bunun kipriklərinə qara sürtürsünüz?- deyərdilər. Biz isə gülərək, özümüzün cənub sortuna aid olduğumuzu onlara bildirərdik.

Koloniyada baş vermiş ölüm hadisəsi, mənim bu "burulğan"dan çıxmaq fikrimi qətiləşdirdi. Koloniyadan aralı olan köməkçi təsərrüfatı yoxlayıb, evə nahar etmək üçün qayıdırdım. Evimin qarşısında çoxlu izdiham, gözü yaşlı yoldaşımı görüb məətəl qaldım. Məni qarşılayan yoldaşım:- bayaqdan səni axtarırlar, elektrik cərəyanı məhkumu vurub öldürüb?! Hamı sənin günahkar olduğunu deyir və üstəlik sənin tutulacağını qeyd edirlər! Mən yoldaşımı arxayın edib bildirdim ki, mənsiz heç kimi evə buraxmasın  və energetika işinə cavabdeh olan məsul işçiyə yazdıqlarım aktları xatırlayıb, yoldaşıma müraciətlə:-

məni tutan qələt edir, get uşağa bax və möhkəm ol! Yoldaşım mənim tədbirli və sığortalı adam olduğumu çox yaxşı bilirdi. Odur ki, evə gedib qapını arxadan bağladı. Mən izdihama yaxınlaşanda, bir neçə adamın məni “istintaq” işçilərinə göstərməsini gördüm. İstintaq idarəsinin işçiləri məndən bəzi detalları dəqiqləşdirən suallar verib, cavablar aldılar. Kolonya rəisi isə, daxili işlər idarəsinin rəisi general-mayora məni göstərərək, günahkar olduğumu deyəndə, mən qəti olaraq suçlanmanı rədd edib, aktlar yazdığımı bildirdim.Qeyd etdim ki, həmin aktlara görə “xəstələrin” elektrik işinə cəlb olunmaması haqqda olan bəndlər məsul adamlara yazılıb və təqdim olunub! Energetikaya cavabdeh olan məsul adamı göstərib:- günahkar odur, akt yazmağıma baxmayaraq, “xəstə” məhkumu işə cəlb edib? General təcrübəli adam olduğundan, günahkarı istintaq və məhkəmə müəyyən edəcək!- dedi. İstintaqçılar məndən yazdığım aktların surətini, istintaqa verməyimi xahiş etdilər, əlbəttə ki, günahkar yox, şahid qismində. Mən başqa bir problem olmadığını görüb, zonaya iş otağıma getməyi qərara aldım. Qapıdan məni zonaya buraxmayıb, koloniya rəisinin əmrinin olduğunu bildirdilər. Evə qayıdıb, üzdə özümü yoldaşıma sərbəst göstərsəm də, daxilən narahat idim. Mənim iş yerimə buraxılmamağım “dalağımı” sancıyla doldurmuşdu. Sabahısı iş yerimə gedib kabinetimin dağıldığını, sənədləri qoyduğum seyfin isə,qapısı açıq olduğunu görüb, buraxılmamağımın səbəbini anladım. Bu məni günhakar etmək üçün düşünülmüş bir variant idi. Baş

mühəndis mənə yaxınlaşıb, məhkumlara o qədər cərimə yazdın ki, səndən "qisas" alıb otağını dağıtdılar. Mən baş mühəndisə tərs-tərs baxıb, yaxşı otağımı dağıdıblar, bəs seyfin içindəki aktlar onların nəyinə lazım idi?-deməyim Baş mühəndisi susmağa məcbur etdi. Birazdan katibə mənə zəng edib, koloniya rəisinin qəbuluna gəlməyimi xahiş etdi. Qəbula daxil olarkən, rəisin:- hə, yoldaş Karib otağını dağıdıblar? Yadımdadır, akt yazmışdın, mən sənə demişdim, başını sal aşağı işlə! Bizə akt, məhkumlara cərimə?! Gördünmü kabinetini cərimə yazdığın məhkumlar hecə dağıdıblar? Mən rəisə müraciətlə:- əgər məhkumlar dağıdıblarsa, tutulan varmı?- deyə soruşdum. Rəis isə xüsusi şöbənin bu sahədə işlədiyini nəzərimə çatdırdı. Rəisin qırmızı yalançılığı məni hövsələdən çıxardtı! Rəisə:- cərimə yazdığım məhkumlar yox, akt yazdıqlarım otağı dağıdıb, seyfi açaraq, aktları qovluqla bərabər aparıblar?- deyə bildirdim. Rəis isə:- bu sizin fikrinizdi!Sonra bildirdi ki,sabahı istintaqa getməlisən,maşın verə bilərəm?

Maşın üçün,rəisə"təşəkkürümü"bildirdim!Əslində maşını mənə verməklə, rəis sürücüsünün mənə "nəzarət" etməsini planlaşdırırdı. Evə qayıdıb aktları yazdığım və ehtimal üçün saxladığım qovluğu götürüb, energetiklə bağlı olan aktları cəmləşdirərək, sabahısı avtobusla istintaq idarəsinə yollandım. O vaxtlar surətçıxartma aparatı tək-tük rəhbər işçilərdə olardı. Konspirasiya olunmaq üçün, yaxından tanıdığım şəkil çəkən dostumun yanına gedib, aktların şəkil surətini çıxartmasını xahiş etdim. Şəkil surətlərin bir nüsxəsini də özümdə saxlamaqla, ikinci

surətini istintaqa təhvil verdim. İstintaqçının öləni instruksiyaya etmisənmi?- sualına mən:- bəli deyib, instruksiya jurnalının özümdə olmadığını və sabah gətirə biləcəyimi bildirdim. İstintaqçı aldığı ifadələrdə hamının məni günahkar etdiyini bildirərək, nə üçün belə olduğunu soruşdu?Mən gülərək, ifadə verənlərin "qanun" işçisi olmadıqlarını, müxtəlif ixtisas sahibi olaraq, paqon daşıdıqlarını bildirdim. Diqqətlə məni dinləyən istintaqçı, sən düz danışırsan?! Günahkarın kim olduğunu, sən rəisin yanında,generala özün demisən və işini də möhkəm tutmusan,bu çox əladır!-deyərək, məni yola saldı. Evə qayıtdıqdan sonra, çox narahat olan yoldaşım:- səni tutmayacaqlar ki?- deyə soruşsa da, mən körpə oğlumu qucaqlayaraq, zarafatla:- əşi dədəmi buraxıb hara gedirəm,qorxma?! Allah məndən nə alıbsa, əvəzinə də nə isə verib?! Baş barmağımı gicgahıma aparıb, döyəcləyərək:- ağıl ki, yerindədir, narahatçılığa əsas yoxdur!

Səhərisi iş yerimə yollandım. Qapını, seyfi düzəltmişdilər. İnstruksiya jurnalını görüb arxayınlaşdım və gülməli də olsa, dağıdılmış akt qovluğunu dolabın arxasından təmizlik apararkən tapdım. Aktların içərisindən energetika ilə bağlı olan yazılmış aktlar, qovluqdan çıxarılmışdı. Baş mühəndis məni otağına çağırıb vəziyyətin necə olduğunu soruşdu? Mən ona müraciətlə:- sizdən instintaq ifadə alıbmı?- soruşduqda, cavab:- bəli, oldu. Daha heçnə soruşmadım. Özlüyümdə istintaqçının:- "hamının ifadəsində səni günahkar tutması"- deməsini xəyalıma gətirib, baş mühəndisi "ilanın" yekələrindən biri

kimi səciyyələndirdim. Axşama yaxın baş mühəndisin:- istintaqa verdiyin aktlar hardandır?- səndə, sualı məndə, istehsalı bir təbəssüm yaratdı. Mən baş mühəndisə:- siz məgər görmürdünüz ki, mən aktları üç nüsxədən ibarət yazırdım? Buradakı aktları siz it-bata salanda, düşünmürdünüz ki, üçüncü nüsxə məndə ola bilər?! O, indi üçüncü nüsxələr hardadır?- sualına cavab verməyib, otaqdan çıxıdım. Baş mühəndisin savadsızlığı, paqon daşımasına baxmayaraq, məndən ona qarşı rişxənd yaradırdı. Sonralar danışığımız zamanı mən ona bildirdim ki, əgər bu işdə mən olmasaydım, siz məsuliyyət daşıyardınız, heç olmasa vicdanınız olsun?! Baş mühəndis baş verənlərin mənim tərəfimdən düzgün qiymətləndirildiyini görüb, guya vicdan əzabı çəkirmiş kimi:- rəisdi də, nə istəyir onu da edir, sən məni bağışla, kaş bütün insanlar sənin kimi işində dəqiq olardılar?!

Sabahısı partiya təşkilat katibi mənə zəng edərək,mənim partiya məsələmi həll edəcəklərini dedi və iclasa gəlməyimi xahiş etdi. İşin nə yerdə olduğunu anladığımdan səhəri icazə almadan rayon partiya komitəsinə gedib, koloniyada baş verən hadisələr haqqında məlumat verdim. Rayon partiya komitəsində istintaqla maraqlanıb, məni heç nədən günahkar sayanların, indi də partiyadan xaric etməsi məqsədini öyrənərək, koloniya partiya təşkilatına zəng edib, belə bir mənasız hərəkətdən uzaq olmağa məsləhət gördülər və eyni zamanda, mənim bugünkü iş günümü üzürlü hesab etməyi də diqqətə çatdırdılar. Nahardan sonra koloniyaya qayıdıb, partiya

təşkilat katibinə dəydim, o isə məsələnin xətm olunduğunu bildirdi.

Axşamı işdən evə qayıdarkən, günahkar bilinən energetikin həyat yoldaşının, yoldaşımla söhbətləşdiyini görüb, narahat oldum. Yoldaşım narahatçılığımı görüb, su götürərkən xanımın onu haqladığını və dilə tutaraq, ərinə de ki, günahı boynuna götürsün, onsuzda ərin zabit deyil ki, biz ona kömək edərik cəzalanmaz, ancaq bizimki günahkar olsa və cəzalansa rütbəsini itirəcək?! Mən insanların necə "fırıldaqçı" olduqlarını dərk etdiyimdən,yoldaşıma bildirdim ki,əgər yazdığım aktları, qiqiyena üçün yox, nəticə çıxartmaq üçün qəbul etsəydi,yəqin indi də günahkar olmazdı?! Günah özünündü, cəzasını da çəksin!

Sonralar məlum oldu ki, düzgün işləyən istintaqçını, bu işdən uzaqlaşdırıb başqa birisinə həvalə etmişdilər. Deyilənə görə milliyyətcə o, tatar idi. Günlərin bir günü tatar istintaqçı bizim idarəyə gəlmiş və mənimlə maraqlandığı üçün yanına çağırmışdı. Mən otağa daxil olanda istintaqçı ad, familyamı təkrar edib dəqiqləşəndən sonra, mənə müraciət edərək, siz necə bilirsiniz sizdə, dolma bişirirlİrmi?- deməsi və mənim də ona, nəinki dolma, hətta plov belə bişirilir!- deməyim, gülümsəməsinə səbəb oldu. Məlum oldu ki, istintaqçı tatar yox, mənim həmvətənlimdir. Həmyerlim üzünü mənə tutaraq, sənin bu "aktların" hər şeyi sənin xeyrinə həll edub! Ancaq bu ifadə verənlərin hamısı, sənə qarşı ola-ola, sənin bu xarabada nə işin var? Şəhərdə nə çox iş, tezliklə ev də ala bilərsən?- dedi.

Mən həmyerlimə bunların hamısını koloniya rəisi təşkil edib, yoxsa yerli camaat pis deyillər,- dedim. Həmyerlim isə, əslində sənin Azərbaycanlı olduğunu bildiyim və səni görmək üçün bura çağırdığını qeyd etdi . Həmyerlimi qonaq olaraq evə dəvət etsəm də, sağ ol!- deyib, sonra gülə-gülə bildirdi ki,indi koloniya rəisinin başına oyun açıb, maşınını əlindən alıb şəhərə gedəcəm. Mən güldüm. Elə bu dəm, koloniya rəisi görsəndi və bizim şirin söhbətimizi görüb, duruxdu. Koloniya rəisinə müraciət edən həmyerlim, onun maşınını əldə edərək, mənimlə xudahafizləşib şəhərə getdi. Sabahısı sürücünün koloniya rəisinə, istintaqçının mənim həmyerlim, Azərbaycanlı olduğunu bildirməsi, rəisi "itə" döndərmişdi. Sonralar yuxarılara zəng vuran koloniya rəisi başqa bir istintaqçı yox idimi?- deyə, etirazını bildirmişdi.

Bəli, işdən çıxmaq vaxtı gəlib çatmışdı,əvvəlcə iş tapmaq lazım idi? Marksizm-Lenininzm Universitetində oxuyarkən, Svetlana İvanovna adlı tələbə yoldaşımın iş yerini dəqiqləşdirib, onunla görüşmək qərarına gəldim. Svetlana İvanovna şəhər İcra Hakimiyyətində müavin olaraq mədəniyyət sahəsinə kuratorluq edirdi. Məni çox yaxşı qarşılayan Svetlana İvanovna, Birləşmiş mədəniyyət və parklar idarəsinə, müdir müavini lazım olduğunu bildirdi. Mən koloniya "burulğan"ından qurtulmaq üçün, razılıq verdim. Səhərisi yeni iş yeri ilə maraqlanıb, hər halda gələcək karyera üçün müdir müavini işləmək yaxşı təcrübə olardı?- deyə düşündüm. Koloniya rəisinin qəbuluna gedib işdən azad olunmaq üçün ərizəmi yazdım.

Ərizəmə baxan rəis:- gəldin bu kəndə, birini həbsxanalıq etdin, indi də gedirsən?! Mən susmağa üstünlük verdim. Rəis, bəs yaşadığınız evi nə vaxt təhvil verirsiniz?- sualına, mən yoldaşımın analıq məzuniyyəti qurtarandan sonra təhvi verəcəm,- deyə bildirdim. Sonra rəisə üz tutub, vaxtilə sizə ünvanladığım aktın üçüncü nüsxəsinin şəxsən məndə olmasını bildirərək, əgər siz bizim yaşayışımıza maneçilik etsəniz, harda olursa-olum, aktın surətini "qəza" baş verən kimi ortalığa qoyacam!-dedim. Kinayə ilə gülümsünüb, mənə altdan- altdan baxan rəis:- siz cənublular doğrudan da, "kinli və sərt" adamlarsınız?- dedi. Mən isə cavabımda, sizin kimi paqonlu savadsızların, məni nahaqdan günahkar tutmasını anladığım və qarşısını aldığım üçün, cənublu olmağımla qürur duyuram!- deyib, otağı tərk etdim. Axşamı yoldaşıma ehtiyatlı və ayıq olmağı məsləhət görüb, səhəri yeni iş yerimə yola düşdüm. Svetlana İvanovna məni gülərüz qarşılayaraq, mədəniyyət şöbəsinin rəisini otağına dəvət edib, məni mədəniyyət və parklar idarəsinə müdir müavini kimi işə qəbul etməyi və işçilərə təqdim etməyi xahiş etdi. Biz şöbə rəisi ilə otaqdan çıxandan sonra üz-gözündən zəhrimar yağan şöbə rəisinin:- sən qafqazlısan, hardan peyda olmusan bura? Yaxşı olar ki,gedib bazarında alverini edəsən, nə var burda?- dedi. Mən susdum, əmək kitabçamı yoxlayıb Azərbaycan SSRİ-nin əmək məcəlləsinin 37-ci maddəsini (öz xahişinə görə) görüb, sən ki işdən qovulmusan, bu maddə ilə, necə olub ki, səni koloniyada işə götürüblər?! Sonra dodağını büzərək, yaxşı bu maddəni mən aydınlaşdıraram! Biz şöbə rəisi ilə, Birləşmiş

mədəniyyət və parklar idarəsinə gedib, mənim təqdimatımı “qeyd” etdik.

İdarənin müdiri xanım idi. Seyrək saçlı, qıyıq gözlü, siqaretdən dişləri saralmış xanım, məni kadr rəisinə təqdim edərək, işə qəbul etməyi nəzərinə çatdırdı. Kadr rəisi ilk baxışdan gözəl olsa da, “sürüşkən” xanımlardan seçilmirdi və elə oldu ki, mən müdir müavini olaraq kadr rəisi ilə, bir otaqda yerləşməli olduq. Otağımıza tez-tez içki aludəcisi olan, geyimindən səhlənkarlıq yağan, təhlükəsizlik mühəndisi gələr və nə barədə isə pıçıltıyla kadr rəisi ilə danışardı.Muxin soylu,ancaq “Muxa” kimi tanınan təhlükəsizlik mühəndisi çox səriştəsiz idi. Bəzən mən ona suallar verir, o isə suallarıma cavab verməyərək, müdirə tabe olduğunu və mənə hesabat verməyəcəyini bildirirdi. Müdir xanıma müraciət etsəm də, müxtəlif bəhanələrlə məni qəbul etmirdi. Məsələnin ciddi olduğunun görüb, Svetlana İvanovnaya müraciət edərək, texniki təhlükəsizlik işinin düzgün qurulmadığını bildirdim. Bir neçə ay sakitçilik oldu.

Günlərin bir günü hay-küy düşdü ki, kadrlar rəisinin üç ədəd əmək kitabçasını və 60 rublunu seyfdən oğurlayıblar! Ətrafımda olan işçilərin, nəzərlərini mənə dikdiklərini görüb, oğurluğun “qurma” olduğunu anladım. Çağırılmış milis işçisi və ekspertlər yoxlama aparıb, ifadələr alıb, əl izlərini götürdülər. Sonralar məlum oldu ki, əl izləri tapılmamış, ancaq ifadələrdə mənim günahkar olduğumu qeyd etmişdilər. Qəbulunda olduğum milis işçisi məni günahkar yox, şahid qismində çağırdığını qeyd edərək,

kimdən şübhələndiyimi soruşdu. Diqqətlə milisə nəzər yetirib, onun səmimiliyinə inanaraq, günahkarı tapa biləcəyimi ona bildirdim. Şərt qoydum ki, mənə "səs yazan" aparat verilsin. Mən təqribi bilirdim ki, bu cinayəti Muxa törədib. Sabahısı günü Muxaya:- kefim çox əladır, çoxdandır ki, dilimə şərab dəymir, bəlkə bir boğazımızı yaşlayaq?! Muxa hırıldayaraq, sap-sarı dişlərini göstərmiş şəkildə:- nə əcəb səndən, yaşlayaq deyirsən, yaşlayaq də, mən hazır! Birdən, bəs pulunu kim verəcək?- deyə soruşdu. Mən Muxaya:- əgər dəvət edirəmsə, deməli pul mənlikdir! Yaxınlıqdakı bufetlərin birində oturub, stəkanları toqquşduraraq sağlıq deyirdik. Muxa boğazının "içini", mən isə böğazımın "çölünü" şərabla yaşlayırdıq. Birazdan Muxanın gözlərinin axdığını görüb:- ay Muxa, sən əsil kişisən, sənin kadr rəisinin pullarını "çırpışdırmağın" məni valeh edib?! Muxa açıldı, nə açıldı. Bəs, mən beləyəm də, pulunu da çaldım, əmək kitabçasını da, fahişənin biridir, gündə mənimlə içir, sonra özün bilirsən də... Bu yaxınlarda əri bizə gəlmişdi, anbar müdiri guya, Olyanın səninlə "kef", elədiyini ərinə demişdi. Əri də axmağın biridi, nə deyirsən beyninə batır! Şərabdan başını itirən Muxa, atrakssion pullarını necə oğurladıqlarını və yuxarılara ötürdüklərini də gülə-gülə mənə danışdı. Səngərləyən Muxanı evinə yola salıb, sabahısı milisin yanına getdim. Milis işçisi səs yazısını dinləyəndən sonra, onların da Muxadan şübhələndiklərini mənə deyərək, səs yazısının həqiqəti göstərən fakt olduğunu qeyd etdi. Sonra mənə çönərək:- niyə hüquqşünas olmamısan, səndən yaxşı müstəndiq çıxardı?

Mən,ona nadanlar dünyasının qarşıma səd çəkdiyini və mənə vurulan zərbələrdən hələ də, qurtulmadığımı!- deyərək xudahafizləşdim. Sonralar məlum oldu ki, şöbə rəisi kiminsə havadarlığı ilə həm özlərini, həm də Muxanı milisin cəngindən qurtara bilmişlər.

Mən işlədiyim sahədə Mustik adlı “siqan” da çalışırdı. O, özünü qafqazlılara oxşadaraq, mənə “həmyerlim”- deyə müraciət edirdi. Bir neçə dəfə məni evinə dəvət etsə də getməmişdim. Şəhərin böyük bir hissəsində “Siqan”lar yaşayırdılar. Mən onların “pinti” olduqlarını bildiyimdən, özümü onlardan kənar saxlayırdım. Beləcə günlərin birində Mustiq məndən əl çəkməyib evinə qonaq apardı. Uzaqdan xanımına “siqan” dilində nə isə, dedi. Biz keçib masada oturduq, “siqan” xanım uşağı Mustikə verib, evə çay dalınca getdi. Uşaq hoppanaraq masada oynayırdı, və birdən özündən asılı olmayaraq, masanın üstünə “böyük bayıra” getdi. Kişi xanımını səslədi, yəqin ki masanın üstünü təmizləməyi tələb etdi. “Siqan” xanım masaya yaxınlaşıb, əyninə geydiyi sayını bilmədiyim tumanlardan birini çıxararaq, masanı biədəb şəkildə silib, çay dalınca getdi. İyidən ödüm ağzıma gəlirdi, saatımı göstərib vacib işimin olduğunu və gecikdiyimi bildirərək, birtəhər Mustiklə xudahafizləşib, asta qaçan namərddi!- deyib, uzaqlaşdım. Sonralar Mustik “siqan” xanımının bu hərəkətini məndən üzr istəməklə bildirib, vicdan əzabından özünü azad etdi.

Bir neçə müddətdən sonra məlum oldu ki, günahkar energetik işçisini üç il müddətinə azadlıqdan

məhrum ediblər. Koloniya rəisi energetik işçisinə havadarlıq edə bilmədiyinə görə, hər vəchlə məndən "qisas" almaq istəyirdi. Yoldaşıma tez-tez müraciət edərək, bu kişini neynirsən, sənun kimi bir göyçək xanıma xəyanət edirmiş, üstəlik məhkumlara qadağan olunmuş predmetlər apararaq, qızıl alırmış?! Yoldaşım qızıl söhbətindən başa düşürmüş ki, koloniya rəisinin əsas məqsədi ailəyə nifaq salmaqdı. Ona görə də qızılların "etiketlərini" rəisə göstərərək, Azərbaycandan alındığını sübut etmişdi. Bununla kifayətlənməyən koloniya rəisi:- evin nə vaxt təhvil veriləcəyini soruşmuşdu?Mən şəhərdəki iş yerimdən,rəisə zəng edərək,bizi sakit buraxmağı tələb etdim.Koloniya rəisindən,kənd əhlinin də xoşu gəlmirdi.Koloniyada işləyənlər,iş yerlərini itirəcəklərindən çəkinib,artıq- əskik danışmırdılar.Mənim fikrimcə,böhtan yaradanlar,ya qisas almaq üçün,ya da şərçi olub,gördüklərindən çox,eşitdiklərini danışan,"qulaq"xəstələri idilər.Belə "qulaq"xəstələri elə inandırıcı böhtanlar danışardılar ki,səmimi adamlar çaş-baş qalaraq,özləri də bilmədən böhtançıya çevrilərdilər.Məsəl var:"Yalan ayaq tutar,yeriməz"deyirlər.Mən isə,şərin ayaq tutub, yeriməsini Həsrət dostumun haqsız dünyadan bezib,əbədiyyətə qovuşmasında,şər və böhtanin cəmiyyətin içinə darışmış ,sağalmaz "qurd yarası" olduğunu bilirdim.

Müdir vüavini işini apararkən,"siqan" Mustiq tez-tez mənimlə görüşür,olub-keçənlərdən danışırdıq.O,məktəbə getmədiyindən,hərf belə tanımır,imza edəndə isə,barmağını rəngləyib,imza

yerinə,barmaq izini qoyardı.Oxumadığına görə təəssüflənən,Mustiq,mənə həsəd apardığını üzümə deyərdi!Səliqəli geyinirsən,vəzifədə oturub işçilərə əmr verirsən,mənimki kimi fəhlə deyilsən ki?..Mən Mustiqi başa salırdım ki,düzdür oxumaq,savadlı olmaq çox yaxşıdır,ancaq vəzifə keçəridir,əsasi insan olmaq,başqalarına qarşı münasibətdə həssaslığı itirməmək,ehtiyacı olan insanlara əl tutmaq,bütün bunlar və qeyd etmədiyim digər yaxşı keyfiyyətlər,insanın daxili aləmini nəcibləşdirən hisslərdir.Sən özün şahidsən,heç bir günahım olmaya-olmaya,məni oğurluqda suçlamaq istəyirdilər!Məni öz ifadələrində günahlandıranlardan biri gördüyün kimi,suçlu çıxdı!Hərdən mənə elə gəlir ki,mən günah,şər,böhtanla bir doğulmuşam,hara gedirəm,bu "qaragüruh" insan ktefiyyətləri məni,addim-addim izləyir və son nəticədə fikir-xəyal həyacanindan özümə gələ bilmirəm.Məni dinləyən,Mustiq,kömək edirmiş kimi,falçılara "fal"açdırmağı məsləhət görürdü.O,siqanlar arasında və hətta,yaşadığımız vilayətdə şox məşhur olan "Falçı" nənəyə müraciət etməyimi,dönə-dönə məndən xahiş edirdi.Mən,fanatizmə inanmadığımı ona bildirəndə,yenə də məndən əl çəkmirdi.Nəhayət,Mustiqin inadkarlığı,məni məcbur etdi ki,fala müraciət edim.Sinəsi,əlləri qızılla örtülmüş,ağ saçlı nurani siqan nənə,məni gülərüz qarşılayıb,bir az özündən aralı dayanmağı xahiş etdi.Əlindəki əsa ilə,yan-yörəmi çubuqlayan nənə,məni guya "qaragüruh" qüvvələrin təqib etdiyini deyərək,"sehirli əsa"sı ilə onları qovduğunu

bildirdi.”Falçı”nənə mənim xəstəliklər keçirdiyimi, heç nədən şərə,böhtana,günahlara düçar olduğumu və bundan sonra da düçar olacağımı,lakin ağlımın gücü ilə yaşayacağımı qeyd etdi.Sonra isə,gülərüz sifətinə qəmginlik ifadəsi verərək,nə edə bilərəm ki,oğlum,sən yaradanımızın əzaba,zülmə sinə gərən və zülmlə yaşamağı bacaran bəndələrindənsən.Hərdən gələcəyini qaranlıq görürəm, çox qürurlusan,daxili şəxsiyyət hissin həddindən artıq güclüdür,ancaq çaliş ağlının gücünə arxalan!Yaşlı siqan nənə,məndən mükafat almayıb,yolun uğurlu olsun!-deyərək,mənimlə xudahafizləşdi.

Mələniyyət sahəsində çalışdığıma görə,mənzil növbəsinə durub,ev sahibi olmaq “uzundərə” məsələsi idi.Şəhərə işə gəlmək çox əziyyətverici olduğundan,tezliklə mənzil verəcək iş yeri axtarırdım.Bu əsnada,şöbə rəisi “humanist”lik göstərərək,Hərbi hissələrin birində,kommunal sahəyə rəis vakansiyası olduğunu bildirərək,ştab rəisinin tanışı olduğunu qeyd edib,mənzil almaq sahəsində köməkçı ola biləcəyini bildirdi.Şöbə rəisinin “cənfəşanlıq” etməsi,əlbəətə ki,məndən canını qurtarmaq məqsədi güdürdü.Ancaq,pis fikirə düşməyib,”alçaqdan” da bir kömək gözləmək olar?-deyə,şöbə rəisinin məsləhəti ilə,hərbi hissəyə gedib,özümü ştab rəisinə təqdim etdim.Ştab rəisi,elə bir vakansiyanın olduğunu təsdiqləyərək,göndəriş almaqla,işdən azad olunub,iki gündən sonra,qəbulunda olmağı məsləhət bildi.Tez bazar işdən azad olunub,”göndəriş”lə bərabər, deyilən vaxtda ştab rəisinin qəbulunda oldum.Təəssüflənən

ştab rəisi,kommunal rəisi vəzifəsinə komandir tərəfindən başqasının təyin edildiyini bildirərək,onlarda "çilingər" vakansiyasının olduğunu,əgər istəyərəmsə,bu işlə də mənzil almağın mümkünlüyünü qeyd etdi Ştab rəisinə, xəstəliyimin bu işdə çalışacağıma imkan vtrməyəcəyini bildirib,əgər mümkünsə,zaman verməsini xahiş edib,başqa iş axtarmağa getdim.Mən ilk əvvəl,tikinti idarəsində vaxtilə işlədiyim tanışlarıma müraciət etdim.Köhnə tanışlarımdan,"JBK"nın müdiri Malışevin köməyi ilə,yenicə fəaliyyətə başlamış"ÇSP"zavodunda,təchizat şöbəsinə mühəndis olaraq işə qəbul olundum.Təchizat sahəsini yaxşı bildiyimdən,qıssa müddət ərzində,lazımi hörməti qazandım.Əsas işim zavodun istehsal etdiyi "ÇSP"-nin dörd əsas xammallarını,vaxtlı-vaxtında sifariş edib,təchiz etməyim,köməkçi təssərüfat işlərində isə şöbəyə köməkliyim idi.

Zavodu almanlar tikmiş və ərsəyə gətirmişdilər.Alman nümayəndəsi olan,şef-mühəndis Diterslə,onlara köməkçi hissələrin təchizində yaradığıma görə,yaxşı münasibətimiz yaranmışdı.O,bəzən bizim mexaniki mişarlara rişxənd edərək,Almaniyadan gətirdikləri avtomatik,bir anlığa kəsmək gücünə malik olan,mişarları əyani olaraq bizə göstərər və bizim Sovet ölkəsinin çox geridə qaldığını nəzərimizə çatdırardı.Ditersə tabe oian işçilər,mexaniki işləyən mişara ad da,qoymuşdular:-"mən sənə,sən mənə".Bəzi hallarda, alman işçiləri yan-yana işlədikləri rusların, mişarla işləyəndən sonra yorulduqlarını görüb,evə gedəndən sonra

xanimlarına belə “salam”verə bilməyəcəklərini, deyib gülərdilər.Bütün bunlar Sovet quruluşunun çürüməkdə olduğunun əyani sübutu idi!

Mənzil almaq üçün, növbəyə dayananda,həmkarlar sədri,İnna xanım,Rusiya qanunlarına görə,üç uşağı olanların “çoxuşaqlı” ailə sayıldığını və növbədənkənar mənzil almaq hüququna malik olduqlarını diqqətimə çatdırdı.Mən özümü saxlaya bilməyib,qeyri ixtiyarı olaraq,ikinci övlada namizəd olacağımı bildirdim.Gülümsəyərək,mənə diqqət edən İnna xanım,daha niyə durmusan ki,inqilab elə görək?Sizin millət çoxuşaqlı olmağı sevirlər,daha biz ruslar kimi,bir-iki uşaq,vəssalam?!Bir neçə müddətdən sonra,ikinci övladımızın dünyaya gəlişinə az müddət qaldığını görüb,Həmkarların sədri İnna xanıma müraciət edərək,vaxtından əvvəl istirahət məzuniyyətinə çıxmağıma köməkçi olmasını xahiş etdim.Beləliklə,istirahət məzuniyyətimi götürüb,yoidaşım və iki yaşlı oğlumla bərabər,Azərbaycana-qəsəbəmizə yola düşdük.Qəsəbədə anam,qardaşlarım və qohumlarla görüşdükdən sonra,istirahətimizdən yan ötüşmədik.Oğlum anamla qəsəbəyə gəzintiyə çıxır və “dəcəlliyin”dən də geri qalmırdı.Anam hələ də kənddə yaşadığımıza görə məyus olurdu!Mən isə bu barədə fikirləşməməyi xahiş edirdim.İstirahət məzuniyyətimin qurtarmasına bir neçə gün qalmış,qız övladım dünyaya gəldi.Anam çox sevinirdi,bizim bacımız olmamışdı deyən,bax:- qız ananın köməkçisidir?- deyərdi.Uşağın dünyaya gəlməsi haqqında arayış alıb,hamı ilə xudahafizləşərək,Rusiyaya-evə yola düşdüm.Bu

münasibətlə,iş yerimdə hamı məni təbrik etdi.Qızıma doğum haqqında şəhadətnamə götürüb,surətini çıxardaraq,koloniya rəisinə ünvanladım.Məqsədim hələ ki ev almamışdım,koloniya rəhbərliyinin kənddəki evə iddia qaldırmamasını təmin etmək idi.Yolumun uzaqlığını nəzərə alıb,Həmkarlar sədri İnna xanımdan yataqxanada yer verilməsini xahiş etdim.Həm də,qarşıdan soyuqlar gələcəkdi tənha nə edəcəydim?Yataqxana isə,iş yerimə çox yaxınidi,avtobusla beş dəqiqəlik vaxt sərf edirdim.

Beləliklə,həftənin beş iş gününü yataqxanada,şənbə-bazar isə kənddə,evdə olurdum. Kənddə olduğum vaxtlarda yerli camaatla yaxşı ünsiyyətdə olduğum halda,koloniya rəisi ilə təsadüfən qarşılaşanda,evi hələ də,qanunauyğun olaraq təhvil vermədiyimdən, çəp-çəp baxışlara məruz qalardım.

İşimdən çox razı idim,tez-tez partiya iclaslarında çıxış edir və daha da mövqeyimi möhkəmləndirirdim.Zavodun ümumi iclaslarında,yaranmış çətinliklərin düzgün olaraq səbəblərini göstərməyim isə,müdirimizin ürəyincə olurdu.Şöbə rəisimizin istirahət məzuniyyətinə çıxması və mənim bu işi icra etməyim,müdirlə çox yaxınlığıma səbəb olmuşdu.Evdən tez-tez məktublar alır və xatircəm olurdum.Qış əvvəlki illərə nisbətən,daha sərtləşmişdi,ayda bir-iki dəfə kənddəki evə dəyə bilirdim.

İşlədiyim vaxtlar "ÇSP"istehsalında baş verən xammal itkiləri,mənə bu anlaşılmazlığı dəqiqləşdirməyə sövq etdi.İstehsaldakı texnoloji prosesi nəzərdən keçirib,itginin səbəblərini müəyyənləşdirdim.Belə ki,sement, nəqliyyat rezin

bint vasitəsi ilə ötürülən zaman,yuxarı hissədə qoyulmuş havalandırma pərləri, sementi yerə tökürdü və on beş tona kimi itgi yaranırdi.Yerə tökülən sement tullantı şəklində cüzi qiymətə satılirdı.Eyni texnoloji proses diametri 25sm olan dəyirmi ağacların,xüsusi dəzgahla (drobilka) əzilib,struçkalara salınaraq,sortirovka olunub istehsala ötürülməsi zamanı baş verirdi ki,buda13kub.m.itgiyə səbəb olurdu.Digər xammal sayilan maye şüşəni (silikat qlıba)valyuta ilə alirdiq.Yaxud sulfat alminum üçün,əlavə qablaşdırma olmadığından, qablaşdirmani vaxtında geri qaytarmayanda,cərimə faizi bəzən,aldiğımız xammalın qiymətdən baha olurdu.Nəticədə son məhsulumuz olan,"ÇSP"alıcılar üçün başağrısına çevrilirdi.Əslində,"ÇSP"-nin satışı nazirlik tərəfindən limitləşdirildiyindən,əksər alıcılar məhsulun hara və nə üçün tətbiqini anlaya bilmirdilər.Ancaq əlacsız alıcılıq,nazirliyin limit məcburiyyətindən irəli gəlirdi.Bu barədə mən yaşlı şöbə rəisimizlə danışsam da,həməşə məsləhətinə qulaq verdiyim rəisimiz,şübhələrimi özümdə sirr kimi saxlamağı tapşırıb deyərdi ki,nazirlik indiyə qədər necə işləyibsə,elə də işləyəcək!Sən öz şübhələrinlə heç nəyi dəyişdirə bilməzsən,ancaq işdən qovulmağına səbəb ola bilərsən,sonra neyləyəcəksən?! Şöbə rəisimizin ağsaqqal danışığı məni sakitləşdirdi.Sonra şöbə rəisimiz mənim rahatlanmağımı görüb,bir əhvalat danışmağı da unutmadı.

Belə ki,Leninqrad şəhərindəki zavodların birində,fəhlələr kustar işdən bezib,xarici ölkələrdə olduğu kimi,avtolaşdırılmış texnologiya tələb edirlər.Tezliklə nazirlikdən gələn nümayəndə,tətilçiləri yığıb iclas keçirir.O,öz

çıxışında avtomatlaşdırılmış texnologiyadan istifadə edən xarici ölkələrdəki "işsizlikdən" xeyli danışıb,sonra tətilçilərdə heç bir dəyişiklik olmadığını görərək,tətilçilərin "tələbi" ilə razilaşdığını bildirir.Tətilçilər nazirlik nümayəndəsinin razılaşdiğını görüb, onu alqışlayırlar.Sonra,nazirlik nümayəndəsi onu alqışlayan,tətilçilərə bildirir ki, sexinizdə bildiyim qədər 1500 fəhlə çalışır,avtomatlışdırılmış texnologiyanı tətbiq etsək əgər,40-50 ixtisaslı işçi tələb olunacaq,yerdə qalanlar işsiz qalacaqlar,necə bilirsiniz?!Biz yuxarı təşkilat olaraq,sizin tələblərinizi yerinə yetirməyə hazırıq,indi söz sizindir?-deyib,tətilçilərə diqqət yetirir.Bir də baxırlar ki,tətilçilərdən tək-tük adamlar qalıb və yerdə qalan bir neçə nəfər də əllərini yelləyərək iclası tərk edirlər.Üzünu mənə tuşlayan,şöbə rəisimiz:- ay Qərib nazirliyin arqumentini başa düşdünmü?-deyib gülümsədi.Razılıq əlaməti olaraq,başımı tərpətməkdən başqa sözüm olmadı.Mən bir daha bu barədə heç yerdə danışmasam da,sosializmə bir "bəla" kimi yanaşan,xarici kapitalist dövlətlərinin,Sovet hökumətini iqtisadi cəhətdən necə çökdürməyini işlədiyim zavodun timsalında görürdüm.

Qışın sərtliyi,yataqxanada istilik sisteminin aşağı səviyyədə olması,çarpayıdakı pambıq döşək,gecələr belimdə ağrıların dözülməz olmasına səbəb olurdu.Kənddəki evimiz çox isti olurdu,ancaq yolun uzaqlığı,işə gecikmək ehtimalı olduğundan,yataqxanada qalmağa üstünlük verirdim.Yataqxanada iş yoldaşlarımla domino,bilyard oynayaraq günümüzü yola salırdıq.

Artıq qış öz ömrünü yaza verməyə hazırlaşırdı.Ağaclar tumurcuqlayır,əlvan çələngə bürünərək,boylanan günəşi salamlayırdılar.Bir gün,şöbə rəisimiz Qroznı şəhərinə xidməti məzuniyyətə getməyimi,"subay"həyat sürdüyümə görə,xahiş etdi.Mən,ailəmi gətirmək üçün,əlavə vaxt verilsə,xidməti məzuniyyətə gedəcəyimə razılıq verdim.Belə bir razılıq oldu.Qroznı şəhərinə gəlib,zavodumuz üçün "kauçuk" məmulatları sifariş edib,yük göndərilənə qədər,zavodun mehmanxana tipli qonaq evində qalmalı oldum.Qroznı,əsil müsəlman şəhəri kimi,özünəməxsus abadlığı və təmizliyi ilə mənə xoş təsir bağışladı.Yol boyunca əkilmiş meyvə ağacları,şəhəri daha da gözəl edirdi.Yadımdadır,meyvəni dərib nuş edən,sonra tullantısını yerə atanın birisinə,yerli sakinin zibil qabını göstərməsi, çox mədəni şəkildə,"zibilçini" utandıraraq, tullantını zibil qabina atdırmasını görüb, xoşhal oldum.Nəhayət,yüklərin göndərilməsini təmin etdikdən sonra,Bakıya oradan da,qəsəbəmizə yola düşdüm.

Oğlum və qızım müəyyən qədər yekəlmişdilər.Oğlumun yarı rus,yarı azərbaycan danışığı bizə gülməli gəlirdi.Qızım isə işarələrlə müəyyən hərəkətləri yerinə yetirirdi.Vaxtımın azlığından, çox qala bilməyəcəyimi bildirib,ailəmlə bərabər,Rusiyaya-kəndimizə qayıtmalı olduq.Kəndimizdəki evi yoldaşımla bərabər qaydaya salıb,zavodda işimə başladım.Havalar yağışlı keçsədə,istilər yavaş-yavaş özünü göstərirdi.Bütün yayı,boş vaxtlarımızda Volqa çayinin gölməçəsində oğlumla bərabər çimir,balıq tutur,odunla ocaq qalayaraq,közündə balıq kababı

edirdik.Yay vaxtı qısa olduğundan,qışa hazırlığı da yaddan çıxarmırdıq.Şəhərdəki iş yerimdən,tullantı olan dəyirmi ağacları maşına yüklətdirib, sarayımı odunla doldurmuşdum.Bağımızda göy lobu,acı-tərə də əkmişdim.Yoldaşım rus peçində fətir bişirərdi.İsti fətirin arasina,pendir və aci-tərə qoyub iştahla yeyərdik,üstəlik qonşularımızı da qonaq edərdik.Qonşularımız göy lobunu,acı-tərəni əkməyi öyrənmiş və adlarını da vənim adımla əlaqələndirmişdilər.

Tez-tez uşaqları şəhərə sirkə aparardım,sevinclərindən yerə-göyə sığmazdılar.Beləcə sirk tamaşalarının birində,"kloun" kimi çıxış edən,Akopyan adlı erməni bizə yaxınlaşıb:-"hayes-türkes"?-deyə soruşması,məndən ona qarşı "ikrah" hissi oyatdı.

Bəzən,yay vaxtının heç üzünü görmürdük,duman,çiskin,yağış,palçığın əlindən rezin çəkməmizi ayağımızdan,kürkümüzü isə əynimizdən çıxarda bilmirdik. Qış vaxtları isə gecələr uzun,gündüzlər də qısa olardı.Səhər qaranlıq işə gedər,axşamlar qaranlıq qayıdardım.Uşaqlarla gəzintim istirahət günləri,gündüzlər olardı.Barajın yüksəkliyuindən xizəklə sürüşmək uşaqlar üçün çox maraqlı olardı.Qonşumuz Vitya,buz bağlamış Volqa çayının gölməçəsində,əllə qazma dəzgahının(sverlo) vasitəsi ilə,buzda deşik açar və tilov ataraq balıq tutardı.Tilov tərpənən kimi uşaqlar qışqıraraq,hay-küy qopardılar.Zarafatından qalmayan,Vitya isə,qışqırmayın balıqlar qaçarlar?- deyərdi.Şəhərdən balıq tutmağa gələnlər daha çox olurdu.Belə fərz edirdilər ki,gölməçə balığı,çay

balığından daha dadlı olur.Bir az uzaqdan balıq tutanları seyr edəndə,qara geyinmiş balıqçılar,şəkər tozuna darışmış qarışqaları xatırladırdılar.İşə gedib gələrkən çox əziyyətlər çəkərdim.Bəzən yolların buzluluğundan,marşrut avtobusu gecikər,mən isə işə vaxtında çatmazdım.Sağ olmuş,şöbə rəisimiz gecikməyimi gizlədər və imkan yaratmazdı ki,müdiriyyət xəbərdar olsun.Müxtəlif obyektiv səbəblərdən,marşrut avtobusları olmayanda,səkgiz km.-in çox hissəsi meşə olan yolu,şəhərə işləməyə gedənlərlə birgə gedər,təsadüfü marşrut və digər yük maşınları ilə,işimizə çatmağa çalışardıq.

Məni partiya təşkilat katibinin müavini seçərək,ictimai işə də cəlb etmişdilər.Bəzən partiya iclasları gec qurtarar,mən isə bir təhər kəndə gedən sonuncu marşrut avtobusuna özümü güclə çatdırardım.Xəstəliyim baş qaldırmasın deyə,əynimi isti edərdim.İş yerindən keçə ayaqqabı(valinka),qoyun dərisindən olan kürk alıb,özümü qışın şaxtasına hazırlamışdım.

Beləcə fevralın şaxtalı günlərinin birində,partiya iclasından çox gec çıxdığımdan,qonşu kəndə gedən axırıncı marşurut avtobusuna özümü güclə çatdırıb,oradan təsadüfü maşinla evə gedəcəyimi düşündüm.Gecə saat 12-yə yaxin qonşu kəndə çatıb,xeyli gözləsəm də,yaşadığım kəndə gedəcək təsadüfü maşın tapa bilmədim.Gecə yarısı,insan insi-cinsi yox,yalnız, piyada 6 km-ə qədər yolu gət etmək məni vahimələndirirdi.Kənd əhli məhkumlardan birinin,kənddə təsərrüfat işləri zamanı,meşə ilə yoxa çıxmasını,xeyli vaxt xatırlayardılar.Məhkum qadını

axtarsalar da tapa bilməmişdilər.Sonralar göbələk yığımı zamanı,meşədə insan sümükləri görmüş kənd sakinləri, bunu qanun keşikçilərinə bildirmişlər.Ekspertiza zamanı yoxa çıxan qadın məhkumun sümükləri olduğu müəyyən edilmişdi. Sümüklərin müxtəlif hissələrlə tapılması, məhkumun yırtıcı heyvan tərəfindən parçalanmasına əsas vermişdi. Əslində qış vaxtı bütün kənd ağ örpəyə bürünəndə, it hürüşü ilə bərabər canavarların da səsini eşitmək olurdu. Meşənin dərinliklərində ayıların olmasına da şübhə etmirdilər. Məni vahımələndirən ikinci bir səbəb isə, şəhər zibilliklərinin qonşu kənddən bir kilometr aralıda yerləşən zibilxana meydançasına tökülməsi və vəhşiləşmiş "çöl" itlərinin zibilxanada eşələnməsi idi. Biz səhər-səhər yaşadığımız kənddən, marşurutun olmadığı vaxt piyada işə gedərkən, itlərin qulaqlarını şəkləyərək bizə baxması və hürüşləri yadımdan çıxmamaışdı. Piyada getmək qəti olmazdı! Özümü danlayırdım ki, nahaq gəldim! Bir tərəfdən də ailəmi, uşaqları gecə "tək" qoymağımı ağlıma belə gətirmirdim. İşıqları yanan bir-iki evin pəncərəsini döysəm də, qapılarını üzümə açmayıb,evlərinin işıqlarını da söndürürdülər. Elektrik dirəyindən asılmış işıq isə, həmin yerin kənd mərkəzi olmasına işarə idi. Mən həmin işıq dirəyinə yaxınlaşıb, hələ də ev işıqları yanılı olan qapını döydüm. Yekə sinəli xanım qapını bir az açıb, nə lazım olduğunu soruşdu? Mən isə qonşu kənddə yaşadığımı, piyada getməyin mümkün olmadığını deyərək, sabaha qədər "sığınacaq" verilməsini xahiş etdim. Xanım qapını üzümə çırparaq, bu "oğru siqan"lardan boğaza yığışmışıq!-

deyərək, darvazanı üzümə bağladı. Çox utandım qapını döyməyimə, hələ məni bu vəziyyətə salan və utandıran olmamışdı! Lənət şeytana deyib, piyada yaşadığımız kəndə yola düşdüm. İki kilometrə qədər  meşəlik olmadığından hər tərəf ağ-appağ qar olduğundan aydınlıq idi, adicə xırda bir hərəkət belə görsənirdi. Zibilxana deyilən yerə təqribən beş yüz metr qalmış, bir neçə itin hürə-hürə üstümə gəldiyini gördüm. Yadımdadır ki uşaq vaxtı itlər bizə hürəndə, biz qaçardıq, itlər isə üstümüzə gələrdi. Babam isə bizə başa salardı ki, it üstünüzə gələndə, sakitcə uzanın, it bir az iyləyib sonra gedəcək, qaçmağa heç vaxt çalışmayın! Ay, babam hay,- deyə yerə uzandım!Mənə yaxinlaşan itlər mənim "qoyun tükündən" olan kürkümü dartışdırırdılar. Ani ağlıma gələn isə, kürkün düymələrini sakitcə açmağım, kürk əynimdən çıxsın deyə, qollarımı boş saxlamağım üçün etdiyim hərəkət oldu. Itlər kürkü ağızlarından buraxmayaraq, didişdirirdilər. Mən əsgərfasonu iməkləyərək, özümdən asılı olmayan tərzdə itlərdən xeyli uzaqlaşdım. Bütün bunlarla bərabər özümü ələ alıb irəli, daha uzaqlaşmağı qərara aldım. Bir az uzaqlaşdıqdan sonra itlərin məndən xeyli uzaqda olduğunu görüb, vaxtilə kinosuna baxdığım "Robinzon və onun sərgüzəştləri" filmindəki Robinzonun çimərkən, timsahın onun dalınca düşməsi və onun sürətlə üzməyi yadıma düşdü. Bu isə mənim dodağımda ani bir təbəssüm yaratdı. Göz yaşlarım isə,dayanmadan yanağımı isladaraq,şaxtanın təsirindən buza çevrilirdi. Qərib eldə, kənddə, ailəmin sahibsizliyi və mənim faciə ilə üz-üzə gəlməyim,ürəyimi parça-parça

edirdi. Yenidən kəndə yaxınlaşıb, işıq saçan dirəyin yanındakı qapını döyməyə başladım. Soyuqdan bütün bədənim əsirdi, bel ağrılarım isə dözməyəcək halda məni incidirdi. Qapını dayanmadan döyməyim, yekəpər bir kişinin qapını açıb, nə istəyirsən gecəyarısı bizdən?- deyə soruşması oldu. Qapını üzümə bağlamasın deyə, ayağımı darvazanın dəmirinə qoydum. Kürküm əynimdə olmadığından vurduğum qalstuk və geyindiyim ağ köynək kişini özünü ədəblə aparmağa məcbur etmişdi. Mən kəndimizdə yaşayanların adlarını deyəndə, kişi arxada dayanmış xanımına müraciətlə:- bu ki, yaşadığı kəndin camaatını tanıyır, özü də “siqana” oxşamır? Siqanlar belə olmurlar, siqan hara- qalstuk hara?- deyirdi. Mən ona otuz rubl pulumun olduğunu deyib, mənə sığınacaq verilməsini, yaxud nəqliyyatı varsa kəndə aparmasını xahiş etdim. Pul adını eşidən yekəpər kişi:- otuz rublu ver, mosikletlə səni kəndinə aparım? Sevincək otuz rublu(kəndarası yol pulu 15 qəpik idi) ona verdim. Kişinin xanımı isə, ona məni kəndə aparmamağı, yolda sənə xətər yetirər deməsi onsuz da soyuqdan titrəyən bədənimi daha da üşütmüş oldu. Yekəpər kişi xanımına müraciətlə:- onun mənə gücü çatmaz,özü də soyuqdan tir-tir əsir, lazım olsa bir silləyə onu sərərəm yerə, qorxma!- deyə xanımına ürək-dirək verdi. Nəhayət motosklet hərəkətə gəldi, qurumuşdum deyə, yekəpər məni “lülkaya” birtəhər kömək edib, oturtdu. Motoskletin sürəti, şaxtalı hava, qurumuş bədənimi gizildədir, sifətimi codlaşdırır, kipriklərimi bir-birinə yapışdıraraq gözlərimi bağlayırdı. Ayağımdakı keçə

çəkmə(valinka) olmasaydı yəqin ki, ayaqlarımı şaxta vurardı. Kəndə yaxınlaşmağa beş yüz metr qalmış, məni motoskletdən düşürən yekəpər, kəndin içinə gedə bilməyəcəyini vurğuladı. Birtəhər motostletdən düşüb getmək istədim, diz qapaqlarım elə bil donmuşdu, ovxalayıb son beş yüz metri piyada getməli oldum. O qədər donmuşdum ki, açarı belə cibimdən çıxartmağa çətinlik çəkirdim. Uşaqları oyatmamaq üçün, sakitcə qapını açıb mətbəxə daxil oldum. Ayağımı soyunub uşaqlara baxdım, mışıl-mışıl yatırdılar. Yoldaşım da yorğun olduğundan bərk yatmışdı. Daxilən sakitləşib, ağrılarıma son qoymaq üçün nə edəcəyimi düşünürdüm. Peçə baxdım, artıq sönməkdə olduğunu, eşələdikdə isə közərən işıltıları gördüm. Axşamdan peçin böyrünə qurumaq üçün qoyulmuş odundan peçə qoyub yandırdım. Yanan peçin istisindən bədənimdə açılan donun, mənə verdiyi ağrılar isə çox dözülməz idi!? Bədənim isindikcə, yavaş-yavaş ağrılardan xilas olurdum. Artıq saat beş tamam idi. Adicə günlərdə saat altıda durar, yeddi tamamda isə marşurut avtobusla işə yola düşərdim. Çox yorğunuydum, yuxu məni basırdı, ancaq bir saat mənə nə yuxu verəcəydi ki? Səhər yeməyimi hazırlayan zaman, yoldaşım oyanıb:- niyə belə tez oyanmısan?- deyə soruşdu. Mən isə yuxumun gəlmədiyini bildirəndə, yoldaşım diqqətlə mənə baxıb:- bəs sən nə vaxt evə gəlmisən, saat on ikiyə qədər gözləmişəm? Yoldaşıma narahat olma, iclasımız olduğundan və gec qutardığından dostlarım gətirib kəndə qoyub getdilər. Yoldaşıma heç vaxt yalan danışmamışdım, əgər danışmalı

olsaydım:- sənİ dədənin göru, düz deyirsən?- deyə soruşardı, mən isə düzü olanı deyərdim. Yoldaşım bilirdi ki, mənim yeganə and yerim, atamın goruna and içməyimdir. Bu səfər yalanlarım o qədər inandırıcı idi ki, yoldaşım mənə and içdirməkdən vaz keçmişdi. İşə gedərkən iş üçün nəzərdə tutulmayan şubamı geyməyim, yoldaşımda yeni sual yaratdı:- bəs kürkün hanı? Mən ona kürkün iş yerində qaldığını bildirib, işimə yollandım. Gecəki baş vermiş hadisəyə görə özümü məzəmmət edib, bir də belə hərəkətlərə yol verməyəcəyimi qətiləşdirdim. Iş yerində kürkümün itdiyini bildirərək, öz hesabıma təzə kürk verilməsini xahiş etdim. Axşam işdən evə təzə kürklə qayıtdığımdan, yoldaşımın:- bəs köhnə kürkünü neynədin?- sualına, maşından düşəndə cırılmışdı, deyə anbara təhvil verib təzəsini götürdüm. Axşam şam yeməyi zamanı yoldaşım utanmış şəkildə hamilə olduğunu bildirdi. Mən çox sevindim, həmkarlar sədrinin vaxtilə "çoxuşaqlı" ata kimi ev almaq söhbəti yadıma düşdü, və bu mənim dodaqlarımda təbəssüm yaratdı, Yoldaşım təbəssümümü görüb, deyəsən yamas sevindirdim səni eləmi?Mən başımı tərpətdim ki, elədir, sonra özümü saxlaya bilməyib gülərək, deyəsən kəndin "çoxuşaqlı qəhrəmanı" olacağıq!- dedim.

İki körpə uşaq, hamilə yoldaşım, əlbəttdə çətin idi. Onun köməyə ehtiyacı var idi, kimimiz varıydı ki?.. Gərək qohumun, yaxının yanında olaydı ki, kimsə sənə əl uzadaydı?! Mənim fikirlərim yoldaşımı narahat etdi. Sonra üzünü mənə tutaraq:- bu barədə düşünmə, atam deyərdi ki,

Allah züryət verirsə, çörəyini, köməyini əsirgəmir?! Bir də ki, Allah səni saxlasın, uşaqlar mənə əziyyət yox, şənlik verilər, günün neçə keçdiyini belə bilmirəm!

Şöbə rəisimizin pensiya yaşı çatmışdı deyə, şöbədə şənlik məclisi qurulmuş və onu xoş arzularla yola salmışdıq. Yeni şöbə rəisimiz isə keçmiş hərbçi idi. Müdirimiz keçmiş hərbçi olduğundan, öz həmkarını şöbəyə rəis gətirmişdi. Yeni rəisimiz çox maraqlı insan idi. Ilk gündən mənimlə dostlaşan Slava mənə hörmətlə yanaşırdı. Əfqan müharibəsində kürək-kürəyə söykənərək, düşmənlə döyüşə atılan yaxın dostu azərbaycanlı olmuşdu. Adı Bəxtiyar olsa da, biz ona Boris deyərdik, bir tikə çörəyimizi yarı bölərdik:- deyə Slava danışardı. Döyüşlərin birində mən onu itirdim, ancaq bu günə kimi yadımdan çıxara bilmirəm. Bəxtiyar ona Azərbaycandan, adət-ənənələrdən o qədər danışmışdı ki, Slava demək olar ki, Azərbaycana dair nə desən məlumatlı özünü göstərərdi. Mən isə bütün işlərimizdə ona hörmətlə yanaşar, pis vəziyyətlərə düşməmək üçün, bildiklərimi ondan əsirgəməzdim.

Havalar yavaş-yavaş istiyə doğru gedirdi. Boş vaxtlarımda sakit durmur, bağda işləyir, sarayı gələcək odun tədarükü üçün təmizləyirdim. Yoldaşımın hamiləlik dövrü həkiimlər daha çox nar alıb yedirtməyi məsləhət görürdülər. Mən heç vaxt bazara getməmişdim. Rusiyada yaşadığım müddətdə ilk dəfə idi ki bazara getmişdim. Bazara daxil olanda, öz dilimizdə müxtəlif danışıqlar məni feyziyab etsədə, həmyerlilərimin söyüşlə bir- birlərinə müraciət etmələri, məndə təəssüf hissləri yaratmışdı.

Qulağımı mazol edən ayə:- ay Sülyman, oğraş, çəki daşını gətir dəəə, yaxud İlqar sənin var yoxunu... deməmişəm mənim alıcılarımı əlimdən alma?! İlk qarşıma çıxan piştaxdadakı nar satana yaxınlaşıb, öz dilimizdə salamlaşaraq, 2 kq nar çəkməsini xahiş etdim. Nar satan "irişmiş" şəkuldə mənə baxıb:- mən sizi tanıyıram, siz haradasa vəzifə sahibisiz, tanış olmaq yaxşı olardı?- dedi. Mən ona vaxtımın darlığını bildirib tələsdirdim. Narı bir zənbilə yığıb, çəki etmədən mənə verdi. Mən ona pul versəm də götürmədi. Vaxt olar sənin də mənə köməyin dəyər, axı dağ-dağa rast gəlməz, insan- insana rast gələr? Satıcı həmyerlimlə sağollaşıb, adımın Qərib olduğunu bildirdim. O isə:- Altay, deyə adını bildirdi. Narı pulsuz götürdüyümə görə özümü çox narahat hiss etdim. Ancaq nə edərdim, keçənə güzəşt deyərlər?!

Hərdən yoldaşımla zarafatlaşıb oğlumuzun olacağını deyəndə, o isə gələcəkdə anaya iki köməkçi lazımdır, deyəsən qızımız olacaq?- deyərdi. Elə yoldaşım dediyinə əməl edib, qız balamızı dünyaya gətirdi.İsti vaxtları olmasına baxmayaraq, qış üçün odun tədarük etmək lazım idi. Koloniyanın həmkarlar təşkilatına müraciət edərək, iki maşın dəyirmi odun aldım. Dəyirmi ağacları bir neçə hissəyə bölüb saraya yığmaq lazım gəlirdi. Bütün günləri boş vaxtlarımızda meşələri gəzir, axşamlar evə gələrək, odun yarıb saraya yığırdım. Dünyaya yenicə göz açmış, qız övladımın doğum şəhadətnaməsini alıb, surətini çıxardaraq, həmkarlar təçkilatına vermişdim. Yeni siyahıda, güzəştli olaraq ev alanların siyahısında adım "çoxuşaqlı

ata" kimi qeyd olunmuşdu. Hərdən şöbə işçilərimizin qadınları mənə zarafatla sataşar, indi də ay Qərib çalış ki, uşaqlar beş- altı olsun, sənə 5 otaqlı mənzil versinlər? Mən də zarafatdan qalmaz, ərlərinizi qeyrətə gətirin,özünüz də əziyyət çəkin ki, beş otağa,bəlkə siz sahib olasınız! Qadınlarımız isə tez kürsüdən ayağa qalxar, fırlanaraq, incəliklərini nümayiş etdirib, fiquralarını pozmağı arzulamadıqlarını deyərdilər. Şöbə rəisimiz də onlardan geri qalmaz, bax mənim "mamanyam" kimi,incəbeldir, kukladır!-deyə,fəxarətlənərdi. Doğrüdan da Slavanın "mamanya" adlandırıdığı həyat yoldaşı, müəyyən yaş sahibi olmasına baxmayaraq, incəliyinə görə öz həmyaşıdlarından fərqlənərdi.

İşdə və kənddə hər şey öz qaydasında idi, qalırdı yeni ev alan günümüzü gözləmək! Kənddə hamı bizim gəzməyimizi gözləyirdi, qadınlı- uşaqlı toplaşaraq, balaca qızıma tamaşa edərdilər. İra adlı xanım kirpikləri sarı olduğundan, qara rəng vurardı, qızıma baxanda isə:- kaş onun kiprikləri məndə olardı?- deyərdi.Yadımdadır koloniyada təzə işlədiyimiz vaxtlarda, Moskvaya avtobusla ekskursiyaya gedərdik. Həmən bu İra, çox xoşuma gələrdi. Boylu- buxunlu, incəbel, yaşıl gözləri olan bir xanım idi. Mən elə bilirdim ki, İra anadan gəlmə qara qaş, qara kiprikli, qara saçlıdır. Mehmanxanada dincəldikdən sonra,yığışıb kart,domino oynayardıq.Özümdən asılı olmadan:- bəs İra yoxdur? Uşaqlar xorla:- İra böyründə oturub, görmürsən?- deyə gülüşdülər. Adıcə, sarışın rus xanımından seçilməyən İra, mən gördüyüm İranın tam əksi

idi! Öz- özümə fikriləşdim ki, İranın bütün gözəlliyi, onun yaşıl gözlərini cəlbedici edən, demək qaşının, kipriyinin qara rənglənməsi imiş?! İndi qızıma baxıb, onun uzun, qara kipriklərinə, qara qalın qaşlaına, İranın həsəd aparmasını başa düşürdüm.

Beləcə günlərin birində gölməçədə doyunca çimib, evə gəldikdən sonra odun yarır və yoldaşımla uşaqlara aldığım topla, valeybol oynayırdıq. Hava qaralmağa başlayırdı. Yoldaşıma müraciətlə:- uşaqları evə apar, yardığım odunları yerbəyer edim, şam yeməyinə gəlim.İşlərimi yebəyer etdikdən, sonra evə daxil oldum. Ac olmağıma baxmayaraq, şam yeməyimi nuş edə bilmədim. Bərk qarın ağrısı, mədə bulantısı, iştahamı kəsmişdi. Bir neçə dəqiqədən sonra, qəfil bel ağrısı məni yerə yıxdı, ayağa qalxmaq istəsəm də, mümkün olmadı, bədənim daş kimiydi? Bədən sükunətimi saxlaya bilməyib, yenidən çarpayıya yıxıldım. Yoldaşım vəziyyətimin pisləşdiyini görüb, qonşudan telefonla təcili yardım çağırmasını xahiş etdi. Bütün sifətim, başım, bədənim su içndəydi, getdikcə nəfəsim daralır, təngənəfəs olurdum. Xeyli müddətdən sontra gələn, təcili yardım həkimi müayinə edərək, məni xəstəxanaya götürməyi məsləhət bildi. Ailəmi sahibsiz qoymamaq üçün, xəstəxanaya getməmək fikrimi bildirsəm də, həkim vəziyyətimin ciddi olduğunu və getməyimi təkid etdi. Yoldaşım birtəhər məni qoluna alıb, maşına uzada bildi. Diqqətlə yoldaşıma baxıb:- özündən və uşaqlardan müğayat ol!- dedim. Rayon xəstəxanasıyla, kəndimiz arasındakı məsafə 30 km-ə yaxın idi. Bütün şəhəri keçib,

dairəvi yolun kənarındakı xəstəxanaya getməliydik. Köhnə "UAZ" təcili yardım maşını məni elə atıb tuturdu ki, ağrıdan zarıyırdım. Xəstəxanada iki nəfər növbətçi işçi, məni küçədə yatan "alkqol" xəstələri kimi sürüyüb, gözləmə otağındakı divana atdılar. Ağrılara dözə bilməyib, növbətçi həkimdən ağrılarımı yüngüllşdirmək üçün, bir əlac etməsini xahiş etdim? O isə, heçnə olmamış kimi:- sənə baxacaq həkim, saat 9-da gələcək, gözləməlisən?-dedi. Səhər həkim gələnə qədər, mən o biri dünyanın "qır qazanını, qiyamətini" görüb, gəlmişdim!

Məni müayinədən keçirən həkim, palataya köçürülməyimi və müalicəyə başalamağa qərar vermişdi. Palataya əlil arabası ilə qaldırsalar da, həkim dizi üstə, üzü aşağı oturmağı məsləhət gördü və o vəziyyətdə ağrılarımın azalacağını qeyd etdi. Ağrılardan göz yaşlarımı saxlaya bilmirdim. Qorxduğum o idi ki, mən daha ayağa qalxa bilməyim, çarpayı xəstəsi olum! Yoldaşımın, üç körpə üşağın, günahı nə idi ki, görəsən? Həkim "kəskin xondrosis" xəstəliyinə tutulduğumu və ən azı yarım ay, müalicə lazım olduğunu ərz etdi. Ancaq, bir şərtlə ki, dərmanları vaxtında qəbul edib, blokadaya dözümlü olasan, yoxsa müalicəmiz effektsiz ola bilər? Həkim xəstəliymin ağır fiziki iş görməkdən yarandığnı qeyd edərək, bir daha fiziki işlər görməməyi məsləhət gördü?! 2-3 gündən sonra həkimin göstərişi ilə məni iki nəfərlik palataya köçürdülər. Palatada televizor, soyuducu, hətta telefon da var idi. Öyrəndim ki, Oleq Xudyakoviç nevrologiya şöbəsinə təhbərlik etdiyindən, imtiyazlı imiş.

Yanıma iş yoldaşlarım gəlir, mənə ürək- dirək verirdilər. Otaqda telefonun olması isə, lap mənim ürəyimcə olmuşdu. Qonşumuza zəng edib, ailəmlə əlaqə saxlaya bilirdim. Blokada daha ağrılı olduğundan, qələmi dişlərimlə bərk- bərk sıxırdım ki, ağrılardan qışqırıb, digər xəstələri də narahat etməyim. Beləcə, axşamların birində yoldaşımla telefonla danışarkən, kiçik qardaşımın səsini eşidib,qulağıma inanmadım. Əhvalımı soruşub, dostu ilə gəzməyə gəldiyini və mənim xəstəliyimi bilib, çox pis olduğunu qəhərlənmiş şəkildə bldirdi. Sabah tezdən hamımız yanına gələcəyik,- dedi. Bütün gecənin sevindiyimdən yatmadım, çünki qardaşımın gəlməsi mənim üçün möcüzə idi. Ailəmi, uşaqları düşünməkdən, başım "sərsəri" halına düşmüşdü. Səhərisi qardaşım, dostu,ailəmlə bilrlikdə xəstəxanaya gəlmişdilər. Gəzə bilmədiyimə görə, otaqda görüşdük. Qardaşım:- səni belə görməyim məni çox təsirləndidi, anam səni belə görsə, ürəyi partlayar!- dedi. Mən isə, tezliklə sağalacağımı, anama bildirməyin lazım olmayacağını, təsəlliverici kimi danışdım. Uşaqlara baxanda isə, bütün dünyam alt- üst olurdu! Ən çox oğlum, sualları ilə boğazıma "qəhər" yeridirdi. Mənimlə xudahafizləşib, ailəmlə bərabər gəzməyə gedən qardaşım:- bu gəzintini mənsiz keçirtdiyinə görə, təəssüf edirdi.

Xəstəxanada otaq yoldaşım diz ağrılarından əziyyət çəkirdi. Naftalanda olduğunu, yaxşı müalicə aldığını qeyd edib, şikayətlənirdi ki, rüşvət verməyəndə çox pis baxırdılar. Hara tərpənirsən, pul verməlisən?! Mənim

heçnədən verdiyim rüşvət, müalicə üçün putyovkaya verdiyim puldan, iki dəfə çox olmuşdu. Maddi imkansızlıq imkan vermir ki, yenidən gedib Naftalanda müalicə alasan. Burada birtəhər müalicə alıram. Uzun müddət şəhər tekstil fabriklərinin birində, müdir müavini kimi çalışmış, xəstəlikdən pensiyaya çıxmışdı.

İki gündən sonra xəstəxanaya yanıma gələn qardaşım, həkimin məsləhəti ilə, mənim başımı yumalı olmuşdu. Qardaşım başımı sabunlayıb yuyanda, özümdən asılı olmayan göz yaşlarım, sabunlu suyla bərabər axaraq, ürəyimdə qalan nisgilləri də, elə bil yuyub aparırdı! Başımı qurulayan qardaşım, gözlərimin qızardığını görüb:- bu nədəndir?- deyə soruşdu. Mən xəstəliyin təsirndəndir yəqin,- deyə bidirdim. Sabahısı blokada zamanı ağrılara dözə bilməyib, özümdən asılı olmadan, öz dilimizdə “ay nənə”- deyərək, bərk qışqırdım. Aradan biraz keçmiş qapını açan orta yaşlı kişi, Azərbaycan dilində burada kimdir:- “ay nənə” deyib, qışqıran? Mən diqqətlə ona baxanda, o çarpayıma yaxınlaşıb:- qardaş, can sənə qurban, qərib eldə, xəstəxanada “ay nənə” deməyin,lap ürəyimi parçaladı, dözməyib yanına gəldim! Ağrılrın çox bərkdir,qağa?- dedi. Bir təhər,zarımış vəziyyətdə, çox dözülməz ağrılarım var, görünür tab gəirməyib, öz dilinizdə “ay nənə”- deyə, qışqırmışam! Öz danışığı ilə, ağrılarımı unutdurmağa çalışan həmyerlim, vaxtılə Kazaxıstana sürgün olunmuş, Azərbycan övladı olduğunu, sonradan azərbaycanda qohumlarının qızıyla evlənərək, Rusiyaya yaşamaq üçün gəldiyini danışdı. Sonra, sözünə davam edərək, yük

maşınında sürücü işlədiyini, təmir zamanı ayaq sümüyünü əzdiyindən,xəstəxanaya düşdüyünü danışdı. Travmatalogiya şöbəsində müalicə alıram, imkan olduğu təqdirdə sənə baş çəkəcəyəm?- deyərək sağollaşıb getdi. Mənim ağrılardan danışmağa heç halım yox idi. Həsrətlə həkimə baxıb, nə vaxt ayağa qalxacağımı, ağrılardan qurtaracağımı soruşdum? O isə, səbr elə, biraz da dözümlü ol, sağalmağına az qalıb!

Bir gün həkim maşınına qaraj tikmək üçün, sement lazım olduğunu bildirdi? Mən onun xahişini yerinə yetirərək, şöbəmizə getməyi məsləhət gördüm. Həkimi qəbul edən, Slava ağıllı tərpənərək, tullantı adı ilə sementi mənim xatirimə çox ucuz qiymətə vermiş və məni yaxşı sağaltmağı ondan xahiş etmişdi. Bir həftədən sonra ağrılarım azalmış və çəliksiz, yavaş addımlarla gəzməyə başlamışdım. Qardaşım və ailəm çox sevincək olmuşdular ki, mən daha çarpayı xəstəsi olmayacağam! Qolumun gücü demək olar ki, yox idi. Termosu qaldırıb, özümə çay belə tökə bilmirdim. Travmatologiyada yatan həmyerlim Cəbrayıl, hər gün mənə baş çəkər, ordan- burdan danışar, ağrılarımı yaddan çıxartmağa çalışardı. Xəstəxanadan çıxmağıma biraz qalmış qardaşımla, dostu mənimlə xudahafizləşib, Azərbaycana-Vətənə yola düşdülər.Yaxşı ki, hərdən həmyerlim Cəbrayılla görüşüb, dərdləşirdik. Həmyerlimin ailə haqqında düşündüyü "ideal" yaşayış tərzini, Azərbaycandan gətirdiyi, qohumu olan, həyat yoldaşı "zülmə çevirmişdi. Belə ki, Cəbrayıl öz həyat hekayətini mənə danışmağı qərarlaşmışdı.

Evlənmək vaxtım çatmışdı. Bir Kazax qızla ailə qurmaq istəyrdim. Anam iki ayağını bir başmağa dirəyib, Azərbaycanda yaşayan bacısının qızı ilə evlənməyi təkid edirdi. Mən anamı başa düşürdüm, bir neçə bacı- qardaş idilər. Uşaq vaxtları Kazaxstana sürgün olunmuşdular, acı həyat onların bir neşəsinin həyatına son qoymuşdu. Sağ qalan tək bacısı Azərbaycanda yaşayırdı. Anam kökünə bağlı qadın idi və bacısını çox istəyirdi. Xalam gil hərdən bizə, Cimkəndə qonaq gələrdilər. Xalamın əri cavan vaxtında vəfat etdiyindən, başqa birii ilə, ailə qurmuş və demək olar ki, körpə qızı Əminə atalığının tərbiyəsi ilə böyümüşdü. Əminə danışardı ki, atalığı onu heyvan otarmağa, odun doğramağa məcbur edər, özü isə əlini ağdan-qaraya vurmazdı. Atalığı bütün ev işlərini ona gördürər və yanlış bir hərəkət üçün onu cəzalandırarmış.Əminənin bu danışıqları sevgidən çox, onu əziyyətdən qurtarmaq və anamın arzusunu yerinə yetirmək üçün, mənim onunla ailə qurmağıma səbəb oldu.

Əminə Azərbaycandan, Cimkəndə gəlin gəldi. Körpə qız uşağımız dünyaya gələnə qədər, sakitcə və mehriban yaşayırdıq. Uşağın dünyaya gəlişindən sonra, Əminə tamam dəyişilərək başqa bir qadın oldu! Anama- atama əziyyət verir, onları təhqir etməyi belə, özünə rəva bilirdi. Mən işdən yorğun gələndə, qarşıma çay da qoymurdu, şikəst deyilsən ki, əlində var, ayağın da, zəhmət çək özünə çay tök, yeri gəlsə yemək də bişir, paltarlarını da yu! Bir dəfə mən Əminədən, niyə belə dəyişildiyini və tamam başqa bir insan olduğunu soruşdum?! Əminə bildirdi ki, biz

Rusiyaya gedib,ata-anandan ayrı yaşasaq, daha yaxşı yaşayarıq? Mən artıq atandan, anandan bezmişəm! Anam, bacısı ilə danışıb Əminənin birdən-birə dəyişildiyini desədə, xalam bütün bunların səbəbini, Əminənin atalığında görürdü! Əminənin dəyişməyəcəyini gördüyümüz halda, valideyinlərimlə razılaşıb Rusiyaya yaşamaq üçün yola düşdük. Anam-atam bizi göz yaşları ilə yola saldılar!

Rusiyada mən sürücü kimi işə düzəldim və bugünə kimi də işləyirəm. Əminə evdar qadın olaraq, uşağa baxmağa başladı. Rusiyaya köçdüyümüz müddətdə Əminə sözünə əməl etməyib, heç dəyişilmədi. Uşaqların tərbiyyəsi isə xoşa gələn deyildi. Bir neçə il öncə, atalığı gəlib Əminə ilə birkikdə, məndən boşanmaq üçün məhkəməyə ərizə yazmışdılar. Məhkəmədə mən boşanmağa razılıq verməyib, uşaqları atasız qoya bilmərəm?- dedim. Atalığı isə, məhkəmədə başa düşülməz hərəkətlərə,ağılasığışmaz danışıqlara əl atdı. Mən bu kolxozçu-sürücüyə, qızımı ona görə vermişdim ki, gedib Moskva kimi böyük şəhərdə yaşasın, qızım şəhərli olsun?! Bu da bir heylə yol basıb kənddə, kolxozda, sürücü işləyir!Ümumiyyətlə belə bir"danışıq" olmadığından mən söhbəti böyütmək istəmədim. Belə bir adamla, dialoq qurmaq mənasız idi? Məhkəmədə işinin düz gətirmədiyini görən, Əminənin atalığı Həsrətulla, Azərbaycana qayıtmaq üçün məndən yol pulu istədi. Mənim pul verməyəcəyimi görən Həsrətulla, milis sahə rəisinə müraciət edərək, məndən ev əşyalarını satıb, ona yol pul verməyimi xahiş etmişdi. Axşam evə

gələn Həsrətulla əgər, mən ona pul verməsəm, iki qapılı soyuducunu, iki yerə bölüb, gedəcəyini bildirdi?!Mənim üçün bu başadüşülməz hərəkət,sonralar da uzun müddət yadımdan çıxmadı. Milis nəfəri məni yaxşı tanıyırdı. Həsrətullanın “ağlı başında” olmayan kimi səciyyələndirib, ondan özünü, yaxşı aparmağı xahiş etmişdi. Sabahısı yoldaşım Əminə, atalığı ilə şəhərə çıxıb, tək geri qayıtdı. Əminənin dediyinə görə, atalığı Azərbaycana gayıtmışdı. Əminə atalığı getdikdən sonra, uşaqları daha çox incidir və təhqir edirdi.

İndi, ay Qərib uşaqlar yekəliblər, qızlarım gizlincə siqaret çəkir, hətta içki də içirlər? Mən uşaqları danlayanda, Əminə onlara havadarlıq edərək, mənə,- uşaqlarla işin olmasın, onlar ataları kimi “çuşka” yox, “sovremennı” olmalıdırlar?! Bax:- budur mənim həyatım? Təzdən heç nəyi dəyişə bilmirəm, artıq gecdir! Sonra cibindən dörd yerə qatlanmış vərəqi çıxardıb:- bu, Əminəyə yazdığım şeirdir?- deyib, vərəqi mənə uzatdı. Oxuyarsan, mənim halımı daha da yaxşı duyarsan? Sonralar Cəbrayılın mənə danışdığı bu hekayət, uşaqlarımın tərbiyəsində və digər ailə məişət qərarlarını qəbul etməkdə, öz təsirini göstərmiş oldu. Cəbrayılla sağollaşıb palataya gələrək, şeir yazılmış vərəqəni oxumalı oldum:

Qəriblikdən gəlmiş idim,
Soy kökümü anmış idim,
Səni halal sanmış idim,
Bütün bunlar, de yalanmı?

Dədəndən xəbərin varmı?
Özündən xəbərin varmı?
Vətəndən, qürbətə gəldin,
Dədənlə "xəlvətə" gəldin,
Cəbişə zülmətə gəldin,
Məhkəmələr, de yalanmı?
Felindən xəbərin varmı?
Özündən xəbərin varmı?
Göyə çıxma, bu bir ayıb,
Uşaqları etmə, mayıf,
Tanrı səndən çıxar hayıf,
Zülümlərin,de yalanmı?
Dilindən xəbərin varmı?
Özündən xəbərin varmı?
Azca yaranı sən qanat,
Qadın da olarmı?- inad,
Gətdiyin cehiz "yüz" manat,
Yetimliyin,de yalanmı?
Haqqından xəbərin varmı?
Özündən xəbərin varmı?
Yenə də, dinc durmayırsan,
Keçmişə son qoymayırsan,
Böyük- kiçik saymayırsan,
Keçmişlərin,de yalanmı?
Ağıldan xəbərin varmı?
Özündən xəbərin varmı?

Şeri oxuduqdan sonra, xəyalımda Rusiyada yataqxanada yaşayarkən, baş vermiş bir hadisə canlandı.

Həmyerlim Mürvətin yaşayış tərzi və qaynatasının etdiyi yersiz təklifi xatırladım. Mürvət yoldaşı və bir uşağı olmaqla yataqxanadakı otaqların birini zəbt etmişdi. Yoldaşı Zərifə çox ailə- canlı və tərbiyəli xanım idi. Mürvət isə şorgöz, qadınlara meylli, yoldaşı Zərifəyə mənəvi əzab verənin biriydi. Çox vaxt yoldaşını uşaqla bərabər, vaxtadakı divanda oturmağa məcbur edər və tanış olduğu yerli qızlarla şərab içib, özünü biyabırçı aparardı. Yoldaşı səsini çıxartmaq istəyəndə, uşağının gözü qarşısında ona fiziki zor edərdi. Mürvətin bu hərəkətləri biz həmyerlilərin, o cümlədən də mənim xoşumuza gəlməzdi. Biz Mürvəti tərbiyyələndirmək, milli heysiyyətə gətirmək istəsək də, alınmırdı! Bir gün xəbər çıxdı ki, bəs Mürvəti xuliqan hərəkətlərinə görə həbs ediblər. Aradan bir neçə müddət keçməmiş Zərifənin atası gəlmişdi. Biz həmyerlilər, 50-55 yaşlarında olan Murad kişini hörmətlə qarşılayıb, əgər kömək lazım olsa, əsirgəmərik?- deyə fikrimizi bildirmişdik.Bir neçə ay keçməmiş, Mürvəti 5 il müddətinə azadlıqdan məhrum etdilər. Bir gün Murad kişi vaxtının azlığından gileylənərək, Azərbaycana qayıtmaq istədiyini bildirdi. Narahatçılığı isə, qəriblikdə qızının uşaqlarla bərabər, tək qalması idi. Biz Murad kişiyə təsəlli verərək, Zərifə bacımızaköməklik edəcəyimizi nəzərinə çatdırdıq. Xeyli sükutdan sonra Murad kişi:- Mürvətdən ailə başçısı olmaz?- deyib və gözləmədiymiz halda bizə müraciət edərək:- bəlkə, qızımı biriniz alasınız? Qızım da xoşbəxt olar, məndə rahatlanaraq evimə gedərəm, necə fikrləşirsiniz? Murad kişinin milli mentalitetimizə uyğun

olmayan danışığı bizi heyrətə gətirmişdi!Otaqdan bayıra çıxmaqla, danışığa son qoymalı olduq! Özümüzü yeznə bazarına tilov atandan, qurtarmış kimi, rahat nəfəs aldıq! Bütün bu xəyalımda canlandırdığım Mürvət,Murad,Həsrətulla kimilər, Cəbrayılın başına gələnlər məndə daxili bir narahatçılıq yaradırdı. Axı nəyə görə, atalığı tərəfindən pis vəziyyətdə yaşayan, heyvan otaran, odun yaran bir qız, Cəbrayıl kimi mərdanə, qeyrətli bir oğulun həyatını zəhərləməlidir?! Axı nəyə görə, Murad kişi bədbəxtliyə dücar olmuş qızının həyatını, güya yaxşılaşdırmaq məqsədilə, əslini- kökünü bilmədiyi həmyerlilərinə sıramaq istəyir, qeyrətsiz təklif verməyi özünə ar bilmir?! Axı, biz qeyrətli, namuslu xalqıx?! Bəlkə, mən yanılıram? Bir ucu Həsrətin ölümünə baiskar olmuş yekəpərdən tutmuş, Mürvət, Murat və Həsrətulla kişiyə qədər olan şərəfsizlər, Keçəl Həmzənin nəvələri deyilmi?! Nəyə görə, Koroğlunun nəvə-nəticələri barmaqla sayılası qədərdir? Bütün bu suallara cavab axtarıb tapa bilmirdim və bugünə qədərdə tapa bilmədim!

Həkimin məsləhəti ilə mən evə yazılsam da, gündəlik müalicəmdə idman hərəkətləri ilə məşğul olmalı, yazılmış dərmanları vaxtında qəbul etməli, soyuqdan özümü qorumalı və ağır fiziki işlərdən uzaq olmalı idim. Həkimin dəstəyi ilə mənə pulu ödənilmədən,dəvə yunundan olan “korset” də hazırlanmışdı. Bu “korset” məcburiyyət qarşısında qalıb fiziki işlər görərkən, və digər ağır iş təsadüflərindən məni qoruyardı. Ailəmlə, uşaqlarımla bir yerdə olduğum üçün çox sevinirdim.

Bir neçə gündən sonra işə çıxmalı oldum. Beləcə işdən evə gələndə, yoldaşım ortancıl qardaşımın gəldiyini, sağlamlığımla maraqlandığını və işdə olduğumu bilərək, narahatçılığa əsas olmadığını görüb, yerdə qalan dəyirmi ağacları yararaq, Bakıya qayıtdığını bildirdi. Heç cür inanmağım gəlmədi, necə yəni gəlib, məni görməib, sonra gedib! Şübhələr içində vurnuxduğumu görən yoldaşım, qardaşımın tez gəlib- qayıtmasının səbəblərini olduğu kimi danışdı. Belə ki, kiçik qardaşım, mən xəstə olduğum vaxt gəlib qayıdandan sonra, anama mənim xəstəliyim barədə heç nə demənişdi. Anam qardaşımın özünü bir təhər aparmasını hiss etmiş və bizimlə əlaqəli bir iş varmı?- deyə, soruşmuşdu. Qardaşım isə heç nə deməyərək, ağzına su almlşlar kimi susmuşdu! Bir gün anam işdən evə qayıdarkən, qardaşımın Rusiyaya-bizə gətirdiyi dostunun anası, anamla qarşılaşdığı zaman, mənim xəstə olub, sağaldığımı soruşmaq istəmişdi. Anam bu söhbətdən şoka düşmüşdü. Qardaşımn dostunun anası, anamın halını anlayaraq, elə bilirdim sənin xəbərin var?Bilsəydim soruşmazdım?-desə də, anam ondan əl çəkməmiş, o isə baş verənləri danışmışdı. Anam evə gələrək, kiçik qardaşımı danlamış, telefonla Bakıda olan qardaşama əhvalatı danışmışdı. Anam qardaşımdan tezliklə Qəribin yanına getməyi və bir məlumat gətirməyi tələb etmişdi. Qardaşımın işi başından aşdığı halda, bir günə gəlib, qayıtmışdı. Anamın tələbini yerinə yetirən qardaşım mənim sağaldığımı və işə çıxdığımı anama bildirib, onu sakitləşdirmişdi.

Artıq havalar soyumağa başlamışdı. Payız havası demək olar ki, qış havasına bərabərdi. Soyuq olduğu vaxrlarda ağrılarım məni incidirdi. Bir gün həmkarlar təşkilatının sədri öz yeni xəbəri ilə məni lap sevindirdi. Birləşmiş Mərkəzi idarə tikdiyi 5 mərtəbəli binadan, 4 yaşayış mənzilini, iki otaqlı olmaqla zavodumuza ayırmışdı. Sədr 3 uşaqlı olmağımı və xəstəliyimi nəzərə alaraq mənə mənzil vermək üçün rəyimi soruşdu. Mən isə 3 otaqlıya növbədə dayandığıma görə, növbənin saxlanılması şərtilə,razılıq verdim. Zavodumuzun tikəcəyi 9 mərtəbəli 160 mənzilli binanı, hələ iki il gözləmək lazım idi. Həmkərlar Sədrinin dediyinə görə 5 mərtəbəli bina, 5-6 aya təhvil veriləcəydi. Bu isə qışı, kənddə keçirəcəyimi, kənddən şəhərə işə gələcəyimi labüd edirdi.Yaradanımıza pənah?- deyib, əziyyətlərə dözməkdən başqa əlacımın olmadığını düşündüm.

Bir müddət sonra Rayon Partiya Komitəsinə çağrılıb, zavodun partiya təşkilatına rəhbərlik etməsini xahiş etdilər. Mən əsaslı arqumentlərlə, ideologiya katibini inandırıb, bu işə hazır olmadığımı bildirdim. Öz-özümə düşündüm ki, guya katib olandan sonra, “yağlı quyruq” yeyəcəm! Allah bilir, bu səfərdə iclasdan gec çıxıb yəqin ki, canavarlara yem olacam?! Kimə maraqlı idi ki, mən xəstəyəm? 18 km yolu, bəzən marşrut olmayanda piyada gəlirdim.

Bu arada, marşrutun kəndə gəlməməyinin əsas səbəbinin həll olunduğunu öyrənib, çox xoşhal oldum. Belə ki, çox da böyük olmayan kanal üstündəki qəzalı körpü,

marşrut avtobusunun kəndə gəlməsinə əngəl olmuşdu. Ağır yüklü maşınlara və böyük tutumlu sərnişin avtobuslarına körpüdən istifadə etməyə qadağa qoyulmuşdu. Mən xəstə yatdığım vaxtlarda, körpü sökülmüş və yerinə yeni körpü tikmişdilər. Yeni körpünün tikilməsinin səbəbkarı isə, Nazirlər Sovetinin Rəhbəri Vorotnikovun təsərrüfata baxış keçirməsi olmuşdu. Kənd əhli deyərdilər ki, təzə körpünün böyrünə təzə traktorlar və kombaynlar qoyulmuşdu. Vorotnikov gedən kimi təzə nə var idisə hamısını götürmüşdülər! Kəndə sevinc gətirən, ancaq körpünün yenidən tikilməsi və gediş-gəlişin yaxşılaşdırılması idi. Şəhərdən kəndə gələndə, körpüyə qədər olan yol asfalt örtüklə düzəlmişdi. Körpüdən kəndə olan 5 km yol isə, bərbad halda qalmışdı. Məhz bunun nətcəsi idi ki, zarafatçıl qonşum, Moşkov yolun bərbad hissəsinə heyifsilənərək,Vorotnikovun kəndimizə gəlməsini arzulayardı. Mən isə şükür edirdim ki, daha avtobus qaydasında işləyəcək və piyada yol getməyəcəm.

Bu ildə həmişəki kimi qış sərt oldu. Evi isti saxlamaq üçün qarı "kürəkli bellə" yığıb evin pəncərəsinə qədər qaldırar və qarı döyəcləyərək bərk hala salardım ki, evin istiliyi saxlanılsln. Oğlum yekə kişilər kimi, mənə köməklik edərdi. Bütün bu ağır işlərdə "korset"in mənə böyük köməyi oldu, soyuqdan qorudu, ev işlərində ağrıları demək olar ki, hiss etmədim. Beləcə qışı yola verib yaza qədəm qoyduq. Həmkarlar sədri məni hazır olmağa, bir iki aya təzə mənzilə köçəcəyimi bildirdi. Mayın əvvəllərində mənzilin açarları mənə veriləndə çox sevindim. Axşam evə

gələndə yoldaşımı da sevindirib, şadyanlıq etdik. İş yerindən maşın sifariş edərək, ev əşyalarımızı maşına yığıb, şəhərdəki mənzilimizə köç etdük. Hər cür şəraiti olan mənzil, ürəyimizcə idi. Ən əsası iş yerimə çox yaxın idi.

Mənzilimizin balkonu meyvə ağacları olan, gözəl mənzərəli bağlara baxırdı. Yoldaşım və uşaqlar boş vaxtlarında bağlara gəzməyə gedir, qayıdanda isə alma, smorodina və digər meyvələrdən evə gətirərək, məni də qonaq edirdilər. Poçt, mağazalar, Körpələr evi, bağça mənzilimizin çox yaxınlığında idi. Təzə evə köçməyimiz anamın sevincinə səbəb olmuşdu.

Çox keçmədi ki, zavodumuzda struktur dəyişiklikləri də baş verdi. Zavodun müdiri və şöbə rəisimiz işdən azad olundular. Hər ikisinə heyfsləndim! Hərbçiydilər, düzgünlük tərəfdarı idilər?! Təzə müdir zavodun iş prinsiplərini və texnoloji proseslərini bilmirdi. Uzun müddət Vyetnamda işləmişdi. Təzə şöbə rəisimiz isə vxtıilə müdirimizlə bir yerdə işləmiş Pavel adlı şəxs idi. O, bizim işimizi bilmədiyindən, mənimlə dostcasına rəftar edirdi. Əlbəttə ki, mən bilgilərimi ona başa salmağa çalışsam da, o əlini yelləyərək:- məni başa salma, nə bilirsən özün yerinə yetir!- deyərdi. Elə bil ki, şöbə rəisi mən yox, sənsən! Pavel işinin çox vaxtının haradasa keçirər, iş vaxtı sona çatandan sonra, gəlib işlərin necə olmağı ilə maraqlanardı. Bir neçə müddətdən sonra, bu cənablar da işdən azad olundular. Sonradan müdir vəzifəsinə vaxtilə xidməti məzuniyyətdə olarkən, münasibət qurduğum, Birləşmiş Mərkəzi İdarənin təchizat rəisini zavodumuza

müdir təyin etdlər. Mən itmiş vaqonların axtarışlarını aparарkən, o məni tanımış və yaddan çıxartmamışdı. Elə ona görə idi ki, kadr rəisinə müraciət edib, məni şöbə rəisi təyin etməyi xahiş etmişdi. Təzə müdirimiz Yuri İvanoviçlə iş birliyimiz, məni zavodda daha hörmətli etmişdi. Zavodun baş mühəndisini, təchizat üzrə müavinini yaxşı işləmədiklərinə görə işdən azad etmişdi.

Evimizin yaxınlığında olan baxcanı, zavodumuzun himayəsinə vermişdilər. Baxça müdirəsi, baxçanın təchizi üçün sifariş verdiyi zaman, Yuri İvanoviç məni qəbuluna dəvət edib, baxça müdirəsi ilə tanış etmişdi. Demək olar ki, baxçanın təchizatını şöbəmiz həyata keçirirdi. Baxça müdirəsi ilə səmimi münasibət yarandığına görə uşaqların üçü də baxçaya qəbul olunmuş, yoldaşım isə baxçaya tərbiyəçi köməkçisi kimi işə götürülmüşdü. Bu arada şəhər maarif idarəsinin nəzdində yaradılmış altı aylıq tərbiyəçi kursunda yoldaşım oxumağa göndərilmişdi.

Kənddə yaşadığımız ağrı-acıları çıxartmağa başlamışdıq. Boş vaxtlarımızda uşaqları yaxınlıqdakı mənzərəli parka aparıb gəzdirərdik. Şənbə- bazar günlərində isə, sahil ətrafındakı oturacaqlarda əyləşib, nəhəng Volqa çayının sakit mənzərəsini seyr edərdik. Uşaqlar çayın sahilındə çimir, oynayır, biz isə onlara baxaraq, bu günkü günümüz üçün şükürlər edirdik. Coxuşaqlı ailə sayıldığımızdan bizə pulsuz telefon da çəkmişdilər. Demək olar ki, hər cür şəraitimiz yaranmışdı. Kiçik qızımın bir yaşını qeyd edirdik. Gözləmədiyimiz halda, televizorda Azərbaycan konsertlərini nümayiş

etdirirdilər. Dörd yaşlı oğlum müsiqiyə uyğun rəqs etməyə çalışırdı. Biz isə ona düzgün rəqs etməyi öyrədirdik. Birdən balaca qızımın bilək və əl barmaqlarını oynadaraq rəqs etməsi bizi heyrətə saldı! Milli rəqslərimiz haqqında heç bir təsəvvürü olmayan qızım, azərbaycansayağı rəqs edirdi! İlahi bu nədir belə, qanlamı, genləmi bağlıdır?- deyə, düşündüm. Qonşularımız isə bizimlə demək olar ki, çox mehriban idilər. Binada demək olar ki, heç kimə telefon çəkilməmişdi. Binanın əksər qadınları tez-tez bizə gələr, telefonla zəng edərək yoldaşımla rəfiqəlik münasibəti saxlayırdılar. Mənim ciddi baxışlarım onları ehtiyatlandırar və salam- sağoldan başqa münasibət olmazdı. Yoldaşım baxçada tərbiyyəçi köməkçisi işlədiyindən körpə uşağı olan xanımlar onunla daha isti münasibətdə idilər. Yay vaxtları binanın həyətindəki oturacaqlarda əyləşərək söhbətləşərdilər.

Bütün qonşuların qarnına sancı salan "alkaqolik" Gena idi. Bir otaqda yaşayan Gena və onun yekə iti, səs-küyü ilə qonşuları narahat edərdi. Həyətə çıxanda isə, xoşuna gəlmədiyi adamlara Gena itini fısqırdardı. Mən Genanın qonşularla şit rəftarını, ağılasığmayan zarafatlarını gördüyümdən qaş-qabaqlı olaraq, münasibətdə məsafə saxlayırdım. Beləcə işdən evə qayıdarkən, Genanın qonşularla həyətdə dövrə vuraraq zarafatlaşdıqlarını görüb, özümə ciddi görkəm verərək, onlara yaxınlaşıb, ümumi salamdan sonra söhbətləşməli oldum. Gena yenə olduğu kimi yetənə yetir, yetməyənə iti fısqırdırdı. Hamıyla zarafatlaşan Gena, bir məqamda mənə

yaxınlaşıb zarafatyana çiynimə yumuruq vurmaq istəyəndə, mən onun əlini havada tutub, bərk sıxaraq tərs-tərs baxdım. Gena yavaşca əlini yanına salıb özünü sındırmamaq xatirinə, nə demək olar. rəis adamdı da, gərək hörmətlə yanaşasan?! Gülməlisi isə bu idi ki, hamıya hürən iti mənə baxaraq, quyruğunu bulayırdı. Genanın hərəkəti itə sirayət etmişdi. Nahaq yerə demirlər ki, "it sahibinə baxar, özünü oda yaxar". Mən xudahafizləşib evimə qalxdım. Sonralar yoldaşım Genanın birdən-birə dəyişildiyini söyləyəndə, mən dəyişikliyin nədə olduğunu soruşdum? Yoldaşım Genanın onu görəndə iti kənara çəkib yol verməyini, qonşularla oturacaqda əyləşib söhbət edərkən, söyüşlər etmədiyini bildirdi. Indi qonşular oturacaqda əyləşənda məni də dəvət edirlər ki, gəl bizimlə otur, sən burada bizimlə əyləşənda Gena murdar hərəkətlərə yol vermir və söyüş söymür?! Mən başa düşdüm ki, Genaya çox vaxtında psixoloji təsir etmişəm və bu da öz təsirini göstərib. Qonşu qadınlar öz ərlərinə Genadan şikayət edərək, məni və yoldaşımı nümunə göstərir, Genanın bizimlə yaxşı davrandığını qeyd edirdilər.

Bir gün qonşum Yura mənə müraciət edərək, sən nə etmisən ki, Gena sənə və yoldaşına hörmətlə yanaşır?- deyə soruşdu. Mən Yuranı başa saldım ki, hər gələn adamla, özü də içki aludəçisi olanla zarafat etmək düzgün deyil! İnsan gərək özünə hörmət qoysun. Kim ki, özünə hörmətlə yanaşır, başqaları da sənin şəxsiyyətinə hörmət qoyaraq, nəinki sənə hətta yaxın adamlarına belə hörmətlə yanaşırlar. Əgər Gena mənə zarafatyana yumuruq

atanda, mən də ona eyni ilə cavab versəydim, onunla olacaq münasibət, sizinlə onun arasında olan münasibət kimi olacaqdı! Yura mənə xeyli baxıb, ciddi görkəm alaraq, bir də Gena mənimlə şit zarafat etsə, ona yerini göstərəcəm?! Mən Yuraya,indiki halda bu hərəkətin mənasız olacağını bildirdim. Əgər ilk gündən, indi düşündüyün hərəkəti etsəydin, onda bəhrəsi olardı?- dedim. Əslində Gena içki aludəçisi olsa da, o kiminlə necə rəftar etməyi çox gözəl bilirdi. Bütün bunlarla bərabər mehriban qonşuluğumuz, xöşbəxt yaşayışımızın əsası idi.

Kiçik qardaşımdan məktub almışdıq,evlənmək qərarına gəlmişdi,anamgil isə bizi səbirsizliklə gözləyirdi. Istirahət məzuniyyəti götürüb, hamılıqca uzun bir yola hazırlaşdıq. Moskva-Bakı təyyarəsinə bilet almışdım. Qeydiyyatdan keçməyə hələ vaxt var idi. Uşaqlara su və yemək üçün, nə isə almağı lazım bilib bufetə getdim. Qayıdanda balaca qızımı görmədim, yoldaşımdan kiçik qızımız hanı?- soruşanda şoka düşdü, buradaydı axı, hara getdi? Aldıqlarımı yoldaşıma verib, tələsik axtarışa getdim. Uşaq heç yerdə görünmədi! Əsəbimdən bütün bədənim əsirdi, tərli suyun içindəydim. Birdən uzaqdan bir kök qadının, qızımın əlindən tutaraq çıxış qapısına doğru getdiyini gördüm, elə bil başıma qaynar su töküldü! Yaxınlaşıb qızımı adı ilə çağıranda, onun;- ata deyib, mənə tərəf çönməsi, hər şeyi həll etmiş oldu! Qızımı qucağıma alıb, kök qadına tərəf çönərək, hara uşağı apardığını sormaq istəsəm də, sözüm ağzımda qaldı.Kök qadın "əppəyə" dönüb yoxa çıxmışdı? Kök qadını axtarmağın

mənasılığını başa düşdüyümdən, o biri uşaqları da itirməmək üçün, tez geri qayıtdım. Gözüyaşlı yoldaşımı və ağlayan uşaqları sakitləşdirib, ehtiyyatlı olmağa çağırdım! Təyyarəyə qeydiyyat başlamışdı, rahatca təyyarəyə yerləşib Bakıya yola düşdük. Təyyarədə yoldaşım özünü pis hiss etsə də, uşaqların şən oynamaqları ona hər şeyi unutdurdu. Biz Bakıya düşüb, qardaşımla qəsəbəyə getməli olduq. Anamın, qohumların sevinci, bizim də sevincimizə səbəb oldu. Şəhərə köçüb yaşamağımız isə, anamı daha da şən etmişdi. Toy çadırı qurulmuşdu və iki gün toy çalınacağıydı. Uşaqlar dilimizi bilmədiklərindən hamıya gözləri böyümüş şəkildə baxırdılar. Oğlum məni kənarə çəkib:- ata bunlar hansı dildə danışırlar ki, biz başa düşmürük? Oğlum hardan bilərdi ki, onun başa düşmədiyi dil, doğma ana dilidir! Hər dəfə bu barədə soruşanda nədənsə susmağa üstünlük verərdim. Qızlarım isə başa düşmədikləri dili eşidəndə, elə hey bir-birlərinə baxıb gülüşürdülər. Oğlum tez-tez özünü musiqi rəqslərinə ataraq, rəqs edənlərə baxıb gülməli rəqslər edirdi ki, bu da bizim, ən çox anamın gülüşünə səbəb olurdu.

Hər bir toyda, şənlikdə olduğu kimi, qardaşımın toyunda da, gülüşə səbəb olan yumorlu hadisələr olmuşdu. Toyun getdiyi ərəfədə masalara qoyulan və qəsəbədə tələbatı olmadığından istifadə olunmayan "qara balıq kürüsü" kənddən toya gəlmiş Tükazban xala da, təccüb və istehzaya çevrilmişdi. Beləki qara balıq kürüsünü, moruq mürəbbəsi kimi qəbul edən Tükazban xala anama müraciətlə:- az, bu nədir masaya qoymusan?- belə moruq

mürəbbəsi olar, bəlkə şəkər əvəzinə düz tökmüsən mürəbbəyə? Çox acıdır! Anam isə:- ay Tükəzban yavaş danış, eşidərlər?! Bəri gəl, başa salım deyə, Tükəzban xalanı kənara çəkmiş, masaya qoyulanın mürəbbə yox, balıq kürüsü olduğunu demişdi. Bunu bizə Bakıdan gələn qonaqlarımız gətiriblər,ay bacı! Balıq kürüsünün nə olduğunu anlamayan Tükəzban xala, öz dediyindən dönməmiş, hətta qonaqları istehza hədəfinə çevirmiş, onların "moruq mürəbbəsi" bişirməsini bəyənməyərək, anama:- ay bacı, nə olsun bakılıdırlar, bilmədiklərini biz kəndçilərdən öyrənsinlər də bəs?!

Toyun başa çatmasından bir gün sonra ortancil qardaşım yoldaşı ilə Bakıya qayıtdılar. Biz isə, vaxt çoxluğundan yaxşı bəhrələnmək istəyirdik. Bibimgil üçün çox darıxdığımdan onlara gedən kimi, özümü atırdım bağa, ən çox sevdiyim təndir çörəyi, pendir və acıtərə idi. Uzun çoban dürməyimə baxan bibim deyərdi ki uşaqlıqda da belə idin, indi də heç dəyişilməmisən?! Gül kimi yemək hazırlayıram, bu da qaçır çoban dürməyinə. Oğlumu daha çox istəyirdi. Qardaşımın iysini ondan alıram, torpağı sanı yaşasın. eyni ilə qardaşımın uşaqlığını yamsılayır,- deyərdi. Axşamları evə gələndə anam başlayırdı ki, ay bala indi evin var, uşaqların yekəlir, nə var o "Urusetdə", çıx gəl vətənimizə?! Mən isə anama səbr etməyi məsləhət görürdüm. Anam isə gülə-gülə, gərək o vaxt qoymayaydım göbəyini Yelən Simən kəssin, indi rus torpağından əl çəkmirsən! Anamın Yelən Simən dediyi, Yelena Semyonovna adlı rus qadını müharibə vaxtı Leninqraddan

kəndimizə köçürülmüş və tibb bacısı işləyirmiş. Anam Rusiyada yaşamağımı bu xanımın göbək kəsməsi ilə əlaqələndirirdi, əlbəttə zarafatla!

Artıq uşaqlarımın Rusiyaya, vətənimizə qayıtmaq vaxtı çatmışdı və biz hamıyla xudahafizləşib, yola düşdük. Uşaqlar dincəlmək istəmir, vaqonun pəncərəsinə yaxın oturaraq, şütüyən qatarın arxada qoyduğu evləri və xiyabanları seyr edirdilər. Qarşı və böyük tərəfdə oturan hüzünlü və saqqallı kişinin, uşaqlarımın rus dilində danışdıqlarını görüb, həmsöhbət olmağa başladı. Qonşu rayondan olan bu ailə - ata, ana və oğul rayonda yaşamağın mümkün olmadığını deyərək, Bakıda həmişəlik yaşamağa getdiklərini bildirirdilər. Hərdən kişinin gilələnən göz yaşlarının saqqalını yuyaraq, dizini islatması, mənim ciddi marağıma səbəb oldu. Mən marağımı ona bildirəndə, ürəyi dolu olan kişi dərindən bir ah çəkib, başına gələn əhvalatı mənə danışdı.

Biz iki dost idik,- deyən Səxavət kişi, ürəyini sanki ağır yükdən qurtarmaq üçün söhbətə başladı. Dostumun adı Saleh idi. Özümüzə yer götürüb çəpərsiz, yan –yana iki ev tikdik. Sonralar Saleh ailə qurdu və elə onların tanışları olan Zülfiyə ilə, mən də evlənməli oldum. İlk vaxtlar çox mehriban idik. Salehin üç qızı, mənim isə bir qızım və bir oğlum dünyaya gəldilər. Nağıllarda olduğu kimi uşaqlar böyüyüb yetkin yaşa çatdılar və hərəsi bir sahənin sahibi oldular. Bu vaxta kimi aramızdan su keçməmişdi. Mənim qızıma elçi gələndən sonra, bədbəxtçilik bizim qapımızı döydü. Qızımın ərə getmək

fikri olmadığından, elçiləri "əliboş" yola salmalı oldum. Demə, elçi gələnlər Salehin həyat yoldaşının qohumlarından imiş. Sonradan Saleh qızlarından birini, bizə elçi düşən oğlana nişanlamışdı. Özünü sındırmaq istəməyən oğlan, Salehin ailəsində söhbət zamanı qızın onu bəyənmədiyini yox,qız"sürüşkən"olduğu üçün, onu bəyənmədiyini bildirmişdi. Oğlanın mənim qızım haqda dediyi böhtan, sonrdan ətraf qonşulara da yayılmışdı. Beləcə bir gün evə işdən gələrkən, qızımın və yoldaşımın gözü yaşlı olduğunu görüb, səbəbini soruşdum. Qızım abır etdiyindən kənar otağa getdi. Yoldaşım isə qəzavi -qədəri mənə olduğu kimi danışdı. Mən qızımı necə lazımdı tərbiyə etdiyimdən və ona gözüm kimi inandığımdan çox pərişan oldum. Bir müddət götür-qoy etdikdən sonra, Saleh dostumla bu barədə danışmağı qərara aldım. Dostum məni birtəhər qəbul edib, dinlədi. Sonra,gözləmədiyim halda:-nə edim, gedim kimi günahkar tutum, bir qızını tərbiyə edə bilməmisən?! Ancaq, məndəki uç qızı görürsən, gözünün qabağında sənin qızını bəyənməyib, mənim qızıma elçi gəldi? Sənin qızını istəməyib deyə, mən qızımı ərə verməməliyəm? Salehin bu mənasız danışıqları, elə bil başıma qaynar su tökdü. Fikirləşdim ki, necə olub dost dediyim adamı mən yaxşı tanımamışam. İndi başa düşdüm ki, dost dediyim Saleh, qapı bir qonşu olduğumuz halda, qızının nişan məclisinə bizi dəvət etməyib!

Hər gün pərişan olan, başını yuxarı qaldırmayan qızım, gözümün qabağında çöp kimi əriyirdi. Həyat yoldaşım Zülfiyyə çox çalışsa da, qızım bizdən, hətta

qohumlardan belə qaçaq olmuşdu. Bir gün işdə olarkən iş yoldaşım Məzahirin:- ayə Səxavət, sən papaq qoyma, neynirsən papağı? Hər kişiyə papaq yaraşmaz!- deməsi, məni qəzəbləndirdi. Mən ağzının danışığını bil Məzahir, o yanlış dilini yerindən çəkib çıxardaram! Mənim ayağa qalxmağım onu fikrini dəyişməyə məcbur etdi. Mən nə dedim ki, deyirəm o papaq sənə yaraşmır, indi rusların yeni papaqları satılır, onlardan al qoy başına, gör necə yaraşacaq?- deməsi, vicdansızın eyhamını mənə əyan etdi. Bayıra çıxıb, günahsız qızımın talehinə atılan böhtana qarğıdım. Evə gələrkən həyətdə milis maşınını görüb, məətəl qaldım. Demə oğlum böhtan atan qonşunun hərəkətinə dözməyib, onu bıçaqlamışdı. Oğluma iki il həbs cəzası vermişdilər. Günlərimiz göz yaşlı, hüzn ilə keçməyə başladı! İş yerimdə mənə olan soyuqluğu görüb, ərizə yazaraq, işdən azad olundum. Qonşu kənddə iş tapıb, biraz söz-söhbətdən uzaqlaşmaq istədim və belə də etdim. Günlərin birində işdən evə qayıdarkən, həyətimdə xeyli izdiham görüb yeyinləşdim. Evə yaxınlaşanda yoldaşım Zülfiyənin:- günahsız balam, niyə özünə qəsd etdin?- deyə, fəryad etdiyini eşidib, ürəyimi tutaraq yerə yıxıldım. Xəstəxanada gözümü açanda "infarkt" olduğumu mənə deyən həkim sakitləşməyi tələb etdi. Özünü elektrik cərəyanına verib, canına qəsd edən qızım, mənsiz dəfn edildi.

Xəstəxanadan çıxandan sonra, Zülfiyə qızımın özünə qəsd etməmişdən öncə yazdığı məktubu mənə verdi. "Mənim əziz atam, anam! Sevimli qardaşım, mənə

ölümümü halal edin. Mən bu böhtançılar, şərçilər, nadanlar dünyasında yaşaya bilmədim, heçnədən sizin başınızı aşağı saldım! Qardaşımın türməyə düşməsinə səbəb oldum! İndi mən rahat olacağım "haqq" dünyasına gedirəm?! Əgər bakirə olaraq, qəlbinizdə yaşasam, ruhum şad olacaq! əlvida! "Haqsız" dünyada qoyub getdiyim əzizlərim, əlvida!" Saleh mənim dostum olsa da, qapı bir qonşu olaraq illərlə yaşasaq da, daha yanaşı yaşamağın mümkün olmadığını görüb, evi satdığa qoydum. Evimiz satılana yaxın, oğlum da cəzasını başa vurub qayıtdı. İndi gördüyün kimi biz Bakıya pənah aparırıq. Gözümün yaşını ona görə tökürdüm ki, günahsız qızımın qəbrini, günah edənlərin, şər böhtan atanların, qəribliyində qoyub gedirəm. Səxavət kişinin bu əhvalatı məni o ki var yandırdı, Həsrətin talehi kimi... Mən Səxavət kişiyə təsəlli verərək, torpağın şəri və böhtanı götürmədiyini, qızının isə əbədiyyətdə "nur" tapacağını bildirdim. Səxavət kişiyə Rusiyadakı ünvanımı verib, ayağın bizlərə düşsə, çox şad olar və köməyimizi də əsirgəmərik?- dedim. Artıq uşaqlar yatmışdı. Bizi də yuxu üstələyirdi, səhərə az qalmışdı, uyumaq lazım idi. Nə qədər çalışsam da yata bilmədim. Bütün gecə böhtançı. şərçi vicdansızların eybəcər sifətləri göz önümdən getmədi. Səhəri qatar Bakıya çatanda Səxavət kişiylə xudahafizləşib ayrıldıq. Bir neçə saatdan sonra təyyarəmiz uçmalı olduğundan aeroport vağzalına gedib Moskvaya, oradan da uşaqlarımın dünyaya göz açdığı şəhərimizə getdik.

Gündəlik işimiz və qayğımızla həyatımızı yaşamağa başladıq. Bu arada, rayon partiya kommitəsindən

yenidən təklif aldım. Zavodun partiya təşkilatına rəhbərliyi:- səni və Çernenkonu məsləhət bilmişik. Əlbəttə indi şəhərdə yaşadığımdan, çətinlik olmayacaqdı,- deyə razılıq verdim. Lakin ikinci namizəd, Çernenkonun mənim seçilməyəcəyimi hamının yanında üzümə deməsi, əsəblərimi gərginləşdirdi. Səbəbini soruşduqda isə,o:- sən müsəlmansan, ona görə seçilməyin sual altındadı! Çernenko ali təhsilimin olduğunu və karyera həvəsimi bilirdi. Mən ona heç nə demədim. Təchizatçı olduğum üçün, işlə əlaqədar tez-tez şəhərdə olurdum. Vaxt edib ideologiya üzrə katibin qəbuluna getdim. Katibə, seçki zamanı hər hansı bir millətçiliyə yol verməyəcəyimi bildirdim! Zavodun partiya işlasında seçki zamanı səs çoxluğu toplayıb, təşkilat katibi seçildim. Sonralar "şovinist" hətəkətinə görə Çernenkoya töhmət də verilməsinə zəmanətçi oldum.

90-cı illər idi. Əvvəllər baş vermiş Sumqayıt və sonradan qanlı Yanvar hadisələri zamanı, Azərbyacanda vaxtilə yaşayıb,sonradan bizim yaşadığımız şəhərə təklif gətirənlər görsənməyə başlamışdı. Onlarla söhbət zamanı, Azərbycanı tərk etdiklərini təəssüf hissi ilə qeyd etdiklərinin şahidi olurduq. Artıq müəssisələr də, əvvəlki illərdə olduğu kimi işləmirdilər. Bu cəhətdən mənim işlədiyim zavod, daha pis vəziyyətdə idi! Vaxtında xammal ala bilmir, məhsulumuz isə çox vaxt alıcılar tərəfindən rədd olunurdu. Qorbacovun özünün də başa düşmədiyi "Yenidənqurma" islahatı, o vaxtlar populyar olan, Yeltsinin kommunist partiyasından çıxması, nəinki cəmiyyətdə, hətta

partiya orqanlarında belə çaşqınlıq yaratmışdı. Qorboçovun "Yenidənqurma" islahatı zavodumuza da təsirsiz ötüşməmişdi. Zavodumuzda istehsalatda çalışanlarla, rəhbərlik arasında ziddiyyətlər yaranmışdı. İstehsalat işçiləri iclas çağıraraq, son məhsulu istehsal edən, əsas sexi kooperativ etmək istəyirdilər və belə də oldu. Öz kooperativini yaradan cəmiyyət, rəhbər işçilərin müəyyən hissəsini işləmək üçün, idarədən kooperativə dəvət edirdilər. Bu işçilərdən biri də mən idim. Bütün bu hadisələrdən əvvəl, müdirimiz Yuri İvanoviç yenidən mərkəzi idarənin işçisi olaraq geri çağrılmışdı. Müdir vəzifəsinə isə, orta texniki təhsilli, bir cümlə qurub danışa bilməyən İlya Valeriyeviç təsdiq edilmişdi. Kooperativçilərin məvacibi, yuxarı idarənin məvacibindən iki qat artıq olurdu. Artıq Moskvada oturan nazirliyin limitləri pozulmuş və plansız alqı-satqı sistemi yaranmışdı. Barterə daha çox üstünlük verən kooperativ rəhbərliyi, yuxarı idarənin satış çöbəsini və rəhbrəliyini ələ alaraq, öz mənafelərini həll edir, adi işçilərin gözünə pərdə asaraq, onlara bir pay, özlərinə on pay devizi ilə kooperativi idarə edirdilər. Rayon partiya komitələrində, yuxarıda "laxlanma" olduğunu hiss edirdilər, ancaq hər vəhclə kommunist partiyasının aparıcı qüvvə olduğunu, sıravi kommunistlərə başa salır, Qorbaçovun "Yenidənqurma" sını zamanın tələbi hesab edir və partiya sıralırının möhkəmlənməsi üçün "canfəşanlıq" edirdilər. Belə bir vaxtda rayon partiya komitəsi, məni Qorki şəhərində ali partiya məktəbinə oxumağa göndərəcəyini bildirdi. Əgər

ali məktəbə oxumağa getsən, bir ildən sonra, sənə rayon partiya komitəsində ən azı təlimatçı kimi işə qəbul edəcəyik?-deyirdilər. Rayon partiya komitələrindən işdən çıxıb, müxtəlif yollarla yaxşıca gəlir əldə etmiş şəxslər özlərinə kooperativlər açmışdılar. Hiss edirdim ki, Rayon partiya komitələrində bir növ işizlik yaranmağa başlayırdı. Əlbəttə mən hüşyar adam idim. Ona görə də Rayon partiya komitəsinin nümayəndəsinə, katib kimi çalışacağımı bildirb, ali partiya məktəbində oxumağa fiziki sağlamlığımın imkan vermədiyini bildirdim. Qorbaçovun, Raisa xanımla idarə etdiyi nəhəng ölkənin bərbad hala düşməsi, siyasi büro üzvlərindən bir neçəsinin ölkədə fövqəladə vəziyyət elanı və buna rəğmən "foros" hadisələri və bu fonda Rusiyada hakimiyyəti Yeltsinin ələ keçirməsi, ikihakimiyyətlilik yaratmışdı. Yeltsinin "guya" Rusiyanı dağıtmağa heç kimə imkan verməyəcəyini bildirməsi, Qorbaçovun isə SSRİ prezidenti olaraq,ictimai quruluşun ilhamvericisi olan Kommunist partiyasını qoruyub saxlamağa çalışması cəmiyyətdə çaşqınlıq yaratmışdı. Rayon partiya komitələrində Yeltsinə qarşı çıxır,SSRİ adlı böyük bir ölkəni dağılmasına imkan vermək istəmirdilər. Yadımdadır iclasların birində çıxış edən katib televiziya kanallarından danışarkən, o vaxt təzəcə yaranmış "Vesti" kanalına qarşı çıxaraq, ümumi ölkə kanalı olan ORT-nin rus dilində aparıldığını və bu kanalın böyük ölkəmiz üçün bəs etdiyini deyirdi. Yerdən kiminsə atmacası:- niyə digər respublikaların milli televiziyaları var,imkan verin bizim də rus xalqı olaraq öz kanalımız olsun?-deməsi katibi

əsəbləşdirmişdi. Bu atmacalara qəzəblənən katib, məgər ORT rus dilində aparılmır, bu kanal Rusiya xalqını təmsil etmir? – deyirdi. Artıq partiya kreslosundan yapışanlar, hər vəchlə dağılmağa doğru gedən ictimai quruluşu və onun ilhamvericisi olan kommunist partiyasını qoruyub saxlamğa çalışsalar da,kommunistlərin çox hissəsi tarixin təkərini irəli getməyə qoymayanların məntiqsiz çıxışlarına inanmırdılar?! Mən kommunist olaraq özümə inam yaratsam da, bəzi "ikisifətli" kommusnistlərin cəfəngiyyat çıxışışlarını mənasiz sayaraq, onlara həsr etdiyim misraların heç olmasa bir bəndini  qeyd etməyi məsləhət bildim:

İclas gedir, susaraq dinləyirəm,
Çıxış edir, "qaşınan" kommunistlər!
Sabaha ümidsiz, mənasız,heyhat,
Vəzifədən yapışan kommunistlər!

Mənim üçün möcüzə isə, Sovet İttifaqının qalıb-qalmaması haqqında ölkə referendumunun aparılması idi. Partiya təşkilat katibi oduğuma görə seçki komissiyasının sədr müavini təsdiq olunmuşdum. İşimlə bağlı görürdüm ki, seçicilərin əksəriyyəti Sovet İttifaqının qalmasını arzulayırdı. Seçki günü, axşama yaxın bir neçə bülleteni fiziki imkanı olmayan və yaşlı adamların evinə aparmaq lazım gəlirdi. Həmkarıma xahiş etdim ki, heç olmasa özümüzə inam yaratmaq üçün, eksperiment aparaq və seçicilərin canlı "hə"yox" cavablarını özümüz üçün müəyyən edək. Evlərin birində yaşlı qadın:- sovetdə doğulmuşam, sovetdə də öləcəm!- dedi. Mənim yaşlı

qadına bu respublikalar nəyinizə lazımdır, biz rus dövləti kimi daha yaxşı yaşaya bilərik?- deməyim, onu təsirləndirmişdi. Digər bir evdə isə, Əfqan müharibəsi iştirakçısı olmuş və bir qolunu itirmiş cavan oğlan, yaralandığı zaman ona özbək əskərin kömək etdiyini bildirərək, sovet ittifaqı olmadan yaşaya bilməyəcəyimizi təsdiqləməsi idi.

Bütün bunlara baxmayaraq ölkə dağılmaq prosesini keçirirdi. Zavod və fabriklərin daxilində yaranan kooperativlər, yaratdıqları cəmiyyəti qoruyub saxlamaq,daha çox gəlir əldə etmək üçün, digər işlək zavod və fabriklərin dəzgahlarını belə, sökdürərək hissələrini satın alırdılar. Yaranmış müxtəlif koomersiya birlikləri illər ərzində yaradılmış, işlməyə qəbul olan müəssisələri lütləyir,avadanlıqlarını başqa müəssisələrə sataraq, varlanırdılar.  Demək olar ki, gələcək inhisarçıların ilk rüşeymləri yaranırdı.

Zavodumuz da, bu qəbildən idi. Zavodu xilas etmək üçün, Yuri İvanoviçi yenidən müəssəmizə müdir təyin etdilər. Yuri İvanoviş kooperativin bağlanması haqqında qərar qəbul etdi. Kooperativ rəhbərliyi çalışsa da, istehsalatda işləyənlər kooperativin bağlanması lehinə səs verərək, yenidən zavod formasında çalışmağa üstünlük verdilər. Hərə əvvəlki kimi öz iş yerlərinə bərpa olundu. Kooperativ dövründə dəmir yol sahəsində yanamış boşluqlar, yüklü vaqonların vaxtında boşaldılmaması və ya yüklənməməsi xeyli cərimə borcu yaranmışdı. Müdirimiz Yuri İvanoviç məni qəbuluna dəvət edərək, mənim

təchizatdan çox, cərimə borcu yaranmış xammal sahəsinə rəhbərliyimi lazım bildi. Yuri İvanoviç keçmiş xatirələrdən danışaraq, işlərin öhdəsindən gələ biləcəyimi mənə vurğuladı. Xammal sahəsində çalışanlar, keşmiş rəisin içkibazlığından istifadə edərək özbaşına olmuş, hətta içkiyə də qurşanmışdılar. İclas çağırıb cərimənin yaranmasının səbəblərini öyrəndim. İşçiləri işləməyə, özbaşınalıq etməməyə çağıraraq, əks təqdirdə ciddi tədbir görəcəyimi bildirdim. Cərimə yaranmasının əsas səbəbi, xammal sahəsi ilə dəmir yoluna nəzarət edən nəqliyyat sahəsinin vahid iş prinsipinin olmaması və yaranmış özbaşınalıqda olduğundan,bu barədə müdirə hesabat verdim. Müdirin yeni əmri ilə, nəqliyyat və xammal sahəsi ümumi şəkildə birləşdirilərək, vahid rəhbərlik olsun,- deyə mənə həvalə edildi. İş prosesi zamanı fəhlələr ustalara ,sahə rəislərinə tabe olmur və özbaşınalıq edirdilər. Özümün fəhlələrlə bir başa ünsiyyətdə olaraq işləməyimi lazım bildim. İşdən yayınıb şərab içənlərin, şərab butulkasını sındıraraq cibimdən pullarını verdim. Nahara vaxtından əvvəl gedənləri, məvacib müqabilində cərimələdim. Bu sahədə, mənimlə nəlayiq danışanlar, rədd ol "qafqaza" get, bura Rusiyadır, sən bizə əmr vermə?!- deyənlər də oldu. Hətta fəhlələrdən biri məvacibinin azlığını, mənim cərimənəm əsasında olduğunu bilib, mənə qarşı zor tətbiq etmək istəmişdi. Belə ki, kabinetim ikinci mərtəbədə olduğundan, pilləkənləri yuxarı qalxarkən,parıltılı alətin başıma gəldiyini görüb, "fənd" işlədərək aləti əlindən alıb, qolunu sındırılma vəziyyətinə saldım. Bərk qorxuya düşən fəhlə

qaçıb getdi. Mən bu barədə heç kimə bildirmədim. Mənə əl qaldırıb, cavabını alan fəhləyə müraciətlə:- gələn aydan məvacibini özün yox, həyat yoldaşın alacaq!-dedim. O məndən gözləmədiyi zərbəni aldığı üçün, başını aşağı salıb dillənmədi. Biz həmkarlar təçkilatı ilə razılaşıb,mənə əl qaldırmaq istəyən və içki aludəçisi olan fəhləni məvacibini içkiyə verdiyinə və ailəsinə maddi kömək göstərmədiyinə görə, həyat yoldaşının məvacibi alacağını nəzərdə tutan, qərar qəbul etdik. Həmkarlar təşkilatı ilə çıxartdığımız qərar, fəhlələri vahiməyə salmışdı. Qısa müddət içərisində sexlərimiz cərimləsiz işləməyə başladı. Müdirimiz məni yenidən təchizata dəvət etsə də, mən işimin öhdəsindən gəldiyimdən və gedərəmsə vəziyyətin yenidən pisləşə biləcəyini, özbaşınalıq olacağını bildirdim. Müdirimiz isə mənimlə razılaşaraq, düz deyirsən əgər birini təyin etsəm və o da içiki aludəcisi olsa, yenidən sex bərbad hala düşəcək!- dedi.Necə deyərlər, "balıq başından" iylənəcək! Mən isə zarafatla uçuruma gedən ölkəmizə eyham vuraraq, necə ki, böyük ölkəmiz dağılmağa doğru gedir!- dedim.

Xammal sahəsində baş vermiş bir hadisə isə işlərimizi qaydaya saldığımız vaxtlarda, kefimizə lap soğan doğradı. Belə ki dəyirmi ağac təchizatı əsasən, dəmir yolu vasitəsiylə olduğu halda, cuzi bir hissəsi, Volqa çayı ilə axıdılma yolu ilə həyata keçirilirdi. Volqa çayı qırağında, iki kranımız və müəyyən qədər işçilərimiz fəaliyyət göstərirdilər. Çayla axıdılan dəyirmi ağaclar, düzəldilmiş xüsusi hövzəyə yığılır,sonra kranlar vasitəsi ilə sahil kənarına, yoxlanılaraq və qeydiyyat aparılaraq "ştabellərə" qoyulurdu. Beləcə

xeyli dəyirmi ağaclar “bərə” şəklində çayla axıdılırdı. Müdirimiz məni qəbul edərək bildirdi ki, sahilə sərnişin gəmizi yan almalıdır və bu gəmidə Dumanın deputatları da var? İki gün əzində dəyirmi ağaclar çaydan yığışdırılmalıdır! Mən müdirə canlı işçi qüvvəsi az olduğundan, iki günə dəyirmi ağacları yığışdıra bilməyəcəyimizi bildirdim. Bir neçə saat ərzində, vilayət partiya komitəsinin işə qarışması nəticəsində, bizə yüz əlli nəfərdən ibarət, tikinti batalyonundan olan əsgərlər vermişdilər. Bu əsgərlər vaxtıilə Macarıstanda xidmət etmiş və sonradan Rusiyaya geri qayıdaraq yataqxanaya yerləşdirilmişdilər. Canlı işçi qüvvəsi olaraq bizə verilən əsgərlərin yarıdan çoxu qafqaz və orta asiya respublikalarından olan və demək olar ki rus dilini o qədər də yaxşı bilməyən əsgərlər təşkil edirdilər. Mən kombata nə iş görmək lazım olduğunu danışsam da, Çeçen bildiyim və sonradan Türk məhsətin olduğnu öyrəndiyim kombatın sürücüsü,hündür böylu, cüssəli əsgərin işə özünün rəhbərlik edəcəyini bildirməsi, mənə təəcüblü göründü! 30-35 nəfər Azərbaycanlı əsgərlər işləməkdən azad olunub, onların yerinə isə digər millətlərdən olanların işləməsi müəyyən olundu. Türk məhsətinli cavan əsgər, Azərbaycanlılara bu iki gündə dincəlməyi tapşırdı. Düzünü desək hərbi hissəyə kombatın yox, cavan əsgərin müdaxiləsi məni heyrətləndirmişdi və söz-söhbət olacağından mənim də xoşuma gəlməmişdi. Ancaq, mənə işin yerinə yetirilməsi lazım idi. Mənim tələbim onlardan o oldu ki, iki gün ərzində çaydakı dəyirmi ağaclar

təmizlənərək, sahilə yığılsın! Batalyona rəhbərlik edən kombat isə, yoxa çıxmışdı. Batalyonda olan zabitlər belə, türk məhsətinli əsgərin sözündən çıxmırdı. Azərbaycanlı əsgərlər kranın hündür yerinə qalxaraq, havada fırlanmış şəkildə çaya tullanır, balıq tuturaq, kabab edirdilər. Əsgərləri kənardan izləyən işçilərimiz, öz iradlarını bildirirdilər! Mən işçilərimizi sakitliyə çağırır və bildirirdim ki, sizi əsgərlərdən kiminsə işləyib-işləməməsi yox, öz işimiz maraqlandırsın!Əsgərlərin rəhbərləri bu barədə düşünməlidirlər? Beləcə əsgərlər qarşıya qoyulmuş vəzifələrini vaxtından əvvəl yerinə yetirib, öz yataqxanalarına –kazarmalarına getdilər. Müdirimizə, qoyulan vəzifənin vaxtından əvvəl yerinə yetirildiyini bildirdim. Məni dinləyən müdir, səni rayon partiya komitəsinə, "güya siyasi səhvə" yol verdiyinə görə, çağırdıqlarını bildirdi. Müdirimiz məni yaxşı tanıyırdı. İşin nədən getdiyini başa düşdüyünə görə bildirdim ki, mən hərbiçi olmadığımdan, əsgərlərə əmr verə bilmərəm? İndi mən nə edim ki, kombatın sürücüsü, kombatın vəzifəsini yerinə yetirir? Kimin rəhbərliyindən aslı olmayaraq, dəyirmi ağacların çaydan yığışdırılması vacib idi və mən də bu vəzifəni yerinə yetirmişəm. Rayon partiya komiəsində mənə edilən hücumlara baxmayaraq, müdirə danışdıqlarımı onlara söyləyib, məsləhət bildim ki, məni bura çağırmaq lazım deyildi, əksinə hərbi sahədə yaranmış "güclü- gücsüz" məsələsini həll etmək , kombata oz vəzifəsini dərk etdirmək lazım idi! Sizin məni məzəmmət etməniz üçün çağrmağınız, əslində partiya sahəsində də,

islahatlar aparılmasını labüd edir! Rayon partiya komitəsinin, millətçi partiya işçiləri,özlərinin siyasi səhvə yol verdiklərini başa düşdüklərindən, əsas məsələdən qaçıb, lazım olmayan məsələlərə toxunmaqla, siyasi savadsızlıqlarını mənim aləmimdə sübut etmiş oldular! Bütün bunlar Sovet İttifaqının dağılmasını göstərməklə bərabər, partiya sistenminin də məhvə doğru getməsini göstərmiş olurdu?! Belə ki, bu ərəfədə Yeltsinin əmri ilə, kommunist partiyasının bağlanmasının elan edilməsi, rayon partiya komitələrində çalışan "huşyar" rəhbərlərin, digər vəzifələrə keçməsinə səbəb oldu. Rayon partiya rəhbərliyində vakansiyalar boşalır, yerli icra hakimiyyətində isə yeni ştatlar yaranırdı. Belə bir vaxtda çağırdığım iclasa gələn kommunistlər partiyadan çıxmaq haqqında yazdıqları ərizəylə mənə müraciət edir, partiya biletlərini ərizə ilə birlikdə mənə təqdim edirdilər. Rayon partiya komitəsinin şöbə rəisi mənim fikrimi öyrənmək istəsə də, mən partiya biletimi təqdim etməyəcəyimi və 15 ilin yadigarı kimi saxlayacağımı bildirdim!İctimayi quruluşumuzun düzgün idarə olunmadığını və məhvə getdiyini anlayırdım, ancaq kommunist partiyasının ləğv olunacağını ağlıma belə gətirməzdim! Əksər kommunist ziyalılar həm Qarbaçovu, həm də Yeltsini Sovet hökumətini dağıtmağda günahlandırırdılar!

Belə bir dövrdə zavodumuzun tikilməkdə olan 9 mərtəbəli binası yekunlaşmaq üzrə idi. Növbədə duran işçilərin siyahısı nəzərdən keçirilir, kimə hansı mənzillərin veriləcəyini təsdiqləyirdilər. Həmkarlar Təşkilatının

çağırdığı içlasda növbədə duran işçilərin əksəriyyəti, “güzəştli” ev verilməsinin əleyhinə çıxış edirdilər. Çıxış edənlərdən Çernenko: Karibə ev verilməsin, onun iki otaqlı evi var, bəsidir!- deyirdi. Digər çıxış edən Pimenov isə, Karib ruslaşmış adama oxşamır, onsuzda gec- tez vətəninə gedəcək, yaxşı olarki, Karibə yox, ruslara mənzillər verilsin! Müdirimiz Pimenovun millətçi çıxışına qarşı olaraq, bildirdi ki, Karib Azərbycanlı olsa da, zavod üçün sizdən az əziyyət çəkməyib. Pimenov əvvəlki fikrini əsaslandırmaq üçün, Karibdən soruşun, əgər o doğrudan da Rusiyanı sevirsə və Rusiyada yaşamaq istəyirsə, nədən qızının adını Anya, Tanya yox, “qornıy kozyol” qoyur? Iclasda gülüşmə qopdu. Mən Pimenovun riyziyyat müəllimi olduğunu bilridim. Ona görə də çıxışımda:- bu iclas sənə riyaziyyat dərsi deyil, və danışığında da, heç bir aksioma yoxdur, ancaq çıxışında millətçilik, şovinizm aksioması var?!- deyə bildirdim. Böyük ölkəmizdə qanun yazılanda, əsas arqument kimi milliyyətçilik yox, beynəlmiləlçilik nəzərdə tutulub. Hörmətli Pimenova bildirmək istiyirəm ki, qızımın adı “qornıy kozyol” yox, rus dilinə tərcümədə Alenadır! Sən bir millətçi şəxs olduğuna,digər xalqların adət-ənənəsinə hörmət etmədiyinə görə, Oleni “qornıy kozyol”a çevirmisən?! Həmkərlar sədri də, öz çıxışında Pimenovu kəskin tənqid etdi.İclas zamanı mənzillərin bolünməsində yaranmış qeyri müəyyənlik və mənzil dartışması,həmkarlar təşkilatı sədrinin mənzil növbəsində duranlara müraciətlə:- fikirləşib,bir həftədən sonra toplanmağı!- deməsi ilə

bitdi.Açığını deyim ki, Pimenovun çıxışında həqiqət var idi və özü də bunu bilirdi. Oda, mənim vətənimə, torpağıma bağlılığım idi. Onun uşaqların adına irad tutması, əslində mənzili mənə yox,yerli millətin nümayəndələrinə verilməsi məqsədini güdürdü. Pimenov bəzən, mentalitet və adət ənənə nöqteyi nəzərindən də mənimlə mübahisə edərdi. Əlbəttə, mən və yoldaşım gözlə gördüyümüz və bizə uyuşmayan hərəkətləri qəbul edə bilmirdik. Ən çox bizə təsir edən qız uşaqlarının açıq- saçıq geymələri, siqaret çəkmələri və vaxtından əvvəl bakirələrini pozmaları, bizdə çox pis ovqat yaradırdı. Bizim iki qızımız olduğundan, onların gələcək talehi bizi düşündürürdü. Ən əsası isə, milli dəyərlərimizə, adət- ənənələrimizə bağlı olduğumuzdan vətənə qayıtmaq, uşaqlarımızı milli dəyərlərimizə uyğun tərbiyyə etmək bizim üçün müqəddəs borc olaraq qalırdı!

Burada yadıma bir əhvalat düşdü. İşlədiyim müəssisələrin birində həmyaşıdım olan, rus dostumun qardaşı ailə qurmaq üçün şadyanlıq etmişdilər və məni də bu şadyanlığa dəvət etmişdilər. Dostumun, qardaşının ailə qurmaq üçün seçdiyi xanımı görəndə, kefim yaman pozulmuşdu. Mən bu xanımın bazara tez-tez getdiyini və alverçilərlə ifrat intim münasibətdə olduğunu bilridim. Dostuma iradımı bildirərək, sən məgər bilmirsən, qardaşın "sürüşkən" xanımla ailə qurur, niyə bu izdivaca imkan verirsən ?! Dostum mənə gülə-gülə elə cavab verdi ki, mən ancaq təəssüflənməli oldum. Ay, Karib bura sənin üçün Qafqaz deyil, bura Rusiyadı? Sənin adət- ənənən burada yerimir! Xanım gəzirsə, demək bu yaxşıdır, demək xanım

çox təcrübəlidir! Bizdə təcrübəli xanımla ailə qurmaq qəbuldur, nəinki təcrübəsiz, gözünü döyən xanımla! Mən başa düşdüm ki, dostum öz milli ruhuna uyğun danışır. Bütün bunlara rəğmən, biz yetmiş il ərzində bir hökumətdə yaşasaq da, mentalitet və adət- ənənə nöqteyi-nəzərdən tam fərqliydiik?! Bütün bu və ya digər səbəblər, bizi vətənimizə dönməyə məcbur edirdi.

Mənzillərin bölüşdürülməsi üçün yeni iclas çağıran həmkarlar təşkilatı veriləcək mənzillərin müzakirəsinə başladı. Yenə 3 otaq davası və üç otaqlı mənzillərin güzəştlilərə verilməməsi, lazımsız çıxışlar məni çox mütəəsir etdi. Iclasda qalxıb bir otaqlı mənzilə razılıq verməyim isə, zalı ayağa qaldırdı! Mənzil komissiyası:- sənə 1 otaq verərik bir şərtlə ki, 3 otaqlı mənzil növbəsindən çıxarılacaqsan? Mən əlbəttə ki, razılıq verdim. Mənim əsas məqsədim bir otağı alıb, yaşadığım iki otaqla bərabər,üç otağa dəyişmək idi.Düzdür bu uzun bir proses idi,ancaq neyləməli idim?Dağılmaqda olan ölkə,müəssisələrin bərbad hala düşməsi, məni tələsik qərar verməyə məcbur etmişdi. Sonradan düzgün olaraq, bir otaqlıya razılıq verməyimi, həyatın özü də təsdiq etmiş oldu. Bu nöqteyi nəzərdən mən bir otaqlı mənzilin orderini alıb, üç otaqlı mənzil axtarmağa başladım və istədiyimə də nail oldum.

Belə bir vaxtda zavodumuzun son məhsulu satılmadığından iki-üç ayla məvaciblər verilmirdi. Şəraitli mənzil alanlar işdən çıxır, onlara məğbul olan işlərə gedirdilər. Bir çoxları isə xarici ölkələrə Çexoslovakiyaya, Macarıstana ən çox Polşaya alverə gedirdilər.

Tanışlarımdan alverə gedib-gələnlər yaxşı qazançın olduğunu söyləyirdilər. Məni zavodda heç nə saxlamırdı. Ərizə yazıb işdən çıxdım. Polşaya getməyin sərfəli olduğunu bildiyimdən, xarici pasport alıb, orada satılası mümkün olanları əldə edib, turist olaraq Polşaya getdim. Varşavada vaxtilə kolonda işləyən və məni yaxşı tanıyan Denislə görüşdük. O satmaq üçün əldə etdiyi əşyaları küçədə fərdi qaydada satdığını,- dedi. Mən ona, vasitəçi alıcıların olduğunu, malı alıb, nəğd ödəniş edənlərin mövcudluğunu bildirdim. Denis mənim təklifimi qəbul etdi. Denis sakit təbiətli, ziyalı bir insan idi. Onunla münasibət qurmağımı vacib bilirdim. Biz Polşadan geri qayıdarkən, firma açıb, istehsalatla məşğul olmağı qərarlaşdırdıq.

Mən Polşada olduğum müddət evdə anlaşılmamazlıq baş vermişdi. Mən evi dəyişmək üçün qəzetdə elan verdiyim halda, bu elanı oxuyan, Bakıdan Rusiyaya gələn hərbiçi ailəsi, mənzilimi zəbt etmiş və çıxmaq istəməmişdi. Rusiya mənim vətənimdir, qalacam bu evdə, siz isə Bakıdakı mənim evimə gedib, yaşayın?!- demişdilər. Yodaşımın qətiyyətli hərəkəti və qonşulrın köməyi nəticəsində "inadkar qonaqlar" mənzildən çıxarılmışdılar.Mənzili zəbt etməyin mənasız olduğunu dərk edən,müsafirlər, Bakıdakı evlərinin ünvanını qoyub getmişdilər. Bakıda yaşayan qardaşıma zəng edib, göstərilmiş ünvandakı mənzili dəqiqləşdirməyi xahiş etmişdim. Qardaşım hərbicinin mənzilinin, Müdafiə Nazirliyinin balansında olduğunu və dəyişməyə icazəsi

olmadığını qeyd etmişdi. Xaricə alverə getməyi təxirə salıb, mənzilin dəyişdirilməsi işi ilə məşğul olmağa başladım. Eyni zamanda, biz Denislə qərarlaşdıq ki, mən Polşaya gedəndə o firmaya nəzarət etsin, o gedəndə isə mən. Artıq elə vəziyyət yaranmışdı ki, Moskvadakı biznes vasitəçiləri əvvəlcədən pul ödəyərək, istehsal etdiyimiz taxtaları özləri aparırdılar. İcarəyə götürdüyümüz obyekt geniş və işlətdiyimiz taxta kəsici dəzgahımız yaxşı vəziyyətdə idi. Müqavilə bağladığımız meşə sənaye təsərrüfatı firmamızı vaxtı-vaxtında dəyirmi ağaclarla təmin edirdi. Əslində mənim vətənə köçəcəyim bir ərəfədə, firma açmağımın məqsədi var idi. Azərbaycana köçəndən sonra, Azərbaycan -Rusiya birgə müəssisəsi açmaq, gələcək biznes fəaliyyətimi genişləndirmək idi. Bu barədə biz Denislə razılığa gəlmişdik. Denisin israr etməsinə baxmayaraq, biz onu müdir kimi fəlauyyətini nəzərə aldıq və firmanın gəliri əlli-əlliyə nəzərə alındı. Biznes işimiz yaxşı qurulduğundan, Polşaya da turist kimi gedir və onlarla da iş birliyi qurmağa çalışırdıq. Bütün bunlara baxmayaraq, Polşa iş adamları Rusiyadan daha çox, Qərb ölkələrinə, ən çox Almaniyaya üstünlük verirdilər. Bütün bunlarla bərabər Moskva ilə işimiz getdikcə genişlənirdi. Moskva alıcıları əvvəlcədən sifarişlərini verib, ödəmə apardıqlarından işimiz çoxalmışdı. Bu arada mən, qardaşıma dəyişdiyim üç otaqlı mənzilin ölçülərini, texniki imkanlarını və şəraitini yazıb göndərmişdim. Qardaçım isə Bakıda mənzilimizi dəyişmək üçün, axtarışa başlamışdı. İmkan tapdığım qədər Polşaya getməli orudum. Yoldaşım məndən tez-tez narahat olurdu.

Bel ağrısını əsas gətirərək, ehtiyyatlı olmağı çağırırdı. Ancaq çox hörmət bəslədiyim Oleq Xudyakoviçin mənə təyin etdiyi “korset”in çox köməyi omuşdu və mən bel ağrılarını hiss etmirdim.

Bir müddətdən sonra qardaşım Bakıda rus ailəsinin mənzil dəyişməsini mənə bildirmiş və evə baxış keçirmək üçün Bakıya gəlməyimi məsləhət görmüşdü. Qardaşımın təsəvvür yaratdığı mənzil bizim xoşumuza gəldiyindən və Bakıda yaşayan rus ailəsinin qətiyyətli danışığından, yoldaşımla qəti qərara gəldik ki, may ayı uşaqlarla bərabər birdəfəlik Bakıya gedəcəyik. Yoldaşım işdən azad olundu, uşaqlara aid olan bütün sənədlər toplandı və vətənə getmək üçün, bileti təyyarəyə yox, qatara alınması məsləhət olundu. Yoldaşımı başa düşürdüm, təyyarə vağzalında qızımın itmək məsələsi onu bərk qorxutmuşdu. Qatarın Çeçenistan ərazisindən keçdiyini və orada sabitliyin olmadığını bilsəm də, hər halda qatarla getməyi üstünlük verdim. Beləliklə, biz hamımız vətənə yola düşdük. Bütün yolu rahat keçib, Qroznı şəhərində ciddi yoxlamalarla qarşılaşdıq. Şalvar qayışındakı tapança silahlı, mülki geyimdə olanlar yoxlama zamanı bir neçə nəfəri sərnişin qatarından düşməyə məcbur etmişdilər. Mən ehtiyat edərək, “kupe”nin qapısını kəsdirdim. Qapıya yaxınlaşan mülki şəxs müsəlman salamı verib, uşaqlarımı göstərərək:- bunlar sənin komandandı?-dedi. Mən başımla təsdiq işarəsi verdim. Heç bir yoxlama etməyən mülki Çeçen şəxs:- qapını bağlayın və narahat olmayın?- deyərək, digər kupeyə keçdi. Bu yoxlanışa qədər, vaqon bələdçisi

“panika” edərək sərnişinləri elə qorxutmuşdu ki, hamı həyəcan keçirməyə məcbur olmuşdu. Qapını bağlayıb, rahat nəfəs aldıq.

Vaqonda olarkən, xəyalım məni tələbəlik illərinə apardı. Biz tələbələrə Sovet ədəbiyyatı fənnindən dərs verən, ustad şairimiz Bəxtiyar Vahabzadə vaxtilə baş vermiş bir əhvalatı bizə danışdı. Belə ki, xarici ölkələrin birində ədəbiyyat xadimlərinin simpoziumunda iştirak edərkən, Türk əsilli ingilis ədəbiyyat xadimi, sovet qururluşunu bəyəndiyini bildirmiş və sabitliyin olduğunu,işsizliyin olmadığını təhsilin, tibbi xidmətin pulsuz olduğunu qeyd edərək,xaosa əsaslanan kapitalizmdən uzaq olmağımıza görə bizə xoşbəxtçilik arzulamışdı. Həmin ədəbiyyat xadiminin təbirincə desək:- Allah sizə kapitalizmin üzünü göstərməsin!- demişdi. Bütün bunları xatırlayaraq, kapitalizmin üzünü görməkdən çox, onun xaos, dəhşətlər, ölümlər gətirdiyini görürdük. Əlbəttə mən Sovet quruluşunun çürüməyinin əsas səbəblərini,iqtisadiyyatın humanitar elm ixtisasına malik olanlar tərəfindən idarə olunmasında,ölkənin kənd təssərüfatı,ağır sənayesi əvəzinə,sənayenin hərbiləşdirilməsində,hərbi sursatların satışından madiyyatın formalaşmasında,kustar sənaye sahəsinin saxlanmasında və dünyaya inteqrasiya olunmamasında görürdüm. “Koloniya” səviyyəsində olan Sovet quruluşu,onun ideologiyası, bizə uyğurduğu pul dövriyyəsi olmayan, göydən zənbillə göndəriləcək kommunizm bolluğundan danışmaqla, beynimizi çürük cəmiyyət qururluşu ilə doldururdu! Ölkədə iqtisadiyyat,

ağlasığmaz ideologiyaya uyğun inkişaf etdirilirdi. İdarə olunmayan,inkişaf etməyən hər hansı iqtisadi quruluşa malik olan cəmiyyət, mütləq xaosla nəticələnirdi. Necə ki biz vaqonda oturub, bir neçə vaxtdan sonra nə olacağını bilmirdik, ancaq yaradanımıza pənah deyib1- yol gedirdik. Bakıda qardaşım həyat yoldaşı ilə bizi qarşılayıb, evə apardı. Dincimizi aldıqdan sonra dəyişdiriləcək mənzilimizə baxış keçirmək üçün yola düşdük. Mənzili dəyişənlər yaşlı rus qadın, oğlu, gəlini və 8-ci sinfi bitirən qız nəvəsi idi. Mən Rusiyadakı mənzilimizin sənədlərini notariusdan keçirərək, surətlərini Bakıdakı dəyişəcəyimiz mənzilin sahiblərinə verdim. Danışıqlarımıza görə, ailəm Bakıdakı dyişəcəyimiz evin bir otağında qalacaqdı. Yoldaşıma lazım olan məsləhətləri verib, bir neçə gündən sonra Rusiyaya qayıtmalı oldum. Bir müddət keçəndən sonar, yaşlı rus qadın qız nəvəsi ilə rusiyadakı mənzilimizdə qərarlaşdılar. Şəhər icra hakimiyyəti nəzdində fəaliyyət göstərən mənzil dəyişmə şöbəsində, çoxdankı tanışım olan Tamara Oveçkina işləyirdi. Mən Tamaraya vaxtilə Azərbaycan haqqında, onun qonaqpərvərliyindən, adət-ənənələrindən çox danışmışdım. O, mənimlə razılaşmışdı. Azərbaycanda olduğu müddətdə,Tamara xanım qonaqpərvərliyi öz gözləri ilə görmüşdü və ona görə də mənim Bakıya mənzil dəyişməyim, onu qıcıqlandırmamışdı. Mən mənzillərin dəyişməsi haqında sənədləri Tamaraya təqdim edərkən, sənədləri diqqətlə nəzərdən keçirən xanım, Bakıdakı mənzildə, qeydiyyatda bir şəxsin olduğunu vurğuladı.

Sonradan məlum oldu ki, bu şəxs yaşlı qadının oğul nəvəsidir və Stavropolda yaşayır. Tamara xanımın dediyinə görə, Bakıdakı mənzildə qeydiyyatda qala-qala, yaşlı qadının nəvəsi,mənzil dəyişdirildikdən sonra peyda olub, ev üçün iddia qaldıra bilrədi.Məlumatlanan Zoya xanım telefon edib,oğluna Stavropola getməyi və notarius tərəfindən təsdiq olunmuş, mənzilə iddia etməmək haqqındakı ərizəsini tezliklə gətirməyini xahiş etmişdi. İddia etməmək ərizəsi gəldikdən sonar, sənədləri Tamara xanıma təqdim edən Zoya xanım, mənim yoxluğumdan istifadə edərək, Azərbayacnlıların "yaxşı" millət olmadıqlarını Tamaraya bildirmişdi. Tamara xanım bu barədə mənə bildirdikdən sonar, mən Zoya xanımı bu hərəkətinə görə danlayıb, ondan yediyi çörəyi ayaqlamamağı tələb etdim. Sonra Zoyaya bildirdim ki, sən Azərbaycan haqqında lazım olmayan mənfiliyi bir də danışmalı olsan, biz səninlə ev dəyişməyəcəyik! Geri qayıtmağı ayıb bilən Zoya, hönkür-hönkür ağlayaraq, bir daha belə hərəkətlərə yol verməyəcəyini bildirdi.

Yoldaşım artıq uşaqların baxçaya getdiyini, oğlumun isə 1-ci sinifə daxil olduğunu felefon danışığı zamanı mənə bildirdi. Oğlumun 1-ci sinifə qədəm qoymaq tədbirində iştirak edə bilmədiyimə görə, özümü mütəəssir hiss edirdim. Lazım olacaq ev əşyalarını konteynerə yükləyib, Bakıya ünvanladım. Artıq soyuqlar başlamışdı, fikirləşirdim ki, bir avtomobil alıb Bakıya qayıtmaq pis olmazdı. Mənim sürücülük vəsiqəm olsa da, maşını idarə etmək işində "naşı" idim. Əlavə, Polşadan maşını gətirmək

özü də, tək başına mümkün olmazdı. Qərara aldım ki, özümə yaxın bildiyim, vaxtı ilə nəqliyyata rəhbərlik etdiyim nəqliyyat sexindəki sürücülərdən, iki nəfərlə Polşaya gedib, qayıdanda avtomobil gətirim. Mən sürücü tanışlrımla, Valeri və Aleksandrla Polşanın Lodz şəhərinə getməli olduq. Çünki maşın satışı bazarı Lodz şəhərində yerləşirdi. Maşın bazarını çox gəzdikdən sonra, Almaniyaya eksport olunmuş mənim "06" jiquli bildiyim, sonradan "03" olduğunu dəqiqləşdirdiyim maşını ciddi yoxlamadan keçirib,almağı nəzərdə tutduq. Əlbəttə ki, təcrübəli sürücülər, Aleksandr və Valeri tərəfindən yoxlama aparılırdı. Nəhayət maşını bəyənməli oldum. Sürücü dostlar bir çox xarici maşınları da nəzərdən keçirsələr də,xarici maşınlarla yol gedə bilməyəcəyimizi deyirdilər. Texniki sazlıq baxımından ən yaxşısı "03" jiquli idi. Maşını bizə satan Polyak bizi qonaq aparmışdı. Onun şəhərdə kooperativ mənzilindən başqa, şəhərədən kənarda dövlət tərəfindən kredit verilməklə, böyük bir təsərrüfat sahəsi də var idi. Burada Polyakın villası, mersedes maşını, traktoru, kombaynı və digər kənd təsərrüfatı texnikaları gözə dəyirdi. Polyak bizi başa salırdı ki, hər iki kilometrdən bir, belə təsərrüfatlar mövcuddur. Hər təsərrüfat müxtəlif kənd yəsərrüfatı məhsulları istehsal edirdilər ki, bu da bazarda rəqabətə gətirib çıxarmırdı. Düzünü deyim ki, mən ilk dəfə Varşavada olanda, mersedeslərin taksi kimi istifadə olunduğunu görüb şoka düşmüşdüm. Belə mersedesləri Rusiyada tək –tük hallarda görmək olardı,üstəlik sahibləri bu mersedeslərə necə qulluq edərdilər?! Mersedesin

tozlanan hissəsini, cib dəsmalını isladaraq, silərdilər! Mən Polşada iqtisadi inkişafın yüksək olduğunu görürdüm, bizdə də belə bir inkişafın olacağına inanmaq istəyirdim.

Lodz şəhərində maşın bazarına qayıdıb, sənədləşdirməyə başladıq. Birdən iki ayağı yox, əlil arabasında oturmuş, qalın qaraqaşlı, müəyyən qədər saçları ağarmış, codlaşmış üzünü tük basmış bir yekəpərin, əl açaraq dilənçilik etdiyini gördüm. Bu adam mənə çox tanış gəlirdi. Birdən ildırım sürəti ilə beynimə gələn ilk fikir, bəli:- bu o, adamdır? Vicdansız, yekəpər! Yataqxanada harınlıq edən, Həsrətin ölümünə bais olan yekəpər! Gözlərim məni aldatmırdı. Yaxınlaşıb:- sən Azərbaycanlısan?- deyə soruşdum. O mənə diqqətlə xeyli baxdı, ancaq tanımadı.Yekə başını tərpədərək könülsüz cavab verdi:- Azərbaycanlıyam! Mən ona:- Bakıda harada yaşamısan? O, dərindən bir nəfəs alıb, yenə könülsüz bildirdi ki, yataqxanada yaşayırdım!Ancaq,yataqxanada yaşasam da,o vaxtlar mənim çox yaxşı vaxtlarım idi.Beləcə yekəpər harınlaşmış keçmişindən danışmağa başladı. Qılıncımın dalı da kəsirdi, qabağı da! Hər adam mənimlə bacarmazdı, nə istəsəydim onu da edərdim! Sonralar, bu zəhrimar müharibə başladı, qaldım əlacsız? Bu yekə canımı güllə qabağına qoymayacaqdım ki? Atam, anam yaşlı idilər, mən də evin ərköyün oğlu? Atam dedi ki:- ayə, dünya böyükdür, biraz da pulum var, götür hara istəyirsən ora da get? Yoxsa kimin nə vecinədir ki, sənə güllə dəyəcək, ya yox! Xalam oğlu var idi, Nadir atama üz tutub dedi ki:- ay əmi, hamı getsə istədiyi yerə, bəs bu

torpağı kim qoruyacaq? Xalaoğlu maşallah fil boydadır, mənim kimi çəlimsiz deyil ki? Sonralar, Nadir könüllü müharibəyə getmiş və həlak olmuşdu! Bütün bunları görüb, atamın pulunu götürərək, Rusiyaya gəldim. Biraz bazarda meyvə satdım, sonra avtomobil gətirənlərlə tanış oldum. Bir neçə dəfə indi olduğumuz maşın bazarına gəlib maşın alaraq, sata bildik. Biraz pullanandan sonar, tək başına maşın alıb satmağı qərar verdim. Sonra da qəzaya düşdüm. İki ayağım bərk əzildiyindən, hər iki ayağımı dizdən kəsdilər və indi gördüyün haldayam! Bu maşın bazarında hamı məni tanıyır. Üçdən-beşdən çörək pulu verirlər, bir təhər dolanıram! Həmsöhbətçimin sözünü kəsib:- bəs niyə, Azərbaycana getmirsən, axı sənə pul verən ata-ana yolunu gözləyir? O isə, mən Rusiyada olanda rayonumuzu ermənilər almışdılar,indi bilmirəm ki, atam- anam harda məskunlaşıblar? Həm də ki, özümün getmək fikrim yoxdur. Yenə də əvvəlki formam, görkəmim olsaydı, dərd yarı idi. Bu çolaq ayağımla hara gedim? Burda canım çıxana qədər yaşayacağam! Bəs, heç olmasa burda yaşamağa evin varmı?- deyə soruşdum. Yox hardandır, rəhmətliyin oğlu! Maşın bazarında "Pan" qadaşımız bir budka verib orada gecələyirəm. Mən ona irad tutaraq bildirdim ki, əgər müharibəyə getsəydin, vətəni qorusaydın bəlkə də bu vəziyyətə düşməzdin! O isə, nə danışırsan, nə qədər tanıdığım adamlar var hamısı həlak olublar? İndi də müharibə gedir,nə var Azərbaycanda? Şükür ki, yenə ayaqlarım olmasa da, canım sağdır! Bir tikə çörəyi ağzıma apara bilirəm. Mən

belə başa düşdüm ki, bu adam heç dəyişməyib! Cavan vaxtı canı var idi, alçaqlıq edirdi, indi də yarımçıq canı var, şərəfsizlik edir! Üzümü şərəfsizə tutub:- vətəni, torpağı sevən oğullarımız müharibəyə gedib,qəhramanlıqla həlak olublar, şəhidlik zirvəsinə çatıblar, öz şərəfli ölümləri ilə elinə, obasına xoşbəxtlik gətiriblər! Sən isə şərəfsizlikdən başqa, heçnə qazanmırsan! Sənin yaşlı atan-anan, doğulduğun el-oba, şərəfsizliyinlə fəxr etməlidirlər?! Həmkarım dinlənmədi. Mən onun biraz yaşlanmış sifətində, cavan vaxtlarındakı alçaq cizgiləri aydınlıqla gördüm . Codlaşmış sifətini mənə tuşlayaraq:- mənə çox ağıl vermə?Biraz tündləşib, özündən danış, de görüm müharibəyə gedib, şəhidlik zirvəsinə niyə, qalxmamısan? Mən ona qəzəblə baxıb, sənin yataqxanada qaldığın zamandakı, yekə canını yaradanımız mənə versəydi, əlbəttə ağlımı almamaq şərtilə, görərdin analar necə oğul doğub?! Sən indi yəqin ki, məni tanıdın! Ayağında bir balaca ºiºi olan Həsrətə, "topal" deyirdin, yadındadırmı? Sonra da siz alçaqların pul verib,ələ aldığınız milis nəfərinin ucbatından, ölümü vicdansız insanlardan üstün tutan Həsrəti, yadından çıxarmamısan ki?! Həsrətin şərəfli ölümü, sənin kimi nahaqdan iki ayağını itirib, şərəfsiz yaşayandan min dəfə mənim üçün önəmlidir?! Həsrətə etdiyin zülmün qarşılığını bundan sonra da görəcəksən! Axı, hələ əllərin var və sənin şərəfsizliyini bilməyən insanların, mərhəmətlə verdiyi "dilənçi" pulu ala bilirsən! Özün deməli, ağzına çörək apara bilirsən, yekə çuval qarnını tox

edə bilirsən, inşallah axırını gözlə! Mən nifrətlə yekəpərdən ayrılıb, maşını sənədləşdirərək, yoldaşlarımla bərabər Rusiyaya yola düşdüm.

Valeri və Aleksandr bir birini əvəzləyərək, yol qaydalarını pozmamağa çalışsalar da, Polşa ərazisində cərimə ödəməli olduq. Belorusiya ərazisini arxada qoyub, Rusiya ərazisində "reket"lərlə qarşılaşdıq. "Yolun haqqı"nı verməyi tələb etdilər! Verməsəydik ciddi narahatçılıq yaradardıq və bu da bizə baha başa gələrdi. "Reket"lərlə məsələni həll edib, sağ salamat evimizə çatdıq. Polşadan qayıtdıqdan sonra Denislə görüşüb Bakıya qayıdacağımı söylədim. Ortaqlığımızı qoruyub saxlamaq şərti ilə, daha geniş iş birliyi yaratmağı nəzərə aldıq. Mən Denislə xudahafizləşib, işində möhkəm olmağı arzuladım. O isə bildirdi ki, mənim sənə ümidim var, biz səninlə daha çox işlər görə biləcəyik. Qardaşımla telefon əlaqəsi saxlayıb avtomobil aldığımı bildirdim. Qardaşım isə, mənsiz Bakıya gəlmə, yol çox şuluqdur başına iş gələ bilər!- dedi. Əslində Moskvadan, Bakıya gedəcəyimiz yol"reket"lərin himayəsində idi. Qarşımıza çıxacaq "reket"lər, Çeçenistan, Dağıstan ərazisində olan qeyri sabitlik, bizi pis vəziyyətə sala bilərdi. Ailəm isə maşını satıb, qayıtmağı məsləhət bilsələr də mən buna getmədim. Qardaşım Rusiyaya yanıma gələndən sonra, soyuq qarlı havada, Bakıya yola düşdük. Kənd və şəhərləri arxada qoyaraq, Tambov şəhərinə çatdıq. Tambov şəhərində qarşılaşdığımız həmyerlilərimiz, yəni yük avtomobillərinin sürücüləri yollarda "reket"lərin

soyğunçuluğundan danışır, bizə Komsomolsk-Koçubəy ərazisi ilə getməyi məsləhət görürdülər. Stavropol yolunda ermənilərin Azərbaycanlılara qarşı qeyri insani hərəkətlərindən danışan həmyerlilərimizin məsləhəti ilə biz Komsomol-Koçubəy yolu ilə getməyi məsləhət bildik. Koçubəyə çatmamış, kələ-kötür yolla sürətlə gedən maşınımız, yola basdırılmış armatura dəyərək, maşının ön hissəsini və sağ təkər qanadını əzmiş, demək olar ki, təkərin hərəkətini məhdudlaşdırmışdı. Üç nəfər, dəmir alətlə təkərə dirənən ön dəmiri biraz aralaya bildik. Məcbur olub şox kiçicik sürətlə qaranlıq, insan səsi eşidilməyən, lal- kar yolla yola düşdük. Səhəri Koçubəyə çatıb maşın ustası taparaq, maşına əl gəsdirməyi xahiş etdik. Öz həyətində dəmirçilik edən üsta maşına baxıb, dəmir ipliyi dirəyə bağlaraq, sürətlə maşını geri çəkməklə, təkərə söykənmiş ön dəmiri bir balaca düzəldib, bizə, yaxşı yol!- dedi. Qırx- əlli sürətlə bütün günü yol gedib gecə yarısı Maxaçkalaya, şəhərin girəcəyindəki posta çatdıq. Bizi yoxladıqdan sonra, gecə vaxtı, özü də nasaz maşınla yol getməyin  çox narahat olacağını bildirdilər. Postun ətrafında qoyulmuş blok- betonların arxasında maşını saxlamağı və maşından düşməməyi təklif etdilər. Biz uzun yol gəldiyimizdən, aclıqdan əziyyət çəkirdik. Mulis nəfərinin birindən yeməkxana və ərzaq mağazasını soruşduq. Milis nəfəri əslən Dərbənddən və Azərbaycanlı idi. Bərk acımısız?- deyə soruşdu. Mən bəli,- dedim. O bir az dözün, mən yemək təşkil edərəm, burada nə yeməkxana nə də ərzaq mağazası var deyə, bildirdi.

Şəhərdə yeməkxana var, ancaq şəhərə getmək olmaz,sizdən başqa  burada,digər gecələyənlər var. Yaxınlıqdakı posta basqın olub, deyə çox adam burada gecələyir, ehtiyatlı olmaq lazımdır! Birazdan Azərbaycanlı, Davud adlı milis qardaşımız bizi yeməyə dəvət etdi. Yeməyimizi başa vurmağa az qalmış ratsiya ilə xəbər verildi ki, basqınçı naməlumlar bizim gecələmək istədiyimiz posta yaxınlaşırlar. Davud bizə maşından çölə çıxmamağı tapşırıb, avtomatını sazlayaraq, blok- betonda atəş vəziyyətində dayandı. Maşınımızın sürücüsü Valeri gəldiyinə görə çox peşmançılıq keçirirdi. Tez-tez gileylənirdi ki, niyə tanımadığı yerə səfərə çıxıb?! Qardaşım da, çox bikef görsənirdi. Mən hər ikisi qarşısında özümü günahkar hiss edirdim. Alah eləməmiş kiməsə bir şey olsa idi, ömrüm böyü özümü bağışlamazdım. Lənət şərə deyib, gözləməli olduq. Sonradan məlum oldu ki, basqınçılar zərərsizləşdirilb. Davud bizə yaxınlaşaraq, gedin maşınınızda rahat yatın və özü də postuna qayıtdı. Sabahı Davud postunu təhvil verib, bizimlə xudahafizləşdi. Biz şəhərə daxil olub, ilk növbədə maşına texniki baxış keçirtdik. Bizə yaxınlaşan bir nəfər dolu bədənli, hündürboylu birisi maşını nəzərədən keçirdikdkdən sonra, satsanız alaram?- dedi. Qardaşım razı olmadı, bir heylə yolu gətirib,niyə satmalıyıq,yox satmaq istəmirik?! Ustalardan biri qardaşıma yaxınlaşaraq, pıçıltıyla qulağına ağıllı hərəkət etdin,- dedi. Pulu burada verib, maşını sənədləşdirib, sonra pulu tutub zorla alırlar! Ondan sonra kimə

istəyirsən, get şikayət et! Mən məəttəl qalmışdım. Dərəbəylik Dağıstanı bürümüşdü. Maşının texniki təmiri çox vaxt aparırdı. Artıq üç gün idi ki, yol gəlirdik. Fikirləşirdim ki, evdə bizdən bərk nigarandırlar. Tezcəsinə və gözəyarı təmir etdirib, yola düşdük.

Dərbəndi keçib yaxşı nahar edərək, yolumuzu davam etdirdik. Kəndlərin birində milis nəfəri maşınımızı saxlayıb, bizdən benzin xahiş etdi. Biz müəyyən qədər benzin verib yola düşmək istərkən, əlində verdiyimiz benzin qabı ilə üstümüzə gələn idman geyimli cavan qabağımızı kəsib, benzini maşına tökərək, yandıracağını! - dedi. Bu anda milis nəfəri maşınla yoxa çıxdı və bir neçə dəqiqə keçməmiş idman paltarlı bir neçə cavan oğlanlar maşını əhatə edib, bizdən haqq verməyi tələb etdilər. Məni acı bir təbəssüm bürüdü. Bu nədi, hörmətə zülmətdi?! Qardaşım isə milis formasında olanın bizdən benzin almğını, bizə qurulmuş "tələ" olduğunu bildirdi. Biz kəndə girəndə yol göstəricisi olan lövhədə Məhərrəm kənd yazılmışdı. Valeri maşından düşüb, mən sürücüyəm, maşının sahibi isə Karibdi!- deyə, məni göstərdi. Birazdan kənd camaatı da, axışıb maşında nə varsa götürməyə başladılar. Polşadan uşaqlar üçün aldığım bütün paltarları və digər əşyaları bir göz qırpımında əldə edən kənd camaatı, yoxa çıxdılar. Maşındakı malları aparanlar içərisində, xanımların da olması məni çox təsirləndirdi. Sonra benzin qabını əlində sxalayan "qlavar": -indi mənm pulumu verin!- dedi. Cibimizdəki pulları göstərib, olanımız budur!- dedik. O

amiranə şəkildə bildirdi ki:- maşını axtarıb, pul tapsam, benzini töküb maşını yandırcam! Mən qəzəbli şəkildə onun üstünə cumub, tapsan yandırarsan, tapmasan mən səni öldürcəm!- dedim. Elə hirslənmişdim ki, gözüm ayağımın altını belə seçmirdi. Alçağa bax haa, deyə düşündüm! O birdən qardaşımın qolundakı saatı görüb, yaxşı saatı verin, çıxın gedin?- dedi. Sonra isə bldirdi ki, əgər gömrükdə bizim, sizi soyduğumuzu desəniz, sizi geri qayrtaracaqlar. Sonra mən sizi maşınla birlikdə yandıracağam! Mən qardaşımın saatını alıb, öz saatımı verdim. "Qlavar" məndən saatı alıb, mənə tərs- tərs baxaraq uzaqlaşdı. Demək olardı ki, nə var idisə, hamısını götürmüşdülər. Daha aparılası, heçnə yox idi, bircə qəzalı maşınımzdan başqa?! Yolda, Valeri:- bu nə yerdi, bu nə ölkədir?- deyib, dodağının altında "dikari"!-deyə pıçıldadı.Mən Valeriyə gülümsənmiş halda"dikar"dediyin yerin, ölkənin Rusiya "ərazisi" olduğunu bildirdim. Sərhədə yaxınlaşdıqda, lap hündürlükdə Azərbaycan bayrağının dalğalandığını gördük. Sevincimizdən gözlərimiz yaşardı. Hər iki gömrükdə bizi yoxlayıb, buraxdılar. Dağıstan gömrüyündə bir nəfər Dağıstanlı gömrükçü:- sizə yolda dəyən olmayıb ki?- deyə soruşdu. Bu sorğu məni bərk qıcıqlandırdı. Hansı yolda?- deyə soruşdum. O mənə ciddi nəzərlə baxıb, məsələn yaxınlıqdakı kənddə, sizi incidməyiblər ki?Çox qəzəblə ona baxaraq, onun üzünün surətini çəkirmiş kimi, yox!- dedim. Daxilən, kaş sizinlə görüşərdim nə zamansa!Bakıya gəlib çatanda gözümüzə

inanmadıq. Hamı bizi görüb, sevindiyindən göz yaşlarını silirdi. Dörd günə yol gəldiyimizdən qorxuya düşən ailəm və qohumlar bizim başımıza hadisə gəldiyini güman edərək, sıxıntı keçirib, hətta bizim itməyimiz haqqında elan verməyə hazırlaşdıqlarını bildirdilər.Biz qohumlara təsəlli verib, hər şeyin yaxşı olduğunu bildirərək, qonağımız Valerini bir gün gəzdirib Bakıyla tanış etdik. Könlünü aldıq və zəhmət haqqını verərək, bilet alıb, Rusiyaya yola saldıq.

Bakı müharibə şəraitundə olduğu üçün, çox hüzünlü görünürdü. İlk dəydiyim müqəddəs yer, Şəhidlər xiyabanı idi. Bütün millət Şəhidlər xiyabanına tökülmüşdü. Şəhidlərini ağlayan kim, dizinə, sinəsinə döyən kim! Yeni qəbirlər qazılmışdı. Təzəcə həlak olmuş əsgərləri dəfn edəcəydilər. Mən əsgərlərimizin çiyinlərində şəhidlərin cənazəsini görəndə, halım çox pisləşmişdi. Dəfn mərasimi zamanı insanların baxışında nələri müşahidə etmək mümkün idi, ilahi! Üzlərində hüzn, gözlərində yaş, düyünləşmiş yumruqlar, düşmənlərə olan qəzəb, vətənə, torpağa olan məhəbbət, daha nələr, nələr ,nələr... Dəfn olunan əsgərlərimizə, qəriblikdə yaşamış bir insan kimi, göz yaşı tökdüm! Şəhidlik zirvəsinə qalxanlara rəhmət dedim! Sağ qalan yadigarlarına, allahdan səbr dilədim! Bütün bu faciələrin insan xislətində yurdlaşmış, nadanlıqdan irəli gəldiyini fikrirləşdim. Məgər, insanları nadanların ixtira etdiyi silahlarla məhv etməyə göndərən, torpaq, var-dövlət eşqiylə yaşayan,  qəsbkarlar nadan deyillərmi?! Məgər,

dövlət marağı adı ilə, öz  insanlarını ölümə göndərənlər nadan deyillərmi?! Məgər, bu dağıdıcı silahları ixtira edənlər, milyonlarla insanların ölümünə səbəb olduqları halda, nadanlar deyillərmi?! Niyə, bu dağıdıcı silahları yaradanlar, milyonların ölümünə bais olacaqlarını bilə-bilə, ağıllı başlarını işə salıb, bir insanı yaratmağı düşünmürlər?! Niyə, bu ağıllı "bəşər"lər dünyanı bürümüş, ölümcül – vəba, taun, xərçəng və spid xəstəliklərinə qarşı mübarizə aparmağı qarşılarına məqsəd qoymurlar?! Niyə, bu "bəşər"lər təbiət dağıntılarının səbəblərini tapıb, bəşəriyyəti təbiət "xaosundan" xilas etmirlər?! Niyə, bu "bəşər" adamlar əl-ələ verib, yer kürəsinin əşrəfi olan insanları qorumaq üçün siyasi,iqtisadi, mədəni əlaqələr yaratmağı düşünmürlər? Sizcə yuxarıda sadaladığım bu "bəşər"ləri necə adlandırmaq olar? Nadanlar!!!

Bu fikirlərlə, birtəhər evə qyıtdım. Yoldaşım kefsizliyimi görüb, harada olduğumu soruşdu.Şəhidlər xiyabanında olduğumu yoldaşıma bildirib, düşüncələrə daldım.

Vətən çox bərbad hala düşmüşdü. Əzizləyərək saxladığım kommunist partiya biletini götürüb, diqqətlə baxdım. Bir vaxtlar min bir əziyyətlə sıralarına daxil olub, fəxrlə aldığım və üryimin başında gəzdirdiyim, partiya biletimə xitabən:- daha səni yadigar saxlaya bilməyəcəyəm?!- deyə, pıçıldadım. Gözümün qabağından kino lenti kimi keçən, partiyaya daxil olmaq üçün aldığım zəmanətlər, partiya sıralarındakı əziyyətli fəaliyyətlərim,

partiyada quracağım karyera fikirlərimi xəyalımdan keçirib, qəti qərara gəldim. Şəhidlər Xiyabanında göz yaşı tökənlər, torpağını qoruyaraq şəhidlik zirvəsinə qalxanlar, evlərini,torpağını düşmən tapdağı altında qoyaraq küçələrə tökülənlər, çadırlarda, vaqonlarda yaşamağa məcbur olanlar, sənə inanmışdılar, Kommunist Partiyası!!! Sənə rəhbərlik edən, millətçi- şovinistlər minlərcə insanların ölümünə səsbəb olmuş, milyonları aç-susuz küçələrə atmışdı, ey, mənim ümid bəslədiyim Kommunist Partuyası!!! Əlvida! Partiya biletimdən şəklimi qoparb, bileti yandırdım. Partiya bileti yandıqca, sanki ölümlərə, dilənçiliyə, əzablara səbəb olan, mənfur düşmən partiyasından, qisas alırdım! Bu partiyanın əli ilə, qanlı 20 Yanvar hadisəsi törədilmişdi! Yüzlərcə insanlarımız azadlıq yolunda canlarından keçmişdilər! Beləcə yandırdığım və külə çevirdiyim partiya biletini qəlbimdən silərək, bir dəfəlik dəfn etdim!

Bakıda vəziyyət çox dəhşətli idi. Şəhər, öz torpaqlarından didərgin düşən məcburi köçkünlərlə, bir tikə çörək qazanmaq üçün Bakıya təşrif gətirən əyalət adamları ilə dolmuşdu. Adicə şörək növbəsinə saatlarca dayanıb, bir- birinə hörmət etmədən, güc göstərən kişilər, səs-küylü qadınlar, insanda acı bir təəssüf hiisi doğururdu?!

Anam və kiçik qardaşım qəsəbədə idilər. Qardaşaımla maşına texniki baxış keçirib, anamı gətirməyə getdik. Yolda hərbiçilərin postlarında, hərbi vəziyyətlə maraqlanırdıq. Hərbiçilər əlbəttə tez gedib qayıtmağı məsləhət görürdülər. Əks təqdirdə, acgöz torpar qəsbkarlarının yolu tutmaq

ehtimalı var idi. Biz qəsəbəyə gedib, anamı evdə tapmadıq. Qonşumuz anamın dayım gildə ola biləcəyini, qardaşımın isə işdə olduğunu bildirirdilər. Biz anamızı dayım gilin həyət evinin bağında tapdıq. Birdən, nərilti ilə çox yuxardan gedən ölümcül raket silahı bizi vahimələndirdi. Anam isə, ədə fikir vermə bala, gülə-gülə,- dedi. Heç elə bil silah atılmamışdı. Anamın sakitcə halı, bizi heyrətə saldı!Yenə anam:- fikir verməyin, gündə bir neçə dəfə belə atəş olur, daha öyrəşmişik?! Biz evə qayıtdıq. Anam nahar yeməyi hazırladı. Birazdan kiçik qardaşım da işdən gəldi. Xoş -beşdən sonar, bəlkə hamılıqca gedək Bakıya?- deyə, təklif etdim. Qardaşım işini ata bilməyəcəyini deyib, sonra gülə-gülə:- nə olub belə, millət işləyir, yaşayır, bizdə Bakıya gedək deyirsiniz?! Belə razılığa gəldik ki, lazım olan sənədləri və qiymətli, əziz nə varsa götürüb, anamla Bakıya gedək. Biz anamla bərabər Bakıya qayıtdıq.

Bir neçə gündən sonra ev əşyalarımı yola saldığım konteyneri aldıq. Konteyneri alan zaman işçilərdən biri, Rusiyadan gəlişimizi bilib, gülərək dedi ki:- bir konteyner də təzədən Rusiyaya sifariş verməyiniz məsləhətdi? Mən ona, nə üçün Rusiyaya konteyner sifariş etməliyəm?- dedim. İşçi qardaş yenə gülə-gülə:- Rusiyadan gələnlər burada yaşaya bilmirlər, burada qayda-qanun qalmayıb, sizlər Rusiyadan gələnlər isə, qanunpərəstsiniz, ona görə də, duruş gətirə bilməyib geri qayıdırsınız?! Sonra sözünə davam edən işçi,hırıldayaraq:- nə var, bu dərəbəyliyə gəlmisiniz? Gül kimi Rusiyanı qoyb, gəlməyin mənası varmı? Mən orta yaşlı kişini başdan ayağa süzüb, bizim

vətəndən qaçmağa vicdanımız yol verməz!-dedim Birdəki tüpürüb, sonradan yalamaq bizlik deyil! Mənim konteyner sifariş verməyimi ağlına belə gətirmə! Əslində, orta yaşlı kişinin dediyində müəyyən qədər həqiqət var idi. Axşamlar televizorda cəbhədəki vəziyyəti izləmək istəyəndə, milli məclisdə ağız deyəni,qulaq eşitməyən deputatların şousuna, məmurların ölkəni idarə edə bilməmək səriştəsinə, bəzən mürəkkəb şəraitdən baş çıxara bilməyərək, qulaq ardını qaşımalarına, yeri gələndə bir-birlərini günahlandıraraq, təhqir belə etmələrinə dözmək olmurdu! Göz görə-görə ölkə dağılır, torpqlar əldən gedir, yoxsulluq ölkəni bürüyürdü. Adi qaydaları pozaraq, siqaretlərini tüstülədə-tüstülədə, milyonların seyr etdiyi və ümid bəslədiyi məmurların, ölkəni bataqlıqdan çıxara bilmədiklərini gördükdə, onların əvəzinə, məndə vicdan ağrısı yaranırdı! Axı, mən də bu millətin oğlu idim? Ancaq, nə edə bilrədim, kimiydi məndən məsləhət görən? Kimydi, mənə öz sözümü deməyə imkan verən? Mən müraciət etdiyim halda, mənə, əşi hardan gəlmisən ora da qayıt, sənsiz bizim o qədər dərdimiz var ki? Mən bu dərdlərin şəxsi dərd və ya vətən dərdi olduğunu heç vaxt dərk edə bilmirdim. Dağılan bir məmləkətdə, iş belə tapıb, işçi qüvvəni satmaqla, bir tikə çörək qazanıb dolanmaq mümkün deyildi! Uşaqlarım yaxşı yaşamağa öyrəndiklərindən, mən bu yaşayışı təmin edə bildmirdim! Üzlərinə baxanda bacarıqsızlıq təri məni bürüyürdü! Belə bir dözümsüz vəziyyətdə çıxış yolumu, ancaq qazanc üçün, yenidən Rusiyaya qayıtmağımda görürdüm.

Rusiaydakı ortaq iş dostum, Denisə zəng edib Azərbaycanda vəziyyətin "kritik" olduğunu, birgə müəssisə yaratmağın, hələlik mümkün olmadığını bildirmək istədim. Telefonu Denis yox, həyat yoldaşı Nina qaldırıb, Denisin firmanı işlədə bilmədiyini,içkiyə qurşandığını qeyd edərək, heç olmasa firmanı yoluna qoymaq üçün,gəlməyimi məndən xahiş etdi. Mən yoldaşımla məsləhətləşib, hələ subay olan qaynımı evə nəzər etməyə tapşıraraq, Rusiyaya yola düşdüm. Şəhərimizə çatanda elə bir dəyişikliyin olmadığını gördüm. Denislə əlaqə saxlayıb görüşüdük. Çox təsirləndim. İnsan qısa müddətdə necə dəyişilərmiş? Arıq, gözləri batmış, üz-gözü vaxtsız qırışlarla örtülmüş Denis tamam dəyişilərək, illərin xəstəsinə oxşayan bir insana çevrilmişdi. Mühasibatlıqda da işlər qaydasında deyildi. Çox işləmək, dağılmış əlaqələri bərpa etmək, yeni satış bazarı müəyyən etmək lazım idi. Mən ailəmin yaşayışını az da olsa təmin etmək üçün, vaxtilə bağlanmış müqaviləyə əsasən, mənə çatası olan maliyyədən mümkün olduğu qədərini əldə edib, evə göndərə bildim. İşləri demək olar ki, yenidən qurmalı oldum. Hər bir- iki aydan  Bakıya uçub, həm ölkənin vəziyyəti ilə maraqlanır, həm də ailəmə maddi kömək edirdim.  Rusiayada işlər qaydasına düşmüşdü. Denis içkiyə qurşandığından yoldaşı Nina müdir vəzifəsini icra edirdi. İşlərin yaxşı getməsindən istifadə edərək,  tez-tez Bakıya gəlməli olurdum. Çünki Bakıda vəziyyt daha da gərginləşmiş, qəsəbəmiz ermənilər tərəfindən işğal edilmiş, qohumlarımız köçkün vəziyyətinə düşmüşdülər. Çox

acınacaqlı yaşam yaranmışdı! Belə bir acınacaqlı vaxtda, İranlı "işbazlar" Azərbaycana müxtəlif məhsullar gətirib satır və onlara kömək edənlərin əmək haqqını cuzi məvaciblə ödəyir, demək olar ki, qul kimi işlədirdilər. Ucuz işçi qüvvəsindən istifadə edən "işbazlar" varlanırdılar. Sonralar yaranmış ağır maddi durumdan qohumlara kömək etmək üçün müəyyən qədər maliyyə ayırıb, iranlı "işbaz"lardan bir yük maşını kartof alaraq, qardaşıma və dayıma bu işə dəvət edib:- ailənizi saxlamaq üçün gəliri sizin, ancaq maya dəyərini qaytarın!- dedim. Lakin mən dediyimi, əldə edə bilmədim. Bu da mənə aydın idi. Ehtiycda olan insan, bəzən özünü təmin etməyi nəzərə alıb, öhdəçiliyi yaddan çıxarır?

Ölkədə iqtisadi durum çox ağır vəziyyətdə olaraq qalırdı. Hərbu geyimdə olan əlillərin isə, ürəkyandırıcı şəraitdə dolanışıqlarını təmin etmələri, məni daxilən incidirdi. Rusiyadakı firmanın işi ilə əlaədar olaraq, tez-tez qayıtmalı olurdum.Bəzən Rusiayadakı işimlə bağlı əyalətlərə də, məzuniyyətə getməli olurdum. Belə məzuniyyətlərin birində, yeni il ərəfəsində, başıma elə bil ağlasığmaz hadisə gəldi ki, evə bildirmədən bir neçə ay yataq xəstəsi oldum.

Meşə sənaye təsərrüfatının köhnədən tanıdığım müdiri Lebedevlə, söhbət əsnasında dəyirmi ağacların üçüz satış qiyməti,məni maraqlandırdı. Nağıllarda olduğu kimi altdan geyinib, üstən qıfıllanaraq, Lebedevin yaşadığı və fəaliyyət göstərdiyi bölgəyə getməli oldum. Lebedevlə hal-əhval tutduqdan sonar, əvvəlki danışığımıza rəğmən, məni

bir nəfərlə meşəçinin yanına getməyi və dəyirmi ağacları yerindəcə qəbul etməyi məsləhət gördü. Mənimlə meşəçi Nikifirovun yanına gedəcək adam- sifətcə qıpqırmızı, şərab iyi verən bir işçi idi. Paltarım çox qalın olduğundan, soyuğun təsirini hiss etmirdim. Rusiyanın meşə təbiəti elə idi ki, hər tərəfdən ağaclarla əhatə olunan və ağacların üstünə yığılan lopa qar, adama istilik verirdi. Şaxtanın soyuqluğu ancaq meşəsiz, külək şəraitində hiss olunurdu. Hər tərəf ağappaq qarla örtülü olduğundan, məni müşahidə edən şəxsin yolu belə asnlıqla müəyyən etməsi, məndə təəccüb yaradırdı! Əgər mənim kimi "naşı" yolunu azsa, çətin ki lazım olduğu obyekti tapa bilər?- deyə, düşünürdüm. Uzaqdan traktor səsi və onun gur işığı görsənirdi. Biz Nikifirovla görüşüb, bizə ayrılmış dəyirmi ağaclara nəzər saldıq. Sonra Nikifirov, məni müşahidə edən şəxslə ikilikdə danışıb, mənə üzürxahlıq edərək, bir saata qayıdacağını bildirib,mənə bələdçilik edən şəxslə, birlikdə getdilər. Mən dəyirmi ağaclara baxaraq,rəngli təbaşirlə qeydiyyat aparırdım. Başım bərk qarışıq olduğundan, havanın necə qaralmasını hiss etməmişdim. Artıq xeyli vaxt keçməsinə baxmayaraq, Nikifirovun insi-cinsi görsənmirdi. Düşündüm ki, indi harda olsa gəlmiş olar. Xeyli vaxt keçməsinə baxmayaraq, gələn yox idi! Nikifirovun geri qayıtmaması məndə təşviş yatardı. Traktorun içində oturmaq mümkün deyildi. Həm soyuq idi, həm də belə bir məkanda canvara, ayıya yem olmaq olardı? Biraz da hava qaraldıqdan sonra, qorxu xofu məni bürüdü! Özümü "zibilxana" itlərindən möcüzə nəticəsində qurtarandan

sonar, bir daha səhvə yol verməyəcəyimə söz versəm də, yenə səhv buraxmışdım. Deyən lazım idi ki:- ay tünbətün, sənin Rusiya meşəsində, ins-cins olmayan bir yerdə, ayı-canavar qorxusu ilə əsməyin vacib idimi?! Xeyli fikirləşdikdən sonar, yüz fikiri düşnməkdənsə, bir ağıllı qərar qəbul etməyi lazım bildim. Yuxarı ağaclara baxıb hündür bir yolka ağacını seçdim. İndi bu ağaca dırmanmaq lazım idi. Ağac qarla örtülü olsa da, qarın altı buz bağlamışdı. Yaxınlıqdakı baltanı götürüb, səs salmadan buz və ağacda ayaq yeri edərək, yuxarı qalxıb budağın birində oturdum. Daha rahat olsun deyə, üç budaq tapmalı, oturaraq, ayağıma dayaq etməliydim. Hava qaranlıq olsa da, budaqlar qarla örtüldüyündən, budaqları aydın seçmək olurdu. Nəhayət baltanın köməkliyi ilə, yaxşı bir budaq tapıb, rahatlandım. Belimdəki enli zabit qayışını açaraq, özümü ağacın gövdəsinə bağladım. Ayaqlarıma dayaq olacaq budaqlar, tam mənə rahatlıq verirdi.

Yadıma kəndimiz düşdü. Belə budaqlarda gözətçi çardağı qurar, bağımızı donuz və porsuqdan qoruyardıq. İndi mən fikirləşdirdim ki,canavar ağaca çıxa bilməz! Ayı allah eləməmiş buyursa, baltaya ümidimi bağlayırdım! Sakitcə budaqda oturub, Nikifirovun məni nə səbəbdən tək qoymsını götür -qoy edirdim. Artıq xeyli vaxt keçmişdi, gecə yarısı olar?- deyə fikirləşdim. Mən bu halımla barışmayıb sabahın açılmasını və Nikifirovun mənə nə cavab verəcəyini düşünürdüm. Hava getdikcə soyuyur, nəfəs aldıqca, buğumdakı buzlu sır-sıra əriyib, dodaqlarımı isladılrdı. Kipriklərim isə şaxtadan bir-birinə yapışmışdı,

gözümü aça bilmirdim. Beləcə acı bir yuxu, məni şirin yuxu görməyə apardı.

Kəndimizin iki xırmanı var idi. Birində əvvəlcədən dediyim kimi, sünbülləri əzmək üçün vəl sürərdik, digər xırmanda isə bayramları qeyd edərdik. Atam novruz bayramı olduğundan qəsəbədəki işindən icazə alıb, kəndə gəlmişdi. Ayağmdakı çarığımı görüb, mənə bir səndəl ayaqqabı alacağını,-dedi.Adətən bayramlarda imkanı olanlar,dəridən toxunulmuş çarıx geyərdilər.Ancaq,mənim ayağımda rezin çarıq olardı?Dəri çarıq geyməyi, başqa uşaqlar kimi mən də arzulayardım!İndi, atamin səndəl alması,mənim üçün ikiqat sevinc idi.Mən atamla bərabər,kəndin ortasında,aralıq deyilən yerdə yerləşən,dükana getdik.Atam satıcı Emran kişiyə müraciətlə:- Gərək Novruz bayramında oğlumun təzə ayaqqabısı olsun!- deyə, güldü. Yadıma düşdü ki, indi qızlar-gəlinlər, cavanlar yığışıb yallı gedir, bayram biş-düşü edirlər. Atamın aldığı səndəl ayağıma böyük olduğundan, səndəlin ön hissəsinə, içəridən kağız qoyub, səndəli zülmlə ayağıma geydirdi. Dükanda vur-tut bir səndəl var idi. Səndəlimi geyib dükandan qurtularaq, birbaşa xırmana qaçdım. Bayrama tez getmək istəyirdim ki, hamı mənim təzə səndəlimi görsün! Yolun birində ayağım daşa ilişdu, üzü üstə yerə yıxılıb sifətimi yaraladım. Mən səndələ baxaraq, ağlayırdım! Atam gəlib məni qaldıraraq, yaxşı kişisən axı, həm də təzə ayaqqabın var, ağlama?- dedi. Xırmana çatıb oğlan, qız və gəlinlərin yallı getdiklərini gördüm. Tonqalın közü üstündə buğlanan düyü və ət biş-

düşüsünün iyisi, adamı iştaha gətirirdi. Kənarda durub, ərlik qızların rəqsinə baxaraq, ağzımın suyunu axıdırdım! Mənə yaxınlaşan Sultan dayı:- niyə öysəl olmuş dana kimi ağzının susyunu axıdırsan? Ala bu qabırğa ətini gəmir, qızlarla da əl tut, oyna!- deyə, atama göz vurdu. Mən qızlarla oynayırdım. Atam isə əlindəki iki çubuqla nağaranı döyəcləyərək, "essa" deyib, rəqs edirdi. Anamın biləklərini oynadaraq, süzməyi isə mənə xoşbəxtlik anlarını yaşadırdı. Balaca qardaşım isə bir ayağını atıb- tutaraq, elə bil mahir rəqqasları yamsılamaq istəyirdi. Ah, necə biz xoşbəxik!- deyə duyğulanırdım. Birdən, Karib deyə, qulağıma səs gəlməyə başladı. Mən yuxudan ayılmaq istəmirdim! Axı, xırmandakı bayram şənliyindən necə ayrıla bilərdim?! Hələ göz oxşayan səmənilən, yallı gedən qızları, necə tərk etmək olardı?! Bir neçə dəfə Kaariib,Kaariib qışqırığından sonra, şirin yuxudan ayılmış kimi, gözümü açmağa çalışdım, ancaq mümkün olmadı! Kipriklərim gözlərimi açmağa imkan vermirdi,sanki kirpiklərimi bir-birlərinə yapışdırmışdılar?!Qurumağa meylli olan əlimdən, əlcəyi güc- bəla ilə çıxardaraq, mümkün olduğu qədər üz-gözümü ovxalamağa başladım. Sifətimdə bir istilik hiss etdim. Yenidən uzun bir Kaarriibb, səsini eşitdim. Xırıltılı bir səslə, mən buradayam!- deyə bildim. Haradasan,Kaariibb? Mənim əzizim, səsini bir də çıxart, yalvarıram, Kaariibb! İndi mən, şirin yuxudan sonra, harada olduğumu dərk etdim və var gücümlə:- mən buradayam, ağacdayam?- deyə, tərpənti etməyə çalışdım. Mənim az- çox tərpənti etməyim ağacın yarpağına hopmuş təzə qar toplusunu

aşağı tökdüyündən, Nikifirov və digərləri mənim hansı ağacda olmağımı, onlara müyyən etməyə imkan vermişdi. Bədənim və ayaqlarım qıc olmuşdu, tərpənə bilmirdim. Bərk donduğumu hiss etdim. Sübh səhər olar?- deyə fikirləşdim. Birdən traktorun ön təmizləyici hissəsinin, ağacların budaqlarını sındıraraq, mənə yaxınlaşmasını bir təhər aydin etdim. Ön təmizləyici hissəni güc- bəla ilə aydınlaşdırmağa çalışsam da, huşumu itirmiş oldum! Sonradan gözümü isti bir evdə, soyunulmuş və həkimlərin ətrafında gördüm. Bax, görürsünüz?- ağ xalatlı həkim dilləndi, Karib yaşadı! Biz iynə, dava dərman etdik.İndi yaxşı yedirdin, içirdin özünə gəlsin! Lebedev və Nikifirov yanımda idilər. Lebedev baş verən hadisəyə təssüf etdiyini bildirdi. Nikifirov isə gözü yaşlı məndən üzr istəyərək, bağışlanmağını xahiş edirdi. Əgər sizə bir şey olsa idi, mən heç vaxt özümü bağışlamazdım? Sonra da əlindəki arağı yerə çırpıb, dünən sənin yanından qyıtdıqdan sonara, zəhrimar içkiyə qurşanıb, yuxulayaraq, qalmışam? Mən güc-bəla ilə onu sakit edərək, gecə ağacda ən xoşbəxt anlarımı yaşadığımı, şirin yuxu gördüyümü ona bildirərək, yuxumu yarımçıq etdiyinə görə, onu tənqid etdim. Birazdan Lebedev məni maşınla xəstəxanaya aparacağını bildirdi.

Şəhərdəki mərkəzi xəstəxanada müalicə almağa başladım. Məni yoluxmağa gələn Ninaya bəzi işgüzar məsləhətlər verib, arxayınlaşdım. Lebedev firmanın lazım olan dəyirmi ağaclarla təmin etmişdi. Ayaqlarım hərəkət edə bilmədiyindən, çarpayıda uzanılası halda, dava-

dərman qəbul edirdim. Hətta, əlil arabasına belə oturmağa,fiziki imkan yox idi! Əzələlərim şaxta vurduğundan, qıc olmuşdu. Ayağımı düz uzada bilmirdim.

Mənim bu halım, hələ yeniyetmə ikən, elektrik cərəyanı vurduğu anları xatırladırdı. Belə ki, ali məktəbə qəbul imtahanlarına hazırlaşdığım illəri, kirayə qaldığım evin istilik plitəsinin spiralı tez-tez qırılır, ev sahibəsi isə təmir üçün mənə müraciət edirdi. Kitab mütaliə etdiyim vaxtı, sahibə yenidən elektrik plitəsinin spiralının qırıldığını bildirdi. Mən oxuduqlarımı təkrarlaya- təkrarlaya heç bir təhlükəsizliyə baxmadan, üstündə qaynar çaydan olan, plitənin spiralını iki əlimlə tutub birləşdirmək istərkən, elektrik cərəyanı məni vurdu. Əlimi plitədən çəkə bilmirdim! Qışqırıb kömək istəsəm də, dilimin geri yığıldığını hiss edirdim. Ev sahibəsi qışqıraraq, köməyə qonşuları çağırırdı. Gözümün qarşısında tabut və içərisində özümün olduğunu kino lenti kimi gördüm. Qəfildən gözüm, plitənin elektrik cərəyanı şnurunun qoşulu olduğuna sataşdı, ağzımı şunura yaxınlaşdıraraq, dişlərimlə özümə tərəf çəkdim. Gözümü o vaxt açdım ki, mənim ayaq və əllərimi bərk-bərk silkələyirlər. Qonşular ayıldığımı görüb, sevinirdilər! Hərə bir tərəfdən:-ona su verin!- belə etsək yaxşı olar?- kimi məsləhətlər söyləyirdilər.Özümə gələndən sonra, ayaq üstə dura bilmədim, əzələlərim bərk ağrıyırdı, elə bil döyüb, dəmirə çevirmişdilər?! Yaxşı ki, imtahana bir həftə var idi. Çox maraqlısı isə bu idi ki, plitədəki qaynar çaydan ev sahibəsinin üstünə tökülüb, yanıqlar əmələ gətirmişdi.

Sonralar bəzi əzələ ağrılarına baxmayaraq, az-çox sağlamlığımı əldə edib, imtahana getməli oldum. Bütün bu olmuşları xatırlayaraq, sağalacağıma ümid bəsləyirdim! Ancaq yenə də fikir məni götürmüşdü ki, xəstəliyim uzun müddət çəksə və Bakıya gedə bilməsəm, evdəkilər nigaran qalacaqlar. Maliyyə cəhətdən evə kömək etməkdən rahat idim. Nina poçt vasitəsi ilə evə pul göndərəcəkdi. Həkimlər, tibb bacıları mənə ürək-dirək verir, tezliklə sağalacağımı bildirirdilər. Yeni il bayramına bir neçə gün qalmışdı. Yolkalar çoxdan bəzənmişdi. Şaxta baba da, həkimlərdən biri seçilmişdi.Şampan, tort və digər şirniyyatlar həm tibb nümayəndələri tərəfindən, həm özlərini yaxşı hiss edən xəstələr tərəfindən təşkil olunmuşdu. Xəstəxana Volqa çayı sahilində olduğundan, Volqa çayında buz çimərlik yaradılmış və yarışların keçiriləcəyi vurğulanırdı.

Ümumiyyətlə yeni il bayramını ruslar çox yaxşı keçirməyi sevirdilər. Buz yarışlarını yaxından izləyim deyə, çarpayımı pəncərəyə yaxın yerə çəkmişdilər. Yeni il təamlarını dadan tibb işçiləri və xəstələr səbirsizliklə yeni ilə keçid vaxtını gözləyərək, şadyanalıqla qeyd edirdilər. Müxtəlif rəqslər, məzəli mahnlar, teatr səhnələri bir-birini əvəz edirdi. Əlbəttə ki,çox sevdiyim romanslar, Lyudmila Zıkinanın ifasında məni xəyala aparırdı! Gözümün qarşısında yay vaxtları canlanırdı!Sanki, taxıl zəmiləri sünbüllərinin, beryoza ağacı yarpaqlarının bir-birinə dəyərək, cingiltili səs çıxarmasını, romansa musiqi ahəngi verən,təbiət musiqisi hesab edirdim! Sakit və səssiz axan,

nəhəng Volqa çayının aramsız axaraq, göz oxşamasını isə musiqiyə çalarlar verən, nəqarətə oxşadırdım. Həmişə romansı rus musiqisinin, muğamatı kimi başa düşürdüm. Tələbə vaxtı ən çox sevdiyim xanəndə Səxavət Məmmədov idi.Onun oxuduğu muğamlar, hay-haray edən dağ çayının, şırıltılı zümzüməsinə, dağlardan zəngülə vuraraq axan şəlalənin, qoymayın:- apardı, sellər Saranı?- harayına öxşadırdım! İnsanların yaratdığı musiqilərlə,təbiətin ecazkar musiqiləri həmahənglik təşkil edəndə, duyğularım riqqətə gəlirdi!

Volqa çayındakı buz yarışları bir anlığa məni xəyyallardan, reallığa apardı. Şaxtalı bir vaxtda, buzlu suya baş vurub üzənlər, sudan çıxaraq dərindən nəfəs alıb, qəhrəmanlıq göstərirmiş kimi özlərini təqdim edirdilər. Hələ arıq, çılpaq insanların vedrə dolu suyu başına töküb, hayqırmaları, insanlara əzimli, dözümlü olmağın əsil nümunəsi idi. Bütün bu səhnələr məni duyğulandıraraq, yeni misraların yaranmasına səbəb olurdu:

Büsbütün ağaclar qar libasında,
Yeni il də, bəzəklər kabusunda,
Şampan, şam, şirniyyat, el qaydasında,
Nağıldır, Qəribə deyir:- salamlar,
Qəriblikdə, ey odlanıb yananlar?!
Şaxta, hər tərəf qar, dümdüz ağappaq,
Buzlu çayda çimir insanlar çılpaq,
Volqa buz, ov üçün balığı tapmaq,
Nağıldır, Qəribə deyir:- salamlar,
Qəriblikdə, ey odlanıb yananlar?!

Eh, qəriblik adı qədər ağırdır,
Elə sıxır, sənə vətəni çağırdır,
Qəribin göz yaşı, vallah nağıldır,
Bu nağıl, sizlərə deyir:- salamlar,
Qəriblikdə, ey odlanıb yananlar?!

Bir neçə günlük müalicədən sonra nəhayət əlillik arabasına oturub, heç olmasa həyətə çıxaraq, palatanın dava-dərman iyisindən, az da olsa qurtula bildim. Şaxtanın təsiri hiss olunsa da, yenicə boylanan günəşin isti şüaları altında, qarın ağ örpəyi əriyir, qış nağıından oyanmağa başlayan yaz torpağı isə, cik-crik edərək, özlərinə yem axtaran çöl quşlarını salamyayırdı! Damdan sallanan buz sırsıraları əriyərək, damcıları ilə buz bağlamış qarda, kiçik gölməçələr yaradırdı. Günəşin isti şuasi, şaxtalı havada adamın gözünü qamaşdıraraq,bədənində bir istilik yaradırdı. Təbiətin bu möcüzəsi məni oturduğum əlil arabasına dirsəkləyib,xəyallara dalmağa məcbur edirdi.Bu xəyallar isə məni keçmişə aparar, mənim əhvali ruhiyyəmi dəyişdirər və duyğulandırardı.

Kəndimizn arxasında,çox uzaqda, şiş qayalıqlar həmişə, hətta yay vaxtı belə qarla örtülü olardı. Uşaq vaxtı babamı tez-tez sorğu- sual edərdim. Belə sorğulardan biri də, həmin şiş qayaların qar örpəyi ilə örtülməsi olardı. Babam deyərdi ki, o şiş qayalıqlara, hələ insan ayağı dəyməyib? Sonra da gülərək, mənə müraciətlə deyərdi ki:- sənin nəyinə lazımdı bu qarla örtülmüş şiş qayalar? Məgər kəndimizdə olan təbiət gözəllikləri sənə maraqlı deyil? Bu qədr gözəl bulaqlarımız, təbiətə yaraşıq verən yaşıl

meşələrimiz, səni niyə maraqlandırmır? Mən təkrar babamı suala tutanda, babam deyərdi ki, inşallah böyüyrəsən, alim olarsan, o zaman o qarlı şiş qayların sirlərini öyrənərsən?! Bütün bnlara baxmayaraq, mən o qarlı şiş qayaların təsirindən qurtara bilmədiyimi duyar və şiş qaya sirlərini aça bilmədiyimə görə təəssüf hissi keçirərdim. Kəndimizi heç vaxt yaddan çıxara bilmirdim. Kəndimizin işğalı, qəsbkarlar tərəfindən torpağımızın tutulması, həmişə məni narahat edir və bədbinləşdiridi. Təbiətin bu gözəl mənzərəsinin məhv edilməsinə, tarixi yerlərin talanına, hətta əzizlərimizin dilsiz-ağızsız qəbir daşlarının dağıdılmasına dözə bilmirdim. Beləcə xəstəxanada yatdığım vaxtlarda, şirin yuxularımın birində, gözləmədiyim halda, babam məni sorğu- suala tutdu. Moskvada vəziyyət necədir, ay bala? Mən Moskva yaxınlığında frislərə qarşı vuruşarkən, şaxtadan çox adam donub ölürdü. Hətta frislərin donmuş meyidləri o qədər çox olurdu ki, saymaqla qurtarmaq olmurdu. İndi mən sənin üçün çox narahatam, şaxtadan özünü qoru! Sonra da ay bala, kəndimiz üçün çox narahatam, mən uzaq səfərdəyəm, kəndə gedə bilmirəm?! Kəndimiz sizə əmanətdir, yaddan çıxartmayın? Səhəri yuxudan ayılıb, yuxumu xatırlayaraq, çoxdan dünyasını dəyişən babama müraciətlə, yeni misralarımı həsr etdim:

Mis gölünün şəlaləsi,
"Vən" bulağın buzxanəsi,
Tərnəvidin, tər nanəsi,
Çıxmır yadımdan, ay baba?

Salmanın o tay nərəsi,
Gülənbərin qəh-qəh səsi,
Yunus atın kişnərtəsi,
Çıxmır yadımdan, ay baba?
Şamlıların buğ burmağı,
Ağaların "toy" qurmağı,
İrafığın "şax" durmağı,
Çıxmır yadımdan, ay baba?
Qar örpəkli şiş qayalar,
Yallı gedən gəlin, baylar,
Mənzərəli, sirli yaylar,
Çıxmır yadımdan, ay baba?

Müalicəm öz müsbət nəticəsini verirdi. Əsanın köməyi ilə yavaş- yavaş gəzib, yerişimə nəzarət edirdim. Bir neçə müddətdən sonra həkimim müalicəyə son qoyub, məni xəstəxana həyatından xilas etdi. İşimə qayıdıb iş prosesini normal getdiyini görərək, özmü lap yaxşı hiss etdim. Artıq, vətənimizdə şərşənbə bayramlarının qeyd edilmə vaxtı idi. Düşünürdüm ki, növruz bayramını vətəndə, evdə qeyd edərəm?

Bəzi hazırlıqlar edib, martın əvvəllərində Bakıya gəlməli oldum. Hava limanından düşəndə, Bakının isti və küləkli havası, şaxtalı havalardan sonra mənə ləzzət etdi. Uşaqlarım, anam sevindiklərindən mənim yanımdan əl çəkmirdilər. Bəli, onlar qəribsəmişdilər! Üç ay, heç də az zaman deyildi?! Qohumlar keçmiş ağır həyatlarını qaydasına qoymaq ərəfəsində idilər. Tez-tez qonaq gedir, toylara dəvət edilirdik. Belə toyların birində, köçkün həyatı

yaşayan və mənimlə tay- tuş olan, kəndçilərimizdən birisi ilə görüşməyim, məni çox xətircəm etdi. Uşaq vaxtı bizimlə vəl sürən, palıd ağaclarını at kimi çapan kəndçimizlə, kəndimizi yada salıb, bədbinləşdik. Kəndçimiz əsil şamlı balası idi. O müəyyən yaşa çatmış, buğları isə eşmə-eşmə idi. Atasına çox oxşayırdı. Sanki, rəhmətliyi həyatda yamsılayırdı. Kəndçimiz mənim kənddən uşaqlığımdan çıxdığımı bildiyindən, kəndimizi xatırlayırsanmı?- deyə soruşdu. Gözüm yaşla doldu! Xəyalım məni kəndimizə, camaatımıza bir anlığa apardı. Mən vaxtdan istifadə edib, yerindəcə yazdığım misraları kəndçimizə təqdim etdim:

Kəndimizin mənzərəsi var idi,
Bulaqları insanlara yar idi,
Təbiəti sirrli, bir diyar idi,
A dostum, dünya da belə qalarmı?
Kəndli, kəndçisinə de:- yad olarmı?!
İnsanlar səmimi. qayğıkeş idi,
Gecəli-gündüzlü zəhmətkeş idi,
Bütün məqamlarda təəssübkeş idi,
A dostum, dünya da belə qalarmı?
Kəndli, kəndçisinə de:- yad olarmı?!
Nağıllar aləmi idi kəndimiz,
Ağsaqqal kəlamı idi kəndimiz,
Kişilik məramı idi kəndimiz,
A dostum, dünya da belə qalarmı?
Kəndli, kəndçisinə de:- yad olarmı?!
İnsanlıqda çeşmə idi camaatımız,
Buğları eşmə idi camaatımız,

Yadlara düşmən idi camaatımız,
A dostum, dünya da belə qalarmı?
Kəndli, kəndçisinə de:- yad olarmı?!

Kənçimiz məni qucaqlayıb hönkür-hönkür ağladı və dedi ki, yazdığın şeirinlə, məni kəndimizə aparıb, gətirdin! Sonra, xudahafisləşib ayrıldıq. Analı, qardaşlı, qohumlu hərdən yığışıb keçən günləri yada salardıq. Anam məni danlayırdı ki, nə görmüsən bu rusetdə, ailən, biz buradayıq,sən orada olanda, biz səndən nigaran qalırıq? Mən anamı başa düşürdüm, bəlkə də mən xəstəxanada olanda, dəfələrlə yuxusuna girmişdim! Ancaq mən neynəməliydim ki? Analar qəriblikdə olan övladlarının həsrətini çəkməyə öyrəncəkli idi? Axı nə qədər yaşlı olsam da, anam üçün, mən bala idim!

Növruz bayramını çox gözəl qeyd edib, yenidən Rusiyaya qayıtdım. Nina sağ olmuş firmamızın sükanını çox dürüst və məsuliyyətlə idarə etmişdi. Dəyirmi ağacdan hazırladığımız müxtəlif çeşidli taxtalarımız Moskvada həm satış bazarında satılır, həm də sifarişlərimiz durmadan çoxalırdı. Moskvaya gedən yük maşınlarının sürücüləri, Moskvada satış bazarında "reket" dələduzların "haqq" tələb etdiklərini bildirirdilər. Qorbaçovun "Yenidənqurma" islahatının təsiri nəticəsində, Almaniyada xidmət edən həbiçilərin, Rusiyaya qayıtmalarına və demək olar ki işsiz qalmalarına səbəb olmuşdu. Bir çox hərbi hissələrin məsul hərbiçiləri, öz xidmətlərini müxtəlif firmalara təklif edirdilər.Bu təklifdən istuifadə edən həmkar firma dostlarımız silahla yük daşıayan hərbiçilərdən, "reket"lərin

çəkindiyini deyirdilər. Bizim dövriyyəmiz çox böyük olmadığından, hərbiçilər bizimlə işləyə bilmirdilər. Mal dövriyyəsi həçminin yüksəldilməsinin texniki problemləri olduğundan, digər məhsulların satışını təşkil etməklə, dövriyyəni yüksəltmək və hərbiçilərlə iş birliyi yaratmaq olardı. Vaxtilə,Çerpovets Metallurgiya kombinatına xidməti məzuniyyətə getmiş və satış sahəsinin rəisi ilə dostluq əlaqələri yaratmışdım. Metallara satış bazarında tələbatın olduğunu bilridim. Metallurgiya kombinatının hazırki müdiri isə, keçmiş dostum, satış şöbəsinin rəisi olmuş Parfenyev idi. Beləliklə mən Çerpovets Metallurgiya kombinatına, Parvenyevin qəbuluna getməli oldum. Parfenyev məni gözlədiyimdən də artıq səmimi qarşılayıb, metal satışına olan meylimi alqışlayaraq, müqavilə bağlanmasına razılıq verdi. Beləliklə biznes fəaliyyətimizdə, metal satışı da qərarlaşdı. Hərbiçilərlə müqavilə bağlaylb, işləri qaydasına qoyduq və bununla da başağrısı yaradan "reket"lərdən canımızı qurtarmış olduq. Bu arada mənim dostum, Ninanın həyat yoldaşı Denis rəhmətə getdi. Denis, çox cavan dünyasını dəyişdi. İçkiyə aludəçilik, onda ankoloji xəstəlik yaratmış və onun ölümünə səbəb olmuşdu. Nina üçün çox çətin idi. İki məktəbli övladlarına qulluq lazım idi. Işləri elə qurmaq istəyirdim ki, Ninaya çox güc düşməsin və buna görə də, satış şöbəsinə yeni işçi götürməli olduq. O həm Ninaya kömək idi, həm də mənim Bakıya gəlməyimə şərait yaradardı.

Yay aylarında yenidən Bakıya qayıdıb, evimi təmir etməyə başladım. Uşaqların məktəb paltarlarını və

dərs ləvazimatlarını alaraq, yoluna saldım. Boş vaxtlarımda azdan-çoxdan biznes fəaliyyəti ilə məşğul olan tanışlarımla söhbətləşərək, müştərək firma yaratmaq istəyirdim. Rusiyaya tez -tez gedib, gəlmək narahatçılıq yaradırıdı. Düzünü desək, Bakıda biznes fəaliyyəti üçün münbit şərait yox idi. Əsas "işbazlar" İran və Türk nümayəndəlri idi. İranlı "işbaz"ların biznes fəaliyyəti primitiv xarakter daşıyırdı, hələ də meyvə satışı üstünlük təşkil edirdi. Beləcə Rusiya, Azərbaycan get-gəllərimin birində, qaynım vaxtilə kartof aldığım İranlının, Rusiya ilə işləmək fikrində olduğunu mənə bildirdi. Vaxtilə kartof aldığım Ağayi Haşimini xatırladım. Onun müsbət xarakterli adam olduğuna məndə inam yaranmşdı. Bu xatırlamadan sonra Ağayi Haşimi ilə görüşüb tərəflərin bir-birinə olan ticari münasibətlərini birləşdirən, müqavilə bağladıq. Mən Rusiyaya qayıtdıqdan sonra Ağayi Haşiminin məktubunu aldım. Məktubda alma meyvəsini göndərəcəyini, əvəzində isə dəyirmi ağac almaq istədiklərini bildirirdi. Cavab məktubu yazaraq, almanın bir maşından artıq olmamasını və soyuq vaxtda göndərilməməsini xahiş etdim. Çox də böyük olmayan vilayətdə bir maşın almanın satılması da, müşkül məsələ idi. Çox gözlədim, İrandan nə cavab gəldi, nə də məhsul? Açığını deyim ki, İranlıların məsuliyyətsizliyi haqqında mənə çox demişdilər və İrandan mal göndərilməsinə məndə şübhələr yaranmışdı!

Beləcə 1995-ci il may ayında Bakıda olarkən, ev telefonuma zəng edən Ağayi Haşiminin səsi və yalvarışı məni geri, Rusiyaya qayıtmağa məcbur etdi. Ağayi Haşimi

iki maşın alma göndərdiyini, özünün isə dostları ilə Moskvanın kənarında yataqxanada yer götürərək, məni gözlədiklərini bildirdi. Mən Ağayi Haşimiyə bir maşın alma tələb etdiyimi və müqaviləyə əsas olan məktubumda qeyd etdiyim halda, niyə iki maşın, özü də soyuq vaxtda yox, isti vaxtı göndərdiyini soruşdum? Haşimi məzlum-məzlum telefonda xahiş etdi ki, sənin dediklərin düzdür, ancaq indi gecdir, biz səni gözləyirik, gəlməsn elə bilki məni diri-diri öldürmüş olacaqsan?! Təyyarə ilə Moskvaya uçub, onların qaldığı yataqxananı güc-bəla ilə tapdım.Zahirı görnüşü ilə yararsız vəziyyətə düşmüş bu yataqxana, əslində yeri-yurdu olmayanlar üçün, gündəlik çarpayı verən bir qonaq evi idi. Vaxtada oturan yaşlı rus xanımdan, burada İrandan gələn qonaqların olduğunu soruşdum. Qapını döydükdə tanımadığım bir neçə saqqallı ilə qarşılaşdım. Ağayi Haşimini soruşanda, saqqallılar dik ayağa qalxıb, mənimlə salamlaşaraq, səbirsizliklə yolumu gözlədiklərini bildirdilər! İçəriyə otağa daxil olan, Ağayi Haşimi məni qucaqlayaraq salamlaşdı! Mən çalışırdım ki, susmağa üstünlük verim. Çünki tanımadığım saqqallılar yanında, Haşimini pərt etmək istəmirdim. Bu zaman Haşiminin dostlarından biri mənə üz tutaraq:- baba bəlkə, on min dollar verəsən, biz buradan Tehrana qayıdaq? Mən dözmədim, onlara, sizi tanımıram!- deyə, dilləndim. Tanıdığım ağayi Haşimidir və mən onun firması ilə müqavilə bağlamışam! Birincisi, qazanc iki firma arasında əlli-əlliyə bölünəcək, Haşimi öz əlli faizindən sizə nə verəcəksə özü bilər? İkincisi Haşimi müqavilə şərtlərinə

əməl etməyib, bir maşın əvəzinə, iki maşın meyvə göndərib! Üçüncüsü,müqaviləyə əsas olan məktubumda meyvənin qış vaxtı göndərildiyini yazmişdım,siz isə yay vaxtı göndərmisiniz? Bütün bunlardan sonra mən sizə necə on min dollar verə bilərəm? İranlı saqqallılar Azəri dilində deyil, öz dillərində Haşiminin üstünə getdilər. Aydın oldu ki, Haşimi onları aldadaraq, Rusiyaya mal gətirmələrinə nail olmuşdu. Haşimi isə bir ucdan mənə yalvararaq, dərinə getməməyi xahiş edirdi! Mən əsəblərimi cilovlya bilməyib, bayıra çıxdım. Dərindən bir nəfəs alaraq, nə edəcəyimi düşünməyə başladım! Bayırda fikirləşmək istəsəm də, xəyal məni qəsəbəmizdə baş vermiş bir hadisəyə apardı.

Qəsəbəmiz Araz çayına çox yaxın idi. Biz yeniyetmə vaxtı sərhəd qırağındakı gölməçələrə gedər, dincələr və çimərdik. Sərhədi rus hərbiciləri qoruduğundan, bizi sərhədə yaxın buraxmazdılar. Sərhədin o tərəfində yaşayanların bizim dilimizdə olan danışıqlarını aydınca eşidərdik. Bir dəfə sərhədin İranlılar yaşayan tərəfində uşaqlar çimərkən, onlardan birini Araz çayı ağuşuna alıb aparırdı. Bizim uşaqların içndə üzməyi yaxşı bacaranlar var idi. Onlar sərhədçilərə kömək üçün müraciət etsələr də, rus hərbiçiləri itlərini onlara qarşı fısqırdaraq, onları sərhəddən uzaqlaşmağa məcbur etmişdilər. Həmin oğlan uşağı dəfn olunanda, biz sərhədin bir tərəfində dayanaraq, dəfn mərasiminə baxıb, ağlayırdıq! Həmdə qəsəbədə yaşayan bir çox adamların, o tayda qohumları az deyildi? Mənim də qohumlarım o tayda yaşayırdılar. Biz illərlə bir- birimizə həsrət qalmış bir millət idik. Əgər mən

bu saqqallı İranlıları qəbul etməsəydim, sonra nə olacaqdı? İllərlə həsrət qaldığım millətimin nümayəndələrinə pislikmi etməliydim? Axı onlar ümidlə gəlmişdilər, gəldikləri Rusiyanın "qəribi" idilər. Mənim üçün asan, onlar üçün çətin olacaq, qərar qəbu edə bilməzdim! Bütün bu xəyallarla mən otağa qayıdıb, getməyimizin lazım olduğunu bildirdim. Çox sevindilər! Qatara bilet alıb, şam yeməyini təşkil etsəm də, saqqallılar əsil müsəlman olduqlarını bildirərək, xurmadan başqa heç nə yeməyəcəklərini bildirirdilər. Özləri ilə gətirdikləri xeyli xurma zənbillərini mənə göstərdilər. Onlar xurmanı çayla içib, gülə- gülə- ay baba, xurmanı ye, adama ət gətirir?- deyirdilər. Nəhayət biz şəhərimizə çatdiq.Qonaqlarımı otaqda yerləşdirib, səhər yeməyi üçün ərzaq mağazasına getdim. Saqqallılar çay və xurma, mən isə adətimiz üzrə yağ, pendir, çörək nuş etməyə başladıq.Tamahını saxlaya bilməyən,Haşimi yağ və pendir nuş etməyə başladı.Digər qonaqlarım zarafatla, Haşiminin çoxdan Bakıya gəlib iş gördüyünü və dəfələrlə namazı batil edən "kafir" olduğunu vurğuladılar. Haşimi isə eyni tərzdə, qələt namazı qılacağını bildirərək, onlara müraciətlə, görək siz nə vaxta kimi xurma yiyəcəksiniz? Vallahi bir-iki günə bunlar da namazını "batil" edib, qələt namazı qılmağa məcbur olacaqlar! Öz-özümə düşünürdüm ki, bilə- bilə namazı batil edib, qələt namazı qılmaqla "küfür"dən qurtarmaq mümüköndürmü? Ancaq mənə görə, dinə neytral münasibət bəsləyən insan, dinçi olub bilərəkdən dinə hörmətsizlik edənlərdən qat-qat üstün idi. Ağayi Haşimi öz

həmkarlarını çox gözəl tanıyırdi və ona görə də bir neçə gündən sonra digər iranlı saqqallıların da, kolbasadan tutmuş donuz salasına qədər olan təamları dadmasını görməyim,mənə heç də təəccüblü görsənmədi!Saqqallılar dadlı yeməklə təmin olunduqlarını etiraf edirdilər. İranlı həmkarlar otaqda olmadıqları günlərin birində. mən Haşiminin təkliyindən istifadə edərək, ondan niyə müqavilənin şərtlərini pozduğunu soruşdum? Haşimi yenə məzlum görkəmi alaraq, guya qazancını itirdiyini və əlacsız qalıb həmkar dostlarına müraciət etdiyini qeyd etdi. Mən isə, əgər maliyyə imkanın yox idisə, nəyə görə bir maşın alma yerinə, iki maşın alma göndərmisiniz?-deyə bildirdim. Yenə də Haşimi başladı ki, meyvəni satan sahibkar, ancaq iki maşın almanı satacağını bildirmişdi. Mən də əlacsız qalıb sənə söz verdiyimi nəzərə alaraq, iki maşın alma göndərdim. Əlbəttə Haşiminin danışığında heç bir məntiq yox idi. Çünki bu məntiq bir-birini aldadan,bazar alverçilərinin məntiqi idi. Yaradanımıza pənah apararaq malın gələcəyi vaxtı gözləməyi qərarlaşdım.

İranlı dostları şəhərlə tanış edərkən, tez- tez cavan qadınlara baxıb, dizlərinə vuraraq "ağ kələm"lərin onları bihuş etdiklərini, yarı fars, yarı azəri dilində vurğulayırdılar. Mən isə onların bu şit danışıqlarına əhəmiyyət vermirdim. Günlərin birində Haşimi bildirdi ki, onlar rus dilini bilmədiklərindən, rus qadınları ilə tanış ola bilmirlər. Haşimi məndən onları rus qadınları ilə münasibət yaratmağa xahiş etdi. Əlbəttə, mən bu barədə Ninadan xahiş etdim. Nina qonşuluqdakı kirayə qalan üç

qızı məsləhət gördü. Xanımlar hər gün qonaq gələ bilmək imkanları olduğunu bildirmişdilər.Sonradan qızlar bir dəfə gəlib, ikinci dəfə gəlməyi məğbul hesab etməmişdilər.İranlılar bu barədə mənə bildirdikdə,mənim xahişimlə Nina xanımlarla əlaqə saxlayıb, onların “qonaqlığa” gəlmədiklərinin səbəblərini soruşmuşdu. Ninanın dediyinə görə, İranlıların qızlara qarşı qeyri insani münasibəti onları qorxutmuşdu. Mən Haşimini şağırıb onu tənqid edərək, özünü və həmkarlarını kişi kimi aparmağa və Azərbaycan adına “ləkə” gətriməməyi tələb etdim!

Nəhaət bir neçə gündən sonra, iki soyuducusu olan yük maşını şəhərə gəlib çıxdı. Əvvəlcədən soyuducusu olan anbar sifariş etdiyimdən və işçi qüvvəsi ilə əmək müqaviləsi bağladığımdan narahatçılığım yox idi. Maşınlar gömrük yoxlamasından keçməli, meyvələrin fitosanitariya qaydalarına uyğunluğu yoxlanılmalı idi. Gömrükdə işləyən köhnə tanışlarımdan biri yoxlama zamanı mənə üzünü tutub, almaların kif bağlamalarını bildirdi. İyirmi kiloqram yeşikdən, iki kilo alma salamat çıxır, yerdə qalanlar isə, ya əzilmiş, ya da zədə almış alma olurdu. Gömrükcü tanışım mənə müraciətlə, bu meyvələri qəbul etmə, yoxsa, müflüs olacaqsan?-dedi. Mən gömrükçünün dediklərini nəzərə alaraq, yoxlamanın axıra qədər aparılmasını xahiş etdim. Meyvələrin yoxlanılması zamanı, bir maşının yarısından çoxu keyfiyyətsiz almalar oldu. Haşımini və həmkarlarını çağırıb, vəziyyəti onlara izah edərək, malı qəbul etməyəcəyimi bildirdim! İranlı həmkarlar arasında küskünlük, ağlaşma başladı! Ən çox narahatçılıq hissini

sürücülər keçiridilər. Əgər mən onların qaiməsinə möhür vurmasaydım, onlar İrana qayıda bilməsdilər. Haşimi isə məni tez- tez kənara çəkərək, malı qəbul etməyə xahiş edir və bildirirdi ki, hər şey sən deyən kimi olacaq? Mənim razılaşmaqdan başqa çarəm olmadı. Meyvələri boşaldan zaman, İranlı həmkarlar kiflənmiş almalara baxaraq, başlarını bulayırdılar. İşçilərə, dəqiqliklə almaları sortlara bölməyə xahiş etmişdim. Mütəxəssisin rəyinə görə, saf almaları birinci sort, zədələnmiş almalar ikinci sort, əzilmişlər isə üçüncü sort olaraq satılacaqdılar. Kif bağlanmış almalar, akt bağlanılaraq tullantıya getməli idilər. Sortlama zamanı, İranlı həmkarlarım almaların sortlarını öz xeyrlərinə dəyişməsinə, anbardar tez-tez narazılıq edirdi. Bütün maşınlar boşaldıqdan sonra, mənə yaxınlaşan İranlılar:- bəlkə bizə 7-8 min dollar verəsən, biz də yük maşınları ilə geri qayıdaq? Mən razılaşmadım! Zəhmət olmasa qalın, meyvələri satmağa kömək edin!-dedim. Necə, yəni pul ver, biz qayıdaq! Sən hələ bu almaları sat görək, bütövlükdə 7-8 min dollar çıxaracaqsanmı? Sürücülərin nəqliyyat qaiməsinə möhür vurub, gedə biləcəklərini vurğuladım. Onlar isə mənə xahişlə, biz şəhər yolunu yaxşı tanımırıq, kömək etsəniz heç olmasa şəhərdən çıxarıq. Bu dəm Haşiminin mənə yaxınlaşaraq, onları şəhərdən çıxartığın zaman, səndən pul istəyəcəklər verməʔ-deməsi nifrətimə səbəb oldu. Sonra sürücülərlə,mal göndərən həmkarlar arasında kəskin münasibətlər yarandığını gördüm. Mən anbardara sortlara bölmədə diqqətli olmağını tapşırıb, sürücüləri şəhərdən

çıxartmaq üçün maşınların birində oturdum. Sürücülərin maşınlarını şəhrdən kənara çıxardanda, onların mənlə olan söhbətləri bir çox kələklərin üstünü açmış oldu. Sürücülərin sözlərinə görə İranda meyvələr may ayına qədər anbardan boşaldılmalıdır. Ondan sonra anbarda təmir işləri gedir və yeni meyvələri qəbul edirlər. Haşimi də başda olmaqla, "işbaz" həmkarlar artıq anbarlardan çıxarılmalı olan, vaxtı keçmiş almaları çox üçüz qiymətə almışlar. Qaimədə olan qiymət isə onların özlərinnin uydurduqlaı qiymət idi. Sonra sürücülər öz günahlarını da boyunlarına almış oldular. Moskva ətrafında xanımlarla tanış olan sürücülər, yük maşınlarını meşəliyə sürdüklərini, sakitlik olsun deyə, soyuducunu söndürüb iki gün meşədə "dincəldiklərini" bildirdilər. Mən sürücüləi meyvənin xarab olmasında günahkar edərək, onları tənqid etdim. Sürücülər isə, malvuran "işbaz"ların onlara cib xərcliyi vermədiklərinə görə, onlardan qisas aldıqlarını dedilər. Sürücülərn bu hərəkəti, onların məndən cib xərcliyi istəməsinə baxmayaraq, xöşuma gəlməmişdi və mən onlara heç bir xərclik vermədim. Anbara qaydanda anbardar Marina, İranlı qonaqların bir- biri ilə kəskin danışdıqlarını,üç nəfərin bir nəfərin üstünə düşdüyünü mənə danışdı. Axşam evdə onların küskün hərəkətləri, Marinanın haqlı olduğunu göstərdi. "Dostlar" qatara bilet alıb, Moskvaya, oradan Tehrana gedəcəklərini bildirdilər. Mən onlara heç olmasa rus dilini biləniniz olsaydı, əlbəttə gedə bilərdiniz? Dil bilmədiyiniz üçün çətinliyiniz olacaq,- deyə bildirdim. İçərisində yaşlı olan birisi, mənə rus dilində sınıq-salxaq

cavab verdikdə,mənim onların qeyri səmimiliyinə şübhəm qalmadı.Oda mənə aydın oldu ki,rus dilinin bilicisi kimi özünü göstərən yaşlı iranlı,həm də bizim səmimiliyimizə “nəzarət” edirmiş.Haşiminin dediyinə görə vaxtıilə Sovet ordusunda xidmət edən bu yaşlı İranlı,guya rus dilini bildiyindən, iranlılar arasında bir növ “dilmanc” rolunu oynayırmış. Mən yaşlı iranlının rus dilini az- çox bildiyini və mənə demədiyini soruşanda, Yaşlı iranlı zarafatla, mən rus zabiti olmuşam, sənə hər şeyi deməyəcəyduim ki? Mən Haşimi ilə bərabər İranlı həmkarları yola saldım. Onlar bizim haq-hesabaımız Haşimi ilə olacaq!-deyib yola düşdülər. Ancaq, sonralar onların mənə qarşı olan alçaq münasibətləri, onların əsil simasını göstərmiş oldu.

Meyvənin tez satışını təşkil etmək üçün, öz vilayətimizn şəhərlərindən başqa. digər vilayətlərlə əlaqə saxlayıb almaların satışını təşkil etməyə başladım. Hətta, əzuilmiş, kif basmış almaları alma pürəsi hazırlamaq üçün, iaşə idarələrinə də göndərməli oldum. Vilayətlərdən gəlib 3-5 ton meyvə aparanlar növbəyə dürmüşdülar. Meyvələrin çəkilməsinə və yüklənməsinə Haşimi ilə Marina baxırdılar.

Həftə keçməmiş qonşu vilayətdə müqavilə bağlayıb anbara qayıdarkən, üstü açıq olan iki yük maşınının anbarın qarşısında dayanması diqqətimi cəlb etdi. İrəliyə yaxınlaşanda qoşa nömrələri ilə seçilən, qara rəngli “09” markalı jiqulinin və bənövşəyi rəhgli “BMV”nin qapıda dayandığını görüb, alıcıların olduğunu güman edərək, maşınlara əhəmiyyət vermədim. Anbara daxil olanda, idman cüssəli və qara eynəkli bir neçə nəfərin

anbarın həyətində var-gəl etdiklərini gördüm. Marina məni görcək almaların sahibi olaraq, məni  göstərdi. İndi başa düşdüm ki, bu idman cüssəli adamlar “reket”lərdir. Mənə yaxınlaşan “reket”lərdən milliyyətcə rus olmayanı mənimlə təklikdə, ancaq avtomobilin içində, söhbət edəcəyini bildirdi. Rus olmayan “reket” mənim onlara keyfiyyətli alma vermədiyimi  və onları aldatdıqlarlımı mən bildirib, keyfiyyərsiz almaları dəyişdirməyi və əlavə iki maşının pulu ödənilmədən,qaimə yazılmadan, almalarla yüklənməsini, amiranə şəkuildə tələb etdi! Mən göstərilən almaların sort etibarilə bizim almalar olmadığını deyib, dəyişməyəcəyimi bildirdim. Qəflətən üzümə vurulan sillədən, mənim beynim fırlandı.Bir neçə anlıq özümü idarə edə bilmədim. Vurulan sillənin səsi, hələ də qulağımdan getmirdi. Həyatımda ilk dəfə idi ki. günahsız və namərd silləsini almışdım. Özümə gələndə, rus olmayan reketin, sillə vurana daha əl qaldırmamağı işarə etməsi, məni özümdən çıxartdı. Heç cür özümü idarə edə bildmirdim. Əsəbimdən gözüm böyümüşdü. Həmişə darvzanın arxasına qapı açılmasın deyə, qoyduğum armaturu götürüb mənə sillə vuranın qoluna çırpdım. Zərbə ağır olduğundan, sillə vuranın əli yanına düşdü. Rus olmayan “reket” mənə müraciətlə, sən dəlisən, bu nə hərəkətdir, deyəsən bizi yaxşı tanımadın?- dedi. Armaturu ona silkələyib, bəs siz dəli deyilsiniz, mənim üstümə gəlirsiniz?- deyə, bağırdım. Qapını açan anbardar Marina mənim halətimi görüb, qışqıraraq “reket”ləri çölə çıxmağa tələb etdi! Marina onlara barmaq hədələyərək, əgər anbarı tərk etməsəniz,

təhlükəsizlik siqnalını hərəkətə gətirəcəm! Rus olmayan "reket" ayağa qalxıb, iki gündən sonra sənin yanına gələcəklər, sən bəzi sənədlərə qol çəkməli və maşınları meyvə ilə yükləməlisən! Əgər dediklərimi yerinə yetirməsən, köynəyinin altından çıxartdığı silahı alnıma dirəyib, səni öldürəcəm!- dedi. Mən iki günün içində hansı planlar qurub, "reket"lərdən yaxa qurtara biləcəyimi gümanlaşdıraraq, ona razılıq verdim. Rus olmayan "reket" onu da əlavə etdi ki, indi boş qayıdacaq maşınların pulunu da ödəmlisən! Başımın işarəsi ilə, razılığımı bildirdim. "Reket"lər gedəndən sonra Marina, mənə hələ anbara gəlməmişdən qabaq, "reket"lərin Haşiminin qalstukundan tutaraq boğmaq istədiklərini danışdı. Mən Haşimiyə baxanda, onun gözündən axan yaşları görüb, bura belədir?- dedim. Handan- hana özünə gələn Haşimi, baba sən bu quldurlarla necə münasibət quracaqsan, mən buna məətələm? Onlar nəmənədi, mən biləmmədim! Özümü və Haşimini sığortalayıb, gizli yolla bir dostumun evinə getdik. Yaşadığımız evə getmək, təhlükəli ola bilərdi! Səhərisi mütəşəkkil cinayətlərə qarşı mübaizə idarəsinə gedib, baş verənlər haqqında məlumat verdim. Müsətntiq diqqətlə məni dinləyib, təhlükəsizlik tədbirlərini görməyi məsləhət bildi. İki gündən sonra gələcək "reket"lərin həbs olunması üçün, xüusi dəstə yaratdı. İş yerimdəki telefonlara dinləmə aparatları qoşub, mənə silahlı sürücü təhkim etdilər. Sürücü mənim çoxdankı tanışım idi və onun belə bir məsuliyyətli orqanda işləməsi, mənim üçün çox gözlənilməz idi. Xüsusi səsyazma aparatı ilə təmin

olundum. Mənə təhkim olunmuş sürücü ilə, işimə qayıtmalı oldum. Haşimi İran vətəndaşı olduğuna görə, onun anbarda olması məsləhət görülmədi. "Reket"lərin qeyd etdikləri günü gələcəklərini sortirovka ilə məşğul olan, anbardar Marina, sürücü tərəfindən məlumatlandırılmışdı. Bir neçə vaxtdan sonra anbarın darvazası döyüldü. Darvazaya yaxınlaşan Marina, onların kim olduğunu soruşarkən,qapını açmağı əmr edənlər,darvazanı açan Marinanı kənara itələyib, anbara daxil oldular. İdman cüssəli və qara maykalı cavanların "reket" olduğuna şübhə yeri qalmadı. Gələn "reket" qonaqlar, 22-23 yaşlarında olan cavanlar idilər.Biz onları birinci dəfə idi ki, görürdük. Onlardan biri Karib olduğumu biləndən sonra yaxınlaşıb, iki gün əvvəl gələnər tərəfindən məsələni həll etmək üçün göndərildiklərini bildirdilər.Kənarda yük maşınlarının dyandıqlarını görürdüm. Dörd nəfərdən birinin əli daim cibində olduğu üçün,təhkim olunmuş sürücü onun silahlı olduğunu müəyyən etdiyindən, onu gözdən qoymurdu. Eşidirəm?- deyə mənimlə danışıq aparana müraciət etdim. O qəzetin arasında olan bir neçə doldurulmamış qaimə- fakturanı mənə göstərib, qol çəkməyi və möhür vurmağı tələb etdi! Mən ona doldurulmamış təmiz qaimə- fakturanı qəbul etməyərək, qol çəkməyəcəyimi və möhür vurmayacağımı dedim. Qəzəblənən "reket" deyəsən ağıllanmamaısan, hələ ki gec deyil, dediklərimə əməl et, yoxsa səni öldürmək problem olmayacaq!- dedi. Mən ona yaxşı, başqa nə tələbləriniz var onları da deyin görüm, gücüm çatarmı?

Məni hiyləgərcəsinə süzən “reket” məgər sən bilmirsən nə etməlisən? Mən ona bildirdim ki, iki gün əvvəl gələnlərdən birisi mənə bərk sillə vurduğundan, elə bil başım silkələnibdir, yaddaşım da çox pozulub, yadımda heçnə qalmayıb. Əslində mən onu geniş danışığa tutmaqla, həm yeni faktların olmasını, həm də kömək üçün gələcək dövlət güc qüvvələrinin “reket”ləri həbs etmələrinə vaxt qazanmaq idi. Həmsöhbətçim “reket” tələblərini mənə sadaladı:-Birinci sənədlərə qol çəkməlisən, ikinci keçən səfər gələn maşnları boş qaytardığına görə cərimə ödəməlisən, üçüncü bütün meyvələri maşına doldrmalısan! Sonra əmiranə səslə, başa düşdüymü?- deyib bildirdi ki, əgər bizim barədə qanun orqanlarına söyləmiş olsan, səni öldürməli olacam! Vaxtı uzatmaq üçün, mən “reket”ə müraciət edib:- Azərbayanlıyam, heç olmasa deyin görək necə öldürəcksinz, ölümdən qabaq,dua edim, kəlmeyi-şəhadətimi oxuyum.Mənim məsələni uzatmağıma dözməyən, iknci bir “reket” mənə yxınlaşıb, sən bizi dolamısan deyəsən, sənin bazarda alver edən həmyerlilərin bizim bir sözümüzü iki eləmir?! Sən isə həyasızlıq edirsən?- deyib tapança silahının soyuq lüləsini alnıma dirədi. İndi duanı de, ya da dediklərimizi əməl et! Mən əlimlə onun silahını kənanraşdıraraq, yaxşı indi tələblərinizi yerinə yetirərəm dedim. Güc qüvvələrinin hələ gəlmədiklərini görüb,daha vaxt qazanmaq istəyirdim. Doldurulmamış qaimə-faktura blanklarını qəbul edib, qol çəkmək istərkən,”reket”lərin sakitləşdiyini görüb, möhürümün olmadığını, möhür dalınca gedəcəyimi bildirdim. Digər,

daha cüssəli "reket" boğasımdan yapışmaq istəyərkən, əllər yuxarı, təslim olun!- deyən güc qüvvələri anbara doluşdular. Mənə təhkim olunmuş sürücü atəş açaraq, digər silahlını zərərləşdirdi. Reketlərdən bir neçəsi həbs olundu. Boyca uzun olan başqa bir "reket" 2,5 metr olan hasarı aşıb, yoxa çıxdı. Şəhəri çox yaxşı tanıdığımdan "reket"in ərzaq mağazasında gizlənəcəyini düşündüm. Qacan "reket"dən başqa yük maşınının sürücüləri də, həbs edilmişdi. Mən güc qüvvələrinə qaçan "reket"in harada gizlənəcəyini təqribi söylədim. Şəhəri yaxı tanıdığımı onlara bildirdim. İki güc qüvvəsi nümayəndəsi ilə bərabər, mağazaya daxil olduq. Biz mağazaya daxil olanda, qaçan "reket" maykanı əynindən çıxardaraq çiyninə atıb, mağazadan çıxarkən, gördük. Güc qüvvələri bir anlığa onu da həbs etdilər. Bizim mütəşəkkil cinayətlərə qarşı mübarizə idarəsinin müstəntiqi qəbul edib, ifadələrimizi almağa başladı. Səsyazma aparatı çox aydın yazıldığından, maddi sübut kimi cinayət işinə qəbul edildi. Mən müstəntiqə iki gün əvvəl gələn "reket"lərin mənimlə haqq-hesab çəkəcəklərini bildirsəm də, o mənə təşrif buyuranların şəklini göstərib, çox ciddi "reket" olduqlarını bildirərək, onların arxasınca düşdüklərini deyib, narahatçılığa əsas olmadıqlarını bildirdi. Müstəntiq hələlik sürücünün mənimlə işləyəcəyini bildirdi. Sürücü məni evimə aparıb, sağollaşdı. Evdə məni gözləyən Haşimi vəziyyətin nə yerdə olduğunu soruşdu. Mən ona olmuşları, olduğu kimi danışdım. O qəhərlənmiş şəkildə biz sənin başına bəla açdıq, eləmi!- dedi. Mənim ona təskinlik

verməkdən başqa çarəm qalmdı. Bir az özünə gələn Haşimi, baba sən qurd ürəyi yemisən, o adamlardan heç qorxmursan?- deyə soruşdu. Mən Haşimiyə, Babək adlı Azərbaycan qəhrəmanı olduğunu deyərək, bir gün kişi kimi ölməyin, gündə yüz dəfə qul kimi ölməkdən üstün tutduğumu bildirdim. Əgər biz Babəkin övladlarıyıqsa, Babək kimi, "bir gün azad yaşamağı, 40 gün miskin qul kimi yaşamaqdan" üstün tutmalıyıq!- dedim. Səhərisi məni qəbul edən müstəntiq, əvvəllər təşrif gətirən reketlrin qaçıb getdiklərini bildirərək, mənə ehtiyatlı olmağa məsləhət gördü. Sonra həbs olunan "reket"lərin,mənimlə üzlənməsi prosesi başlandı. Mənə doldurulmamış qaimə-fakturanı qol çəkib, möhür vurmasını tələb edən "reket" guya mənim alıcıları aldatdıqlarımı, düzgün çəkili meyvə vermədiklərimi və keyfiyyətsiz meyvə yüklədiyimi bildirdi. Mən bunların yalan olduğunu, çəkidə və yükləmədə mənim yox, anbardarın iştirak etdiyini bildirdim. Maddi sübut olan səsyazma aparat isə, əsil həqiqəti ortaya qoydu. Digər "reket"lər də, tutuquşu kimi eyni fikirləri söyləsələrdə, yalançıqları ortaya çixdı. "Reket"lərdən ayrılanda, içərisində yekə bədən cüssəli olan, hara getsən, səni tapıb öldürəcəm!- dedi.

Meyvələr əvvəlki bağladığım müqaviləyə əsasən satılırdı, ancaq itkiyə gedən meyvələr də az deyildi.Haşimi tələf olan almaların aktlarına qol çəkib, möhür vururdu, çünki xarab olanlar göz qabağında idi. İki gündən sonra müstəntiq məni qəbuluna dəvət edib, bizdən meyvəni almış firmanın müdiri ilə üzləşdirdi. Qadın müdir öz ifadəsində,

“reket”lərin ifadəsini təsdiqləyirdi. Üstəlik məni tənqid edərək, bu Azərbaycanlılar bazar alverindən başqa, heç nə bilmirlər? Aldatmaq onların qanındadır!- deyə məni günahkar etməyə çalışırdı. Mən,xanım müdirə, çox yanlış danışdığını bildirib, əgər siz düzgün və haqq- ədalət adamısınızsa, nəyə görə dövlərt orqanlarına yox, “reket” cinayətkarlarına müraciət etmisiniz? Xanım müdir ilan vurmuş kimi yerindən qalxaraq, onlar mənim işçilərimdir, reket deyillər?- desə də, müstəntiq gələnlərin cinayətkar “reket” olduğunu bildirib, maddi sübut olan səsyazma aparatını və silahları xanıma göstərdi. Xanım müdir əlacsız qalıb, ərkyana otağı tərk edəndən sonra, məni diqqətlə süzən müstəntiq, sənin xanıma verdiyin tutarlı və sübuta ehtiyacı olmayan cavabın, məni çox xətircəm etdi. Mən müstəntiqə bildirdim ki, xanım müdirə öz cinayətini boynuna almır, ancaq mənə alverçi gözüylə baxır. Nə vaxtdan bəri, biznes fəaliyyəti bazar alverçiliyi olub? Bəlkə Qorbaçovun “Yendənqurma” islahatında bu barədə yazılıbdır, mən oxumamışam! Mənim “istehzamı” başa düşən müstəntiq, haqlı sözlərimi qəbul edərək, bugünlük bəs edər?- deyib, mənimlə xudahafizləşdi.

Artıq anbardakı meyvələr sona çatmaq üzrə idi. Sənədləşmələr aparır, kiçik nəğd pulları mühasibə təqdim edirdim. Bu arada başımın bərk qarışıq olduğundan, istifadə edən Haşimi mərkəzi bazara gedərək, həmyerli alverçilərlə tanış olub, meyvələri sataraq pulunu mənimsəmişdi. Anbadar Marina, Haşiminin mal yiyəsi olduğunu deməsini və Marinadan almaları tələb etməsini

danışması məni hər şeydən agah etmişdi. Bazarda alver edənlərdən, kiminlə Haşiminin təmasda olduğunu dəqiqləşdirib, bir çox məsələlərdən də hali oldum. Həmyerlimin özünün də Haşimini istifadə edərək, pul qazandığını söyləməsi məni məəttəl qoymuşdu. Haşimini nəzarətə götürmək üçün, tez-tez bazara gedib almaların satışı ilə maraqlanırdım.Beləcə,bazar get-gəllərimin birində, təsadüfən baş verən bir hadisə məni çox pərişan etdi. Şəhərdə yaşayan və mənim tanıdığım idmançı "reket" həyat yoldaşı ilə, üzüm satan alverçi həmyerlimə yaxınlaşıb, 1 kq. üzüm çəkməsini xahiş etdi. Satıcı tərəzinin bir gözünü üzümlə doldurub, 3 kq üzüm çəkdiyini "reket" alıcıya bildirdi. "Reket" alıcı 1 kq üzüm sifariş verdiyini desə də, satıcı çəkdiyi 3 kq üzümü onun zənbilinə qoyaraq, çəkdiyi 3 kq üzümün pulunu tələb etdi. Satıcının inadkar hərəkəti,daha çox satmaq tamahı, ona çox baha oturdu. 3 kq üzümün pulunu istəyən satıcıya, 1 kq üzümün pulunu verən "reket", satıcının onun qolundan tutmasını və əlavə çəkinin pulunu tələb etməsini qəbul etməyib,ona qəflətən elə bir yumruq vurdu ki,satıcı həmyerlim tirtap uzanıb yerə, daha ayağa qalxa bilmədi.Satıcı həmyerlimin bu hərəkəti mənə çox pis təsir etdi. "Reket"in yanında olan xanım isə, rişxəndlə yerə uzanmış satıcıya baxıb, sizə hələ bu da azdır, zəlilər?- deyib uzaqlaşdılar.Xanımın bu hərəkəti mənim üçün başa düşüləsiydi, çünki o vaxtlar "reket"ə ərə gedən xanımlar, öz ərləri ilə fəxr edir və gənc qızlarda rekertlərə ərə getmək həvəsi formalaşdırırdılar. Mən bazardan ayrılıb, Haşimiyə yaxınlaşaraq, onu bazar

alverçilərinə qoşulduğuna görə tənqid etdim. Bazar alverçiləriylə təmasda olduğu müddətdə, Haşimi qadınlarla təmasda olduğundan xəstəlik qazanmış və alverçi həmyerlimizin köməyi ilə xəstənaya müraciət etmişdi. Haşiminin nə az nə çox, 4 tona qədər meyvə satdırıb, pulunu mənimsəməsi, xəstəliyinə əlac etmək üçün pullu xəstəxanalara müraciət etməsi, məndən ona qarşı nifrət hissi yaratmağa başlamışdı. Haşiminin bütün bu hərəkətlərini üzünə vuraraq, həmkarı olan dostlarına xəyanət etdiyini bildirib tənqid etdim.Bu sənə "ağ kələm" deyil ki, pul xərcləyərək, müsəlmançılığı "batil" edib, sonra da "tövbə" edəsən! Bu birgə iş birliyidir! Bu işdə xəyanət yolunu tutmaq olmaz! Mən burada sizə görə, sizin bu kif basmış meyvələrinizə görə, əziyyət çəkirəm, həyatımın ölümünü oynayıram, bəs siz nə edirsiniz? Sizin alverçilik hərəkətiniz, biznes qanunlarına sığışmır. Sən ağsaqqalıq dövrünə qədəm qoyursan, özünü insan olaraq dəyərləndirməlisən? Biznes işini bilmədiyindən uğursuzluğa ducar olursan, həm də başqalarını ziyana salırsan! Mənim məsləhətlərimi qəbul etməyən Haşimi:- baba mən biznesi çox yaxşı bilirəm, Bakıya yüzlərlə ton kartof satmışam, ölərəm bu işdən uzaqlaşmaram! Sənin dediyin biznes elə alverdi də… Bəzən qazanclı olursan, bəzən qazancsız? Gərək bu işdə möhkəm olasan! Əlbəttə Haşiminin molla moizələrinə oxşar danışığı, məni başa saldı ki, biz insanlıq və biznes işlərində başqa- başqa adamlarıq . Ona görə də Haşimini incitməmək üçün daha dərinə getmədim. Qonağım olduğundan susmağa üstünlük

verdim. Haşimidən isə, daxilən incidim. Biznesdə xəyanət mənim üçün qəbuledilməz idi! Bir müddətdən sonra Haşimini İrana yola saldım. Gedənə yaxın məndən müqavilə əsasında satılan meyvələrin hesaba köcürülmüş pullarını tələb etdi. Mən ona dövlət vergisini ödəyəndən sonra, pul verəcəyimi və müqviləyə əsasən dəyirmi ağac göndərəcəyimi bildirdim. Haşimiyə irad etdim ki, satdığın 4 tona yaxın meyvələrin, pullarını mənimsədiyin halda, vergisini ödəməyi mənim boynuma qoydunuz. Haşimi İrana gedəndən sonra, həmkarlarına yalan məlumat vermis, guya mən onu "alkaqol" içkisi zamanı aldadaraq, aktlara qol çəkdirib, möhür vurdurmuşam. Müqavilənin şərtlərini pozan İranlı həmkarlarım dəyirmi ağaclar istəməyərək, məndən nəğd pul tələb etmişdilər. Mən bu müqavilədən qazanc əldə etməsəm də, pulları onlara ödəmiş, lakin pul az olduğundan, narazı qalan İranlılar öz "reke"tlərini mənimlə haqq- hesab çəkməyə göndərmişdilər. Mən bu İranlı "reketl"ərə qanun yolu ilə cavab verməyə məcbur olmuşdum. Beləcə mənim Rusiyadakı qalmaqallı, "reket"lərlə mübarizəm, heç də yaxşı nəticə vermədi. İranlı Haşimi gedəndən sonar, mənə təhkim olunmuş sürücü İstomin göstərəcəyi xidmət üçün, aylıq əmək haqqı tələb etdi. Əgər hər ay aylıq əmək haqqı verməsəydim, onun dediyinə görə təhlükəsizliyim nəzarətdən çıxacaqdı. Çarəsiz olduğumu görüb, İstominə aylıq əmək haqqı verməyi lazım bildim. Sonralar İstomin mənim biznes fəaliyyətimlə maraqlanıb, bəzi işlərdə mənə "dost" olduğunu göstərdi. İstominə inandığım üçün, heç bir

kommersiya sirrini saxlamadan işlərim haqqında ona məlumat verirdim. Bütün bu səmimilikdən istifadə edən İstomin, sonradan öyrəndiyim kimi öz dairəsi ilə birlikdə məni müflis olmağa sürüklədi. Bir gün istintaqı aparan müstəntiq ev tikmək üçün, mənim anbarımda olan metal və taxtalardan pulu ödənilmədən, ona "kömək" etməyi xahiş etdi. "Reket" cinayətkarlar tərəfindən soyulmağımla barışmadığım halda, müstəntiqin  xahişi məni özümdən çıxartdı. Mən müstəniqə müraciətlə necə yəni pulu ödənilmədən, uzaq başı beş- on faiz güzəşt nəzərə alaraq, ödənilən mal verə bilərəm?-dedim. Başa düşdüm ki, müstəntiq mənim təhlükəsizliyimdən, əlacsızlığımdan istifadə edərək, məndən tikintisi üçün mal qopartmaq istəyirdi.Müstəntiqi daha dərindən tanımaq üçün,bildirdim ki, sizin danışdığınız və xətrinə dəymək istəmədiyiniz xanm müdirə, iqtisad məhkəməsinin bizim firmanın xeyrinə qərar çıxarmağını və həmin fərmana görə 15 milyon rubl ödəmənin yerinə yetirməməsini necə başa düşmək olar? Eyni zamanda məhkəmə icraçılarının öz vəzifələrini yerinə yetirməmələri sizcə qanunidimi? Müstəntiq məni başadan ayağa süzərək, sabahdan müstəntiq işini mən yox, başqası aparacaq, ondan bu haqda soruşarsan? Mənim sənə olan müsbət simpatiyama baxmayaraq, bu cinayət işinin istintaqını təəssüf ki, apara bilməyəcəm! Müstəntiq mənə xudahafiz deyib, otağı tərk etdi. Mən bayıra çıxıb, sürücü İstominə olanları danışdım. İstomin mənə düzgün hərəkət etmədiyimi deyərək, daha mənimlə işləyə bilməyəcəyimi bildirib, maşınına oturaraq çıxıb getdi. Bütün bunlar

İstominin mənimlə olan "səmimi" münasibətinin iç üzünü açmış oldu. Deməli mənim komersiya sirlərimi inandığım sürücü İstomin "donos" olaraq müstəntiqə çatdırırmışdı. Əks təqrdirdə, müstəntiq meyvə istintaqı ilə məşğul olduğu halda, taxta və dəmirlərin adı və ölçüləri qeyd olunmaqla, digər anbarımda olmasını hardan bilrdi? Belə çıxır ki, bütün dəmir və taxtaların alınmasından tutmuş, satılmasına qədər olan prosesləri sürücü İstomin "donos"lamışdı. Müstəntiqdən sonra, onun da məndən uzaqlaşmsı, məndə şübhə yeri qoymamışdı. Bir neçə gündən sonra məlum oldu ki, yeni müstəntiq Silayev adlı bir şəxsdir. Biz onunla görüşsək də, demək olar ki, o mənimlə heç bir danışıq aparmırdı. Hətta mənim tələbimə baxmayaraq, həbs olunanların mənə vurduqları maddi ziyan müqabilində, onların evlərinə, maddi imkanlarına həbs qoyulub, müsadirə edilməsinə şərait yaratmadı! Son sözü bu oldu ki, "reket"lərin özlərinə məxsus olacaq heç nəyi yoxdur və heç nəyə həbs qoya bilməz? Mən başa düşdüm ki, müstəntiq Silayev mənim tələblərimə məhəl qoymayaraq, istintaqı sona vermək istəyir. Bi neçə gündən sonra istintaq işini tamamlayan Silayev zərərçəkmiş olaraq, məni istintaqla tanış omağa çağırıb, cinayət işi qoluğunu mənə təqdim etdi. Mən bu cinayət işi qovluğunu bu günə qədər, həyatımın acı bir səhifəsi kimi qoruyub saxlayıram. Məhkəmə olacaq günü mənə tarixi, vaxtı məlum olan çağırış vərəqəsi gəldi. Sürücü İstomin gedəndən sonra öz təhlükəsizliyimi təmin etmək üçün gizlin yaşamağa məcbur olmuşdum. Məhkəmə olacaq günü bir təhər məhkəməyə gəlsəm də, mənə

məhkəmə olacaq günün, tarixini dəyişdirildiyini bldirdilər. Məhkəmədə təsadüfən, vaxtilə koloniyada işlədiyim və xoş münasibət bəslədiyim Plexanovla qarşılaşdım. Mənim məhkəmədə nə üçün olduğumu soruşan Plexanova, olanları olduğu kimi danışdım. Plexanov mənə ehtiytlı olmağı məsləhət gördü və bildirdi ki, məhkəmə tarixinin dəyişdirilməsi "reket" dələduzların məhkəmə hakimi ilə əlaqə yaratması və sənin zərərsizləşdirilməyinlə bağlı ola bilər. Bu danışıqdan sonar, mən daha konspirativ yaşamağa üstünlük verdim. İkinci məhkəmə çağırışı da, eyni ilə birinci çağırış kimi təkrar olundu. Artıq yeddi aydan artıq bir müddət idi ki, Bakıya getməyimə meyvə satışı "əngəl" olmuşdu. Komersiya fəaliyyəti ilə məşğul olan dostlarım hərdən zarafatla, ay Karib taxta, metal biznesini buraxıb, meyvə satışı ilə məşğul olmağın bizi şoka salıb. Taxta, metal hara, alma hara? Heç sənin ağlın yerindədir? Mən isə susurdum. Axı mən onları necə başa salardım ki, neçə illər boyu həsrət qaldığımız millətimin övladlarını pis vəziyyətə salmaq istəməmişəm! İllər olub ki, sərhəd çəkilmiş, o tay torpağımıza həsrətlə baxmış, özümdə bütöv Azərbaycan vətənpərvərliyi tərbiyə etmişəm?! Mən nə edim ki, biznes ortağım olan bu iranlı "işbazlar" mənim səmimiyyətimə, naxələf çıxdılar? Məgər 4-5 səmimi olmayan "işbaz" bütöv bir xalqı təmsil edə bilərmi? Əlbəttə yox! Daha çox sonralar anladım ki, biznesdə "səmimiyyət" olmur. Bizneslə məşğul olan adamlar öz xeyirləri xatirinə yalan danışır, nahaqdan and-aman edir, cilddən-cildə girir, hətta başqalarının bədbəxtliyinə bais olan hərəkətlər edərək, şərəfsizlikdən əl

çəkmirlər! Ancaq mənim anlamımda, vicdan qanunu var idi. Yəqin ki bu vicdan qanunu kimdə var idi, kimdə də yox!

Yadıma düşən əhvalatları qeyd etməyim,yerinə düşmüş olardı. Bakıdan Rusiyaya qayıtdığım bir vaxtlarda evə yox, birbaşa iş yerimə gedib, bir az işimlə məşğul olmaq istəyirdim. İşim saat 8-də başladığımdan, işə tez gəlmişdim. Katibə xanım isə hamıdan tez gələrdi, bugün də belə olmuşdu. Birdən telefon zəng çaldı. Mən telefonu götürən kimi, amiranə bir səs:- Karib sizsinizmi?- deyə soruşdu.Mən, bəli- dedim. Zəng edən şəxs mənim anbarımda, sinklənmiş yəbəqəni olduğunu qeyd edərək, satış qiymətini soruşdu? Özümdən asılı olmayaraq, Bakıya getməmişdən qabaq gündəliyimə qeyd etdiyim köhnə qiyməti dedim. Amiranə səs:- sənə 3 tonun pulunu göndəririrk! Sinklənmiş təbəqəni sata bilməzsiniz, artıq o bizim olacaq!- dedi. Zəng edib mənimlə danışanın özünü təqdim etməməsi və konkret olaraq kəskin danışması onun "reket" olduğuna heç bir şübhə yeri qoymamışdı. Katibəm mənə bildirdi ki, Karib Sınıqoviç qiymətlər siz vətəninizə gedəndən sonra, iki- üç dəfə qalxıb, çox ucuz qiymət demisiniz?Dediyiniz qiymət indi alış qiymətindən də aşağıdır. Mən katibəyə, daha ağzımdan söz çıxıb, gecdi!- deyə bildirdim. Bir neçə dəqiqə keçməmiş bizim şəhərin təbiri ilə desək, "reket şkaflar" peyda oldular. Qəzetə bükülmüş pulu masaya qoyub, dediyiniz qiymətin ümumi dəyəridir!- deyərək, 3 ton sinklənmiş təbəqənin maşına yüklənməsini tələb etdilər. Mən anbardara zəng edib 3 ton

sihklənmiş təbəqənin yüklənməsini xahiş etdim. " Reket"lər çölə çıxmaq istəyərkən, mən onlara sizə deyəcəklərim var?- deyib,onları yoldan saxladım. "Reket"lər çox ciddi görkəm aldılar. Mənə pulu gətirən "reket"ə gündəliyimi və qatarla gəlmək biletimi göstərib, bilmədən, mexaniki olaraq göhnə qiyməti dediyimi bildirdim. "Reket" məni ciddi baxışla süzərək,indi nə istəyirsiniz, bizizm danşığımız olub axı?! Mən ona bildirdim ki, söz danışıqdan keçər, mal sizindir!Sadəcə onu bildirmək istəyirdim ki, siz ucuz qiymət deməyimin səbəbini biləsiniz. "Reket" telefonla danışmağa icazə istəyib, şefi ilə danışıqdan sonra, cibindən bir büküm qatlanmış pulu masaya qoyub, özlərinin səxavətli və vicdanlı "reket"olduqlarını nümayiş etdirdilər. Sonradan masaya qoyulmuş pul da, əvvəlki verilən pulla birləikdə, heç təbəqənin alış qiyməti deyildi! Ancaq mənim haqq danışığıma "reket"lərin göstərdiyi mərd hərəkət, məni xətircəm etmişdi.

İkinci bir əhvalat isə Moskvadan gələn Azərbaycanlı "biznes adamının", "Əfqan" haqq adamlarının dostlarına 10 vaqon dəyirmi ağac sifariş etməsi və sonradan aradan çıxması ilə bağlı idi. Bizim firma taxta istehsalı ilə məşğul olduğundan, əfqanlar bizə 30 kub metr taxta sifariş edib, pulunu nağdı şəkildə ödəyərək, lazım olduğu təqdirdə taxtanı götürəcəklərini bildirmişdilər. Həftənin sonu və işin axırı olduğu üçün, xeyli miqdarda aldığım pulu banka təhvil verə bilməyib, iş yerində saxlamağın mümkünsüzlüyündən, pulu özümlə aparmalı oldum. Təsadüfən haqq-hesabımın olduğu bankın pul

qəbul edən işçisi, yəni kassiri ilə qarşılaşdım. Olqa xanım bir neçə gün bundan qabaq, Banka rus olmayan bir şəxsin gəldiyini və rüşvət təklif etməklə mənim hesabımda nə qədər maliyyənin olduğunu öyrənmək istəməsini deməsi,məni ehtiyatlı olmağa məcbur etdi. Olyanın dedikləri məni təşvişə salsa da heç nə deməyib, sağollaşaraq yolumu başqa bir səmtə salıb, gözdən itdim. İki gün evdən bayıra çıxmayaraq, çox yaxşı tanıdığım dostumun evində qaldım. Bazar ertəsi əfqanların yerləşdiyi ofisə gələrək, pulu onlara təqdim edib, malınızı götürən vaxtı, pulunuzu mühasibata ödəyərsiniz?-dedim Əfqanların böyüyü əlini irəli uzadaraq, qolumu sıxıb, mənimlə həmişəlik "dost" olacağını və lazımı vaxt köməyəini əsirgəməyəcəyini bildirdi. Sonra əfqanların böyüyü əsil həqiqəti mənə danışdı. Moskvadan gələn Azərbaycan "biznes adamı" 10 vaqon dəyirmi ağac sifariş etmiş,guya Moskavdan ödəmənin olmadığını görüb, onlara "dostum" Karib Sınıqovicin maliyyəsi ilə həll edəcəyini bildirmişdi. Əfqanların dostları, mənim meyvə satışında başıma gələnləri bildiklərindən və məni az- çox tanıdıqlarından, onunla razılaşmışdılar. Vaqonlar dəyirmi ağacla yüklənmiş halda sahibsiz qaldığından, satıcılar əfqanlara müraciət etmiş, mənim guya alıcı Azərbaycanlı ilə əlbir olmağımı fərziyyə olaraq, qəbul etmişdilər. Maliyyədən bol olan əfqanlar planlı şəkildə maliyyəni mənə elə vaxt vermişdilər ki, banka maliyyəni köçürmək mümkün olmasın və əfqançılar şəhərdəki çıxışları, hər ehtimala qarşı nəzarətə götürmüşdülər. Mənə verilən

pulların nömrərləri götürülmüş və şəhərdən pulla çıxacağım təqdirdə, mənimlə haqqhesab aparılacğmış. Bu da mənim tanımadışğım həmvətənlimin pul qazanmaq xatirinə, məni pis vəziyyətə salması idi. Sonraaq əfqanların böyüyü ilk dəfə olaraq, düzgün işləyən qafqazlını gördüklərini mənə bildirmişdilər. Bütün bu əhvalatlar onu gösətrir ki, səmimilik və düzgünlük insanı ancaq pis vəzyyətdən qurtara bilər! Artıq mart ayının əvvəllərində aldığım 3-cü  çağırışın, yenə vaxtı və tarixi dəyişdirildiyindən, məhkəmənin bu cinayət işini düzgün aparmayacağından və mənim bu işdə başağrısı çəkəcəyimi düşündüyümdən, vətənə yola düşməyi qərarlaşdırdım.Bilet alıb,Bakıya döndüm. Bir necə müddət evə gələ bilməməyimin səbəbini soruşsalar da,  heç nə deməyib susmalı oldum. Yoldaşım İranlı "işbaz"ların evə zəng edərək, məni soruşduqlarını deyəndən sonra, başıma gələnləri ailəmizə danışdım. Anamla- yoldaşım o, cümlədən qohumlar, puldan,var-dövlətdən yanı özünü ölümə verməyin mənasız olduğunu və çox da böyük olmayan uşaqlarımı atasız qoymamağı tələb etdilər! Çox düşündükdən sonra Rusiyaya, yaşadığım şəhərin məhkəməsinə teleqram vurub, xəstə olduğunu bildirərək, məhkəməyə gələ bilməyəcəyimi qeyd etdim. Eyni zamanda zərər vuranlardan xeyrimə iyirmi milyon rubl təzminat verilməsini məhkəmədən xahiş etdim.Qarşıdan Novruz bayramı gəlirdi. Övladlarımla yeni ilimizi qeyd etməyi, onların gələcək tərbiyyəsi ilə məşğul olmağı, nəzərə alaraq, hələlik Rusiaya getməməyi qərara aldım. Ömrümün 41-ci

baharına qədən qoymuşdum.Keçmiş tariximizi vərəqləyərkən, haqq, ədalət adamlarının zablarını, şərəfsizlərin isə,eyş-işrətdə olduqlarıni xəyalımda canlandırıb, dünyanın dalətsizliyinə,biganəliyinə haqq qazandıra bilmədim.Özlüyümdə bütün keçmişimdə qismətimə düşən həyəcanları, daimi fikirlərə qərq olmuş ağır yaşamımı, şərli- böhtanlı ğünlərdəki əzablarımı və bütün olmuşları kino lenti kimi nəzərdən keçirtdim.Yaranmış ağ saçlar, sifətimdəki qırış cizgiləri isə, ədalətsiz dünyamızda haqsızlığın, nadanlığın baş alıb getməsi ilə birbaşa bağlı idi. Ədalətsizlik üstündə qurulan dünya məni həmişə narahat etdiyindən, tarixini bilmədiyim bu "qoca dünyanı" yazdığım misralarda təsvir etdim:

Tarixini bilmədiyim, qoca dünya,
Qəhərini sıxanlara baca dünya,
Tamahkara, hiyləgərə, uca dünya,
Haqqa qarşı əndazəsiz, bica dünya!
Özü boyda ədalətsiz, qoca dünya!
Həm nadanı, həm qananı bir apardın,
Sadə daşı, yalan yerə "dürr" apardın,
Faş etmədin, nədən belə sirr apardın?
Çox riyakar, möcüzəsiz, bica dünya!
Özü boyda ədalətsiz, qoca dünya!
Yer üzünü yalanlarla viran etdin,
Beş adamı qolu zorlu, vuran etdin,
Minlərimin vicdanını taran etdin,
Həm vüqarsız, dəyanətsiz, bica dünya!
Özü boyda ədalətsiz, qoca dünya!

Ulu Füzulimin salamın almadın,
Sabirimin haqli səsini saymadın,
Eşqli Vahidin "sər" halını duymadın,
Tarixinə xəcalətli, bica dünya!
Özü boyda ədalətsiz, qoca dünya!

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Zahid Məmmədov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 18. 02.2018
Şərti çap vərəqi 30,5. Sifariş № 58
Kağız formatı 60x84 1/16. Tiraj 500

**Kitab "Elm və təhsil"** nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4